ƏŞİR BƏŞİROĞLU

# ŞƏHİDLƏR UNUDULMUR

***(mərsiyə, hədis, qəsidə, qəzəl, bayatı və şeirlər)***

**BAKI "TƏKNUR" - 2013**

**Bu kitabı cəmi şəhidlərimizin əziz xatirəsinə ithaf edirəm.**

**Redaktor:** **Bəhram Salman oğlu Avilov, fəlsəfə doktoru**
**Korrektor:** **Zərifə İsmayıl qızı Rzayeva,**
**filologiya elmləri namizədi, dosent**

**Əşir Bəşiroğlu**
**Şəhidlər unudulmur**
**Bakı: "Təknur" nəşriyyatı, 2013, səh**

**Şair Əşir Bəşiroğlu iri həcmli 13 kitab müəllifidir. "Şəhidlər unudulmur" adlanan bu kitab şairin oxucularla 14-cü görüşüdür. Kitabda xalqımıza vətənə məhbbət, düşmənə nifrət hissi aşılanır. Eyni zamanda şəhidlərimizin ölməzliyindən bəhs olunur.**

**Əşir Bəşiroğlu 2013**

## TARİXİN QAN YADDAŞI

Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir.

1. Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi – 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km
2. Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990). Sahəsi: 19 kv.km
3. Laçın (17 may 1992). Sahəsi: 1835 kv.km
4. Kəlbəcər (3-4 aprel 1993). Sahəsi: 1936 kv.km
5. Ağdam (23 iyul 1993). Sahəsi: 1094 kv.km
6. Cəbrayıl (18 avqust 1993). Sahəsi: 1059 kv.km
7. Füzuli (23 avqust 1993). Sahəsi: 1386 kv.km
8. Qubadlı (31 avqust 1993). Sahəsi: 802 kv.km
9. Zəngilan (30 oktyabr 1993). Sahəsi: 707 kv.km

Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur. Mən əminəm ki, bizim qəhrəman milli ordumuz tezliklə bu torpaqları düşmən tapdağından azad edəcəkdir. Siz də əmin olun, mənim istəkli həmvətənlərim! Amin...

## MÜƏLLİF HAQQINDA



Şair-publisist Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki Alüminium zavodunda fəhlə, növbə rəisi və sex partiya komitəsinin katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər Sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir.

İşdən ayrılmadan təhsilini davam etdirmişdir. O, əvvəlcə Bakı Statistika Texnikomunu, sonra isə V.İ.Lenin adına APİ-ni bitirmişdir. İnstitutu qurtaran ildən Qubadlı rayonunun Aşağı Mollu

kənd orta məktbində müəllim işləmişdir. İndi o məktəb Sumqayıt şəhərində yerləşir.

O, noyabr 1970-ci ildə Aşağı Mollu kəndindəki Qaçaq Nəbi adına kolxozun İdarə heyyətinə sədr seçilmişdir. İşlədiyi müddətdə kolxoz keçici qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhhəti ilə əlaqədar olaraq vəzifədən çıxmışdır. Yenə də Aşağı Mollu kənd orta məktəbində müəllimlik etmişdir.

Şairin iri həcmli 13 kitabı oxuculara təqdim edilmişdir. O kitablar oxucular tərəfindən maraqla qarşılanıb. Ümüdvarıq ki, "Şəhidlər unudulmur" adlanan bu 14-cü kitab da oxucular tərəfindən maraqla qarşılanacaqdır.

Şair Əşir Bəşiroğlu "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "H.B.Zərdabi" və "Şərəf" media mükafatları diplomları ilə təltif olunmuşdur.

Azərbaycan KİVİHİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

## ÖN SÖZ

Azərbaycan xalqının böyük oğlu N.Nərimanov demişdir: "Siz ata-babalarınızın müqəddəs yerlərinə o vaxt vətən deyə bilərsiniz ki, onun sahibi olasınız". N.Nərimanov düz deyib, biz sahibi olmadığımız torpaqlara vətən deyə bilmərik. Əgər biz o torpaqları azad edib ona sahib olmasaq ata-babalarımızın ruhu bizi bağışlamaz.

Böyük rus ədibi F.M.Dostoyevski yazır: "İnsan hər bir şeyə alışa bilən bir varlıqdır". Bu, doğurdanda belədir. 1993-cü ildə Qubadlıdan qaçqın kimi Sumqayıt şəhərinə gələndə mən fikirləşirdim ki, bu ağrı-acıya dözə bilmərəm.

Atalar gözəl deyib: "Dərd gələndə qoşa gələr". Mən vətən dərdinə dözə bilmədiyim halda oğul dərdi də üstümə gəldi. Ömrünün 32-ci baharını yaşayan oğlum Qabil Rusiya federasiyasının İrkutski şəhərində tamah məqsədilə faciəli surətdə qətlə yetirildi. Oğul dərdinə dözə bilməyən həyat yoldaşım dünyasını dəyişdi. Mən isə bir ata kimi dərdimi kağıza köçürürəm. Gecə-gündüz yazıb-pozuram. Əgər yazı-pozum olmasaydı mən çoxdan ölmüşdüm. Məni yaşadan yazı-pozumdu.

İndi mənim vətənim, elim, obam düşmən tapdağındadır. Əgər biz o torpaqları işğaldan azad etməsək, doğmalarımızın ruhu bizi bağışlamaz.

Şair Əşir Bəşiroğlu "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "H.B.Zərdabi" və "Şərəf" media mükafatları diplomları ilə təltif olunmuşdur. Azərbaycan KİVİHİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

**Oğlum Qabil haqqında**

## YARIMÇIQ ÖMÜR

*Xoşbəxt o insandır ki, övlad dağı görməyib.*

**Süleyman Rəhimov**



Hörmətli oxujular, əgər siz bu kitabın üz qabığını qaldırıb onun titul vərəqinə diqqətlə baxsanız, orada belə bir jümləyə rast gələrsiniz: «Bu kitabı cəmi şəhidlərimizin əziz xatirəsinə həsr edirəm». Bizim bu keşməkeşli dünyada elə hadisələr olur ki, insan həyatına əbədi daxil olur, bir ailənin bu nəsilin fajiəsinə çevrilir. Bu hadisəni yaşayan yaxın adamlar dünyasını dəyişənə qədər həmin fajiə də yaşayır, qəlblərdə dərdə, kədərə, çevrilib, çiyinlərdə ağır bir yükə dönür.

Bu dərdi çəkənlər onun ağırlığına sinə gərsələr də axırda yorulub əldən düşür, əsəblərini jilovlaya bilməyib, Allahın onlara verdiyi ömür payının tez qurtarıb, başa çatmasını arzu edirlər.

Lakin elə insanlar da olurlar ki, onlara üz verən fajiənin ağırlığına əsl kişi kimi sinə gərir, toxtaq olur, dəyanət, dözüm göstərirlər. Ulu Tanrıya şükürlər edərək, həmişə əllərini göyə qaldırıb deyirlər: «Allah sən bilən yaxşıdır. Sən mənə güj, qüvvət, dözüm ver ki, yanıma gələnlərin, mənə başsağlığı verənlərin qarşısında əyilməyim, vüqarımı saxlaya bilim».

Əziz oxujum,ömrünün 32-ji baharında fajiəli surətdə həlak olan oğlum Qabilin yarımçıq ömrü məni yandırıb yaxsada da Allahın mənə verdiyi səbir, təmkin, güj, qüvvət nətijəsində dost-düşmən yanında vüqarımı qoruyub saxlaya bilmişəm.

Həyatda ən ağır və dözülməz dərd oğul jənazəsinin ata çiynində getməsidir ki, o da mənə qismət olub. Sinəmə oğul dağı çəkiləndən sonra mən dərdimi kağıza köçürməklə özümə təsəlli tapmışam. Bu kitab mənim bir-birinin ardınja yazdığım 14-cü kitabımdır.

Əziz oxujum, Allah sizi dərddən, kədərdən uzaq eləsin, sizə həmişə sevinj bəxş etsin. 11 mart 2002-ji il tarixində Rusiya Federasiyanın İrkutsk vilayətinin İrkutsk şəhərində yaşayan oğlum Qabil saat 19 radələrində işdən gələrkən yaşadığı evin həyətində naməlum şəxslər tərəfindən tamah məqsədi ilə vəhşijəsinə qətlə yetirilmişdir.

Mən burada oğlum Qabil haqda qısa arayış verməyi lazım bilirəm.

Fətəliyev Qabil Əşir oğlu 01 yanvar 1970-ji ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində ziyalı ailəsində anadan olub, orta məktəbi medalla bitirib. Sonra İrkutsk şəhərində yaşayıb işləyən qardaşlarının yanına gedib. Elə oradan da hərbi xidmətə çağrılıb. Hərbi xidməti başa vurduqdan sonra yenə də İrkutsk şəhərində yaşayan qardaşlarının yanına qayıdıb. Həmin şəhərdə Dövlət Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul olub. Unviersiteti qırmızı diplomla bitirəndən sonra isə İrkutsk şəhərində qalıb diş həkimi işləyib.. Axırı isə bildiyiniz bu fajiə...

Əziz oxujum, oğlumun fajiəli surətdə qətlə yetirilməsi xəbəri bizə çatdırılanda bütün ailə üzvlərimiz dəhşətli dərəjədə sarsıldı. Mənim isə bütün varlığım əlimdən getdi. Belə hadisələri hər valideyn bir jür qəbul edir. Bəziləri bunu həyatın bir üzü kimi qiymətləndirir, onu alın yazısı, Tanrı qisməti hesab edib şükür edir, bəziləri isə buna dözə bilməyərək tamamilə sarsılır.

Mənim sinəmə çalın-çarpaz dağ çəkilib. Oğlumun müsibəti məni gündə yüz dəfə öldürüb-diriltsədə özümü ələ alıb, təmkinimi saxlamağa çalışıram.

Oğlum Qabili məzara tapşıranda bütün bədənim lərzəyə gəldi. Ah-nalə göylərə ujaldı, göz yaşları selə-suya döndü. Onun anası, bajısı, qardaşları, bəxtiqara zövjəsi, körpə balaları göz yaşlarından məhv olurdular. Birjə mənim gözümdən yaş çıxmırdı. Bütün varlığım isə daşa dönmüşdü. Qoy o böyük Yaradana xoş gəlsin, bəlkə onlar göz yaşları ilə dərddən-qəmdən uzaqlaşırdılar. Mən isə, əksinə ...

Bu yerdə xalq şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misraları yada düşür:

Harda bir dərdli görsən,

Sən o yerdə sor məni.
Mən dərdi axtarmıram,
Dərd özü tapır məni.

* * *

Qəmim-sevinj qaynağım,
Dərdim könül sirdaşım.
Axır damarlarımdan
Qan yerinə göz yaşım.

Həmin dəqiqələrdə göylərə əl qaldırıb yerimdəjə ölməyi arzulamışam. Anjaq hər şey biz istədiyimiz kimi olsaydı, nə vardı ki... Kimin taleyinə nə yazılıbsa, o da olajaq. Oğlum Qabilin qismətinə jəmi 32 il ömür sürmək yazılıbmış... Atalar demişkən, «yazıya pozu yoxdur». Onun iki körpə balası-Əminə və Gülnar atalarının ölümünə inanmırlar, hələ də onun yolunu gözləyirlər. Xəstə Qasım demişkən:

Bu dünya fanidir, fani
Bu dünyada qalan hanı?
Davud oğlu Süleymanı
Qızıl taxtdan salan dünya.

Doğrudan da dünya fanidir, hamı onda qonaqdır. Gej-tez hamı bu dünyanı tərk edəjək. Allah heç kəsə övlad dağı göstərməsin. Ümumiyyətlə, javan ölümü fajiədir.

Böyük Azərbayjan şairi Şəhriyar yazır:

Sənin bəhrin, yiyən kimdir?
Kiminkisən yiyən kimdir?
Sənə doğru deyən kimdir?
Yalan dünya, yalan dünya.

Böyük şairimiz Şəhriyar nejə də gözəl deyib. Doğruda da insan dünyaya gəlir, az-çox yaşayır, sonra ölüb gedir.

Şair demişkən, elə bil yalan imiş, o yox imiş bu dünyada. Onun əzizləri, doğmaları dünyadan köçəndən sonra o da təzədən ölür və unudulub gedir. Lakin nejə ki onun əzizləri, doğmaları yaşayır, o da onların ürəyində yaşayır.

Oğlum, sən də hələ ölməmisən, əzizlərinin, doğmalarının ürəyində yaşayırsan. Nejə ki o ürəklər döyünür, yaşayır, sən də yaşayajaqsan. Bu yaxınlarda oğlum Qabil yuxuma girdi. Dedi: «Ata, elə bilmə ki, ölmüşəm, ta

sizi görmürəm. Mənim ruhum həmişə sizin yanınızdadır. Sən çox narahatsan, həmişə əsəbisən, gərginlik keçirirsən. Hirsindən gejə-gündüz yazıb-oxuyursan. Ata bir az səbirli ol. Bu qədər yazı-pozu sənin səhhətinə ziyandır, gözlərin nurdan düşər. Axı, sən 8-ji onillikdən addımlayırsan.

Ata, mənə agah olub ki, Şamilin saqqal saxlamağı səni çox narahat edir. Dəfələrlə ondan xahiş etməyinə baxmayaraq səni eşidib saqqalını qırxmır. Mən yaxşı bilirəm ki, Şamilin saqqal saxlamağı onun mənə olan böyük ehtiramının nətijəsidir. Anjaq hər şeyin həddi var. Görürəm, Şamil mənim uşaqlarımı öz balalarından seçmir. Onları sevir, əzizləyir, nazları ilə oynayır. Elə onun bu hörməti mənə bəsdir. Ata, bu yaxınlarda mən Şamilin yuxusuna girib, saqqalını qırxmağı ondan xahiş edəjəm. Əgər məni eşitməsə bir də heç vaxt onun yuxusuna girməyəjəyəm. Atajan, bajıma de ki, çox ağlamasın, onsuz da gej-tez hamımız haqq dünyamıza qovuşajağıq. Beş on il tez-gej, onun nə fərqi var? Mənim taleyim də belə imiş. Mənim ruhum hər an sizin yanınızdadır. Atıb gəldiyimiz, yağıya verdiyimiz doğma torpağımın, Qubadlının səmasında dolaşıram. Onsuz da mənim ürəyim o torpaqların həsrətinə dözməyəjəkdi. Yaxşı bilirəm ki, sizlər nə çəkirsiniz. Ata, sizdən ötrü, vətəndən ötrü ruhum çox narahatdır».

İstəkli oxujum, bu yuxu məni dəhşətə gətirdi. Yuxudan oyanandan sonra bir müddət özümə gələ bilmədim. Çox fikirləşəndən sonra yəqin etdim ki, o dünya, jənnət, jəhənnəm, ruh-hamısı doğrudur. İnsan o dünyada yaxşı işinə görə mükafat, pis işinə görə isə jəza alır.

«Dağlar ağladı» şeirimin bir bəndi ilə bu yazımı tamamlamaq istəyirəm.

Kədərli xəbərən dağlar ağladı,
Analar, bajılar qara bağladı.
Həkəri dözmədi, joşub çağladı
Fələk ürəyimi qəfil dağladı.

# Oğlum Qabilə həsr etdiyim şeirlər

# AĞIR FAJ İƏ

Düşmən gülləsinə tuş oldu balam,
Mənim ürəyim bağlayıb dərd-vərəm.
Arada qalıbdır iki balası,
Ağlamaqdan kor olubdur anası.

* * *

Namərd, nej ə qıydın mənim balama?
Allah, niyə fürsət verdin zalıma?
Qohum-qardaş yanır mənim halıma,
Yer-göy ağtlar, vallah belə ölümə.

* * *

Əgər siz Qabilimi axtarsanız,
Bilin, balalarının izindədir.
Sevimli Gülnarının ürəyində
Doğma Əminəsinin gözündədir.

* * *

Gülnar elə bil ki, onun özüdür,
Mehriban, Əminə iki gözüdür.
Ramilə də onun şirin sözüdür
Biz gej ə-gündüz onları qoruyaq.

* * *

Balamın zövj əsi, qara bağlama!
Balaların ürəyini dağlama.
Qabilimin yadigarı, ağlama
Heç vaxt başına qara bağlama.

* * *

Oğul j ənazəsi aparan ata
Yaşamaya, hardasa itə-bata.
Həyatda böyük xoşbəxtlik odur ki,
Ata j ənazəsini oğul tuta.

* * *

Tarixin təkəri tərsinə dönür,
Görürsən ata qalır, oğul ölür.

Təbiətdə, nizam təmiz pozulur,
Xarabada bayquş yox, bülbül olur.

* * *

Əzab çəkmək üçün yaşayır ata.
Həyatda yalnız o, kədəri tuta.
Arzumdur nəvələri xoşbəxt görmək,
Onları ərsəyə çatdırıb ölmək.

* * *

Allahım əmilərinə dəyməsin,
Belim bir əyilib, birdə əyməsin.
Nəvələrim yaman günlər görməsin,
Ana-bajıları qara geyməsin.

* * *

Aslanın erkəyi, dişisi olmaz,
Qızım, sən də Aslan sayağı yaşa.
Atalar deyibdir tökülən dolmaz,
Ömrünü namus, qeyrətlə vur başa.

* * *

Oğlum, inanmıram mən yoxluğuna.
Sənin fajıən ürəyimə oxdur.
Dözə bilmirəm dərdin çoxluğuna.
Mənim dərdim, hamı dərdlərdən çoxdur.

* * *

Sənin sevimli və əziz Gülnarın
Ağır ölümünə inanmır hələ.
Bir neçə yüz illər keçmə də belə,
İnanmıram səni unuda bilə.

* * *

Sənin körpə Əminən qanmır indi,
Fajıə o qananda olajaqdır.
Ata uşaqların əzizləyəndə
Qəlbi soğan kimi soyulajaqdır.

* * *

Alçaq, şərəfsizə tuş oldu janı,

Bij a yerə axdı balamın Qanı.
Oğlanlarım, qəddinizi əyməyin.
Ana- baj ınız ağlasın, dəyməyin.
* * *
Əşir, doğrudan sən, nər oğlu nərsən,
Əyilmə, sınarsan, əgər əyilsən.
Heç vaxt əyilmə, mərdi-mərdanə dur
Sən daim şükür edənlərdən ol.

## DAĞLAR AĞLADI

Kədərli xəbərdən dağlar ağladı,
Analar-baj ılar qara bağladı.
Sənin dərdinə dözmədi Həkəri,
Hikkəsindən aşıb-daşıb çağladı.
* * *
Hərtizi, Səngəri duman bağladı,
Həkəri, Bərgüşad qoşa çağladı.
Ana torpaq dözmədi, qan ağladı,
Sənin dərdinə ellər yas saxladı.
* * *
İşıq da vermədi günəş, ay, ulduz,
Qaranlıq oldu gej ə kimi gündüz.
Hələ yol gözləyir bir j üt körpə qız,
Səni çox sevən gəlin qalıb yalqız.
* * *
Sındırdın qəddini məğrur atanın,
Səni j anından da əziz tutanın,
Daim sənin məzarında yatanın,
İntizardan ömrü sona çatanın.
* * *
Sevimli oğlum, sən j ismən ölmüsən,
Rühən həmişə mənim qəlbimdəsən,
Oğlum, sən həyatda gün görməmisən,
Açılmamış qönçə kimi solmusan.

* * *

Əşirə bu dünya zülmət gejədir,
Daha işıq vermir günəşi, ayı.
Dərdlərimin ölçüyə gəlmir sayı,
Allah, varmı bədbəxt məndən savayı?

## QATİL, ƏLİN QURUSUN!

Bir qatil əlləri sənə uzandı,
Tamahı insafa üstün gələndə.
Sanmadı, hədəfi hələ javandı,
Tamahı insana üstün gələndə.

* * *

Sanmadı, neçə göz baxır arxanja
Sanmadı, körpən var, atan-anan var.
Gözləri qızmışdı onun yamanja
Tamahı insana üstün gələndə.

* * *

Xəbər, qara xəbər, dözülməz oldu,
Varlığım sarsıldı, ürək dözmədi.
El-oba xəbərdən pərişan oldu,
Tamahı insana üstün gələndə.

* * *

Elə bil bir yolluq ojağım söndü,
Jan verən sən oldun, ölən mən oldum.
Gələnlər soruşdu: «Bu nədən oldu?»
Tamahı insafa üstün gələndə.

* * *

Yadımdan çıxmayır qamətin, boyun,
Hər dəqiqə varlığım inildəyir.
Kim idi, çıxardı belə bir oyun
Tamahı insafa üstün gələndə?

* * *

Sənin fajiənə ellər ağladı.

De, nədən yarandı bu qara xəbər?
Bu xəbər sinəmi yaman dağladı
Tamahı insafa üstün gələndə.

* * *

Dərd ağır olanda, dözmək olmayır,
Düzəldib qaməti, gəzmək olmayır,
Yerini boş görrəm, dözmək olmayır,
Tamahı insafa üstün gələndə.

* * *

J üt balana baxıb, özünü görrəm,
Gəzdiyin hər yerdə izini görrəm,
Məzarına baxıb gözünü görrəm,
Tamahı insafa üstün gələndə

* * *

Atan Əşir günü-gündən əriyir,
Təsəlli odur ki, qəbrinə dəyir.
Yaşamaq istəmir ölmək istəyir.
Tamahı insafa üstün gələndə.

## YATMA OĞUL

*Hər il yanvarın biri oğlum*
*Qabilin doğum günüdür.*

Ad günündür bu gün sənin,
Yatma oğul, oyan bala
Tay-tuşdan qalırsan dala,
Yatma oğul, oyan bala.

* * *

Namusla gözləyir yarın.
Çox darıxır balaların
Səni anır qohumların
Yatma oğul, oyan bala

* * *

Baj ı, qardaş səni anır,

Hər il yanvarın birində,
Çovğunlu, qarlı günündə,
Qara ad günündür sənin.
Yatma oğul, oyan bala

* * *

Anan çöpə döndü, əridi,
Ölən vaxtı səni andı,
Dözmədi yanına gəldi.
Yatma oğul, oyan bala

* * *

Balanı al quj ağına,

Hər gün məzarın dolanır.
Çarpayın açılı qalır.
Yatma oğul, oyan bala

* * *

Sağ olsun sənin yarını,
Yaxşı saxladı yolunu.
Çağırır Ramilə yarın,
Yatma Qabil, oyan yarım.

* * *

Namərd vurdu güllə sənə,
Biz çatdıq, son nəfəsinə.
Əbədi getdin yuxuya,
Yatma oğul, oyan bala.

* * *

İki min iki son ildi,
On bir mart son günündü.
Sinəmdə ki, dağ düyündü.
Yatma oğul, oyan bala

* * *

Sənə güllə atan yerlə,
Düşmənin əli əsəydi.
Allah nəfəsin kəsəydi.
Yatma oğul, oyan bala.

* * *

Gülnar anır ölümünü,
Əmiş gözləyir yolnu.
O, qujmaq istər boyunu.
Yatma oğul, oyan bala

* * *

Əl çək onların saçına.
Onlar atalı böyüsün.
Yatma oğul, oyan bala

* * *

Atan yaman dərdli yazır,
Yerişin, duruşun azır.
O dərddən bir qala qurub
Yatma oğul, oyan bala

* * *

Yanvarın biri yetmişdə,
Şaxtalı ayazlı qışda,
Sən dünyaya göz açmısan.
Yatma oğul, oyan bala

* * *

Balam yaşa dolasıydı,
Mərd bir kişi olasıydı..
İndi yaşı qırx olardı,
Yatma oğul, oyan bala

* * *

Hər görəndə balaları,
Sən düşürsən yada oğul.
Niyə ölüb, itmir çuğul.
Yatma oğul, oyan bala

* * *

Atan dərdə dözə bilmir,
Səndən əlin üzə bilmir. .
Kaş ölümün yalan ola.
Yatma oğul, oyan bala.

* * *

Atan Əşir çox dərdlidir,
Dərd-qəm ürəyin əridir.
Qabilinə həsrətlidir.
Dözür hələ qeyrətlidir.
Balan, yarın, yol gözləyir.

Yatma oğul, oyan bala.

*01.01.2013*

## OĞLUM QABİLƏ

İllər bir-bir ötüb keçəjək,
İşlər öz yoluna düşəjək.
Hər qızın bir oğlan sevəjək,
Qohumlar şadlanıb, güləjək.
* * *
Səsləyir oğlumun qadını,
Deyir qoy nəvənin adını,
Körpə gedir qüruba sarı.
Görməyəjək oğlum bunları.
* * *
Sevinj bürüyəjək onları,
Oğlum görməyəjək bunları.
Saçı ağarmış qadın ağlar,
O qadın ərini çağırar.
* * *
Hər iş axarına düşəjək,
Balaların xoş gün görəjək.
Oğlum illər keçdi səndən yan,
Xoş günün olmadı birjəan.
* * *
Ömürünün ən ahıl çağı,
Əşiri əydi bala dağı.
Əllərin quruyaydı yağı,
Balamı nişan alan zaman,
Qaranlıq çökəydi gözünə,
Öz güllən dəyəydi özünə.

## ALLAH KƏRİMDİR

Dərd bir olsa, onu çəkməyə nə var,
Bu qədər dərdin mən hansını çəkim?
Vətən dərdi, oğul dərdi, el dərdi…
İstəyirəm həyatımdan əl çəkim.
* * *
Dərdim dağa yüklənsə, dağ əriyər.
Filə də yüklənsə, dizi bükülər.
Xəyalla gəzirəm, dağı, aranı
Ürəyə salıram qarı, boranı.
* * *

Ürəkdə təpər, janda taqət yoxdur.
Sevinj məndən qaçır,kədərsə çoxdur.
Gəlmə, köçkün, qaçqın sözü eşitmək
Mənim ürəyimə sanjılan oxdur.

* * *

Əşir, sənin yaran çox-çox dərindir,
Səbr elə, dərd ürəyini əridir.
Tək çəkmə, bu həm də elin dərdidir,
Hər şeyin sonu var, Allah kərimdir.

## YAŞAMAĞIN NƏ MƏNASI

Elə sarsılmışam səndən sonra, Qabil
Özümü-özümdən soruşuram bəzən.
Dost-tanış mənə deyir: «Səbir et, səbir»,
Ölmüş bilir, oğrun-oğrun məni süzən.

* * *

Həmişə gəzirəm sakitlik, künj-bujaq,
Daim oluram, mən insanlardan uzaq.
Elə gəzib axtarıram doğma ojaq,
Çöldə gəzməkdən öldürür məni sazaq.

* * *

Görüşəndə tanımıram dost-tanışı,
Yaxın dostların məyus olur hamısı.
Elə bilirəm hər yer zülmət gejədir,
Sanki günəş, ay doğmur, batıb hamısı.

* * *

Əşir, sənin bu dərdin çox ağır keçdi,
Sənin ömrün başa çatıb, artıq gejdi.
Bundan sonra yaşamağın nə mənası?
Nə qədər yaşasan da, axırı heçdi.

## İBADƏTGAHIM

*İstəyimə yol gedirəm*

*Gözü bağlı, sinə dağlı.*
*Mən dünyaya neynəmişəm?*
*Mənə baxır qaşqabaqlı.*

*B. Vahabzadə.*

Məzarın önündə dayanmışam lal,
Danışa bilmirəm, dinə bilmirəm.
Məni quj aqlayıb qara bir xəyal,
Danışa bilmirəm, dinə bilmirəm.

* * *

Xəyal uzaqlara aparır məni,
Sənin körpəliyin yadıma düşür.
Əksini görəndə məzar daşında,
Dilim söz tutmayır, varlığım üşür.

* * *

Birj ə yol baş qaldır, möj üzə yarat,
Birj ə anda olsa, ruhumu et şad.
Yanan ürəyimə bir damla su at,
Mənim ürək param, ay Qabil balam.

* * *

İnana bilmirəm bu yoxluğa mən,
Elə bil qəlbimdə günəş tutulub.
İnana bilmirəm şirin həyatdan
Mənim ürək parçam, Qabil yox olub.

* * *

Məzarından səs gəlir, deyir-ata,
Göz yaşı tökməyin nə mənası var?
Bir də bu yerlərdə məni axtarma,
Qayıt, j üt balamın qəlbində axtar.

* * *

Əşirəm, dərd çəkir məni bu yerə,
Atayam, yüksəlib göylərə ahım.
Hər gün gələj əyəm mən bu yerlərə
Çünki bu məzardı ibadətgahım.

## OĞUL DƏRDİ

Gəlib çatdı aj ı xəbər,
Varlığımı aldı kədər.
Bütün ömrümə bəs edər,
Oğul dərdi, oğul dərdi.

* * *

Qürbət öz qoynuna aldı,
Düşmən səni tora saldı,
Ahım göylərə uj aldı,
Oğul dərdi, oğul dərdi.

* * *

J ənazəsi ağır getdi,
Ana-baj ı fəryad etdi.
Bununla şad günüm bitdi,
Oğul dərdi, oğul dərdi.

Evimin səfi pozuldu,
J üt balanın gözü doldu.
Mənə hamıdan çox oldu,
Oğul dərdi, oğul dərdi.

* * *

Dizimin taqəti getdi,
Pəhləvan bir oğlum getdi
Gözümün işığı itdi,
Oğul dərdi, oğul dərdi.

* * *

Ayrılığa dözümüm yox.
Ömür qısa, dərd isə çox,
Əşir, dərdinə çarə yox,
Oğul dərdi, oğul dərdi.

## ANAR

*Qabilin əziz xatirəsinə*

2002-j i il, İrkurtsk şəhəri,
Şaxtalı qış axşamı,
Şaxta kəsir adamı.
On bir mart gej əsi,
Qabilin faj iəsi.
Qabil evə gedirdi,
Qatillər onu güdürdü.
Evə çatan an
Qabilə güllə atdı
Qatillər arxadan.
Qabil yerə yıxıldı,
Əbədi yumdu gözünü,
Deyə bilmədi son sözünü…
Çatdı elə Qabilin ölüm xəbəri

Artdı bir elin dərdi, kədəri.
Şivən etdi analar
Qan tökənlər, yananlar,
Ağladı qız-gəlin.
Qatil,quruyaydı əlin!
Gor olaydı yerin!
Ömrünü qırdın
Bir javanın, nərin.
Bir gəlini dul qoydun,
İki qızı atasız,
Sizi gorda yatasız…
Ağır dərddi oğul dərddi,
Dedilər:-Bəşiroğlu Əşir nərdi
Dərdə sinə gərdi,
Ağlamadı,
Qovruldu,
Yandı,
Dağ kimi dayandı.
Qanan qandı,
Qanmayan nadandı.
Ağladı için-için,
Javan köçən oğlu üçün
Nəvəsi üçün, gəlini üçün.
Bəşir oğlu Əşir!
Oğul dərdi ağır dərddi,
Bu dərdi çəkən mərddi.
Dəyirmanda üyüt dəni,
Eşit məni
İstəmirəm
Oğul itirən ata,
Yasa bata.
Sarın qələmə!
Tənbəllik eləmə!
Qələminlə ölümün

Bağrını yar!
Bu dünyada söz qalar.
Keçər neçə əsr,
Oxuyar neçə nəsil,
Qabilin faj iəsinə yanar,
Səni də anar.
Mirzə Mehdi.

## QABİL DƏRDİ, TURAL DƏRDİ.

*Dayım oğlu Əliyə*

Mənə çatdı qara xəbər,
Ömür-günüm oldu hədər.
Ömrə bəs edər, bu kədər,
Qabil dərdi, Tural dərdi.
* * *
Qabilimin izi qaldı,
Vardır onun j üt balası.
Turalımın sözü qaldı,
Qabil dərdi, Tural dərdi.
* * *
Birisini qərib diyar,
O birini vətən yedi.
Ata-ana içdi zəhər,
Qabil dərdi, Tural dərdi.
* * *
Hər ikisi uj aboylu,
Qamətləri lap şux idi.
Anaları olub hoylu,
Qabil dərdi, Tural dərdi.
* * *
Birisini pul apardı,
O birisi hədər getdi.
Ömürlərin gül çağıydı,
Qabil dərdi, Tural dərdi.
* * *
Vətən dərdi bəs deyilmiş?
Üstə gəldi oğul dərdi.
Ataların belin əydi
Vətən dərdi, oğul dərdi.
* * *
Əşir, sənin ahu-nalən,
Çıxıb ərşə, daha bəsdi.
Var Əminə, Gülnar balan
Şükür elə, daha bəsdir,
Şükür elə, daha bəsdir.

## İLHAMIM, QABİLİM UÇDULAR QOŞA

### *Kürəkənim Abbasa təsəlli*

Javan ölümü heç gəlməyir xoşa,
Fikirdən az qalır ki, ağlım çaşa,
Gejələr dərdlə verirəm baş-başa,
Birjə anda gedə bilmirəm huşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Ujaboylu, şux qamətli, jürətli,
Düşmənə amansız, qeyrətli, məğrur,
Sərv qamət, dağlarla boya-boy durur
Nə iş görürəm əlim çıxır boşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Nəzakət bajım, qardaşım Abbasım,
Sizi öz balam tək bağrıma basım,
Ürək döyüntünüzə qulaq asım,
Hıçqıraq, ağlayaq bir gedək huşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Övlad itkisini çəkənlər bilir,
Dərd onun belini bükənlər bilir,
Həmişə göz yaşı tökənlər bilir,
Ağlayıb hirsimdən gəlirəm juşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Oğul jənazəsi aparsa, ata,
O zaman onun ömrü sona çata.
Oğul dağı görməsin heç bir ata,
Şükür Allaha, təbim gəlir juşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Əyilən qamətəm, quruyan yaşam,
Dözürəm bu dərdə, «ürəyi daşam».
Dərdlilərim: Nəzakətim, Abbasım,

Tez gəlin, ağlayaq, verək baş-başa.
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Sakitləşin, bulud kimi dolmayın,
Qalana baxın, naşükür olmayın,
Göz yaşı töküb, saralıb solmayın,
Həmişə bir ağlayaq, gedək huşa
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Əşir yenə qələm alıbdır ələ,
Hirsindən az qalır dağları dələ,
Namərd düşmən bizə qurubdur tələ,
Alınsa, Vətən, təbim gələr juşa,
İlhamım, Qabilim uçdular qoşa.

## QABİLİM

Mən sənin dərdinə dözə bilmirəm,
Sən məzardan baş qaldır, gəl, əzizim.
Sənin körpəliyin  yadıma düşür,
Gəl qujaqla atanı, öp, əzizim.
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Sənsiz gündüzüm də gejə olubdu,
Qamətim əyilib kaman olubdu,
O gül rəngim saralıbdı, solubdu,
Məğrur atan bulud kimi dolubdu,
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Sən çox heyran idin vətən ətrinə,
Mən o ətri qatdım şeirin sətrinə.
Hələ yaşayıram sənin xətrinə,
Vətən torpağı səpəjəyəm qəbrinə,
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Atan Əşir dözə bilmir bu dərdə
Az qalıb dərd ürəyimi əridə,
Kaş Ulu Tanrı möj üzə göstərə
J avanlar dirilə, evinə gələ
Qabilim, Qabilim, mənim Qabilim.

## MÖJ ÜZƏ UMURAM

Allah, nə olar,
Evdə oturub
Şeir yazdığım zaman
Zəng çala telefon.
Mən dəstəyi qaldıran zaman,
Eşidəm Qabilin doğma səsini.
Əvvəlki zarafatj ıl,
Mənalı xoş avazını.
O, mehriban gülüşü ilə
Qışqıra dəstəyə,
-Nej əsən, ata?
Qabiləm, təyyarədə uçuram,
Az müddətdə mən Vətənə qovuşuram.
Elə bilməyin ki, ölmüşəm,
Nə müddətdir mən.
Uzaq səfərdə olmuşam.
İndi gəlirəm Vətənimə,
Çatmaq istəyirəm.
Baj ıma, ata, anama.
Səfərbər edək ordumuzu
Azad edək doğma yurdumuzu.
Toyumuz, yasımız
Qoy orda olsun.
Allah möj üzə yaratsın,
Üzümüz gülsün.
Əşir çox sevinər buna
Vətəndə gedər toya, düyünə,
Qovuşar elinə, obasına,
Ata, anasına, həm balasına.

## AĞLASIN

Çatdı bizə amansız qara xəbər,
Daşdansın gözümdən sellər, ağlasın.
Boğur məni zəhərli aj ı qəhər,
Gəlsin yasa anam, baj ım, ağlasın.

* * *

Qabil! Əziz oğlum, mehriban balam!
Az qalmışam dərdindən dəli olam.
Sənin həsrətindən saralıb solan,
Bir j üt körpə, məsum balan ağlasın.

* * *

Övlad itkisinə dözməyir atan,
Yox məni bala tək bağrına basan.
Sakit hönkürtümə, yox qulaq asan
Gəlsin mənim madar qızım, ağlasın.

* * *

Əşir, sən yaralısan, bəxtin kəmdir,
Sənin təsəllin birj ə j üt nəvəndir,
Ağlayırsan, gəlin, gözlərin nəmdir,
Qoyma sənə baxıb balan, ağlasın.

## DƏRDİMİ ON DƏVƏ ÇƏKMƏZ

*Qabilin əziz xatirəsinə.*

Dərdimi yükləsən on dəvə çəkməz,
Başdan-başa qəm-kədərli ürəyim.
Qabilin dərdi də ölçüyə gəlməz.
Elə bil əzilib, sınıb dirəyim.

* * *

Dərdlərin üstünə dərdlər yüklənir,
J ismindən ruhum da çıxıb eşiyə.
Sinəmə çal-çarpaz dağlar çəkilir.
İstərəm qayıdam, girəm beşiyə.

* * *

Baş açmaq olmayır dünya işindən,
Yaxşıları tez götürür aradan.
Çoxlarını o keçirir dişindən
Niyə qıyır bu işlərə Yaradan?!

* * *

Səyavuş qoymusan adımı mənim,
Zəmanə dəyişib vətən dağlıyam.
Qəlbimdə həddindən çox olur dərdim,
Yurduma, elimə hər an bağlıyam.

**Səyavuş Vətəndağlı**

## ANAN YANINA GƏLİR

*Həyat yoldaşım Sərmayə xanımın vəfatı münasibəti ilə.*

Oğlum, anan yanına gəlir,
Girəj əksən ana qoynuna.
Ataj aqsan təkliyin daşın,
Söhbətə qarışaj aq başın.

* * *

Atana yer saxla yanında,
Birgə yataq qəbir evində.
Səninlə bir gülər üzümüz,
Uzaqlaşar qəm-kədərimiz.

* * *

Oğul dərdinə dözməyir ürək,
İstəyirəm balamı görmək.
Köç eyləyir yanına anan,
Sonra sənə qovuşar atan.

* * *

Atan istər yanına gələ,
Yarımçıqdır işləri hələ.
Tamamlar oğul dastanını,
Sonra o da kəsər yanını.

* * *

Mehriban qarşıla ananı,
Səni sevib j andan yananı.
Ananla birgə gülər üzün,
Onunla tutar söhbət-sözün

* * *

Çatmaqçün sənin vüsalına
Fəryad edib ağladı anan.
Görəndə ki, qovuşur sana
Qol götürüb oynadı anan.

* * *

Faj iənə dözmədi anan,
Sənə ürəkdən, j andan yanan.
Ağladı, kor etdi gözünü,
Saçın yolub, üzdü özünü.

* * *

Allah! Ağırmış oğul dağı,
Əridi ürəyimin yağı.
Balama əl qaldıran yerdə,
Əllərin quruyardı yağı!

* * *

Atan Əşir dözmür dərdə,

O çəkəni çəkməzdi nər də.
Dərdi qoşadı-oğul, vətən.
Ər oğuldu bu dərdi çəkən.
Vətənə çox uzaqdı yolum,
İstərəm, oğluma qovuşum.

## ÇIX YASDAN

***Oğlum Şamilə***

Şamil balam, çıx yasdan,
Bəsdi, daha ağlama.
Ağladıqja qəlbimi
Çalın-çarpaz dağlama.
* * *
Səni qəmli görəndə,
Daha əyilir belim.
Oğlum, səni şad görüm
Mən də deyim və gülüm.
* * *
Sən uja tut başını,
Axıtma göz yaşını,
Düşmən görsün, xar olsun,
Ürəyinə ox olsun.
* * *
Mən çox ömür sürmüşəm,
Çox faj iə görmüşəm,
Düzdür, yaran dərindir.
Ağır yük də nərindir.
* * *
Köçüb tayım, tuşlarım,
Həyatda tək qalmışam.
Qəlbə axır göz yaşım,
Bağrı yara olmuşam.
* * *
Sən Allah, qırx üzünü,
Qaydaya sal özünü,
Yasdan çıx, şux gəz bala!
Tay-tuşdan qalma dala.
* * *
Atan qurban gözünə,
Bir fikir ver özünə,
Baxsan, ata sözünə,
Əşir gələr özünə.

## OYAN, OĞUL!

Atan dözə bilmir dərdə,
Yalvarıram, oyan, oğul!
Hara belə tələsirsən?
Dözəmmirəm, daha bala.
Məni dərdə sala-sala,
Tələsirsən hara belə?

Atan qurban, dayan, oğul.

* * *

Tez çəkirsən karvanını,
Heç demirsən-atam hanı?
Xəstə janım dözmür daha,
Dayan oğul, getmə bala!

* * *

Tale qarğayıbdı bizi,
Çaş-baş salıb ömrümüzü.
Mən tez getməliyəm gora,
Atan qurban, dayan bala!

Dayan oğul, getmə bala!

* * *

Əzrayıl da çaş-baş qalıb,
Tapıb ala bilmir janım,
Donub, daha axmır qanım,
Dayan oğul, getmə bala!

* * *

Əşir ölsə, çıxar yasdan,
Janı qurtarar atəşdən.
Gedər məzar komasına
Yetər Qabil balasına.
Dayan oğul, getmə bala!

## VƏTƏN SƏNSİZ, OĞUL SƏNSİZ.

Torpağım, daşım basılıb,
Gözlərimdən yaş asılıb.
Ürəyimdən daş asılıb.
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

* * *

İçin-için ağlayıram,
Gejə-gündüz sızlayıram.
Günlərim çox ağır keçir,
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

Aslanlar quzu olubdur,
Nərin dizi bükülübdür,
Dağlar, daşlar əriyibdir,
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

* * *

Əşir ağır yaralanıb,
Vətənindən aralanıb.
Yuxu da getmir gözünə,
Dözə bilmir daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

## BACI

*Ölümünə inanmadığım bacım Dilişə*
*ithaf edirəm*

Ölçüyə gəlmir kədər, ağrı, acı,
Bu gecə yuxuma girmisən bacı.
Yəqin başsağlığı verirdin mənə
Könlümü almağa gəlmişdin, bacı,
Bu gecə yuxuma girmişdin, bacı,

***

Yuxu deyildi, gercək idi o anlar,
Səninlə danışıb gülürdü insanlar.
Qaçmışdı könlümün kədəri, qəmi,
Artıq yox idi məndə ağrı, acı
Bu gecə yuxuma girmişdin bacı.

***

Güzümü bürüyən dumanı, çəni,
Qovmaq üçün sən axtarırdın məni.
Qabillə görüşün sevinci üçün,
O sevinci mənlə bölmək üçün
Bu gecə yuxuma girmişdin, bacı.

***

Əşir doğulandan dərdsiz olmayıb,
O, bir dəfə ürəkdən gülməyib.
Dərdi bir-birindən olubdu ağır,
Ata, ana, bacı, zövcə və oğul.
Dərdimi bölməyə gəlmişdin, bacı
Bu gecə yuxuma girmişdin, bacı.

## ÖLÜRƏM BACI

*Bacım Dilişin məzarı önündə.*

Sənsiz gözümdə həyat heçə dönüb,
Qızların, qardaş-bacın gül tək solub.
Hamıdan artıq zülüm mənə olub,
Bacı, oğul, zövcə dərdi qəddimi əyib
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Qızların dərdə dözmür hey ağlayır,
Ağladıqca ürəyimi dağlayır.
Ağbirçək Adilin ney tək qızlayır.
Qızlar ac-susuz sənə yas saxlayır,
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Qardaşların beli dərddən bükülüb,
Xəstə bacın ağlamaqdan üzülüb.
Təbibin Cəlladtək səni doğradı,
Fazilin də hönkür-hönkür ağladı.
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Əşir qardaşın da səndən doymadı,
O, ağır yarana məlhəm qoymadı.
O, səni ana əvəzi bilirdi,
Ananın ətrini səndən alırdı.
Mənə qardaş, həm də dayı deyərdin.
Dərdinə dözmürəm, ölürəm bacı.

## ŞİRİN BACIM, ŞƏKƏR BACIM

***Mənə ana əvəziydi bacım Diliş***

Anam düşəndə yadıma,
Bacım yetişir dadıma
Anam qədər sevir məni,
Həmişə çəkir nazımı,
Şirin bacım, şəkər bacım.

***

Ana plovu düşsə yada,
Onda bacım yetir dada
Plovu bişirir adıma,
Anamı salır yadıma
Şirin bacım, şəkər bacım.

***

Bacımla mən görüşəndə,
Uzaqlaşır qəm-kədərim,
O, anamı əvəz edir,
Məndən qaçır dərdi-sərim,
Şirin bacım, şəkər bacım.

Çox istəyirəm xətrini,
Alıram ana ətrini
Gözlərimdən duyur məni,
Fərx edərək sayır məni,
Şirin bacım, şəkər bacım.

***

Baş qoyuram dizi üstə,
Oxşayaraq öyür məni,
Əgər dəcəllik eləsəm,
Gülə-gülə döyür məni
Şirin bacım, şəkər bacım.

***

Əşir, səni anan qədər,
Sevən əziz bacın varmış.
Heyif ki, ana bazarı,
Şərəfsiz düşmənə qalmış
Şirin bacım, şəkər bacım.

## KÖVRƏK ÜRƏYİNƏ QURBANAM ANA

Məni işıqlı dünyaya gətirən,
Qayğımı çəkib ərsəyə yetirən,
Gecələr beşik başında oturan,
Gündə yüz dəfə bələyib yedirən,
Kövrək ürəyinə qurbanam, ana!

***

Vətəndə kimsəsiz qalıb ağlayan,
Gücə-gündüz ürəyimi dağlayan,
Körpə nəvələrə könül bağlayan,
Dəniz kimi dalğalanıb, çağlayan,
Kövrək ürəyinə qurbanam, ana!

***

Fələk mənə niyə belə qarğayıb?
Qərib-qürbət eldə anasız qoyub.
Həkəri, Bərgüşad[1] kimi çağlaram,
Qan yaş töküb, gecə-gündüz ağlaram,
Kövrək ürəyinə qurbanam, ana!

***

Əşir gəlib çıxa yazı düzünə,
Üz qoya ananın ayaq izinə,
Orda ölüb qalan anamla qoşa,
Çürüyəm, qarışam torpağa, daşa,
Kövrək ürəyinə qurbanam, ana!

## AĞLARAM, ANA

Sən mənim yolumda şam tək əridin,
Mən haqqını necə ödəyim, ana?
Yüz illərlə qulluq etsəm də sənə,
Haqqını qaytara bilmərəm, ana

[1] Həkəri, Bərgüşad- çay adlarıdır.

***

Qəm qüssə üstündə köklənmiş taram,
Əl vurma, əl vurarsansa ağlaram.
Məzarın düşmən əlində qalıbdı,
Qurbanın olum məni qınama, ana

***

Ürəyim sənindi, biləsən, ana,
Kaş ömrüm Vətəndə çata sona,
Fikirim, xəyalım gəzir Vətəni,
Ziyarət edirəm məzarın, ana.

***

Ümmansan mən sənin yanında zərrə,
Sən məni dolandır, başına hərlə.
Çəkdiyin zəhməti vurmaram yerə,
Yoxsa südün halalım olmaz, ana.

***

Əşir sənin dərdin başından aşır,
Fikir, xəyalın Vətəni dolaşır.
Vətənsiz mən dəniz kimi çağlaram,
Dindirməyin, dindirsəniz, ağlaram.
Sən arzu-diləyim, canımsan, ana
İncimə, incisən ağlaram, ana.

## ANA ÜRƏYİ

Övlada sevgi çoxdu səndə,
Mehribansan həddən ziyadə
Bezmirsən alışıb yansan da,
Mehribansan, ana ürəyi.

***

Əziyyəti dilə gətirməzsən,
Heç zaman minnət götürməzsən.
Övlad yolunda həmişə sən,
Narahatsan, ana ürəyi.

Sən yanırsan, övlad yolunda,
Yorulub bezmirsən sən bir an da.
Zəhmətkeşsən, əziyyətin çox,
Mehribansan, ana ürəyi.

***

Bəzən vulkan olub yanırsan,
Hamını özün tək sanırsan.
Qəzəbin sönür yumşalırsan,
Mehribansan, ana ürəyi.

***

Heç vaxt kədər görməsin üzün
Əziyətin itməyə, gülə gözün.
Sənin yoluna çiçək düzüm,
Daim şənlən, ana ürəyi.

***

Bu fani dünya bivəfadır,
Əşir çəkən ağır cəfadır.
Oğul- qız hamı bivəfadır,
Vəfalısan, ana ürəyi.

## ANALI GÜNLƏRİM YADIMA DÜŞÜR

Anam mənim daim görən gözümdür,
Bu dünyadakı xatirəm, izimdir.
O mənim mayakım, dan ulduzumdur,
Analı günlərim yadıma düşür.

***

Anam mənim həyata baxışımdır,
Gözəl, göyçəyim, ilmə-naxışımdır,
Xeyir-duası yola çıxışımdır,
Analı günlərim yadıma düşür.

***

Anam mənim şeir, nəğməm, qəzəlimdir,
O, mənim qəşəng, zərif, gözəlimdir.
Canım qurban, axırım, əzəlimdir,
Analı günlərim yadıma düşür.

***

Anam mənə həyat, qida, qan verib,
Daha doğrusu ürəklə, can  verib.
Hanı igidlər, Vətən darda qalıb,
Analı günlərim yadıma düşür.

***

Arzumdur düşməndən vətəni almaq,
Doğmalarımla bir orada qalmaq.
Qürbəti tərk edib vətəndə ölmək,
Analı günlərim yadıma düşür.

***

Əşir, vətənsiz günüm ahu-zardı,

Qürbət geniş olsa da yerin dardı.
Qubadlı kimi gözəl elin vardı,
Analı günlərim yadıma düşür.

## ATASIZ GÜNLƏRİM

Beş yaşımda atam öldü,
Bununla çırağım söndü.
Atasız keçmədi sözüm,
Olmadı gecəm gündüzüm

***

Atamdan doymadı gözüm,
Getdi məndən taqət-dözüm.
Qismətim oldu qəm-kədər,
Bütün ömrüm getdi hədər.

***

Ah-zarla ağardı başım,
Gəlib çatdı ahıl yaşım.
Pəhləvan bir oğlum getdi,
Bununla da dərdim artdı.

***

Ata sənə qurban olum,
Sənsiz çox çəkmişəm zülüm.
Sınıbdı qanadım-qolum,
Arzumdu yanına gəlim.

Nadanlar məni danladı,
Düz sözümü səhv anladı.
Dərd-qəmin içində üzdüm,
Ölmədim bir təhər dözdüm.

***

Hər işə özüm tək getdim,
Çətinə düşsəm səbr etdim.
İşlədim, qan-tərə batdım,
Dərdimlə bir yerdə yatdım.

***

Səbri-qərar əldən getdi,
Dərd-qəm məni şair etdi.
Qışım gəlib, yazım getdi,
Şeirimlə bir yaşım ötdü.

***

Əşirin canı xəstədi,
Ata qəbri məhbəsdədi.
İstər Vətən azad ola,
Sevinə, şadlana, gülə.

## ATA

Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Evin böyüyü, evin ağsaqqalı,
Ananın şöhrəti, qızın neməti,
Oğulun arxası, qəddi-qaməti,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,

Arxadı, köməkdi, dayaqdı ata.

***

Evin ağırlığın çiynində çəkən,
Gecə-gündüz işləyib qan-tər tökən,
Düşmənə qan uddurub, bağrını sökən.
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Evinin qeydinə həmişə qalan,
Daim düz danışıb bilməyən yalan
Oğlunun, qızının qayğısın çəkən,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Dərdini tək çəkib, sevincin bölən,
Ağrısın deməyib xəlvəti çəkən,
Namərdə, paxıla zərbələr vuran,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Müqəddəs torpağı düşmənə qalan,
Gecə-gündüz için-için ağlayan,
Xanımanəsi yerlə yeksan olan
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Yurdunda yağı düşmən at oynadan,
Övladları yetim-yesirə dönən,
Təmkini, səbri, qərarı tükənən,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Atasız övladın gülməyir üzü,
Titrəyir dizləri keçməyir sözü,

Tapılmır çörəyi, çatışmır duzu,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Alınsa kişinin torpağı, eli,
Partlayar ürəyi, qırılar beli,
Halal olmaz onun çörəyi, suyu,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Vətən azad olsa taparıq şəfa,
Quraraq, tikərik, çəkərik cəfa,
Eyş-işrətə baxıb, sürərik səfa,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Yığılsa elimin igidi, mərdi,
Azad olar torpaq, atarıq dərdi,
Müharibə qurtara sona çata,
Azəri xalqı dərdi, qəmi ata,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

***

Əşir beş yaşında itirib ata,
Az qalıb ki, ömrü sona çata.
İstər ömrünü Vətəndə vura başa,
Orda yaza, yarada dola yaşa.
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

## BASILMAZ PƏHLƏVAN, İGİD SƏRKƏRDƏ

*Azərbaycan Respublikasının Milli qəhrəmanı Əliyar Əliyevə*

Basılmaz pəhləvan, igid sərkərdə,
Tək qalmısan doğma vətəndə, eldə.
Dağ çəkdin düşmənə, qul oldun yurda,
Canın fəda getdi, Vətən yolunda.

***

Unudarmı səni xalqın, dövlətin?
Göylərə qaldırdın elin şöhrətin.
Sən ölməmisən, həmişə yaşarsan,
Vətəndə yanan daimi məşəlsən.

***

Ustadın Bahadurla yurdda qaldın,
Əsgərlərini niyə başsız qoydun?
Dostların dərd çəkir, ömür nəsdədi,
Qürbət diyarda, canları xəstədi.

***

Ustadınla çağır Nəbi, Həcəri,
Siz başınıza toplayın igidləri.
Vuruşun, yetsin düşmənin əcəli,
Qoy sevinsin-gülsüm vətən gözəli.

***

Komandir Namazovu sən tək qoydun,
Top-tüfəngsiz, arxa-köməksiz qaldı.
Xəbislər elin mərd oğluna güldü,
Qəhrəmanlar yurdu düşmənə qaldı.

***

Biz çəkə bilmərik bu ağır dərdi,
Sənin yoxluğun belimizi əydi.
Qaliblər məğlub kimi yurda döndü,
Düşmən bizə baxıb özünü öydü.

***

Sənə yaraşmazdı olasan köçkün,
Vətəndə vətənsiz, didərgin, qaçqın.
Əlyar qəlbi tablaşmazdı bu dərdə,
Partlardı ürəyi qürbət diyarda.

***

Əşir dözə bilmir Vətən dərdinə,
Canı qurban Əlyar kimi mərdinə.
Düşmən basıla, el dönə yurduna,
Biz də yetək şəhidlərin ruhuna.
Gəzək elin çəmənini, düzünü,
Yeyək çörəyini, dadaq duzunu.

## 20 YANVAR FACİƏSİ

Doxsanıncı ilin yanvar faciəsi,
Ayın iyirmisinə keçən gecəsi,
"Şanlı ordumuz" tutdu Bakını topa,
Aman vermədi bir adam nicat tapa.

***

Gözəl Bakımızı boyadılar al-qana,
Öldü oğul ana qaldı yana-yana.
Qırdı millətimi öz "qızıl ordu"muz,
Qızıl qana boyandı gözəl yurdumuz.

***

Pozaraq Konstitusiya andını,
Qarbaçov ləkələdi "təmiz" adını,
Qanı ilə tarix yazdı gənclərimiz,
Mükafat aldı qaniçənlərimiz.

***

İyirmisi yanvar günü səhər-səhər,
Dəniz kimi coşub dalğalandı şəhər.
Tabutları düzmüşdülər dörd bir yana,
Ana fəryadı çıxmışdı asimana.

***

Qərənfillərlə bəzənmişdi tabutlar,
Dolurdu qəbiristanlar, xiyabanlar.
Analar, bacılar yolurdu saçların,
Ər oğullar ağlayırdı için-için.

***

Bu da qırmadı xalqın iradəsini,
Topladı onun gücünü qüvvəsini.
Yumruq kimi birləşdi qəhrəman xalqım,
İçimdən qovuldu xainim, satqınım.

***

Xain ordudan təmizləndi yurdumuz,
Qorudu vətəni öz Milli ordumuz.
Yarandı azad, müstəqil dövlətimiz,
Öz gerbimiz, himnimiz, bayrağımız.

***

Əşir yaşasa da müstəqil dövlətdə,
Qarabağ boyda yarası var ürəkdə.
Yurdu azad edər qəhrəman ordumuz,
Biz Vətənə dönərik gülər üzümüz.

## GÖRƏSƏN

***Qubadlının işğalına yazılmış ağı***

Həsrətlə doludu tərməsi,Teri,
Getmək istəmir, hey boylanır geri.
Bilinmir, harda olacaq yurd yeri,
Bu köç belə hara gedir görəsən?

***

Yayın istisində üzü arana,
Qocası, cavanı bulana-bulana,
Dünyanın belə qarışıq vaxtında,
Bu köç belə hara gedir görəsən?

***

El-obasından yurdundanmı bezib,
Kimlərdənsə canda qorxumu sezib.
Ata-baba yurdun sahibsiz qoyub,
Bu köç belə hara gedir görəsən?

***

İlin bu vaxtı köç dağlara gedər,
O yeyib, içib istirahət edər.

Ər oğullar qaytaracaq geri,
Bu köç belə hara gedir görəsən?

***

Köçün geri dönəsi vaxt payızdı,
İndisə nə yazdı, nə də payızdı.
Belə istidə yayın qızmarında,
Əşir yayın belə bürkü çağında
Bu köç hara gedir görəsən?

## BIZIM DAĞLAR

Vaxt tapıb görüşə bilmədim,
Yarı canım qaldı sizdə dağlar.
Sinən üstdəki ayaq izlərim,
Bir xatirədi, xəyaldı dağlar.

***

İsti su əsirdi qalıbdı darda,
Çox pərişan, qəmli baxır o da.
Yaman atılıb düşmüşəm oda,
Dünyadan bezmişəm özüm, dağlar.

***

Yağı düşmən səni etdi əsir,
Allahım göstərə möcüzə, sirr.
Hələ gözlərim düşməmiş nurdan,
Gəlib görə biləm sizi, dağlar.

***

Pərişansan başında duman, çən,
Ağlama sənə qurban olum mən.
De, solubmu lalə, nərgiz, çəmən?
Daha yoxdu məndə dözüm, dağlar.

***

Tezliklə biz ora gələcəyik,
Üstündən gül-çiçək dərəcəyik.
Səni sağ-salamat görəcəyik,
Dözmüsəm yenə döz bizim, dağlar.

***

Mən Əşirəm, qəmli çalan sazam,
Nə payızam, nə qış, nə də yazam.
Bilmirəm, ölmüşəm, yoxsa sağam,
Dərmanım ancaq sizdədi, dağlar.

## O GECƏ

***(Xocalının işğal gecəsi)***

Haqq ədalət harda qaldı, o gecə?
Namərd əllər haqqı boğdu, o gecə.
Allah, haqsızlığa dözürsən necə?
Vuran əllər qurumadı, o gecə.

***

Zalıma mən necə deyim sözümü?
Axı o, çıxartdı görən gözümü.
İmperiya bükdü mənim dizimi,
Haqq-ədalət niyə susdu, o gecə?

***

Ana naləsindən yer-göy ağladı,
Qız-gəlinlər başa qara bağladı.
Sinələr cırıldı, saçlar yolundu,
Torpaq al-qana boyandı, o gecə.

***

Qara geyindi gözəl vətənimiz,
Yox bizim halımıza yananımız.
İçin-için ağladı ərlərimiz,
Allah, de nələr olmadı o gecə?

***

Əşir necə dözürsən bu dəhşətə?
Bu qırğına, bu zülmə, bu vəhşətə.
Bəs niyə yer məhşərindən çıxmadı?
Zalım alışıb, yanmadı, o gecə.
Mənim xalqım necə dözdü o zülmə?
O dəhşətə, o qırğına, ölümə.

## QOCALDIM

Ədəb ərkənlə gözlədim həddimi,
Heç kecmədim mərifətdə səddimi.
Didərginlik əydi mənim qəddimi,
Qürbət məni sındırdı, qocaldım.

***

İşim yoxdu aqil ilə, düz ilə,
Qızıl kimi tac hörərəm, söz ilə.
İnanırdım ömür çatar yüz ilə,
Vətənimi düşmən aldı, qocaldım.

***

Yağı düşmən vətənimi taladı,
Yurd-yuvamda sönməz ocaq qaladı.
Bilmədim bu hardan gələn bəladı,
Didərginlik məni sıxdı, qocaldım.

***

Qürbət eldə çox bəla çəkib başım,
Zəhərə qarışıb, plovum, aşım.
İllərlə mən çadırlarda yaşadım,
Ərlər ələ baxan oldu, qocaldım.

***

Əşir dərd belini əyibdi sənin,
İntizarda qalıb doğma vətənin.
Doğma qardaş, sirdaş bildim mərdləri,
Ən çox sevmişəm həyatda düzləri.
Eldə yaxuna qoymazdım dərd, qəmi
Qürbətdə dərd məni sıxdı, qocaldım.

## SÖZÜ QALDI

***Ustad sənətkar Bəxtiyar Vahabzadənin vəfatı münasibətilə***

Öldü Bəxtiyarım, ellər ağlasın,
Analar, bacılar qara bağlasın.

Sənət aləminə üz verdi kədər,
Ağır dərd olarmı bizim dərd qədər?

***

Getdi şair, alim, dövlət xadimi,
Xalqa ağır dərddi onun ölümü.
O, bir inciydi daş-qaşlar içində,
Şahin idi şairlərin içində.

***

Arzusuydu dövlət müstəqil ola,
Azad yaza, yarada, yaşa dola.
Yetirdi xalqın, dövlətin dadına,
Çoxlu təltif verilmişdi adına.

***

Şair gördü müstəqil dövlətini,
Öz gerbini, himnini, bayrağını.
Dövlətin öz milli ordusu oldu,
Sevincdən şairin gözləri doldu.

***

Arzu edirdi torpaqlar alına,
Dövlətin işləri düşə yoluna.
İnşallah Azərbaycanım birləşər,
Torpaq alınar, arzusu gül açar.

***

Görüşmədi Şəhriyarla, Bəxtiyar,
Hər dəfə görüş onlardan yan keçdi.
Bu dünyada görüşməsə də onlar,
O haqq dünyada ruhları görüşdü.

***

Əşir yaza bilmir, Bəxtiyar ölüb,
Şeir aləmində bir məsəl sönüb.
Şair itkisinə bütün el ağlar,
Əlim əsər, qələm yazmaz, dil ağlar.
Ölsə də Bəxtiyarım, izi qaldı,
Çoxlu sayda kitabı, sözü qaldı.

## NƏSİBƏ ZEYNALOVA

Biz Nəsibəni itirdik,
Bir dəstə aktyor içində.
Tanınırdı yerişiylə,
Qəhqəhəli gülüşüylə.

***

Ağlayırıq həm, gülürük,
Kədərdən biz boğuluruq.
Apardı gülüşümüzü,
İtirdik yerişimizi.

***

Ömrün astanasında,
Sanki sevinc ölmüşdü.
O, kədərdən boğulurdu,
Onu dərd üstələmişdi.

***

İndi mənə elə gəlir,
Onun təmiz sinəsində.
Qəbir dolu gülüş yatır,
Qəbirlərin arasında.

Bu dərdin ağırlığını,
Kimə deyək, kimlə bölək?
Biz ağlamaq istəyəndə,
Züleyxası düşür yada.

***

Ağlayırıq hönkürtülü,
Gülüşümüz pıçıltılı.
Sevinci bizdən qopardı,
Qəbirə gülüş apardı.

***

Nəsibə ölümqabağı,
Öz dərdini unutmuşdu.
O, teatrdan uzaqlığı,
Özünə dərd eləmişdi.

***

Əşir günlərin birində,
O saf gülüş yayılacaq,
Qəbirlərin arasında,
Qalacaq göz qarasında.
O, uzaq səfərə getdi
Niyə xalqını tərk etdi?

## NƏ AĞIRMIŞ OĞUL DAĞI
### (Poema)
### I hissə

Yetmişinji il yanvarın birində
Çal-çağırdı Qubadlı ellərində.
Nəbi, Həjər eli Mollu kəndində
Bir körpə doğuldu ata yurdunda.

* * *

Gəldi müdrik kişi, ağbirçək qadın
Qabil qoydular o uşağın adın.
Sevindirdi qohumun, dost-qardaşın,

Nənə-dədəsin və ata-anasın.
* * *
Xoşbəxt yaşadı, ətə-qana doldu.
Ata-anasının sevimlisi oldu.
Üç yaşında sayırdı yüzə qədər,
Fiqurlardan evj ik qurar, ev tikər.
* * *
Elə ki, Qabil çatdı beş yaşına,
Yeni fikir düşdü onun başına .
Dedi: -Gedəj əm, zabitlər kursuna,
Sərkərdə olaj am güj lü qoşuna.
* * *
Nəbi babam kimi qoçaq olaj am,
Zalımları yurdumuzdan qovaj am.
Düşmənləri qırıb j anın alaj am,
Vətən keşiyində sayıq duraj am.
* * *
Dörd qardaşın sonbeşiyidi Qabil,
Böyükdülər Tahir, Məzahir, Şamil.
«Mən hamınızdan güj lüyəm»-deyərdi
Qardaşları sevinərdi, gülərdi.
* * *
Püşk atardı, bölərdi qardaşları,
Deyərdi Tahirlə Məzahir birdi.
Mənim püşkümə düşənsə Şamildi,
Sevinj isə təkj ə mənim baj ımdı.
* * *
Qamış atını minərdi, çapardı,
Əlinə taxtadan qılınj alardı.
Özünü J avanşirə, Koroğluya
Gah Babəkə, Nəbiyə bənzədirdi.
* * *
Tarixə də o çox meyil edərdi,
Tarixi şəxsləri əzbər bilərdi.

İsgəndər dünyanı işğal elədi,
Uşağa, yaşlıya da rəhm etmədi.

* * *

Şah İsmayıl şair, sərkərdə idi,
O, xalqının qəhrəman oğlu idi.
Böyük bir dövlət qurub, qoyub getdi,
Böyük dövlət sonra niyə kiçildi.

* * *

Sərkərdə Brutu bəs nə vadar etdi?
Yuli Sezarın o qətlinə getdi.
Bu saxta yoldan o niyə qaçmadı?
Saxta işdən özü də baş açmadı.

* * *

Qabil hələ altı yaşında ikən
Oxumağı, yazmağı da bilirdi.
Çoxlu nağıl oxuyub öyrənirdi,
Müsbət qəhrəmanlarla fəxr edirdi.

* * *

Şah Abbas çoxlu müharibə etdi,
Millətimin dili əlindən getdi.
Oğul, öldü, ana saçını yoldu,
Dövlətim dönüb fars dövləti oldu.

* * *

Ata, Babəki niyə satdı Sumbat?
Ermənidə niyə olmur kəramət?
İgid Babək niyə inandı ona?
Mən Sumbatı bulayajam al-qana.

* * *

Onun sualının olmazdı sonu,
Sevərdi Nəbini, gah Koroğlunu.
Javidan, Babək jəlb edirdi onu,
Oxuyardı Yusif Səmədoğlunu.

* * *

Elə ki, o, çatdı məktəb yaşına,

Yeni fikir düşdü onun başına.
Götürdü kitabla dolu çantanı,
Beşlə sevindirdi ata-ananı.
* * *
Fənlərin hamısın sevirdi Qabil,
Dəqiq elmlərə edirdi meyil.
Müəllimlər oyatmışdı marağı,
Onlar göstərirdi Qabilə qayğı.
* * *
Tədbirlərdə çox fəal idi Qabil,
Dostu idi əmisi oğlu Habil.
İkisi bir oturardı qabaqda,
Gözləri önündə olardı taxta.
* * *
Sakit qulaq asardı müəllimə,
Ağzından çıxmazdı bir artıq kəlmə.
Sonda sual verərdi müəllimə,
Qane edərdi onu birjə kəlmə.
* * *
Dərslərindən həmişə alardı beş,
O, özün öyüb qürrələnməzdi heç,
Qabil sadə aparardı özünü,
Yoldaşdan gizləməzdi bir sözünü.
* * *
Qabil həmişə «sinifkom» olardı,
Yanı-yörəsi dostlarla dolardı.
Müəllimləri onu çox sevərdi,
Fərəhdən daim gözləri gülərdi.
* * *
Ev işlərinə də kömək edərdi,
Qoyun və mal nobatına gedərdi.
Bağı bejərirdi, odun yarardı,
Ata-ana qulluğunda durardı.
* * *

Qardaş-bajı çox sevərdi onu,
Fəxr edərək oxşayardı boyunu.
Müəllimlərinə qoyardı hörmət,
Deyərdi yolumda çəkirlər zəhmət.

* * *

Bütün fənləri ürəkdən sevərdi,
Həmişə oxuyardı və yazardı.
Oxuyub elmi dərindən bilərdi,
O, dastan oxuyardı, şeir yazardı.

* * *

Şəhriyara ithaf etmişdi qəzəl,
Heydərbabasını bilirdi əzbər.
Deyərdi niyə Vətən paralanıb?
Nədən qardaş-qardaşdan aralanıb?

* * *

Allahım, nə olar qurusun Araz,
Açılsın sərhəd, Vətənə gəlsin yaz.
Bajılar sevinsin qardaş boyuna,
Getsin onun nişanına, toyuna.

* * *

İnanıram, elə bir gün gələjək,
Vətən birləşəjək, bütöv olajaq.
Qardaş çatajaq qardaşın hayına,
Gedəjək yasına, həm də toyuna.

* * *

Şah İsmayıl Xətaini çox sevir,
Deyərdi həm sərkədədi, həm şair.
Həyat elə bil möjüzə nağıldı,
O qurduğu dövlət niyə dağıldı?

* * *

Taleyi qarğayıb işi əyəndə,
Düşmənləri ona qalib gələndə,
Bağışlardılar şerinə, sözünə.
Siz bir fikir verin, sözün güjünə.

* * *

Çoxlu romanlar oxuyardı Qabil,
Qəhrəmanlarını sayardı bir-bir.
Deyərdi mən də qəhrəman olajam,
Düşmənləri yurdumuzdan qovajam.

* * *

Qabil orta təhsili vurdu başa,
Attestatda beşləri qoşa-qoşa.
Bütün zəhmətləri arxada qaldı
Məktəbdə ilk medalist şagird oldu.

* * *

Müəllimləri verdi xeyir-dua.
Qabili medalla saldılar yola.
Müəllimlər qarşısında baş əydi,
Əllərin öpərək gözləri doldu.

* * *

Dedi: «Heç zaman unutmaram sizi,
Mən doğruldajam etimadınızı.
Sizin sayənizdə mən medal aldım
O çətin yolları arxada qoydum».

* * *

Onda inam vardı ojağa, pirə.
Çətinə düşəndə gedərdi ora.
Kəndə yaxın idi «Üç qardaş» piri.
Kəsilməzdi ordan Qabilin yolu.

* * *

Pirə gedənlərə yol göstərirdi,
Onları qarşılar, yola salardı.
Qojaya, zəifə arxa durardı.
Güjü çatan qədər kömək edərdi.

## II HİSSƏ

Başladı Qabilin sərbəst həyatı,
Artdı qayğıları, məhsuliyyəti.

Gejə də, gündüz də hey çalışırdı,
O, institutata hazırlaşırdı.

* * *

Yığıldılar qohumlar, ağsaqqallar
Dayıları Əhməd, Famil və dostlar.
Medal almasını təbrik etdilər,
Şənləndilər, oynadılar, güldülər.

* * *

Əmisi Nüsrət, qardaşları və mən
Dedik: -Bala, indi dəyişib zaman,
Qızıl medalın niyə gümüş oldu?
O da sənə mənəvi zərbə vurdu.

* * *

Sən həmişə çıxmısan bərkdən, boşdan
Rus dilini bilirsən azdan, çoxdan.
Bir az da öz üzərində çalışsan,
Rus dilinə bir qədər alışarsan.

* * *

Qabil bu sözləri saf-çürük etdi,
O, hazırlaşaraq Rusiyaya getdi.
Hərbi xidməti orda vurdu başa,
Orada püxtələşib doldu yaşa.

* * *

Həkim olmaq idi onun arzusu,
Çalışırdı bütün gejə-gündüzü.
Birinji imtahandan o beş aldı,
Bütün çətinliklər arxada qaldı.

* * *

Tibb Universitetində oxudu,
Gözəl bir stomotoloq həkim oldu.
Fərqlənmə diplomu göstərdi bizə
Elə bil ki, gün doğdu üzümüzə.

* * *

İrkuts şəhərində işə girdi,

Diş müalijə edər və çəkərdi.
Yaraşıqlı gözəl dişlər salardı,
Yanına gələnlər razı qalardı.

* * *

Saşa həkim ona qoyardı hörmət,
Qabilin yolunda çəkərdi zəhmət.
Həkimlər bəyənərdi onun işin
Həm müalijəsin, həm də çəkilişin.

* * *

Qabil, Valentina, Olya və Saşa
Dördü bir yerdə gəzərdi həmişə.
Olya jan alan mavi gözlü gözəl,
Qabilə atəşin salardı nəzər.

* * *

Məstediji, şuxqamətli gözəli,
Səmimi dost kimi sevərdi Qabil.
Görənləri yandırsa da o gözlər
Qız anjaq Qabilə salardı nəzər.

* * *

Qabil anlayanda qızın fikrini
Ona dedi nişanlı olduğunu.
Dedi: -Mən dost kimi sevirəm səni,
Sən də özünə bir sirdaş bil məni.

* * *

Olya bir müddət bilmədi özünü,
Qabildən çəkə bilmirdi gözünü
Qız mərdliklə ələ aldı özünü,
Qabilə dost kimi dikdi gözünü.

* * *

Qız gözəl bir oğlana ərə getdi,
Qabil dost kimi ona kömək etdi.
Olya da gəldi Qabilin toyuna,
Bizim havalarda girdi oyuna.

* * *

Qabilin işləri yaxşı gedirdi,
Qardaşları onunla fəxr edirdi.
İş yerində çox olardı müştəri,
Sağaldıb sonra salardı dişləri.

* * *

Qardaşlarının yanına gedərdi,
Onların işinə kömək edərdi.
Qardaşları çox istərdi xətrini,
Qabildən alırdı Vətən ətrini.

* * *

İyun doxsan yeddidə toyu oldu,
Sevinj dən doğmaların gözü doldu.
Aldı elimizin gözəl qızını
Ayağı altında kəsdik quzunu.

* * *

Bizim sevinj imiz aşıb-daşırdı,
Oynayanlar meydanda dolaşırdı.
Dostlar və qohumlar yeyib-içirdi
J avanlar özlərinə qız seçirdi.

* * *

Ata-anasının gülürdü üzü,
Gəlinləri idi o, dan ulduzu.
Arzumdur ki, çox ola oğlu, qızı
Körpə səsi bəzəyə evimizi.

* * *

On avqust doxsan səkkizinj i ildə
Rusiyanın İrkutsk şəhərində,
Böyük qızı Gülnar dünyaya gəldi,
Valideynlərin gözləri güldü.

* * *

Beşi iyul iki mininj i ildə
Əminə balası anadan oldu.
Körpə səsi çoxaldı Qabılgildə,
Şənlik, toy-büsat oldu bizim evdə.

* * *

Qızların sevirdi dünyalar qədər
Allah əməyini etməsin hədər.
Vətənə gəlmək idi son arzusu
Vətənində bol olardı ruzisi.

* * *

Qardaşları da sevirdi vətəni,
Görmək istəyirdi ata-ananı.
Qurbət yaman sıxırdı qardaşları
Fikirdən zəhər olurdu aşları.

* * *

Qardaşlar elmi vurmuşdular başa,
Qürbətdə onlar dolurdular yaşa.
Ürəkləri istəyirdi Vətəni
Qohumları, həm də ata-ananı.

* * *

Birinj i Qabil gəlirdi Vətənə,
Yolunu gözləyirdi ata-ana.
Qabilgil Vətənə hazırlaşırdı
O, işlərini sahmana salırdı.

* * *

Qardaşının yanına getdi Qabil,
Onu yanına çağırmışdı Şamil.
Bir sumka pul ilə gələrkən evə
Zalımlar arxadan atdılar güllə.

* * *

On bir mart iki min ikinj i ildə,
Axşam saat səkkiz radələrində,
Qarlı, çovğunlu İrkutsk şəhərində,
Ömrü sona çatdı birj ə gülllədə.

* * *

Güllə ürəyi dağıdaraq getdi,
Bununla da həyatı sona yetdi.
Qabilim aça bilmədi gözünü

Yazıq deyə bilmədi son sözünü.

* * *

Gəlin dul qaldı, iki qız atasız,
Qatil, sizi görüm gorda yatasız.
Niyə qurumadı sizin əliniz?
Gərək kor olaydı, sizin gözünüz.

* * *

Çatdı el-obaya ölüm xəbəri,
Çoxaldı bir nəslin dərdi, kədəri.
Saçların yoldu bajılar, analar
Zalımları gərək gorda yanalar.

* * *

Ömrü qırıldı bir javanın, nərin,
Şivən etdi ana, bajı, qız, gəlin.
İki körpə qızı qoyduz atasız,
Qatillər, sizi jəhənnəmdə yanasız.

* * *

Atası dözmür, ağlar için-için,
Anası dünyadan çəkibdir köçün.
Bajısı həmişə qanlı yaş tökür,
Dərd-qəm qardaşların belini bükür.

* * *

Atası səs salıb külli-aləmə,
Gejə-gündüz sarılıbdı qələmə.
Qələmlə çıxarır ajı-ağrını,
Yarmaq istəyir ölümün bağrını.

* * *

Qızlar hələ gələ bilmir özünə,
Gejələr də yuxu getmir gözünə.
Allah, niyə yatıb bizim bəxtimiz?
Ağlar keçir bizim gejə-günümüz.

* * *

Əşir lənətləyir külli-aləmi,
Hər zaman əlində yazır qələmi.

Vəfasız dünyada anj aq söz qalar
Əhli-hallar oxuyub məni anar,
Balamın ölümünə isə yanar.

# BAYATILAR

## BU DAĞI

Əzizinəm, qan axdı,
Sinəm qanax-qanaxdı.
Oğlu ölən atanın
Gözlərindən qan axdı.

* * *

Əzizinəm bala dağı,
Sinəmdə bala dağı.
Əlin qurusun, yağı,
Sən törətdin bu dağı.

* * *

Əzizinəm, dil açdı,
Körpələrin dil açdı.
El sənə deyər ağı,
Yarın çəkər bu dağı.

* * *

Dağ qarışıbdı dağa,
Dağ da dözməz bu dağa.
Qardaşı ölən baj ı
Nej ə dözər bu dağa?

* * *

Kim törətdi bu qanı?
Bu qovğanı, bu qanı.
Ulu Tanrı, uj asan,
Yerdə qoyma, bu qanı.

* * *

Düşmən pusquda durdu,
Bizi arxadan vurdu.

Əzizinəm, qan axar,
Su yerinə qan axar.
Oğlu ölən ananın
Ürəyindən qan axar.

* * *

Əzizinəm, gül açdı,
Güllə səndən gül açdı.
Baj ı, yolma saçını,
Axı qulaj -qulaj dı.

* * *

Əzizinəm, bu dağı,
Bülbül istər budağı.
Əlin qurusun, qatil!
Kim çəkəj ək bu dağı?

* * *

Bu dərddən dağ əridi,
Gözümdə yağ əridi.
Gülün sındı budağı,
Bülbül çəksin bu dağı.

* * *

Bu Qubadlı dağıdı,
Üstündəki yağıdı.
Məndəki qoşa dağlar
Vətən, oğul dağıdı.

* * *

Əşir dözmür bu dağa,
Vətəndə şahdır dığa.

Bu dərdə dözən ata
Nejə dinjələ, yata?

Vətənim paralanıb
Öyrənmişəm bu dağa.
Bir möjüzə yaransa,
Biz gedərik o dağa.

## APARDI

Əjəl səni tez apardı,
Elə bil atlı çapardı.
Dartıb lap zorla qopardı,
Sel qayadan sal apardı.

* * *

Bülbül öldü, gül ağladı
Dərdi sinəmi dağladı.
Anan saç yolub ağladı,
Saçını da yel apardı.

* * *

Atan ağlar için-için,
Balan, yarın yolar saçın.
Göz yaşım axdı çöllərə,
Onu da ki, sel apardı.

* * *

Qardaşlar gəlmir özünə,
Yuxu da getmir gözünə.
Yarın yanıb külə döndü,
Külünü də yel apardı.

* * *

Ayrılığa dözmür ürək,
Mən Vətəni görəm gərək.
Vətəndə gülürdü ürək,
Onu da qürbət apardı.

* * *

Yaxşılar çox tez gedirlər,
Ürəklərə dağ çəkirlər.
Əlyarımı doğma Vətən,
Qabili qürbət apardı.

* * *

Vətənimi görmür gözüm,
Ayrılığa yoxdur dözüm.
Nurlu idi mənim gözüm,
Onu da şeirim apardı.

* * *

Yoxdu taqət, əsir dizim,
Qəmli çıxır mənim səsim.
Qabilim məni anırdı,
Onu da ki, pul apardı.

* * *

Əsirdi, torpağım, daşım,
Qurumur mənim göz yaşım.
Vardı mənim varım, mülküm,
Onu da düşmən apardı.

* * *

Çoxdur mənim ağrım-ajım.
Vaxtsız ağarıbdı saçım.
Vardı məndə azja dözüm,
Onu da oğlum apardı.

* * *

Əşir nər oğludu, nərdi,
Dərdə-qəmə sinə gərdi.
O, ağladı için-için

Oğul üçün, Vətən üçün.
Daha gülmür mənim üzüm,
Gülüşü qürbət apardı.

# TOPLADIĞIM QƏSİDƏ, QƏZƏL, MƏRSİYƏ, HƏDİS, BAYATI VƏ ŞEİRLƏR

# HƏZRƏTİ MÜHƏMMƏD PEYGƏMBƏR ƏLEYHİSƏLLAMIN HƏDİSLƏRİ

- Üləmaya (alimə) hörmət qoyun, onlar peygəmbərlərin varisləridir.
- Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudurlar.
- Elmi beşikdən qəbirədək öyrənin.
- Elmin fəziləti ibadətin fəzilətindən əzəldir.
- Alim öldü, aləm öldü.
- Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir.
- Mən elmin şəhəri, Əli isə onun qapısıdır.
- Elm Çində də olsa, onun dalınca gedin.
- İki şəxs doymaq bilməz. Elm təşnəsi və dünya malı hərisi.
- Ömrünün uzanmasını və ruzisinin artmasını istəyən kəs valideyninə ehtiram etsin, qohumlarını yoluxsun.
- Bir nəfər Rəsulullahın yanına gəlib soruşur. Ya peyğəmbər, mən daha kimə yaxşılıq etməliyəm? Cavab verdi: “Anana”. Üç dəfə təkrarən soruşub eyni cavab alan o adam bir də: Bəs sonra kimə? Rəsuliəkrəm buyurdu: “Sonra atana”
- Üç duanın qəbul olunacağına şübhə yoxdur. Məzlumun duası və ata-ananın övladına etdiyi dua.
- Ən savab iş ehtiram və qohumlara mərhəmət göstərmək, ən şər əməl isə zülm və qohumluq tellərini qırmaqdır.
- Qohumluq yaxın adamlar arasında sevgi, bol varidat və uzun ömür deməkdir.
- Özünə aid olmayan işə qarışmayan şəxs hamıdan yüksəkdə dayanır.
- Hər bir adam valideyninə yaxşılıq etməlidir. Hətta velideyni ona əziyyət vermiş olsa da.
- Təkəbbür insanı alçaldır və kiçildir.
- Səxavətli nadan Allah yanında bilikli paxıldan hörmətlidir.
- Danışığa başlayanda düz danış, boş vədə verməyin, inamınız olsun, tərsinə iş görməyin, pak olun və nəfsdən uzaqlaşın.
- Allahın ən böyük düşməni İslamı qəbul etsə də alçaq işlər görənlər və nahaqdan bəşər qanını tökənlərdir.
- Öz ümmətimdə hər şeydən çox məni qorxudan qarınqululuq, çox yatmaq, bekarçılıq və imansızlıqdır.

- Qadınlarla xoş rəftar edin. Çunki onlar ananız, qızınız və xalanızdır.
- Müsəlman müsəlmanın qardaşıdır, nə zülm edər ona, nə də yalqız qoyar onu.
- Qiyamət günü Allahtaala iki şəxsə rəhm etməz: qohumluğu pozana və pis qonşuya.
- Dünya malını ağlı olmayan toplayar.
- Elə bir zaman gələcək ki, adam bilməyəcək aldığı halal maldır, yoxsa haram.
- Üç cür adam Allahın qəzəbinə gələr: tox ola-ola yeyən, gününü yatmaqla sovuran, mənasız yerə gülən.
- Evlənməyə qadir ola-ola evlənməyən kəs mənim ümmətimdən deyil.
- Həyası olmayanın imanı da olmaz.
- Qüvvətli adam güləşdə qalib gələn deyil, qəzəblənən vaxtı qəzəbini boğa biləndir.
- Bir nəfər Həzrəti Peyğəmbərdən soruşur: Ya Rəsulullah, insanların ən xeyirlisi kimdir?

  -Ömrü uzun, əməli gözəl olandır.

  -Bəs pisi kimdir?

  -Ömrü uzun, əməli bəd olandır – deyə cavab verir.
- Gözü kor olan yox, bəsirəti tutulan kor sayılar.
- Müsəlmanın ən yaxşısı kimdir – deyə soruşan şəxsə Həzrəti Peyğəmbər buyurdu ki: O adamlardı ki, dilindən və əlindən müsəlmanlara xətər toxunmaz.
- Haramdan uzaq ol, qonşuya yaxınlıq et, çox gülmə, artıq gülüş qəlbi öldürər.
- Gözəl həyat dinin yarısıdır.
- Gözəl əxlaqı olan və yaxın adamlarına münasibətdə xoş rəftarı ilə seçilən iman sahibi möminlərin ən kamilidir.
- Millətim üçün üç şeydən qorxuram: Alimin xətasından, münafiq (riyakarın) Quran haqqında cəfəng danışığından və mənəviyyatı (əxlaqı) məhv edən mühitdən.
- Millətin içində xəyanəti olmasa, düşmən qarşımızda tab gətirə bilməz.
- İnsanların ən yaxşısı camaatın xeyrinə çalışanlardır.
- Allahtaalanın nəzərində ən yaxşı dost öz dostuna sadiq olan, ən yaxşı qonşu isə qonşusu ilə yaxşı dolanandır.
- Allahtaala gözəldir və gözəlliyi sevər.
- Təkəbbürlük, insanlara qarşı saymazyanalıq və insanlara biganəlik deməkdir.
- Namaz möminin nuru, oruc isə cəhənnəm önündə cənnətə sipərdir.

- Bir-birinizə nifrət bəsləməyin, paxıllıq etməyin, bir-birinizə arxa çevirməyin ey Allahın bəndələri, qardaş olun.
- Qənaətlə dolanan kasıb olmaz.
- Beş kimsəyə xor baxan adam beş şeyi itirər. Üləmaya məhəl qoymayan dinini, hökmdarları saymayan bu dünyasını, qonşusu ilə ünsiyyət saxlamayan mənfəətini, qohum-əqraba ilə əlaqəsi olmayan mehribançılığını, ailəsinə biganə olan isə xoş güzəranını.
- Qənaətçillik – güzəranın, camaatla mehriban rəftar ağlın, ağıllı sual isə elmin yarısıdır.
- Hər millət bir şeyin hərisidir, mənim millətim isə dünya malına hərisdir.
- Bir iş görmək istəsən sonunu düşün, sonu xeyirdirsə, ondan yapış, şərdirsə fikrindən daşın.
- Ancaq iki adama həsəd aparmaq olar: birincisi, Allahtaalanın verdiyi val-dövləti haqq yolunda sərf edən adamdır. İkincisi, Allahtaalanın verdiyi hikməti başqalarına öyrədəndir.
- Ağlın qüdrəti Allaha iman gətirəndən sonra xalqı sevməkdə ölçülür.

## BEŞ HİKMƏK

- Beş şey qəbahətdir: qoca adamın eşqə düşməsi, hökmdarın hiddətlənməsi, şərəfli adamın yalan danışması, dövlətinin xəsisliyi, alimin tamahkarlığı.
- Beş şeyi öldürmək günahdır: meymunu, dəvəquşunu, şanapipiyi, bal arısını, qarışqanı.
- Beş şeyi öldürmək günah deyil: qarğanı, canavarı, əqrəbi, ilanı və quduz iti.
- Beş şey böyük nemətdir: cansağlığı, əmin-amanlıq, ruzi bolluğu, müvafiq munis, yaxşı övlad.
- Beş şey yaxşıdır: elm, ədalət, səxavət, səbr, həya. Elm alimlərdə, ədalət hakimlərdə, səxavət varlılarda, səbr yoxsullarda, həya qız-gəlinlərdə. Elmsiz adam tavansız ev kimidir. Ədalətsiz hakim susuz arx kimidir. Səxavətsiz varlı meyvəsiz ağac kimidir. Səbrsiz yoxsul işıqsız lampa kimidir. Hayası olmayan qız-gəlin dadsız təam kimidir.
- İnsanın boynunda beş haqq var: Salamın cavabını almaq, çağırışa getmək, qonşuluqda sülh yaratmaq, xəstəyə baş çəkmək, dəfndə iştirak etmək.

- Elm beş şeydə cəmləşir: çox sual etmək, çox məşğul olmaq, pak işlər görmək, dahilərə xidmət etmək və səbr.

# HƏZRƏTİ İMAM ƏLİ ƏLEYHİSSALAMIN KƏLAMLARI

- Övladın ata boynunda, atanın da övladın boynunda bir neçə haqqı var. Övladın borcu odur ki, ataya hər şeydə itaət edə, atanın haqqı odur ki, övlada yaxşı ad verə, ona gözəl əxlaq, "Quran" və elm öyrədə.
- Hər kişinin malına iki şərik var: vərəsəlik və hadisələr.
- Padşahlar yer üzündə Allahın gözətçiləridir.
- Elm və bilik bəhanə axtaranların yolunu kəsər.
- Yaxşı dost qohumdan əzizdir.
- Qənaətlə padşahlığa çatmaq olar, yaxşı xasiyyətlə naz-nemətə.
- Tamahkar xar və zəlildir.
- Pislik edənə yaxşılıq etməklə əziyyət ver.
- Dostları əldən vermək qəriblikdir.
- Varlılıq qərib yerdə vətəndir, yoxsulluq isə öz vətənində qəriblik.
- Ən böyük dövlət ağıldır, ən böyük yoxsulluq isə nadanlıq.
- Bəxşiş et, israfçılıq etmə.
- Ağıllı adam odur ki, gördüyü işin aqibətini qabaqcadan fikirləşsin.
- Gözəllik insanın geyimində deyil, elm və ədəbindədir.
- Dost və düşmənə qarşı ədalətli ol.
- Hər kəs alimlərlə oturub-dursa ehtiram tapar.
- Hər kim çox zarafat etsə, hörmətsiz olar.
- Tez-tez görüşmək inciklik gətirər.
- Özünü bəyənmək ağlın azlığına dəlalət edir.
- Yoxsulluq zirəng adamı da lal edər.
- Səbr etmək şücaət və məharətdir.
- Fürsət bulud kimi ötüb keçəndir, yaxşı fürsəti əldən verməyin.
- Axmağın dili onun ağzındadır, ağıllının dili isə onun ürəyindədir.
- Sənin eyiblərin örtülüdür o vaxta qədər ki, malın və vəzifən var.
- İki adam mənim yolumda həlakdır: dostum və düşmənim.
- Hər kəs səbr edə bilməsə: tabsızlıq-dözümsüzlük onu puç edər.

- ❖ Tünd xasiyyət dəliliyin əlamətidir, ona görə tündxasiyyət adam peşiman olar. Əgər peşiman olmasa, onda dəliliyi yerindədir (dəlidir).
- ❖ Dostuna bütün sirlərini açma, bir gün həyat onu sənə düşmən edər, peşiman olarsan. Düşmənçilikdə pərdəni yırtma, bir gün gələr dostlaşarsan, xəcalət çəkərsən.
- ❖ Axmaq adamla dostluq etmə, o istəyir öz işini sənə sevdirsin və səni öz gününə salsın.
- ❖ Sözü nə qədər ki, danışmamısan – sənin qulundur, danışdın sən onun qulusan. Dilini qoru, necə ki, qızılı xəzinədə qoruyarsan. Çox olub ki, bir kəlmə ilə nemətləri əldən verib, əzablara düçar olublar.
- ❖ Ağıllı kişilər sözləri ilə elə işlər görürlər ki, həmin işləri qılınc və kötək gücünə görmək mümkün deyil.
- ❖ O ruzi ki, kifayət edər, bəsdir.
- ❖ Dul qadınlara və yetim uşaqlara rəhm edin, məzlumlara arxa olun.
- ❖ Abırlı olub ümidsiz qalmaq əl açıb dilənməkdən yaxşıdır.
- ❖ Heç kəsin sirrini faş etmə, lap o, özü sirrini faş etsə də.
- ❖ Ağıldan böyük gözəllik yoxdur.
- ❖ Gözlərini naməhrəmdən çəkməyən adam peşimançılıq çəkər.
- ❖ Ağıllı adam uzaqgörən olar.
- ❖ Mehriban yoxsul biganə varlıdan yaxşıdır.
- ❖ Minnət qoymaq yaxşılıqları batil edər.
- ❖ İnsanın qiyməti onun etdiyi yaxşılıqlarıyla ölçülür.
- ❖ Dili şirin olan adamın qardaşları çox olar.
- ❖ Tamahkar adam haramdan əl çəkməz.
- ❖ Paxıl adamın rahatlığı olmaz.
- ❖ Məkr və hiyləsi gizli olan şəxs ən böyük düşməndir.
- ❖ Ədavət qəlb üçün böyük yükdür.
- ❖ Paxıl adam günahsız adama da qeyzli olar.

# HƏZRƏTİ ƏLİDƏN (Ə) 313 HƏDİS

1. Allahın mənası yaradılmışların mat-məətəl, Heyran qaldıqları və pənah aparılan məbuddur. Allah gözlərin görə bilmədiyi, xəyal və təsəvvürlərindən uzaq olan varlıqdır.

2. Allah adı, Allah-təalanın adlarının ən böyüyüdür. Elə bir ad ki, Allahdan başqasına layiq deyil və bu ad heç bir məxluqa verilməz.
3. İmamət ümmətin işlərinin nizamıdır.
4. Bu işi (imaməti) ancaq səbr əhli olan, gözaçıq və işlərdən baş çıxaran kəs çiyinlərində çəkə bilər.
5. İmam və rəhbər gərək haqq yolunda ağıllı fikrə, iti dilə və coşğun qəlbə malik olsun.
6. Özünü camaatın rəhbəri etmiş kəs başqalarını öyrətməmişdən əvvəl özünü öyrətməli və başqalarını söz ilə ədəbləndirməmişdən əvvəl əməli ilə özünü ədəbləndirməlidir.
7. Allahın əmri (İlahi hökmün icrasında) bac verməyən, geri çəkilməyən və şəxsi mənafe dalınca getməyən kəsdən başqa heç kəs icra və bərpa edə bilməz.
8. Badəti vacib olan imamın vilayətinin böyük sərhədləri bunlardır: Məlum olmalıdır ki, o, səhvdən büdrəmədən, bilərəkdən edilən günahdan, ümumiyyətlə bütün günahlardan (istər böyük olsun, istər də kiçik) uzaqdır, pak və müqəddəsdir. O, nə büdrəyər nə, səhv edər. O, dinin dəyişdirilməsinə heç cür qol qoymaz, heç vaxt əyyaşlıq və kef etməz, Allahın Həlal-Haramında, onun vaciblərinə, müstəhəbbilərində və digər Hökmlərində insanların ən səxavətli və ən şücaətlisidir.
9. Allah məni öz yaratdıqlarının imam və başçısı etdi. Buna görə də yeyib-içmək və geyimimdə yoxsullar kimi olmağımı əmr edib ki, yoxsul öz yoxsulluğunda mənimlə təsəlli tapsın, varlını öz zənginliyi azğınlıq və itaətsizliyə çəkməsin.
10. Həqiqətən, imama Allahın onun öhdəsinə qoyduğu şeylərdən başqa heç nə vacib deyil (və onlar ibrətdir:). Moizə və öyüd-nəsihət verməkdə səhlənkarlıq etməməli, xeyirxaqlıq istiqamətində çalışmalı, sünnəni dirçəltməli, layiq olan barəsində Allahın müəyyənləşdirdiyi ilahi Hədd və cəzaları icra etməli və (beytül-maldan olan) payları payı olan kəslərə çatdırmalıdır.
11. İmam Allahın kitabı əsasında hökm çıxarmaq və əmanəti sahibinə qaytarmaq vəzifəsi daşıyır. O, belə edəndən sonra camaatın vəzifəsi onun sözlərinə qulaq asmaq, əmrlərinə tabe olmaq və onları (Hər hansı bir işə) çağıranda (çağırışa) cavab verməkdir.
12. Hakimin vəzifəsi budur ki, hansısa bir fəzilət və üstünlük əldə edəndə və ya ona bir nemət veriləndə Halı dəyişməsin, onun rəiyyətlə rəftarının dəyişməsinə səbəb olmasın. Allahın ona nəsib etdiyi nemətlər onun Allah bəndələrinə yaxınlaşmasına və qardaşlarına mehribanlığını artırsın.

Bilin sizin boynumda olan haqqınız, müharibə istisna olmaqla sizdən Heç bir sirr gizlətməməyim, hökm çıxarmaq istisna olmaqla, sizinlə məsləhətləşmədən bir iş görməməyim və Haqqlarınızı gecikdirməməyim (sizin Haqq və bəxşişlərinizi vaxtında verməyimdir), onun çatdırılmasını ləngitməməyim və sizin hamınızı bərabər bilməyimdir. Beləliklə, mən belə etdikdən sonra Allahın neməti sizə vacib olur və sizin mənə tabe olmağınız vacibdir.

13. Allah yanında ən pis adam özü azğın olduğu Halda camaatı da azğınlığa salan zülmkar rəhbərdir. Çünki, o, əməl olunan sünnəni öldürür və tərk edilmiş, atılmış bidəti dirildir. Allahın Peyğəmbərinin belə buyurduğunu eşitmişəm: "Qiyamət günü zülmkar rəhbər bir arxa və hamisi olmadan gətiriləcək. Beləliklə cəhənnəm oduna atılacaq və orada dəyirman daşı kimi fırlanacaq. Sonra cəhənnəmin dibində zəncirlənəcək."
14. Haqqdan başqa heç nə ilə ünsiyyətdə olub isinişmə və batildən başqa heç nədən üz döndərmə.
15. Ədəb insanın kamalıdır.
16. Ey mömin! Sənin canının qiymət və dəyəri elm və ədəbdir. Odur ki, bu iki şeyi əldə etməyə çalış! Çünki elm və ədəbin hər nə qədər artsa, qədər-qiymətin də bir o qədər artar.
17. Ədəb xislətlərin ən gözəlidir.
18. Ataların övladları üçün qoyduqları ən yaxşı miras ədəbdir.
19. İnsanlar qızıl-gümüşdənsə gözəl ədəbə daha çox möhtacdırlar.
20. Gözəl ədəb ən üstün əsil-nəsəb və ən yüksək qohumluqdur.
21. Ədəb öyrən! Çünki o, əsil-nəcabət şərəfinin zinətidir.
22. Gözəl ədən əsil-nəcabət şərəfini əvəz edir.
23. Ədəbdən xeyirli şərəf yoxdur.
24. Ədəbi olmayanın əsil-nəcabət şərəfi puç olar.
25. Sizin zinətiniz ədəbdir.
26. Ədəb kimi zinət yoxdur.
27. Hər şey ağla möhtacdır, ağıl isə ədəbə.
28. Ədəb insanda kökü dərin olan ağac kimidir.
29. Kimin ədəbi ağlını örtsə, o çoxlu qoyunlar arasında olan çoban kimidir.
30. Ağlı olmayanın ədəbi olmaz.
31. Gözəl ədəb ağlın paklaşmasına səbəb olar.
32. Kim ədəbə könül versə, pislikləri azalar.

33. Ədəb zehnin itiliyinə səbəb olur.
34. İnsanın elmi artanda ədəbi çoxalar və onda olan Allah qorxusu bir neçə dəfə artar.
35. Ən yaxşı ədəb insanın öz həddində qalması və həddini aşmamasıdır.
36. Ən yaxşı ədəb səni xoşagəlməz və haram işlərdən saxlayandır.
37. Kim böyük Allahın ədəb qaydalarına yiyələnsə, (həmin ədəb o şəxsi) ədəbi qurtuluşa çatdırar.
38. Allahın ədəbi və tərbiyə qaydaları əsasında düzəlməyən kəs öz ədəbi əsasında da düzəlməz.
39. Bəla zalımın ədəblənmə amilidir.
40. Möhkəm dağları yerindən qoparmaq bir-birinə nifrət edən qəlbləri bir-birinə bağlamaqda daha asandır.
41. Səxavətli ol, amma israfçı olma! Qənaətcil ol, amma bərk olma!
42. İsrafçılıq yoxsulluğun başlanğıcıdır.
43. İsrafçılıqla öyünən kəs yoxsulluqla xar olar.
44. İsrafçılıq müflisliklə yoldaşdır.
45. Ədalətlə bərəkətlər qat-qat artır.
46. Cinayətlər aşkar şəkildə ediləndə bərəkətlər aradan gedir.
47. Gülərüzlülük dostluq kəməndidir.
48. Gülərüzlülük azad insanın xislətidir.
49. Gülərüzlülük məhəbbət kəndidir.
50. Möminin sevinci üzündə, qüdrəti dinində, kədər qəlbindədir.
51. Gülərüzlülüyün sənin alicənablığın və nəfsinin kəramətinin nişanəsidir.
52. Qardaşlarınızla görüşən zaman bir-birinizə əl verin, onlara gülərüzlülük və təbəssüm göstərin ki, ayrılarkən günahlarınız tökülsün.
53. İnsanların dostlarının ürəklərini ələ almaları və düşmənlərinin qəlbində kinləri təmizləmək üçün ən yaxşı vasitə onlarla qarşılaşanda gülərüzlü olmaları, yanlarında olmayanda halları ilə maraqlanmalı və yanlarında olanda təbəssüm etmələridir.
54. Bəlağət odur ki, danışılması səlist, başa düşülməsi isə asan olsun.
55. Bəlağət odur ki, cavab verməkdə kütlük etməyəsən, məqsədini çatdırasan və söz oxun hədəfdən yayınmasın.
56. Bəzən bəlağətdə yanız müxtəsər söyləmək kifayətdir.
57. Sənin əməlinin savabı əməlin özündən üstündür.

58. Axirətin savab və mükafatı dünyanın əziyyət və çətinliklərini yaddan çıxarır.

59. Eyb və nöqsanlı sifətlərdən pak və uzaq olan Allah bəndələrini öz qəzəb və əzabından saxlamaq və öz cənnətinə tərəf sövq etmək məqsədi ilə ona itaət edənlər üçün savab və mükafat, itaət etməyənlər üçün isə cəza müəyyənləşdirdi.

60. Əməlin savabı onun əziyyəti və zəhməti qədərdir.

61. Ən böyük savab insafın savabıdır.

62. Cihadın savabı ən üstün savabdır.

63. İki şeyin- əfv etmək və ədalətin savabının ölçülməsi və çəkilməsi qeyri mümkündür.

64. Alimlərlə otur ki, elmin artsın, tərbiyə və ədəbin kamilləşsin, ruhun paklaşsın.

65. Müdriklərlə yoldaş ol ki, ağlın kamilləşsin, ruhun ucalsın və nadanlıq səndən köçüb getsin.

66. Yosxullarla otur ki, (Allaha) şükr etməyin artsın.

67. Nəfsinin istəklərinin ardınca gedənlərlə yoldaşlıq etmək imanın unudulması və şeytanın (insanın yanında) hazır olmasına səbəb olar.

68. Möminin üzünün gözəlliyi Allahın ona olan hüsn-rəğbətindəndir.

69. Allah-təala qadının çöhrəsini (və gözəlliyini) onun üzündə, kişinin çöhrəsini (və gözəlliyini) onun dilində qoyub.

70. Bilin! Mən cənnət kimi elə bir yer görmədim ki, onu axtaran yuxuya dalsın və cəhənnəm kimisini də görmədim ki, ondan qaçan yuxuya gedib uyusun.

71. Cənnət ən üstün məkandır.

72. Cənnət əmin-amanlıq və rahatlıq sarayıdır.

73. Həqiqətən sizin canlarınızın qiyməti cənnətdən başqa bir şey deyil. Onu cənnətdən başqa bir şeyə satmayın.

74. Cənnətin qiyməti saleh və yaxşı əməldir.

75. Cənnətin qiyməti qəlbdən dünya məhəbbətini silməkdir.

76. Əldə etdiyin hər şeyi bəxşiş et ki, hörmətin olsun.

77. Səxavət insanı əleyhdarlarına da sevdirər, simiclik isə hətta ona qarşı övladlarında da nifrət oyadar.

78. Səxavət alicənablıqdan irəli gəlir.

79. Səxavət əsl başıucalıqdır.

80. Ən böyük səxavət yoxsul vaxtı bəxşiş etməkdir.

81. Sizi Allaha and verirəm qonşularınızla mehriban olun. Onlarla mehriban olmağınız peyğəmbərimizin tövsiyəsidir. O Həzrət (s) qonşular barədə o qədər tövsiyə edirdi ki, elə güman et ki, onları varis təyin edəcək.
82. Qonşunun hal-əhvalı ilə maraqlanmaq yaxşı qonşuluğun əlamətindəndir.
83. Məscidin hüdudları qırx zirvədir, mənzildən hər dörd tərəfə qırx ev də qonşu sayılır.
84. Dostluq qazanılan qohumluqdur.
85. Qohumluğun dostluğa daha çox ehtiyacı var, nəinki dostluğun qohumluğa.
86. Üç xasiyyət dostluğa çəkib gətirər; gözəl əxlaq, mehribanlıq və təvəzökarlıq.
87. Avam insanın dostluğu dağılan buluda və səhrada gözdən itən ilğıma bənzər.
88. Bəd əməl insanların dostluq ipləri, hər bir başqa dostluqdan daha tez qırılar.
89. Məbadə, Allahın düşmənləri ilə dostluq edəsən, ya da qəlbini Allahın dostlarından qeyrisinə bağlayasan. Çünki, qiyamət günü hər kəs sevdiyi insanlarla birgə məşhər ayağına çəkiləcək.
90. Aşiqin gözü məşuqun eyblərini görməyə kor, qulağı onun pislikləri barədə eşitməyə kardır.
91. Hər kəsin sevdiyi şey onun dilinin əzbəri olar.
92. Allah-təala bəndəni sevən zaman ibadət məhəbbətini onun qəlbinə salar.
93. Ey insanlar! Adəmdən nə bir qul törənib, nə də kəniz. Bütün insanlar azaddırlar.
94. Başqalarına qul olma, Allah səni azad yaradıb.
95. Gülərüzlülük azad insanın xislətidir.
96. Həya və iffət imanın xislətindədir. Bunun ikisi də azad insanların təbiəti və yaxşı insanların xasiyyətidir.
97. Qane olan qul azaddır, tamahkar azad isə quldur.
98. Əgər kəramət və alicənablıq istəyirsənsə, haramlardan uzaqlaş.
99. Ən gözəl əxlaqi xüsusiyyət haramlardan çəkinməkdir.
100. Əgər Allah-təala nalayiq işləri qadağan etməsəydi belə ağıllı insan yenə də onlardan çəkinməliydi.
101. Uzaqgörənlik zirəklikdir.
102. Uzaqgörən şəxs ehtiyyatlı, uzaqgörənliyi dərk edən isə qorxusuz olar.
103. Kim sonun düşünmədən işə başlayarsa, özünü çətinliklərin təhlükəsinə atar.
104. İşə başlanmamış düşünmək səni peşmançılıqdan amanda saxlayar.
105. İnsanların ən ağıllısı öz aqibətini ən çox düşünəndir.

106. Qələbə uzaqgörənlik və güclü iradə ilə qazanılar.

107. Uzaqgörənlik olmayan əsm və qərarda xeyir yoxdur.

108. Uzaqgörənlik aqibəti düşünmək və müdriklərlə məsləhətləşməkdir.

109. Uzaqgörənliyin kökü şübhə yarananda dayanmaqdır.

110. Sınamamış etimad etmək uzaqgörənliyə ziddir.

111. Uzaqgörən şəxs odur ki, dünyanın aldadıcı mənzərəsi onu axirət naminə çalışmaqdan çəkindirməsin.

112. Uzaqgörən şəxs özünə yaxşı dost seçər. Çünki insana öz dostu ilə qiymət verilir.

113. Uzaqgörən şəxs odur ki, nemət və var-dövlət onu axirət üçün çalışmaqdan saxlamasın.

114. Uzaqgörən şəxs odur ki, qəzəbin şölələri şahə qalxanda cəza verməyi təxirə salsın və ilkin fürsətdə pisliyin əvəzini yaxşılıqla ödəməyə çalışsın.

115. Sizin ən uzaqgörəniniz ən təqvalınızdır.

116. Yaxşılıq etmək sənin işin olsun. Bu, ən yaxşı əkin və ən yaxşı xeyir gətirən maldır.

117. Bəndələrə yaxşılıq etmək o biri dünya üçün ən gözəl azüqədir.

118. Zəkat yaxşılıq etməyin qələbəsidir.

119. Çox yaxşılıq edən kəsi dostları, qardaşları sevərlər.

120. Yaxşılıq etməklə qəlblər ələ alınar.

121. Sənin öz düşmən və bədxahlarına yaxşılıq etməyin onlara pislik etməyindən daha təsirlidir və bu, onların islah olunmasına səbəb olar.

122. Əgər yaxşılıq etsən özünə hörmət qoyub özünə yaxşılıq etmisən, əgər pislik etsən özünü xar etmiş və özünə zərər yetirmisən.

123. Hikmət – müdriklərin gülzarı və aqillərin seyrangahıdır.

124. Hikmət – qəlbdə bitən və dildə bar verən bir ağacdır.

125. Hər kəs hikmətinə görə tanınarsa, gözlər ona vüqarlı və əzəmətli nəzərlərlə baxar.

126. Hikmət möminin itirdiyidir, onu müşrikin yanında olsa belə axtarın! Çünki, siz ona daha layiqsiniz və daha çox haqqınız çatır.

127. Hikmət möminin itirdiyidir, onu münafiqlərdən də olsa öyrənin.

128. Öz ehtiyacına hikmətli olmayan şəxşsə bildirən hikmət sahibi deyil.

129. Bir şəxslə yaxşı rəftar etməkdən başqa çarəsi olmayan onunla yaxşı davranmasa, hikmətdə heç bir payı olmaz.

130. Şəhvətinə və nəfsi istəklərinə qalib gələn, hikmətin hakimlik dərəcəsinə çatacaq.
131. Hikmət günahdan çəkinməkdən başqa heç bir yolla əldə olunmaz.
132. Şəhvətlə hikmət bir yerə sığmaz.
133. Hər kimin qəlbində hikmət yer taparsa, ibrət götürən olar.
134. Müdriklər hikməti əhli olmayanların əlinə verəndə onu pozdular.
135. Sənə halaldan istifadə etməyi, ailənə yaxşılıq etməyi və bütün hallarda Allahı yad etməyi tövsiyyə edirəm.
136. Dözümlülük ağlın kamilliyidir.
137. Dözümlülük möminin işinin nizama düşməsinin səbəbidir.
138. Kişinin gözəlliyi onun dözümlülüyü ilə ölçülür.
139. Əgər dözümlü deyilsinizsə də özünü dözümlü kimi göstər. Çünki özünü başqa insanlara bənzədib sonunda onlardan birinə çervilməyən çox az adam tapılar.
140. Dözümlü o kəsdir ki, öz qardaşlarına qarşı dözümlü olsun.
141. Ağlın artması ilə dözümlülük də artar.
142. Sənə dözümlü olmağı tövsiyə edirəm, çünki o elmin səmərəsidir.
143. Dözümlülüklə vüqar yüksək əzm və iradədən doğulmuş iki əkizdir.
144. Dözümlü olan ağalıq edər.
145. Düşməninə qarşı dözümlü olan ona qalib gələr.
146. Dözümlü şəxsin bu xasiyyətindən götürdüyü ilk bəhrə, nadanın müqabilində xalqın onun köməyinə gəlməsidir.
147. Qəzəbin şiddətli vaxtında dözüm göstərmək insanı Allahın qəzəbindən amanda saxlar.
148. Ən dözümlü şəxs qəzəblənməyən şəxsdir.
149. Sənin qardaşın sənin dinindir. Belə isə, bacardığın qədər öz dinindən muğayət ol.
150. Həya hər bir gözəlliyə və yaxşılığa çatmaq üçün vasitədir.
151. Həya bütün yaxşılıqların açarıdır.
152. İnsanların ən ağıllısı onların ən həyalısıdır.
153. Həya pisliyə mane olar.
154. Həya iffətin səbəbidir.
155. Utancaqlıq məhrumiyyətə yaxındır.
156. Utancaqlıq ruzinin yolunda maneədir.
157. Kim haqqı deməyə utanırsa axmaqdır.

158. Xalqdan həya etməyən kəs sübhan olan Allahdan da həya etməz.
159. Həyanın zirvəsi insanın özü özündən həya etməsidir.
160. Təvazökarlıq dua üçün necə də gözəl köməkçidir.
161. Qəlbi xoşu halında olanın bədən üzvləri də xoşu halında olar.
162. İxlas dinin ən yekun dərəcəsidir.
163. İxlas (Allaha) yaxın olan kəslərin ibadətidir.
164. İxlas ibadətin ölçüsü və meyarıdır.
165. İxlas imanın zirvəsidir.
166. Nicat və xilas ixlasdadır.
167. Xoş o kəsin halına ki, əməli və elmi, dostluğu və düşmənçiliyi, götürməyi və qoymağı, nitqi və sükutu, əməli və danışmağı yalnız Allah üçün ola.
168. Gözəl əxlaq möminin kitabının sərlövhəsidir.
169. Gözəl xasiyyət bütün yaxşılıqların mənşəyidir.
170. Gözəl əxlaq üç şeydədir; Haram işlərdən uzaqlaşmaqda, halal arxasınca getməkdə, ailənin əsayiş və rifahını təmin etməkdə.
171. Salam vermək gözəl əxlaqdan irəli gəlir.
172. Sizə əxlaqi kəramətləri kəsb etməyi tövsiyə edirəm. Çünki onlar yüksəliş və başucalığının mənşəyidir. Pis xasiyyətlərdən uzaqlaşın. Çünki onlar şərəfli insanları alçaq edər, əzəmət və alicənablığı aradan götürər.
173. Əxlaqi kəramətləri əldə etmək yolunda ciddi və sabitqədəm olun.
174. Ən gözəl əxlaqi kəramət isradır (köməkçi olmaqdır).
175. Ən yaxşı əxlaqi kəramət güclünün (intiqam almaqdan ) güzəştə getməsi və özünün ehtiyacı olan şəxsin bəxşiş verməsidir.
176. Ən üstün kəramət və səxavət, neməti (bir kəsə) tamamlamaqdır.
177. Əxlaqını gözəl et ki, Allah sənin hesabını asan etsin.
178. Pis əxlaq bağışlanmayan günahdır.
179. Pis əxlaq sahibinin ailəsi onun əlindən sıxıntıya düşüb bezar olar.
180. Hövsələsiz (və tündxasiyyət) olanın rahatlığı az olar.
181. Ən çox ehtirama layiq olan xasiyyət səxavət, faydası daha əhatəli olan xasiyyət isə ədalətdir.
182. Əgər bir kəsdə bir gözəl xasiyyət olarsa, onda digər gözəl xasiyyətlərin də üzə çıxmasını gözləyin.
183. Xeyir əməl əbədi qalan qazanc, saf və təravətli meyvədir.
184. Xeyir ağacı əkən ondan ən şirin meyvələr dərər.

185. Kim xeyirli bir iş görərsə bu işin nəticəsi hamıdan əvvəl onun özünə yetişər.
186. Yaxşı iş pis işdən asandır.
187. Üç şey xeyirlərin cəmidir: nemət bəxş etmət, əhd-peymana sadiq olmaq və sileyi-rəhm (qohumlara baş çəkmək)
188. Ədəbi qalan şeylərə əməl etmək və yox olub aradan gedən şeyləri alçaq bilmək bütün xeyirlərin cəmidir.
189. Allaha xatir dostluq və Allaha xatir düşmənçilik etmək, Allaha xatir sevmək və Allaha xatir nifrət etmək bütün xeyirlərin cəmidir.
190. Əqlin meyvəsi insanlarla mehriban davranmaqdadır.
191. Dinin və dünyanın salamatlığı xalqla mehriban olmaqdadır.
192. Öz düşmənlərinə mehriban davranan kəs müharibələrdən amanda qalar.
193. Əgər xoşluqla rəftar etmək bir kəsi islah etmirsə, ağır cəza vermək onu düzəldər.
194. (Öz səhabələrini məzəmmət edərkən) nə vaxta qədər sizinlə kürəyində yara olan cavan dəvələr və köhnəlmiş paltarlarla davranılan kimi ehtiyatla rəftar edəcəyəm? Bir tərəfdən tikiləndə o biri tərəfdən sökülən paltarlar kimi ... Mən bilirəm, sizi nə islah edər, sizin əyrilərinizi nə düzəldər. Amma mən sizin islah olunmanızın özünü xarab etmək bahasına başa gəlməsini rəva bilmirəm.
195. Bil ki, dünya və axirət aləminin sahibi olan kəs sənə onu çağırmağa icazə və sənin duanı qəbul etməyə zəmanət vermişdir. Sənə əmr etmişdir ki, onu çağırasan, o da bəxş etsin. O, mehriban və bağışlayandır. Səninlə özü arasında bir hicab qoymamış və səni bir vasitəçi gətirməyə vadar etməmişdir... Sonra öz xəzinələrinin və sərvətlərinin açarı olan duanı və ondan (nemət) istəməyi sənin ixtiyarına vermişdir. Beləliklə, sən istədiyin vaxt dua etməklə Onun xəzinələrinin qapısınını açarsan.
196. Dua, rəhmət qapısının açarı və qaranlıqda (işıq saçan) çıraqdır.
197. Yer üzündə Allahın ən çox sevdiyi iş duadır.
198. Dua möminin sipəridir.
199. Bəla dalğalarını dua ilə geri qaytarın. Başı bəlalar çəkmiş, bəladan canı boğazına yığılmış şəxsin duaya olan ehtiyacı asudə yaşayan, ancaq bəladan amanda olmayan şəxşsdən çox deyil.
200. Dünya ən alçaq (ya ən yaxın) şey olduğu üçün “dünya” adlanıb. Axirətə də, orada əvəz və mükafat olduğuna görə “axirət” deyilir.

201. İnsanlar dünyanın övladlarıdır. Heç kəs anasını sevdiyinə görə məzəmmət olunmaz.
202. Axirət dünya ilə əldə olunar.
203. Həqiqətən, pak və müqəddəs Allah dünyanı ondan sonra üçün yaradıb. Dünya əhlini onda imtahana çəkir ki, kimin ən yaxşı əməl sahibi olduğu məlum olsun. Biz dünya üçün yaradılmamış və orada çalışmağa əmr olunmamışıq.
204. Dünya malından ehtiyacın olduğundan artıq heç nə axtarma və sənə kifayət edəndən başqa heç nə istəmə.
205. Dünya münafiqlərin sarayıdır, təqvalıların sarayı deyil. Buna görə dünyadan bədənini qüvvətləndirən, səni diri saxlayan və axirətin uçun azuqə olan həddə bəhrələn.
206. Dünya onu tərk edən və axirət onu axtaran üçündür.
207. Dünyanın misalı sənin kölgənə bənzər. Sən dayansan o da dayanar, əgər dalınca getsən səndən uzaqlaşar.
208. Dünya ziyan bazarıdır.
209. Dünya ağıllıların torpağa düşmə (yıxılma) meydanıdır.
210. Dünya pislik meydanı və aldatma məkanıdır.
211. Dünya şər və pisliyin əkinidir.
212. Sənin ən pis (din) qardaşın, sənin nəfsin (nöqsanların) barədə yumşaqlıq göstərən və sənin eyblərini sənə deməyən kəsdir.
213. Kim öz nəfsinə qarşı yumşaqlıq göstərərsə, onu haram olunmuş səhlənkarlığa tərəf çəkər.
214. Haqla üzbəüz gələndə və haqq olduğunu biləndə onun barəsində səhlənkarlıq etməyin. Yoxsa, çox böyük ziyan görərsiniz.
215. Öz canınıza and olsun haqqa qarşı çıxan və azğınlığa qərq olan kəslə müharibədə heç vaxt yumşaqlıq və zəiflik göstərmərəm.
216. Dində (dindarlıqda) incəlikləri görən və dəqiq olan kəs qiyamət günü ali məqam sahibi olar.
217. Din nurdur.
218. Həqiqətən ən üstün din Allah yolunda dostluq və düşmənçilik etməkdir.
219. Din insanı qoruyar.
220. Din ən qüdrətli dayaqdır.
221. Dinin bəlası bədgüman olmaqdır.
222. Dinin fəsadı dünyadır.

223. Bəla gələn zaman öz mallarınızı öz canlarınızı qorumaq üçün sipər edin. Bir hadisə baş versə, canlarınızı dininizə qurban edin və bilin ki, dini məhv olanın özü həlak olmuşdur. Dini qarət olunmuşun özü qarət olunmuşdur.
224. Allahı yad etmək (Allahı) sevənlərin ləzzətidir.
225. Yad etmək, sevilən (məşuq) ilə həmsöhbət olmaqdır.
226. Allahı yad etmək hər yaxşı əməl sahibinin adəti və hər möminin xasiyyətidir.
227. Allahı gizlində yad edən kəs Allahı çox yad etmişdir.
228. Bütün hallarda Allahı yad et.
229. Allahı (daim) yad edən kəsi Allah-təala adlı-sanlı edər.
230. Sübhan olan Allahı yad edən kəs onunla yoldaşdır.
231. Öz qəlbini Allahı həmişə yad etməklə abad edən şəxsin əməlləri gizlində də, aşkarda da gözəl olar.
232. Qəlbin islah olmasının və təmizlənməsinin kökü onun Allahı yad etməsindədir.
233. Kim pak olan Allahı yad edərsə, Allah-təala onun qəlbini dirildər, əqlini və düşüncəsini işıqlandırar.
234. Allahı yad etmək canların qudası (qüvvəsi) və məşuqla həmsöhbət olmaqdır.
235. Sənə Allahı yad etməyi tövsiyə edirəm. Çünki o, qəlblərin nurudur.
236. Daim Allahı yad etmək qəlbi və düşüncəni işıqlandırar.
237. Günahlar xəstəlikdir. Onların dərmanı Allahdan istiğfar ( bağışlanmaq diləmək) və şəfası bir daha o günahı təkrar etməməkdir.
238. Ey insan! Hansı bir şey səni günah etməkdə həyasız, Rəbbinin qarşısında qürurlu və özünü xarab etməkdə adətkar etmişdir?!
239. Bu insanlara heyrətlənirəm. Sağlamlıqlarına zərər dəyəcəyindən qorxaraq yeməkdən pəhriz saxlayır. Amma onları cəhənnəm əzabına sürükləyən günahlardan çəkinmirlər.
240. Əgər Allah-təala Ona itaətsizlik olduğuna görə (əzabla) qorxutmasaydı belə, yenə bəxş etdiyi nemətlərə görə Ona itaət etmək vacib olardı.
241. Pisliklərdən çəkinmək yaxşılıq etməkdən üstündür.
242. Həqiqətən ağıllı insanlar dünyanın artığını tərk edərlər, o ki qalmış olsun günahları. Halbuki, dünyanı tərk etmək fəzilət və ləyaqət, günahları tərk etmək isə vacibdir.
243. Allah-təala bəndəyə xəstəlik göndərdikdə xəstəliyinin miqdarı qədər onun günahlarından təmizləyir.

244. Bizim şiələrdən hər biri qadağan etdiyimiz bir iş görərsə, ölməmişdən qabaq onun malına, ya övladına və ya özünə bəla gələr. Bununla da öz günahlarından təmizlənər və Allahla günahsız halda görüşər. Əgər günahlarından hələ də bir şey qalarsa, ölüm zamanı çətinliklə can verər.

245. Pak olan Allaha aşkar surətdə itaətsizlik etmək, cəzaları tezləşdirər.

246. Rəhm et ki, sənə rəhm etsinlər.

247. Heyrətlənirəm o kəsə ki, özündən yuxarıdakının rəhminə və mehribanlığına ümidvar olur, amma necə də özündən aşağıda olanlara rəhm etmir.

248. Öz ailənin uşaqlarına mehriban ol və ailənin böyüklərinə ehtiram göstər.

249. Allahın rəhməti onu yad etməklə nazil olar.

250. Mehribanlıq göstərməklə Allahın rəhməti nazil olar.

251. Ruzinin azalıb çoxalmasının ixtiyarı ruzi verən Allahdan başqa heç kimin əlində deyil.

252. Allah-təala ruziləri təyin etdi, bu zaman onları az, ya çox, gen-bol və sıx surətsə ədalətlə böldü ki, istədiyi kəsi ruzinin bolluğu və ya azlığı ilə imtahana çəksin və bunun vasitəsi ilə varlının və kasıbın şükürünü, səbrini aşkahra çıxarsın.

253. Hər canlının öz ruzisi var.

254. Bu qarğadır, o isə qartal, bu göyərçindir, o da dəvəquşu. Hər bir quşu adı ilə çağırıb və onun ruzisinə zəmanət verir.

255. İnsanlar Allahın çörəyini yeyənlərdir. Allah onların ruzisinə zamin durmuş və yeməklərini təyin etmişdir.

256. Ruzini axtarın, çünki ruzi onu axtaran üçün zamin olunmuşdur.

257. Ruzi onun axtarmayanın sorağındadır.

258. Ruzi iki növdür: birinci, sənin onun dalınca getdiyin ruzi, ikinci də onun sənin arxanca gəldiyi ruzi. Əgər sən də onu axtarmasan, özü sənin yanına gələcək.

259. Din qardaşına maddi kömək etmək ruzini artırar.

260. Əmanətə sadiq qalmaq ruzini artırar.

261. Sədəqə verməklə ruzini (yerə) endirin.

262. Xoş niyyətli olanın ruzisi çox olar.

263. Övladlarınıza kimin süd verdiyinə diqqət yetirin. Çünki, körpə ona süd verənin təbiəti ilə inkişaf edər.

264. Öz körpələrinizi əxlaqsız və dəli qadınların südündən uzaqlaşdırın. Çünki, süd öz təsirini göstərir.

265. Razılıq necə də gözəl yoldaşdır.

266. Razılığın kökü Allaha könül şadlığı ilə etimad etməkdədir.
267. Razılıq qəmi aparar.
268. Ən ləzzətli həyatı Allahın qismətinə razı olan kəs yaşayır.
269. Mülayimlik xoşbəxtliyin açarıdır.
270. Öz nəfsini ibadət etmək üçün aldat, onunla mülayim rəftar et və zorla ibadətə vadar etmə. Yalnız sənə vacib edilmiş ibadətlərdən başqa, onu asudə və şad vaxtı ibadətə tut. Belə ki, vacibləri vaxtında yerinə yetirməli və onlardan ehtiyatlı olmalısan.
271. Mülayimlik çətinlikləri asan, mürəkkəb çarələri sadə edər.
272. Hər kim Allahın onun üçün təqdir etdiyinin onun əlinə yetişəcəyinə əmin olarsa, qəlbi rahatlıq tapar.
273. Xasiyyətcə uyğun olan zövcə iki rahatlıqdan biridir.
274. Kifayət edənə qane olan kimsə rahatlıq tapıb dinclik mənzilində məskən salar.
275. Zahidlik və dünyaya etinasızlıq ən böyük rahatlıqdır.
276. Zahidlik təqvalıların xasiyyəti və daim tövbə edənlərin xislətidir.
277. Dinə ən çox kömək edən xislətlərdən biri dünyaya meyl göstərməməkdir.
278. Zahidliyə ən layiqli şəxs dünyanın eyb və nöqsanını biləndir.
279. Axirətin qiymətini bilməyən kəs dünyaya necə arxa çevirə bilər.
280. Allaha xatir ziyarət edin. Allaha xatir dostluq edin. Allaha xatir bəxşiş edin. Allahın düşmənləri ilə əlaqəni kəsin və Allahın dostları ilə əlaqə yaradın.
281. Çox görüşmək pərişanlıq gətirər.
282. Öz ölənlərinizi ziyarət edin. Çünki, onlar sizinlə görüşməkdən şad olurlar. İnsan öz ata-anasının qəbri üstündə onlara dua edəndən sonra Allahdan öz diləyini diləməlidir.
283. Sizlərdən hər birinizi onu ən yaxşı sifətdə görmək istədiyi yad bir insan üçün özünü bəzədiyi kimi, öz müsəlman qardaşının yanına gedəndə də özünü bəzəməlidir.
284. Batini gözəllik zahiri gözəllikdən yaxşıdır.
285. İmanın zinəti batinin paklığı və zahirən gözəl rəftarıdır.
286. Ən gözəl məslək səni insanlarla qaynayıb-qarışdıran, onların arasında səni gözəl göstərən və acı dillərini səndən çəkindirəndir.
287. Heç bir bəzənən Allaha ibadət kimi bir zinətlə bəzənməyib.
288. Səxavər Allaha və insanlara yaxınlaşmağın səbəbidir.
289. Səxavət müdrikliyin meyvəsi, qənaət isə şərəfin dəliliyidir.

290. Ağıla kömək etmək üçün səxavətdən başqa bir şeydən imdad istənilməsin.

291. Səxavət məhəbbətin toxumunu səpər.

292. Səxavət məhəbbət gətirər, əxlaqı və xasiyyəti bəzəyər.

293. Kim öz sirrini gizlətsə, seçim qüdrəti onun öz əlində olar.

294. Qələbə uzaqgörənliklə, üzaqgörənlik fikirləşməklə, fikirləşmək isə sirr saxlamaqla əldə olunur.

295. Sənin sirrin sənin əsirindir. Əgər onu faş etsən sən onun əsiri olacaqsan.

296. Aqil insanın sinəsi onun sirr sandığıdır.

297. Sirr bilənlərin sayı nə qədər çox olarsa, onların faş olma ehtimalı bir o qədər artıq olar.

298. Nə qədər məhəbbətin varsa dostuna həsr et, amma inamının hamısını onun ayaqları altına atma.

299. Xoşbəxt insan Allaha ixlasla ibadət edər.

300. Elminizə əməl edin ki, xoşbəxt olasınız.

301. Alimlərlə oturub dur ki, xoşbəxt olasan.

302. Xoşbəxtlik haqqa bağlılıqdadır.

303. Öz nəfsinin hesabatını aparan xoşbəxt olar.

304. Kim öz nəfsini islah etmək naminə onu əziyyətə salarsa, xoşbəxt olar. Amma kim öz nəfsini ləzzətlərə tapşırarsa, bədbəxt olar və Allahın dərgahından qovular.

305. Qəlbdə kin və paxıllığın olmaması bəndənin xoşbəxtliyidir.

306. Xeyir işlər görməyə nail olmaq xoşbəxtlikdir.

307. Həqiqi xoşbəxtlik insanın işinin xoşbəxtliklə sonuclanmasıdır. Həqiqi bədbəxtlik isə insanın işinin bədbəxtliklə nəticələnməsidir.

308. Əməllər pak olan Allaha ərz edilən zaman həqiqi xoşbəxt əsl bədbəxtdən ayrılar.

309. Ən xoşbəxt insan ötəri ləzzəti ədəbi ləzzətə görə tərk edəndir.

310. Ən xoşbəxt insan bizim fəzilət və məqamımızı tanıyan, bizim vasitəmizlə Allaha yaxınlaşan, bizə məhəbbətdə səmimi və ixlaslı olan, dediklərimizə əməl edən və qadağan etdiyimizi tərk edəndir. Belə insan bizdəndir və əbədiyyət sarayında (cənnətdə) bizimlədir.

311. Ən xoşbəxt insan hamıdan təqvalı olandır.

312. Hər qəlbi olan ağıllı, hər qulağı olan eşidən və hər gözü olan görən olmaz.

313. Həyatın ləzzəti sağlamlıqla dadılır.

# DAHİ NİZAMİNİN SÖZ İNCİLƏRİ

Dahi Nizaminin oforizmləri, ağıl və idrak haqqında dediyi çox dəyərli, ibratəmiz sözlər orta əsr qaranlıqları içərisindən sönməz günəş kimi dünyaya işıq salır. İnsan zəkası təbiət və cəmiyyətin inkişaf qanunlarına, həyatın sirli mənalarına getdikcə daha çox yol açır. Daha Nizaminin zəngin bəşəri söz xəzinəsindən dəyərli inciləri oxucuya təqdim edirik:

İnsana arxadır onur kamalı,
Ağıldır hər kəsin dövləti, malı.

***

Çalış öz xalqının işinə yara,
Geyinsin əməlindən dünya zərxara.

***

Əziyyət eyləsən cəfa görərsən,
Mehribanlıq etsən səfa sürərsən.

***

Bir kəsin dadına istəsən çatmaq,
O zaman ləngimə, tələs sən ancaq.

***

Qardaşın qanını alma qardaşdan,
Tamam ayrı şeydir çünki südlə qan.

***

Zatı pis olanı heç yüksəltmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən.

***

Hər qapıya can atıb səba kimi cumma sən,
Alçaqdan sədaqət, dostluq, vəfa umma sən.

***

Heç oturub, durma pis dostla, çəkin,
Şəninə əskiklik gətirər sənin.

***

Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.

***

Heç kəsin əhdinə bel bağlama gəl,
Onun iç üzünə atmayınca əl.

***

Əqilli adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan.

***

Şirin danışan bir dosta rast gəlsən,
Ondan başqa bir şey tələb etmə sən.

***

Hər bir dərdə qatlaş, möhkəm duraraq,
Gözlə ki, basmasın yük səni, ancaq.

***

Dünya zirəklərin karvan yoludur,
Düz və təmizlərin sadiq quludur.

***

Dünya görmüş adam, yaxşı ya yaman,
Şikayət eyləməz öz iqbalından.

***

Qızılı saymaqla bil ki, səhvin var,
Dünyanın gözünü ağıl parladar.

***

Yoxsulluq üz versə sənə, heç zaman
Yalvarıb istəmə kimsədən aman.

***

Nə çox əylənən ol, nə də çox yeyən,
Bunlardan süstləşər, boşalar bədən.

***

Ancaq öyrənməyi ar bilən insan,
Məhrumdur dünyada bilik artmaqdan.

***

El gözündə Nizami ucalıbdır düzlükdən,
İlhamına, qəlbinə güc alıbdır düzlükdən.

***

Hər bir işə dözər ağıllı insan,
İstər gül olsun, istərsə tikan.

***

Ağlın olsun sənə hər işdə rəhbər,
Hər şeyi ondan sor, o deyən yetər.

***

Ucalmaq istəsən bir kamala çat,

Kamala ehtiram göstərər həyat.
***
Havalı yaşayan sərsəm bir insan,
Nə xeyrə, nə şərə yarayar, inan.
***
Qalxıb ucalsan da sonsuz göylərə,
Ağlı başında ol, düşün bir kərə.
***
Dünyada məqamı bilməyən bir kəs,
Pərdəli yolları düz gedə bilməz.
***
Qüvvət elmdədir başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.
***
Dünyada o şəxsin ucalar başı,
Çox sayıq davranar hər işə qarşı.
***
Eşşəyin cavahir olsa da yükü,
Yenə də eşşəkdir, parıldar tükü
***
Səninçün çox demək bəlkə asandır,
“Çox oldu!” desələr böyük nöqsandır.
***
Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
***
Bu dünya dolanıb, döndükcə rüzgar,
Qoy səndən yaxşı söz qalsın yadigar.
***
Dilin bəlasıdır üzunçu olmaq,
Ariflər işidir sükuta dalmaq.
***
Dindirən olmasa danışma hədər,
Kəsəri yavaş vur, sınmasın kövhər.
***
Sözlər padşahının bir məsəli var:

Nə gözəl söyləmiş: "Axtaran tapar!"
***
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər.
***
Özünə, özgəyə olmaz mehriban,
Dilinə gələni söyləyən insan.
***
Madam ki, dünyadan getməliyik biz,
Yaşayaq qayğısız, qəmsiz, kədərsiz.
Burax qəmi, qəmə dəyməz bu dünya.

## HƏDİS GÜZGÜSÜ KİTABINDAN

**Sual 21. Ən yaxşı xüsusiyyət nədir? Peyğəmbər səllalahu əleyhi və aluh:**

"İki xüsusiyyət vardır ki, ondan üstün əməl yoxdur: 1) Allaha iman gətirmək; 2) Allahın bəndələrinə xeyir vermək:"

**Sual 22. Ən yaxşı sünnət (adət-ənənə) hansıdır?**

Peyğəmbər səlləllahu əleyhi və aluh:

"Sünnətlərin ən yaxşısı Məhəmmədin (səlləllahu əleyhi və alihi və səlləm) sünnətidir"

**Sual 23. Camaat namazının ən yaxşı cərgəsi hansıdır?**

Peyğəmbər səlləllahu əleyhi və aluh:

"Camaat namazında olan ən yaxşı cərgə, birinci cərgədir"

**Sual 24. Cənazə aparanların cərgəsinin ən yaxşısı hansıdır?**

Peyğəmbər səlləllahu əleyhi və aluh:

"Cənazə aparanların ən yaxşı cərgəsi axırıncı cərgədir."

**Sual 25. İnsanlara tapşırılmış şeylərin ən yaxşısı nədir?**

Həzrəti Əli əleyhissalam:

"Ey Allah bəndələri! Sizi Allah təqvasına sifariş edirəm. Çünki Allah təqvası bəndələrə sifariş olunan şeylərin ən yaxşısıdır."

**Sual 26. Ən yaxşı mürüvvət hansıdır?**

Həzrəti Əli əleyhissalam:

"Mürüvvətin ən yaxşısı insanın öz abrını qorumasıdır."

**Sual 27. Yaxşı işin özündən də yaxşısı nədir?**

İmam Sadiq əleyhissalam:

"Yaxşı işi yerinə yetirən şəxs, həmin işin özündən də yaxşıdır."

**Sual 28. Bütün xeyir və yaxşılıq nəyin içindədir? Həzrəti Əli əleyhissalam:**

a) "Xeyirlərin hamısı üç xüsusiyyətdə toplanıb; baxmaq, sükut etmək və danışmaq. Buna görə də ibrət almaq üçün olmayan hər baxış səhv və xəhadır. Təfəkkür olmayan hər sükut qəflətdir. Allah zikri olmayan hər bir söz faydasızdır. Xoş o adamın halına ki, baxışı ibrət, sükutu təfəkkür və kəlamı zikr olsun. Öz günahına ağlasın və camaat onun şərindən amanda olsun."

İmam Həsən əleyhissalam:

b) "Mən bütün xeyirləri insanın camaatın əlində olan şeylərə tamah salmasında görürəm."

İmam Baqir əleyhissalam:

c) "Allah taala Həzrət Adəm əleyhissalama vəhy göndərdi: Ey Adəm? Sənin üçün xeyirləri dörd şeydə qərar vermişəm; biri Mənə məxsusdur və biri sənə, üçüşncüsü Mənimlə sənin aranda şəriklidir. Dördüncüsü isə səninlə camaatın arasında şəriklidir. Mənə məxsus oldan ibarətdir ki, yalnız Mənə ibadət edəsən və heç nəyi mənə şərik qoşmayasan. Amma sənə məxsus olan şey bundan ibarətdir ki, əməllərinin əvəzində sənə savab verəcəyəm. Mənimlə sənin aranda şərikli olan bir şey bundan ibarətdir ki, sən dua etməli, Mən də sənin duanı qəbul etməliyəm. Amma səninlə camaatın arasında olan şərikli şey bundan ibarətdir ki, özün üçün istədiyini başqaları üçün də istəməlisən."

**Sual 29. Allah taalanın yaratdığı ən yaxşı və ən pis məxluq nədir?**

İmam Rza əleyhissalam:

"Əli əleyhissalamdan soruşdular: "Allahın yaratdığı şeylərin ən yaxşısı nədir?"

Buyurdu: "Kəlam."

Sonra soruşdular: "Allahın yaratdığı şeylərin ən pisi nədir?"

Həzrət yenə də buyurdu: "Kəlam". Sonra buyurdu: "İnsanlar dedikləri sözlərlə ya uzüağ, ya da üzüqara olurlar."

**Sual 30. İnsana verilən nemətlərin ən yaxşısı nədir?**

"İslam Peyğəmbərindən soruşdular: "Ey Allahın Rəsulu! Allahın insana verdiyi nemətlərin ən yaxşısı nədir?

Həzrət buyurdu: "Yaxşı əxlaq."

**Sual 31. Yaxşı şeylərin ən yaxşısı hansıdır?**

İmam Həsən əleyhissalam:

a) "Yaxşı şeylərin ən yaxşısı gözəl əxlaqa malik olmaqdır."

Peyğəmbər səlləllahu əleyhi və alih:

b) "Yaxşı xüsusiyyətlərin ən yaxşısı xəstəyə baş çəkməkdir."

Həzrəti Əli əleyhissalam:

c) "Yaxşı xüsusiyyətlərin ən yaxşısı biz (Əhli-beyti) sevməkdir."

**Bismillahir-Rəhmanir-Rəhim!**

**MƏRSİYYƏ**

***Rafiq Məhərrəmlinin "Mərsiyələr" kitabından***

Qolları üstə Hüseyn, şəhid olan Əsgərim,
Dil-dodağı təşnəli, nuru solan Əsgərim.

***

Düşmən aman vermədi, bir imana gəlmədi,
Körpələrin halını, əhvalını bilmədi.
Tifil əsgər göz açıb, ağlayıb heç gülmədi,
Hərmələ ləin niyə, nişan alan Əsgərim?
Qolları üstə Hüseyn, şəhid olan Əsgərim.

***

Gilə-yaş gözlərimdən vərəqlərə car olur,
Deyən dilim qəlbimə həmdəmli bir yar olur.
Gül niyyətli ürəkdə, niyə tikan xan olur?
Susuz, nitqi tutulan, halsız qalan Əsgərim,
Qolları üstə Hüseyin, şəhid olan Əsgərim.

***

Ey analar, atalar, körpəsi əldən gedən,
Adı düşməz dilinizdən, nöhəsi qəlbdən gedən.
Qəlb-iman ənbəri-müşkdir güldən gedən
Əhli-iman qəlbinə mehri dolan Əsgərim,
Qolları üstə Hüseyn, şəhid olan Əsgərim.

***

Verib Hüseyn canını, verib xanimanını,

Keçib əhli-əyaldan, verib gül qurbanını,
Məqsədi qorumaqdır dinini, imanını,
Şəhid getməkçün səndən bir doğulan Əsgərim,
Qolları üstə Hüseyn, şəhid olan Əsgərim.

***

Bir gözümüz gülərsə, bir gözümüz ağlayar,
Yetmiş iki şəhidə qəlbdən iman bağlayar.
Bu əzalar hər zaman din-imanı saxlayar,
İslam azad qalmağa, can verdi, can Əsgərim,
Dil-dodağı təşnəli, nuru solan Əsgərim!
Qollari üstə Hüseyn, şəhid olan Əsgərim.

**ZİKR**

Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

***

Eylərəm zikrin Fatimə sənin,
Söküləndə dan, güləndə sabah.
Ruhunda yanar, yaşayan eşqin,
Cahan üzünə gələndə sabah,
Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

***

Həsən-Hüseynim bir cüt gözümdür,
Zeynəb, Ruqəyyam, Səkinəm çıraq.
Mənim niyyətim dua-sözümdür,
Əlimdə qələm, dillənər varaq,
Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

***

Nuruyla yaşar, sonsuz asiman,
Lövhu-mövhuz bir sütun, dayaq.
Sənlədir Xuda sidqi-qəlb iman,

Tapaq yerini sevgisiylə haqq,
Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

***

Əlidir sənin hicrinə dözən,
Qəbrinin üsyü sirr-Ziyarətgah.
Fatimə eşqi solmaz yasəmən,
Kövsər irmaqlı zümzümə bulaq,
Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

***

Bizlədir hər an o, Sahib-Zəman,
Qismət olarsa, biz ona qonaq.
Söyləyib aman, deyib əl-aman,
Ədalət hökümü ilə bir yanaq.
Allahu Əkbər, Əlhəmdülillah,
Allahu Əkbər, ya Sübhənallah.

## BİSMİLLAH

Addımı atanda bismillah dedim,
Yataqda yatanda bismillah dedim.
Ruzuya çatanda bismillah dedim,
Başımın üstündə Tanrımdır çünki,
İmanlı sərvətim, varımdır çünki.

***

Tövbənin əvvəli bismillahdır,
Müsəlman əməli bismillahdır.
Süfrənin təməli bismillahdır.
Şəriət ərkənım, arımdır çünki,
Başımın üstündə Tanrımdır çünki.

***

Fidanı, körpəni, uşağı sevdim,
Peyğəmbər çöhrəli qonağı sevdim.
Xilqəti var edən Allahı sevdim,

Haqqım, harayımdır, canımdır çünki,
Başımın üstündə tanrımdır çünki.

***

Bismillah olmasa Günəş görünməz,
Təbiət canlanıb, təbiət gülməz.
Bismillah olmasa bərəkət gəlməz,
İlahi bəhərim, barımdır çünki,
Başımın üstündə tanrımdır çünki..

***

Yaşasam nə qədər həyatda inan,
Olaram nəfsinə hakimi-sultan.
Ümid, nicatımdır hikməti Quran,
Hidayət çırağım, nurumdur çünki,
Başımın üstündə Tanrımdır çünki.

## ALLAHU ƏKBƏR

Yetirən nəzərdir, göndərən rəhmət,
Sidqi imanımdır Allahu Əkbər.
Hər bir yaratdığı məxluqu hikmət,
Əhdim-peymanımdır Allahu Əkbər.
Ruhumdur, canımdır Allahu Əkbər.

***

Bir ulu dərgahdan gəlir bu şeir,
Sinəmi ox kimi dəlir bu şeir.
Sevincdən ağlayır, gülür bu şeir,
Hər an zamanımdır, Allahu Əkbər,
Ruhumdur, canımdır Allahu Əkbər.

***

Məkkəm, Mədinəmdi əhdim-niyazım,
Ondadır titrədən vücud avazım.
Hidayət şırağı təkbir namazım,
Dərdə dərmandır, Allahu Əkbər.
Ruhumdur, canımdır Allahu Əkbər.

***

Sözlər nizə kimi, ox kimi çıxır,
Yazmasam ruhumu, qəlbimi sıxır.
Tanrıyla aramda kövsərmi axır?
Cənnət, Rizvanımdır Allahu Əkbər,
Ruhumdur, canımdır Allahu Əkbər.

***

Qorxuram Allahdan sevgi xətrinə,
Qorxuram qovuşsam zəhər ətrinə.
Sığınnam Xudanın iman çətrinə,
Arxam, həyanımdır, Allahu Əkbər,
Ruhumdur, canımdır Allahu Əkbər.

***

İman əqidəli dostlarım gözəl,
Səbrlə ibadət ömrümü bəzər.
Lövhü-mövhüzdarı yaranış, əzəl,
Əmrim, Fərmanımdır Allahu Əkbər,
Ruhumdur, canımdır, Allahu Əkbər.

***

Allahım  Böyükdür hər şeyi görür,
Sirli adamlarda ürəyi görür,
Qeybdən agah olan mələyi görür,
Arif-urfanımdır Allahu Əkbər.
Ruhumdur, canımdır, Allahu Əkbər.

***

Aləmlər Rəbbinə həmd, səna olsun,
Cənnət bayrağında söz dalğalansın.
Qələmim behiştin ətrini alsın,
Xoş Merac anımdır Allahu Əkbər.
Ruhumdur, canımdır, Allahu Əkbər.

***

Ruhuma qidadır, cana faydadır,
Şah damarda axan qana faydadır.
Rafiq, əməlinə dünya faydadır,

Ulu dastanımdır Allahu Əkbər.
Ruhumdur, canımdır, Allahu Əkbər.

## FATİMƏ NÖVHƏSİ

Ey gözümün nuru olan Fatimə,
Qəlbimə sevdası dolan Fatimə.

***

Körpələrin sənə baxıb ağlayır,
Səni sevən ümmət qara bağlayır.
Dərdü qəmin ürəyimi dağlayır,
Gülüstanda gülü solan Fatimə,
Haqq yolunda şəhid olan Fatimə.

***

Sənsən şəhid anaların anası,
Körpə, tifil balaların anası.
Duyğu sığmaz dünyaların anası,
Balaları ağlar qalan Fatimə,
Ürəklərə mehr salan Fatimə.

***

Vurulmusan, öz evində yaralı,
Həsən, Hüseyn başın üstə duralı.
Gül çöhrəndən gedib rəngin saralıb,
Ev-eşiyin olub talan Fatimə,
İstər səni atan, anan Fatimə.

***

Ömür sürüb səndən Əli doymadı,
Səni heç vaxt intizarda qoymadı.
Düşmən səni dərk etmədi, duymadı,
Nahaq zalim zərbi alan Fatimə,
Xanımlara cümlə-cahan Fatimə.

***

Od vurdular Xətmi-Rəsul evinə,
Talan düşdü müsəlmanlar elinə.
Baş əymədi belə haqsız zülümə,

Ya Peyğəmbər, əziz balan Fatimə,
Nakam ömrün başa vuran Fatimə.

***

Bu növhələr təsəllidir Tanrıdan,
“Olum”, “Ölüm” bu bəllidir Tanrıdan.
Bu yazı da təcəllidir Tanrıdan,
Məzarı da gizli pünhan Fatimə,
Asimanda nuru yanan Fatimə.

***

Kövrək oldu ürəyim maradı,
Bu dərd, yanan sinəm altda yaradı.
Rafiq sevər təsbih edib aradı,
İbadətdə zikr-Rəhman, Fatimə.
Ərş-əlada nur asiman Fatimə.

## KƏRBƏLA

Kərbəla, ey dəşti al-qan, Kərbəla,
Kərbəla, şəhidə meydan, Kərbəla.

***

Olmusan hidayət-çıraq günəşi,
Çəkmisən möhnəti-yanğı atəşi.
Titrədib yer-aləmi, uca ərşi,
Etmisən bu halə əfqan, Kərbəla.

***

Əkbərin şəhlagöz, şibhi-peyğəmbər,
Əsgərin qundağda təşnə bir dilbər.
Əbbasi-ələmdarın haqqa yavər,
Nicat tapçış sənlə cahan, Kərbəla.

***

Göylərin tutqundur, açılmır nədən?
Əzaya bürünüb ruh ilə bədən.
Ürəkdə Kərbala eşqin bir vətən,
Mehri-məhəbbətə məkan, Kərbala.

***

Açmısan sən imama ağuşuna,
Xoş halına, etdin haqq vuruşunu.
Torpağım etdi sənin alqışını,
Tanrı-haqq yolunda qurban, Kərbəla.

***

Varmı sən tək heç qəsaya yer mübtəla?
Varmı sən tək heç çəkən ağrı-cəfa?
Cahana əzan verər səvab, əta.
Yetər dada sevgim-dərman, Kərbəla.

***

Verəcək hesabü-gün Şümrü-ləin
Çatacaq cəzasına Yezid bidin.
Öməri-Səda çatan mütləq, yəqin,
Qiyamət günündə fərman, Kərbəla.

***

Kim ki, haqqa tuşlayıb iman eşqin,
Kim ki, dərk edir özün, Sübhan eşqin.
Yar olur ona müdam mehman eşqin,
Haqdı iman ölşüm, mizan, Kərbəla.

***

Ey ilahi, qəbul et bu niyyəti,
Ver qərar görək səndən inayəti.
Alaq səndən müşkü-ənbər cənnəti,
Yetək məzhərinə mehman, Kərbəla!

## RUQƏYYA

Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!
Gözü yoldadır qalan,
Kiçik balam nigaran.
Deyir:-gələn bəs haçan?!
Gedən Hüseyn balam?!
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

***

Ağlar gözün silən yox,
Qəlb dərdini bilən yox.
Hamı qəmli, gülən yox,
Gedən gedər, gələn yox.
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

***

Söyləyər bibi Zeynəb,
Teşnədir dilimlə ləb.
Bu işə nədir səbəb?
Olmuşuq əsir əcəb!
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

Əbbas əmim hanı bəs?
Versin düşmənə o, dərs.
Qalmışıq yalqız, bikəs,
Verən yox səsimə səs.
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

***

O, üç-dörd yaşın gördü,
Bacı, qardaşın gördü.
Getdilər məcməyidə
Hüseynin başın gördü.
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

**ƏFRAD**

Görən kimi babasının başın sevindi,
Qaçdı, qucaqladı, ah-naləylə dindi.

***

Aldı başı sinəsinə nalə etdi,
Bir müddət tifilin ürəyi getdi.

***

Yıxıldı yerə, amma başı buraxmadı,
Qanlı başla danışdı, yerdən qalxmadı.
Söylədi:-Baba, bizi tək qoydun getdin hara?
Düşmən zalım bizi incitdi, çəkdi dara.

***

Ətrafdakılar bu mənzərədən pərişan oldu,
Düşmən öz səhvini bilib peşiman oldu.

***

Həzrət dil açdı dedi: Ağlama bala,
Mənə görə kədər, qəm saxlama bala.

***

Ruqəyya bala, babasının səsin eşitcək,
Balaca ürəyi partladı, yerində sevincək.

***

Sevgin yanar ürəkdə, ətir saçar çiçəkdə.

Ruzi məhşər günündə, şəfasan gələcəkdə.
Ruqəyya! Ruqəyya! Ruqəyya! Ruqəyya!

## HƏZRƏT İMAM HÜSEYN QƏSİDƏSİ

Olum yolunda mən fəda, can Hüseyn!
Verim sənə bu canı qurban Hüseyn!

***

Sevər ürəkdə odlanar bu eşqin,
Aşiqin məşuqisən-canan, Hüseyn!

***

Sən bu yolda şühəda olmasaydın,
Bu günə qalmaz idi Quran, Hüseyn!

***

Keçməsəydin varı-xanimanından,
Gedərdi iman-din, o zaman, Hüseyn!

***

Baban, Rəsuli-Xuda da ağlamış,
"Aşura" olmuş ona əyan Hüseyn!

***

Əbbasa, həm Qasimə, Ələkbərə,
Behiştdə qapı açar Rizvan, Hüseyn!

***

Səkinə ciyər paran idi sənin,
Vəsiyyət Zeynəbə tapşıran, Hüseyn!

***

İbni-Ziyada, Ömər-Sədə, Yəzidə,
Hərmələyə udduran al-qan, Hüseyn!

***

İki dünyanın Hidayət günəşi,
Əli vilayətli sən məkan-Hüseyn!

***

Əhli-iman karvanının sərvanı,
Kərbəlada şami-qəriban Hüseyn!

***

Şəhid qanıyla sən dəstəmaz aldın,

Açiqinçün son namaz qılan Hüseyn!

***

Canana canın fədadı eyləyən,
Həm özün, qardaşın, həm balan Hüseyn!

***

Peykərindir qalan torpaqlar üstə,
Cüdada baş oxur "Ərrəhman" Hüseyn!

***

Əfv eylə, biçarə qalmış Rafiqi,
Şəfaət eşqinə fərman, Hüseyn!

## YA ƏLİ

Rəsuli-vəsi-Xudasan, Ya Əli!
Hikmətü-bəxşiş-səxasan, Ya Əli!

***

Aləmin qəlbi köksündə can kimi,
Aləmi-eşqi-vəfasan, Ya Əli!

***

Hər iki məkan sənin adınladır,
Eşq-iman bir qalasan, Ya əli!

***

Yarı peyğəmbər eşqin Tanrıyladır,
Rahu-haqq canla fədasan, Ya Əli!

***

Aləmin əqlü çatammır elminə,
İlahi-batin-mənasan, Ya Əli!

***

Aləmi-dünya-cahanu bir fəna,
Cənnətü-Rizvan-bəqasan, Ya Əli!

***

Kim sənin adın çəkir, tapır nicat,
Hər kəsə dəva-şəfasan, Ya Əli!

***

Şölənlə yanıraləm-yer, bərqərar,
Sən Quran-şəmsi-ziyasan, Ya Əli!

***

Heydərü-Kərrarü sən, şahü-mərdan,

Məbəsü-Ərşü-Əlasan, Ya Əli!

***

Dinü-İslama bağlı cismü-ruhun,
İrfanü-Haqqa nidasan, Ya Əli!

## ŞƏHADƏT

La ilahə İlləllah, Ya Rəsullullah,
Ya Əmirəl Möminin, Ya Vəliyullah,

***

Tövhiddə bir şərt vacibdir bizə,
Sevgi işıq saçar, nur saçar gözə.
Ruhuma qidadır, qanaddır sözə,
Təqvaya çatmaqdır haqq niyyətullah.

***

Yoxdur şərik ona, Allahım təkdir,
Məxluqu yaşadan sidqi-diləkdir.
Nicata əlacdır, haqqa dəstəkdir,
Duadır ən böyük söz-izzətullah.

***

La İlahə İlləllah, Ya Rəsulullah,
Ya Əmirəl Möminin, Ya Vəliyullah.

***

Peyğəmbər Meracda bir mindər görüb,
Minbərdə Əlinin adın tər görüb.
Cənnət qapısında dilavər görüb,
Bağışla bizləri, ya Rəhmətullah.

***

La İlahə İlləllah, Ya Rəsulullah,
Ya Əmirəl Möminin, Ya Vəliyullah.

***

Nicatdır bəşərə kəlmə şəhadət,
İmandan yaradıb gözəl məhəbbət.
Amalım, niyyətim yolu-hidayət,

Qurandır müqəddəs var, -nemətullah.

***

La İlahə İlləlah, Ya Rəsulullah,
Ya Əmirəl Möminin, Ya Vəliyullah.

***

Xoş əməlsahibli, şərəfli insan;
Sayılar, gətirsə Tanrıya iman.
Üzünü ağ edər haqq əməl asan,
Ruzu-qiyaməydə şəfaətulah.

***

La ilahə illəllah, Ya Rəsulullah,
Ya Əmirəl Möminin, Ya Vəliyullah.

## ZƏHRACAN
## (surud)

Analar anası
Zəhracan, Zəhracan.
Aşiqlər dünyası,
Zəhracan, Zəhracan
Anacan, Zəhracan,
Zəhracan, Zəhracan.

Peyğəmbər balası,
İmamlar anası.
Hidayət ziyası,
Nurundur asiman.

***

Ağlayır Kərbəlan,
Həm nəvən, həm balan.
Sızlayır Ruqəyyam,
Zeynəbin qəhrəman.

***

Dirinin qurbanı,
Könüllər mehmanı.
Aşiqlər nişanı,
Nurundur parlayan.

***

Sevgilindir səadət,
Tanrıya ibadət.
Sən kövsəri-cənnət,
Sən cənnəti-rizvan.

## AŞURA MƏRSİYƏSİ

Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bugün,

Dini-islam eşqinə gün rəhnüma gündür bugün

***

Kim tutar bu gün əgər əhli-beyt əzasını,
Kim qoşar səsin sənə, o göstərər vəfasını.
Ruzi-məşhərdə alan Şühadədən şəfasını,
Çünki hər ahu-zarə, dərdə-dəva gündür bugün,
Dini-islam eşqinə gün rəhnüma gündür bugün

***

Yer üzü, həm göy üzü qarə sızlar belə,
Yalvarıb xilqət, üzü yarə tutub sızlar belə.
Cüt gözündən axan yaş qarə tutub sızlar belə,
Hürtəza gündür bugün, həm Müctəba gündür bugün,

***

Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bu gün,
Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bu gün.

***

Qurban etdi canını, əhli-əyalı-yarınu,
Ehsan etdi mülkünü, həm yoxun, həm də varını,
Eşqi-canan xətrinə verdi tam ixtiyarını,
Yarı-ənsarla edən canlar fəda gündür bu gün,
Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bu gün.

***

Verdi canın sibhi-peyğəmbər-Əkbərinə,
Teşnə, tifil qundağda, hülqü oxlanan Əsğərim
Əbbası-Ələmdarın, Ovnu-Qasini-Cafərin,
Həqq işə səslər salan haqq basəda gündür bu gün.
Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bu gün.

***

Fatimə gələr ağlar, həm də peyğəmbər babası,
Şaməcən Hüseyn sorar, xırda Rüqəyya balası.
Şami Qəriban qılar, sübhə tək əda namazı,
Vəsli-Mustafa gündür, Vəsli-Xuda gündür bu gün,
Ya Hüseyn aşiqləri, bəzmi-əza gündür bu gün.

## ZEYNƏB (S.Ə.) MƏRSİYƏSİ

Can ey şəhudu-Kərbəlai-Zeynəb!
Can Hüseyni-binəvayi-Zeynəb!
Səbr eylədin, Əsirlərə yar oldun,
Səqirlərə, fəqirlərə yar oldun.
Əhli-ümmət-nəsillərə yar oldun,

***

Sən ey quran-eşqi-həvayi Zeynəb!
Can ey Hüseyn-kərbəlayi-Zeynəb!

***

Can verdi, can körpə Rüqəyya gördün,
Yeddi qardaş qəmli yaş-əza gördün.
Nə yatmadın, nə də bir röya gördün,
Çəkdin zülmü-sitəm-cəfayi Zeynəb!
Can ey Hüseyni-Kərbəlayi-Zeynəb!

***

Küfədə, Şamidə divan eylədin,
Yezid taxt-tacında fəqan eylədin.
Kafir qarşısında fəqan eylədin,
Xütbələrin dərdə-şəfayi Zeynəb!
Can ey Hüseyn-Kərbəlayi-Zeynəb!

***

Vardır Həzrət Əli cürəti səndə,
Səsi, həm avazı, qüdrəti səndə.
Anan Fatimənin izzəti səndə,
Cənnəti-Rizvani-Bəqayi-Zeynəb!
Can ey Hüseyn-Kərbəlayi-Zeynəb!

***

Yadigar-Fatimeyi-Zəhrasan,
Sən təlimi-Hüseyni-can-dəryasan.
Dini-islam yolunda haqq, nidasan,
Cihadi-rahi-haqq-nobcayi-Zeynəb!
Can ey Hüseyni-Kərbəlayi-Zeynəb!

***

Canım olsun yolunda qurban xanım,
Etdin varın bu yolda qurban xanım.
Rafiq söylər halına can-can xanım,
Sən haqq qəhrəmanı-hisayi-Zeynəb!
Can ey Hüseyni-Kərbəlayi-Zeynəb!

## YA HƏZRƏTİ MƏSUMƏ!

Xanım Zeynəbə bənzər, Ya həzrəti Məsumə!
Ey imamzadə ziyvər, Ya həzrəti Məsumə!

***

Atan Museyi-Kazım zindanda yatan zaman,
İstədi görə sənin camalını bircə an.
Baxdı zindanda qolu bağlanıb möhkəm, yaman,
Zənciri kəsdi nəzər, Ya həzrəti Məsumə!
Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

***

Tez çatıb ay işığı, evində görsün səni,
Desin son sözünü, üzündən öpsün səni.
Tanrıya bir əmanət, tapşırıb versin səni,
Cənnətü-Rizvan-Kövsər, Ya həzrəyi Məsumə!
Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

***

Yetişdi gecə yarı, astadan qapın vurdu,
Uşaqlar yatmış, səsə təkcə Məsumə durdu.
Gördü bir qoca kişi, qapı ağzında vardı,
Tanıdın onu görər, Ya həzrəti Məsumə!
Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

***

Sarıldı atasının boynundan Məsumxan,
Söylədi İmam: Zəncir, kəsmiş boynumu yaman.
Xanım yaranı görcək, buraxdı boynun həmən,
Vermədi zəhmət, xətər, Ya həzrəti Məsumə!

Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

***

Etdi üzdən nəzərin, baxdı iman Rzaya,
Körpələr mışıl-mışıl, sığınmışdı anaya.
Tapşırıb, etdi dua, ailəsin Xudaya,
Mələklər verdi xəbər, Ya həzrəti Məsumə!
Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

***

İndi Qum şəhri hərəm, olmuşdur hər böminə,
Aşiqi sadiqlərin eşqin düşüb qəlbinə.
Qisməti olsun sənin ziyarət-hərəminə,
Zəvvari dünya-bəşər, Ya həzrəti Məsumə!
Üz tutub etdi səfər, Ya həzrəti Məsumə!

**GƏL, FATİMƏ!**

Möhsüni al qucağına gəl, Fatimə!
Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!

***

Gəl ki, görək əhvalını, bir halını,
Gəlki, öpək o nur saçan üz-alını.
Aparginən ürəklərdən məlalını,
Qəm-qüssəni bir dəfəlik sil, Fatimə!
Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!

***

Biz əhli-beyt aşıqların mehmanısan,
Sevənlərin şəfaətli dərmanısan.
Yar-eşqdən dolan qəlbin ümmanısan,
Eşqin coşar-çağlar qəlbdə sel, Fatimə!
Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!

***

Həzrət Əli eşqin, günəştək nur saçar,
İmam Həsən, İmam Hüseyn qəbrin qucar.
Məhəbbətin könül alar, könül açar,
Nəzər eylə, bizə bir çək əl, Fatimə!

Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!
***
Sən Cənnəti-Rizvani-Əhlin kövsərisən,
Sən Rəsuli-Əkram eşqi, dilbərisən,
Sən aşiqi-əhli-beytin Əzbərisən,
***
Təsbehi-haqq, Zikr-dodaq-dil, Fatimə!
Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!
***
On səkkiz il ömür sürdün bu dünyada,
On səkkiz min aləm səni salar yada.
Sən ədədi nuru-cahansan üqbada,
Aşiqinə dəyməz bir xələl, Fatimə!
Ey Əhmədi, Muhəmmədi-gül, Fatimə!

## HƏZRƏTI ƏLİ

Ey hidayət Kövsəri-həzrət Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!
***
Canın qurban etdin din xətrinə,
Malını ehsan etdin din xətrinə.
Haqqını Mizan etdin din xətrinə,
Ey imamət sərvəri-həzrət Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!
***
İlk iman şən gətirdin Rəsullaha,
Əhdi-peyman yetirdin Rəsullaha.
Canını qurban verdin Rəsullaha,
Ey şücaət əskəri-həzrət Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!
***
Ey bəsiyyi-xətmi-ənbəri yarı,
Ey bəlliyi-aşiqi-Xuda yarı.
Min bir, hacət, müşqülə dəva yarı,

Ey şəfaət-məşhəri-həzrət Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!

***

Şəninə nazil olan Quran sənsən,
“Həlәta” dəhri-ziya, insan-sənsən.
Rukuda verən zəkat-ehsan-sənsən,
Ey ibadət məhvəri-həzrət Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!

***

Eşqinə, olsun sənin canım fəda,
Mədhinə çaldım qələm, etdim xəta.
Rafiqin könül dostu-Şahi-bəqa,
Ey hidayət-ziyvəri-həzrət Əli!
Ey hidayət kövsəri-Həzrəti Əli!
Ey vilayət rəhbəri-həzrət Əli!

**SURUD**

Eşqü-canım, Sübhanım,
Şöhrət, şanım, Sübhanım.
Sevgim yanar könlümdə,
Yar-Rəhmanım, Sübhanım.

***

Bağışla Rəhman Allah.
Müqəddəs, Sübhan Allah.
Hidayət eylə bizi,
Gözlə, mehriban Allah.

***

Başım üstə duransan,
Sən yaradan, quransan.
Harda olsa yaxınsan,
Ürəyimdə vuransan.

Sənsən eşidən məni,
Bağışla bu bəndəni.
Yolunda fəda canım,
Sevirəm çün mən səni.

***

Yaradansan, kərimsən,
Mərhəmətli, rəhimsən.
Ədalətli, həlimsən,
Sən lütfkar kərimsən.

***

Çoxdur günahım yaman,
Əhf et Allahım, aman!
Zühurun təlil eylə,
İmamın Sahib-Zaman!

***“Necə qan ağlamasın qaş bu gün”***
***kitabından***

## ƏLİ

Daməndə qalmışam, yetiş dadıma,
Özünü xeybərə yetirən Əli!
O dəm zülfüqarı çəkən zəbanə,
Dinsizləri dinə gətirən Əli!
***
Neçə il zülfüqar nə yerdə qaldı,
Neçə min ənbiya səndən dərs aldı,
Üzündə niqabı bir ərəb gəldi,
Özü öz tabutun götürən Əli!
***
Şiə tək eyləmə Əli, Vəliyə,
Şai-vilayətə nuri-cəliyə,
İşarət elədi göydəki günə,
Günü günortadan qaytaran Əli!
***
Mənim pirim gövsər üstə saqidi,
Möminlərin yeri cənnət bağıdı,
Qurbaninin bu gün müşkül çağıdı,
Cəmi müşküllərin bitirən Əli!

## ÇƏKİBDİ

Xorasan qızıl günbəz ağası,
Gözüm sənsiz intizarı çəkibdi.
Həqqi buyurdu, Həbib getdi Meraca,
Ona peşkəş o gülzarı çəkibdi.
***
Haqqı buyurdu şiri-əzəm Heydərə,
Şəhadət barmağın saldı Xeybərə.
Şəmaməynən getdi ol Şəhrizərə,
Ağam orda boran-qarı çəkibdi.
***
Xoş o kimsəyə ki, yata yuxuda,
Cəbrayıl üstünə gətirə nida,

Ağam şahi-Mərdan özü davada,
Kafər üstə Zülfüqarı çəkibdi.

***

Yoxdu bu dünyada belə namidar,
Qurbaninin canı yolunda nisar,
Ağam şahi-Mərdan Düldülə süvar,
Səməndinə qəm çidarı çəkibdi.

## AMAN ƏBÜLFƏZLİM!

Xeymələr odlandı, oyan, Əbülfəzlim,
Qollarım bağlandı, oyan Əbülfəzlim,
Aman, Əbülfəzlim!

***

Çün üzüldü səndən ümmid əlim, qardaş,
Getdi gözüm nuru, sındı belim, qardaş.
Hali-bəyanı da tutmaz dilim, qardaş,
Qaldıq bu çöllərdə heyran, Əbülfəzlim,
Aman, Əbülfəzlim!

***

Hər dəm tökər qan-yaş bu çeşmi-xunbarım,
Yoxdur yanımda bir yarü havadarım,
Od içində  qaldı biçarə bimarım,
Yox durmağa tabü təvan, Əbülfəzlim,
Aman, Əbülfəzlim!

***

Nari-cəfa hər yan çün çəkdi zəbanə,
Hər od tutan qaçdı səmti-biyabanə,
Mən binəva oldum ol narə pərvanə,
Həm hali-Bimarə suzan, Əbülfəzlim,
Aman, Əbülfəzlim!

***

Dur xabi-nazından, qeyrətli qardaşım,
Gör kim nə növ ilə caridir göz yaşım,
Talandı hər rəxtim, açıq qalıb, başım,

Oldu xanimanım viran, Əbülfəzlim,
Aman, Əbülfəzlim!

***

Səndin salan rəxnə övci-xunxarə,
Yoxdur bir kəs etsin bu dərdimə çarə,
Zülm eylir ədu biz Ali-ətharə,
Rəhm eyləməz qövmi-Süfyan, Əbülfəzlim,
Aman, Əbülfəzlim!

## ƏMOĞLU

Dur, ey biyarü biənsar əmoğlu,
Şəhidi-ləşkəri-küffar əmoğlu.

***

Dur, oldu ruzigarım qara sənsiz,
Yetişdi qəmli könlüm zarə sənsiz,
Salıblar canımı odlara sənsiz,
Bu çöldə firqeyi-xunxar, əmoğlu.

***

Necə bilməm çəkim hicran cəfasın,
Necə görsün gözüm qan toy hənasın,
Dur əyləş, bağlayım başın yarasın,
Məni-nakami-diləfkar, əmoğlu.

***

Qəsəm olsun o zülfi-müşksayə,
Məni saldı fəraqın min bəlayə,
Əsir etdi bu qövmi-əşqiyayə,
Nədir təqsirim, ey sərdar əmoğlu?

***

Kimə dərdi-dilimi eyliyim faş,
Gedib yeksər əlimdən qövmü qardaş,
Nedim axır məni-biçarə, külbaş,
Mənə qalmıbdı bir qəmxar, əmoğlu.

***

Əcəb qoydun məni dəşti-bəladə,

Qəribü bikəsü tənha aradə,
Ərusundur, gedər Şamə piyadə,
Yanınca yox ənisü yar, əmoğlu.

***

Kərəm qıl, gəlmişəm billah əmanə,
Məni yalqız yola etmə rəvanə,
Və ya tapşırgilən Şümrü Sənanə,
Mənə çox etməsin azar, əmoğlu.

***

Şəbü ruz ağlaram bu qəmfəzadə,
Salan yox halımı bir kimsə yadə,
Nedim, ərz etməyə bu macəradə,
Tapılmaz Heydər-Kərrar, əmoğlu.

***

Mən axır növgülü-baği-əmirəm,
Mən axır növərusi-hicləgirəm,
Mən axır Şürm əlində dəstgirəm,
Dəxiləm, dur məni qurtar, əmoğlu.

***

Əcəl yetməz, ölüb rahat olaydım,
Bu xövfü lərzədən can qurtaraydım,
Dəxi Şümrün cəfasın görməyəydim,
Ki, billah, olmuşam zinhar, əmoğlu.

***

Gəlib fəryadə cinnü insü adəm,
Olub Pürqəm qəmində qərqi-matəm,
Hər il saxlar əza mahi-məhərrəm,
Sənə ol zarü diləfkar, əmoğlu.
Getmə-getmə gəl ay əmoğlu

## KƏRBƏLA

Abad olan evin, qəmxanə Kərbəla,
Çox hörmət eylədin mehmanə, Kərbəla

***

Mirabi-kövsərin oğlu çəkib fəğan,
Qürbi-Fəratda ləbtəşnə verdi can,
Adətdi dəhrdə, başın kəsən zaman,
Mərdüm su göstərər qurbanə, Kərbəla.

***

Əflakə çuğlanıb fəryadi –"əl-ətəş",
Ətfal, əhli-beyt, çün düxtərani-nəş,
"Su-su" deyib edər axır təmami qəş,
Qəmdən gəlibdilər gör canə, Kərbəla.

***

Banuyi-tahirə, xatuni-binəzir,
Zeynəb cəfasını nə olmusan dəlir?
Qolları bağlanıb Şamə gedir əsir,
Rakibdi naqeyi-üryanə, Kərbəla.

***

Bu mizbanlığın eylər məni məlul,
Etsə sual əgər məhşər günü qəbul,
Düşmüş gül üstünə güldəsteyi-Rəsul,
Dörd min yara ilə meydanə, Kərbəla.

***

Ey abruyisiz, abın bu dəşt ara,
Bir qətrə içmədi övladi-Mustafa,
Dönsün görüm sənin, ey dəşti-pürcəfa,
Abi-Fəratın al, al qanə, Kərbəla.

***

Xunincigər olub Bimar şərbəti,
Aya deyilmi bəs bu təb hərarəti,
Abbasü-Əkbərin ənduhi-firqəti,
Gətdi o bikəsi gör canə, Kərbəla.

***

Etməm sənə şəbih Kəbə diyarini,
Firdövsi-həştümün baği-sümarini,
Ağuşə çəkmisən Əkbər məzarini,
Yar olmusan əcəb cananə, Kərbəla.

***

Mənfəndi səndə çün ol sərvəri-qərib,
Girdi-rəhin verər ərşi-xudayə zib,
Axır nəfəs ona ta olasan nəsib,
Həsrətdi Asiyi-divanə, Kərbəla.

**GƏLMƏSİN**

Söylə Hüseynə, ey səba, Kərbübəlayə gəlməsin,
Gəlsə, düşər bu dəştidə dərdü bəlayə, gəlməsin.

***

Söyləginən gətirməsin Küfəyə nazlı Əkbəri,
Zülm ilə qanına batar türreyi-müşki-ənbəri,
Bəlkə Firəngitək apar cümleyi-Ali-Heydəri,
Zibhi-əzim üçün bu gün kuhi-Minayə gəlməsin.

***

Söylə, gətirmə Qasımı, qatili eyləyir şitab,
Toyda olur yəqin onun qanına əlləri xizab.
Görmə rəva ki, Şümri-dün din evin eyləsin xarab,
Rəhm eyləsin o Zeynəbi-bəxtiqarəyə, gəlməsin.

***

Gəlməyə yoxdu fürsətim, qan ilə namə yazmışam,
Öldürəcəkdi Müslümü Kufədə firqəyi-zülam.
Qardaşının uzun qolu görmə rəva ola qələm,
Bacıları ayaqyalın, dəşti-bəlayə gəlməsün.

***

Yetsə əgər xəbər sənə, öldü bu Müslimi-Əqil,
İbni-Ziyad nəşimi gərçi edibdi çox zəlil,
Qüslü hənut olmadı, oldu qənarədə qətil,
İstəmirəm, əyalını qoyma, əzaya gəlməsin.

***

Badi-xəzan əsər sənin qönçəsifət əyalına,
Rəhm elə, yavərim Hüseyn, Qasımi-xoşməqalına.
Canı təsəddüq eylədim Əkbərimin cəmalına,
Sağ ola ol imam Hüseyn, qəm üsərayə gəlməsin.

***

Söylə əmoğluma məni-bikəsi eyləsin həlal,
Ərzimi birbəbir elə, Ali-əbayə şərhi-hal.
İki açılmamış gülüm Kufədə zari-dilməlal,
Qaldılar. Əkbər ilə ol Qasim hərayə gəlməsin.

***

Həsrətəm ol cəmalına, ah çəkim bu sinədən,
Kufədə vardı qatilin, gəlmə həzin Mədinədən,
Qoyma yetim Xəldicəni ayrı ola Səkinədən,
Başına əl çək, ağlayıb şuri-nəvayə gəlməsin.

***

Söylə onun anasına başına qarə bağlasın,
İki baladan ayrılıb kövnü məkanı dağlasın,
Tutsa əza, Xədicədən söylə ki, gizli ağlasın,
Bəlkə yetimliyin tozu mahiliqayə gəlməsin.

***

Fatimənin kənizi, bu qissəni eylə kim, tamam,
Bir-birə dəydi mərdü zən, şurə gəlibdü xasüam,
Hövhə edər bu Natəvan, ruzü şəb ağlayar müdam,
Tapmasa bir dəri-nicat, dari-bəqayə gəlməsin.

## HƏLAL MƏHƏRRƏM

Məhərrəmdir, xanım Zeynəb əzası,
Bizi səslər Hüseynin Kərbəlası,
Yolu bağlı qalıb düşmən əlində
Daha zəvvarının yox səs-sədası,
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

***

Çağır şahi-Nəcəf gəlsin hətayə,
Cəhad ilə açar yol Kərbəlayə,
Əlinin Zülfüqarı dadə çatsın,
Hüseyn qurbanları gəlsin Minayə,
Bu gün Kərbübəla viran olubdur,

Hüseyn öz qanına qəltan olubdur.

***

Cəhad meydanıdır, millət dayansın,
Müsəlman xabi-qəflətdən oyansın,
Ucalsın nəyeri-Allahu Əkbər,
Gərək kafər cəhənnəm içrə yansın,
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

***

Hüseyn zəvvarının qurtardı səbri,
Qıraq bu qurdları, kaftarı, bəbri,
Açar yol Kərbəlayə, Kazimeynə,
Çəkək ağuşə o şeşkuşə qəbri,
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

***

Gərək din olmasa dünyanı atar,
Şərəf, izzətli bir dünya yaradaq,
Səadətdir Hüseyn qurbanları tək,
Şəhadətlə liqaül-Allaha çataq.
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

***

Müsəlman səf çəkib dəvayə gəlsin,
Çağır Abbası Tasuayə gəlsin,
Qızı Zeynəb özü sahibəzadır
Çağır Zəhranı Aşuraya gəlgin.
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

***

Ana! Oğlun Əli Əkbər fədası,
Toyu Qasım kimi olmuş əzası,
Durub cənnət qapısında gözətlər
Ki gəlsinlər anasıyla atası –

Belə toy kim görüb dünyada, Qasım,
Toyu yacə dönən şahzadə Qasım.

### TƏZMİN

Hüseynin növhəsin Dilriş yazanda,
Müsəlman səhldir ki, kafər ağlar.

***

Kor olmuş gözlərin qan tutdu Şümrün,
Ki görsün öz əlində xəncər ağlar.

***

Hüseynin köynəyi Zəhra əlində,
Çəkər qıyya-qiyamət, məşhər ağlar.

***

Atanda hərmələ ox Kərbəladə,
Görəydin düşmən ağlar, ləşgər ağlar.

***

Qucağında görəydin Ümm-Leyla,
Alıb nəşi-Əliyi Əkbər ağlar.

***

Rübab nickil döşündə süd görəndə,
Əliyyi Əsğəri yad eylər ağlar.

***

Başında kakili-Əkbər həvasi,
Yel ağlar, sünbül ağlar, ənbər ağlar.

***

Yazanda Ali-Təha növhəsin mən,
Qələm gördüm sızıldar, dəftər ağlar.

***

Əli, şəqqülqəmər, mehrab tilit qan,
Qulaq ver, məscid oxşar, minbər ağlar.

***

Əlidən, Şəhriyar, sən bir nişanə,
Qucaqlar qəbri Malik Əjdər ağlar.

***"Dahilərin göz yaşları" kitabından***

### YATMA YARALISAN

Dur ayağa, eyləmə xab, oğul,
Sən idin güli-çəməni-ədəb,

Quru yerdə yatma, yaralısan.
Ürəyimdə qalmadı tab, oğul,
Quru yerdə yatma, yaralısan.

***

Yola saldı əhli-hərəm məni,
Aparam xeyməmə gərək səni.
Gözü yaşlı qoyma Səkinəni,
Quru yerdə yatma, yaralısan.

***

Məni əvf qıl şəhi-təşnələb,
Deyil Əkbərin belə biədəb.
Belə yatmağa bu olub səbəb,
Yaralanmışam, dura bilmirəm.

***

Quruyub susuzdan, oğul, dilim,
Qırılıb hamı köməyim, əlim.
Mənə rəhm elə bükülüb belim,
Quru yerdə yatma, yaralısan.

***

Aparım, anam sinə dağlasun,
Səni ölməmiş görüb, ağlasun,
Gözünü anan özü bağlasun,
Quru yerdə yatma, yaralısan.

***

Bacıma yaz müntəzir olmasun,
Dəxi yollar üstə dayanmasun,
Başına əlvan dəxi salmasun,
Yaralanmışam dura bilmirəm.

Belə yatmağa nə olub səbəb?
Gözün aç, gəlib şəhəri-təşnələb,
Quru yerdə yatma, yaralısan.

***

Yaralanmışam, dura bilmirəm,
Dəxi xeyməyə gedə bilmirəm.
Yaralanmışam, yaram incidir,
Dəxi Leylanı görə bilmirəm.

***

Səni gözləyib Əli qardaşın,
Bir oyan, fədası bu gözyaşın.
Dizim üstə barı qoy, oğul, başın,
Quru yerdə yatma, yaralısan.

***

Baba, qoyma çox anam ağlasun,
Cigərin fəğan ilə dağlasun,
Başına bacım qara bağlasun,
Yaralanmışam, dura bilmirəm.

***

Söylə gülləri solan anama,
Əli qoltuqda qalan anama,
De baba, oğul ölən anama,
Yaralanmışam, dura bimirəm.

***

Gərək ağlasın gözü Zakirin,
Düşə Dillər sözü Zakirin,
Bu sözü deyir özü Zakirin
Quru yerdə yatma, yaralısan.

## ALLAHA TAPŞIRDIM SƏNİ

Get, Ələkbər oğul, Allaha tapşırdım səni,
Şibihi-peyğəmbər oğul, Allaha tapşırdım səni

***

Çək qılınc Heydər kimi, bir həmlə et bu ləşkərə,
Vur bu düşmən səflərin, muri-mələxtək bir-birə,
Mümkün olsa bir içim su al Əliyi- Əsgərə,
Təşnədir Əsgər oğul, Allaha tapşırdım səni.

***

Kərbəla dəştin  necə gör şurişi-qovğa tutub,
Xeymələrdə indidən yasın anan Leyla tutub,
Bir səni öldürməyə əldə ədu yekca tutub,
Nizəvu xəncər oğul, Allaha tapşırdım səni.

***

Kərbala dəşqqində cən bir ahuyi-azadəsən,
Tuş olursan, qorxuram bir cansitan cəlladə sən,
Yekkövü tənha qalırsan, bir nəfər şahzadəsən,
Çoxdur bu ləşkər, oğul, Allaha tapşırdım səni.

***

Həsrətim könlümdə qaldı, arizuyə yetmədim,
Kim tutub bir rəh əlin, səmti-Hicazə getmədim.
Nocavanlartək sənə zinət edib toy etmədim,
Görmədin zivər, oğul, Allaha tapşırdım səni.

***

Çəkdim on səkkiz il, ey şəbhi-peyğəmbər, zəhmətin,
Göz yaşilə bəslədim sərvi-sənubər qamətin,
Zülm əlilə eylədi axır kəfən toy xələtin
Şümri-bədəxtər, oğul, Allaha tapşırdım səni.

***

Kətdi qurbangahi – eşqə şahi-məzluman səni,
Həq yolunda ta Xəlilasa edə qurban səni.
Gör atan görsə bu çöldə qanuva qəltan səni,
Sinə çak eylər, oğul, Allaha tapşırdım səni.

***

Salma dərdi-firqətin qəmlər məhəlli könlümə,
Çün gedirsən, tez qayıt, ver bir təsəlli könlümə,
Musiyi-eşqəm, Əli, eylə təcəlli könlümə,
Mehri-pürənvər oğul, Allaha tapşırdım səni.

***

Qoyma bu Leylanı olsun dilfikarın həşrədək,
Razı olma kim ola biqəmgüsarın həşrədək,
Gəlməsin, vallahi, rahi-intizarın həşrədək,
Gözlərim gözlər, oğul, Allaha tapşırdım səni.

***

Çün olubdur binəva könlüm məqamı-kakülün,
Qorxuram getsən ola bərhəm nizami-kalülün,
Eyləsinlər zülm əlilə qəvmi-Şam-kalülün,
Qan ilə əhmər oğul, Allaha tapşırdım səni.

**QUMRİ**

Mahi-məhərrəm oldu yenə göylər ağladı,
Düşdü cahanə qülğülə aləmlər ağladı.

***

Gəldi məhi-müsibətü əyyami-təziyə,
Bu matəməzayə görün kimlər ağladı.

***

Şahi-rüsül, əmiri-ərəb, xətmi-əbiya,
Əmmaməsin alıb ələ peyğəmbər ağladı.

***

Döndü  xazanə gülşəni Zəhrayi-əthərin,
Dəşti-Nəcəfdə sərvəri-din Heydər ağladı.

***

Qətli-Hüseynə eylədi iqdam Şümri-dun,
Amma əlində rəhmə gəlib xəncər ağladı.

***

Ğəli-cəfa ilə qolu bağlandı Zeynəbin,
Gördü bu halı şürə gəlib ləşgər ağladı.

***

Çəkdi Səkinə ahi-cigər suzi-sinədən,
Meydan içində nəşi-Əli Əkbər ağladı.

***

Oldu ərus ləşgəri-küffarə dəstgir,
Torpaqlar üstə Qasimi-gülpeykər ağladı.

***

Gülsum olanda zillətilə nəqayə süvar,

Əbbasi-namdar vəfapərvər ağladı.
***
Qumri, bu qisseyi-ələməfzanı qıl tamam,
Əldə qələm şərarə tutub, dəftər ağladı.

## ANAM OĞLU

Dur şamə gedir Zeynəbi-nalan, anam oğlu,
Canım yaralı cismivə qurban, anam oğlu.
***
Əvvəldə yazıb adımıza katibi-qüdrət,
Qardaş, içəsən şövq ilə sən cami-şəhadət,
Ta var nəfəsim mən də çəkim dərdü müsibət,
Olsun ciyərim laləsifət qan, anam oğlu.
***
Nə carə qılım qoymur əda ta məni-zari,
Nəşin alım ağuşə, edim göz yaşı cari,
Qardaş, bacının böylə deyil, rəsmü qərari,
Hansı bacı görmüş belə hicran, anam oğlu?
***
Qardaş, üzülüb rişteyi-canım, nəfəsim yox,
Bu çöldə yetə dadimə bir dadrəsim yox,
Bir Abidi-bimar qalıb, xeyri kəsim yox,
Olsun bu əsiranə nigəhban, anam oğlu.
***
Qanlı başın hər yana gedə, növki-cidadə,
Yox tabi-cida olmağa mən bəxti-qaradə,
Qırx mənzili gahi dəvədə, gahi piyadə,
Şamə kimi gəlləm gözü kiryan, anam oğlu.
***
Hər qədri mənə zülmü sitəm eyləyə düşməm,
İstər verə ya güşeyi-viranədə məskən,
Əcz etmədim ədayə çü heydər qızıyam mən,
Xoşdu dolanım dəştü biyaban, anam oğlu.

## ƏFRAD

Düzüldü Şamə tərəf xeyli karvan, anam oğlu,
Bacın gedir ola başınla həmzəban, anam oğlu.

***

Yaralı nəşivi qoydum quru yer üstə Hüseyn,
Nə dəfnü kəfn, nə növhəxan, anam oğlu.
Çox istər idim alım qanlı nəşin ağuşə,
Çi faydə, qolumu bağlayıb Sinan, anam oğlu.

***

Yaralarından öpmək istər idim, rəva bilməm,
Ki qorxuram verə büsəm sənə ziyan, anam oğlu.

***

Səni qoyub gedə bilməm, nə qalmağa imkan,
Nə naləyə veri möhlət bu kufəyan, anam oğlu.

***

Nə var suyum, yaralı nəşivə səpim amma,
Gözüm yaşı həm olub qətrə-qətrə qan, anam oğlu.

## BAĞİYİ

Hər dəm ki, Səkinəm görür ol, Şümri-ləini,
Səslər uca avaz ilə mən zarü həzini,
Görrəm ki,qoyub gözlərinə iki əlini,
Titrər bədəni, eyləyər əfqan, anam oğlu.

***

Müstəğrəqi-bəhri-günəhəm dari-fənadə,
Yox bir əməlim layiqi-dərgahı-xudadə,
Dərk etsə Pərişanı əcəl, ruzi-cəzadə,
Sən eylə onun dərdinə dərman, anam oğlu.

## DİLSUZ

Yarəb, bu nə qəmdü çarə olmaz,
Bir çarə bu ahü zarə olmaz.

***

Hər il düşər aləmə bu vəhşət, Çün ruzi-ələst o binəvayə,

Hər il oldu təzə bu müsibət.
Aləmləri yandırıb bu möhnət,
Hərgiz əsəri-şərarə olmaz.

Hökm oldu o şahi-Neynəvayə,
Səbr ilə yetişsə hər bəlayə,
Heç aşiqə bu işarə olmaz.

***

Əflakə çıxanda çün fəğanlar,
Nahəq tökülüb nə qədr qanlar,
Al qanə boyandı çox cavanlar,
Əkbər kimi parə-parə olmaz.

***

Çox tifil əgər əmibdü peykan,
Çox tifil olubdu qanə qəltan,
Çox tifil qalıbdı gərçi ətişan,
Ol Əsğəri-şirxarə olmaz.

***

Çox baci çəkib fəğan,açıb baş,
Çox baci görübdü mərgi-qardaş,
Çox baci tökübdü didədən yaş,
Zeynəb kimi bəxti qarə olmaz.

***

Düşmən birisin şəhid edəndə,
Zülm ilə birisin öldürəndə,
Billik yarə bir, olur bədəndə,
Min doqquz yüz əlli yarə olmaz.

***

Ümmətdən ötrü əgər cahanda,
Hər zülmi qəbul edib o mövla,
Heç padişəhə cahanda əsla,
Bu zülmlər aşikarə olmaz.

***

Çox şahın əgər olur cəlali,
Axırda olur onun zəvali,
Çox şahın olur əsir əyali,
Yek parə olur, dü parə olmaz.

***

Çün oldu şəhidi-kin, o sərvər,
Od urdulə xeyməqahə yeksər,
Bu növ cəfavü, bu sitəmlər,
Heç sərvəri-şəhriyarə olmaz.

***

Çox toylar olubdu bu fənadə,
Çox şəm olub qara ziyadə,
Qasim də toy etdi Kərbaladə,
Bir bəylə toy heç fikarə olmaz.

Dilsuz, gəl eylə ahü əfğan,
Doldurdu cahanı cürmü üsyan,
Qeyr əz bu əzadə ağlamaqdan,
Bu dərdə bir özgə çarə olmaz.

***

Bir yetiş fəryadə ya Sahibzəman!
Əl-əmaü əl-əmaü əl-əman.

***

Əl-əman ey sərvəri-cinnü bəşər,
Əl-əman ya hüccətüllah dadə yet,

Əl-əman ey padşahi-bəhrü bər,
Ya vəliyyi-Kirdigərü dadgər,
Ərşə çıxdı xəlqdən ahü fəğan.

Ey imami-rəhnüma fəryadə yet,
Şiələr bikəs qalıb imdadə yet,
Yoxdu vallah bizdə təbi-imtəhan.

***

Qurtaramulla bu möhnətdən bizi,
Sən xilas et bu müsibətdən bizi,
Qıl rəha iştə bu afətdən bizi,
Almayıb kam öldü bihəd növcavan.

***

Gərçi bu dünyadə yoxdur etibar,
Olma razi, şiələr olsunla xar,
Sən yetiş fəryadə, ey düldülsuvar,
Qıldı viran bu bəla çox xaniman.

***

Bir mərəzdür kim, buna yoxdur dəva,
Xaliqi-aləm məgər versün şəfa,
Bir bəladür anlamaz şahü gəda,
Mərdü zən, fəqrü qəni, pirü cavan.

***

Biz səni verrik qəsəm peyğəmbərə,
Həm atan səğğayi-hövzi-kövsərə,
Həm anan xatuni-ruzi-məhşərə,
Qıl tərəhhüm ey imami-insü can.

***

Gərçi aləmdə günahkarıq müdam,
Cəddivə axır əzadarıq müdam,
Matəmində ol şəhin zarıq müdam,
Olmuşuq şamü səhər biz növhəxan.

***

Ağlarıq daim Əliyyi Əkbərə,
Təşnələb ol şirxarə Əsğərə,
Fəzli-Əbbas ilə Övnü Cəfərə,
Qasimi-damadə ey şahi-cahan.

***

Gərçi cürm ilə dolub ərzü səma,
Ey şəhi-aləm, imami-rəhnüma,
Ərzi-Dilsuzi eşit şamü səba,
Həşrədək sənsən şəfii-asiyan.

## AĞA MÖVSÜM NASEH

Kimsən ey Kərbübəladə boyanan qanə qərib?
Dilivün virdi dönüb naləvü əfqanə qərib?

***

Gəh deyirsən başımı qoy yerə bir ləhzə ana,
Gəh deyirsən oxu Quran başım üstündə ata,
Gah deyirsən mənə ümmətlərin ağ oldu baba,
Baxıram görmyirəm kim, səni hər yanə qərib.

***

Oldu qurban sənə bu canım, əya kani-ədəb,

Doğrayıb peykərivü, ləşkəri-kinə nə səbəb?
O qədər yarə vurub cismivə, bu qövmi-ərəb,
Ağlayar həm sənin əhvalüvə biganə qərib.

***

Göndərib dəhridə bu qövmə nəbi, rəbbi-cəlil,
Eyləyib ümmət o peyğəmbəri dünyadə qətil,
İlticaim budur ey həzrəti-Yəzdanə, xəlil,
Kimsən, olduğvu bəyan et, məni-nalanə qərib.

***

Göndəribdür səni rəbbün bu dəni qövmə rəsul,
Gülşənün güllərini zülm ilə etmişlə xəzul,
Biəbi əntə və ümmi hiyə bu qövmi-cəhul,
Sinəvi etmiş hədəf nabəkü peykanə qərib.

***

Tiği-əda eləyib peykərün əzbəski cərüh,
Yoxdu mümkün dəxi cismində davam eyləyə ruh,
Şeyssən Həzrəti-İdris və ya Həzrəti-Nuh,
Düşmüsən bəhri-bəladə yenə tufanə qərib.

***

Göndəribdür cəni rəbbün bu dəni qövmə dəlil,
Sənsən aləmdə əgər Həzrəti-yəzdanə xəlil,
Nari-Nəmrudu gülüstan eliyən rəbbi-cəlil,
Niyə döndərmədi bu dəşti gülüstanə qərib.

***

İlticaim budu Musasən əgər eylə bəyan,
İstədün ta görünə çeşmüvə rəbbün bu zaman,
“Ləntərani” buyurubdur sənə xallaqi-cahan,
O səbəbdən yıxılıbsan bu biyabanı qərib.

***

Mahi-rüxsarüvə kim qılsa bəsirətlə nəzər,
Ya peyğəmbərdü və ya hüccəti-xəllaqi-kibər,
Ovci-darə çəkilən Həzrəti-İsasən əgər,
Yıxılıbsan nə səbəb ərseyi-meydanə qərib.

***

Naseh ərz eylədi ey padşahi-cinnü bəşər,
Bizə cəmiyyət ilən eylə şəfaqqətlə nəzər,
Qəbrivün ustə gəlib növhə dəmadəm deyələr,
Olalar cəmi sənün şəmüvə pərvanə qərib.

## MİRZƏ İSMAYIL QASİR

Bu gecə Fatimənin  didəsi giryan olacaq,
Ki, sabah oğlu Hüseyn, qanına qəltan olacaq.

***

Bu gecə nalə çəkib Əhmədi-Muxtar ağlar,
Bu gecə növhə qılıb Heydəri-Kərrar ağlar,
Bu gecə şivən edib Firgeyi-əbrar ağlar,
Təşnəlikdən cigəri-ali-Əli qan olacaq,

***

Bu gecə kəsdi Fəratın yolunu İbn Ziyad,
Bu gecə işrət edər taifeyi-İbn Ziyad,
Bu gecə Zeynəbi-məzlumə çəkər naləvü dad,
Əhli-beyti-şəhi-din zarü pərişan olacaq.

***

Ümmileyla bu gecə ağlar Əliəkbər üçün,
Zülfi geysulərinə şanə çəkər zivər üçün,
Zeynəbi zivər edər, ol şəbi – peyğəmbər üçün,
Ki, səhər təşiəcigər ümmətə qurban olacaq.

***

Çün Səkinə bu gecə naləvü əfqanə gəlir,
Ələtəş bəsgi deyib növhə qalıb canə gəlir,
Ki, gedib xeyməqəhə şahi-şəhdanə gəlir,
Yandırır ey baba can, Əstərin ətşan olacaq.

***

Bu gecə Həzrəti-Gülsum deyər ya Əbbas,
Xatiri-itrəti-əthərə düşüb xovhü həras,
Qılgilən mərhəmət ilən nəzərin zibdeyi-nas,
Tifillər xeymədə, ləb təşneyi-suzan olacaq.

***

Bu gecə oldu yəğin, Fatimeyi-naşadə,
Ki, gərəkdir ola ənduhi-qəmə amadə,
Bildi ki, etməyəcək vüslət ilə damadə,
Toy hənaşsi ələ ol təşnələbün qan olacaq.

***

Bu gecə riqqət ilə ağlyb imami-səğəleyn,
Xeyməlㄹərdən yetişibdür fələkə şivəni-şeyn,
Dedi öz əhli-əyalinə bu növ ilə Hüseyn,
Ki, sabah Kərbübəla qan ilə tufan olacaq.

Əhli-beytə yetib ənduhü müsibət bu gecə,
Üz verib şiələrə yüz qəmü möhnət bu gecə,
Verilib Qasirə bir cami-məhəbbət bu gecə,
Həşrədək növhəgəri-şahi-şahidan olacaq.

**FANİ**

Ey sariban, amandır, bir saxla bu qatari,
Bu çöldədir yəqinən,qardaşımın məzari.

***

Hər dəm gəlir məşamə, ətri əbirü ənbər,
Reyhani-ruyi-xuban tutmuş cahanı yeksər,
Ətri-Hüseyndən oldu gülzari-can müəttər,
Şövqi-liqayi-canan, əldən alıb qərari.

***

Çün sariban bu sözdən, düşdü bir özgə halə,
Gördü təmami-aləm batmış qəmü məlalə,
Həm naqələr edərlər, naqus misli nalə,
Qalmadı bir nəfərdə, həm getmək ixtiyari.

***

Düşdü kəcavəsindən Zeynəb ba ahü əfqan,
Gülsümü həm Səriyyə Leylayi-zarü giryan,
Zeynəlibadi-bimar ba xatiri-pərişan,
Şövq ilə axtarırdı, qəbri-Hüseyni-zari.

***

Bimari-Kərbəla çün gördü o pak xaki,
Həm düşdü iztirabə ol qəlbi-dərdnaki,
Elmi-imamət ilə tapdı o qəbri-paki,
Bildi həman bu yerdir Kərbübəla diyari.

***

Bir səmtə diqqət ilə baxdı o şahzadə,
Gördü o yerdə vardır bir mədfəni-fütadə,
Quşlar o pak yerdə vermiş qanad-qanadə,
Sanki buludlanıbdır çərxi-fələk kənari.

***

Zeynəb nəzər qıldı bimar olan imanə,
Bir yerdə gördü ol şəh, əldə tutub əmamə,
Bir pak türbət üzrə, məşğul olub səlamə,
Gözdən axardı yaşı çün əbri-növbahari.

***

Zeynəb görüb bu halı ney tək gəlib nəvayə,
Həm əhli-beyt yeksər, verdi səda-sədayə,
Qardaşı qəbri üstə düşdü misali-sayə,
Az qaldı ruhu olsun, qardaşının nicari.

***

Səndən sonra Hüseyn can, pamal olub cəlalın,
Görsən əgər bu halı, artar qəmü məlalın,
Dur bir ayağa qardaş, gəldi əsir əyalın,
Gör bir nə halə düşmüş, bu zari-qəmgüsari.

***

Səndən sonra nə qəmlər üz verdi biz həzinə,
Ərz eyləyim, qulaq ver ey sərvəri-Mədinə,
Yeksər gəlib əyalın, bir gəlməyib Səkinə,
Şamın xərabəsında tozlu qalıb məzari.

***

Ərz etdi Zeynabi-zar, ol şahə qəmlərini,
Şamın xərabəsində, xalqın sitəmlərini,
Ol dəmdə tapdı Leyla, həm qəbri-Əkbərini,

Çün axtarıb Səriyyə, damadi-gülüzari.

***

Abbası tapdı Gülsüm, gəldi fəqani-zarə,
Gördü düşüb Hüseyndən, qəbri onun kənarə,
Bağrına basdı qəbrin, çün yetdi vəsli-yarə,
Od saldı çərxi-dunə, fəryadının şərari.

***

Ümmət yolunda verdi, səd parə gül bədənlər,
Cananə vasil oldu, bu yolda can verənlər,
Vəqf eyləyib Hüseynə, canın bu sinəzənlər,
Ya rəb bu cəmə lütf et qəbri-Hüseyni-zari.

***

Fani bu bəzmi-qəmdə, yandırma dil həzini,
Eylə rza özündən, bu yerdə şahi-dini,
Qorxma, yetir təmamə, əyyami-ərbəini,
Hər dü cahanda əcrin, yoxdur yəqin şümari.

# TORPAQ UĞRUNDA ÖLƏN VARSA VƏTƏNDİ!

## ŞƏHİDLƏR

Namərd gülləsinə qurban gedərkən
Gözünü sabaha dikdi şəhidlər.
Üç rəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər

***

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namumkünü.
Xalqın qəlbindəki qorxu-hürkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

***

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi, ürəyimizdə

Cəsarət mülkünü tikdi şəhidlər.

***

Zalım öyünməsin zülmlərilə,
Min bir böhtanıyla, min bir şərilə.
Həqiqət uğrunda ölümlərilə
Ölümü kamana çəkdi şəhidlər.

***

İnsan insan olur öz hinləriylə,
Millət millət olur xeyir-şəriylə.
Torpağın bağrına cəsədlərilə
Azadlıq toxumunu əkdi şəhidlər

*Bəxtiyar Vahabzadə*

## LAYLA, XOCALIM, LAYLA!

Duz basdılar yarana,
Layla, Xocalım, layla!
Düşdün gülləbarana,
Layla, Xocalım, layla!

***

Daş üstə daşmı qaldı,
Salamat başmı qaldı,
Gözümdə yaşmı qaldı,
Layla, Xocalım, layla!

***

Bu torpağın canısan,
Selə dönmüş qanısan,
De, kimin qurbanısan?
Layla, Xocalım, layla!

***

Şuşanın ətəyi qan,
Balı qan, pətəyi qan,
Düşmənin kötəyi qan,
Layla, Xocalım, layla!

Namərdi kim çağırdı,
Göydən ölüm yağırdı.
Dilnən demək ağırdı,
Layla, Xocalım, layla!

***

Dərdin kimi acı yox,
Ağrı var, əlacı yox,
Ağlamağa bacı yox,
Layla, Xocalım, layla!

***

Kədər düşdü payına,
Səndən çətin yayına,
Hay vermədik hayına,
Layla, Xocalım, layla!

***

İtən qənim olaydı,
Bitən dənim olaydı,
Vətən mənim olaydı,
Layla, Xocalım, layla!

*Zəlimxan Yaqub*

## GÖYÇƏ DƏRDİ

Qəsbkarlara qalan Göyçəm,
El-obasl talan Göyçəm
Ağ güllərin qara bitsin,
El yurduma dönməyincə.

Qoy axmasın bulaqların,
Gül açmasın yaylaqların,
Tikan bitirsin bağların
Yad bayrağı enməyincə.

***

Yurd saldım, qaldı namərdə,
Ağlar burda göy də, yer də.
Yanmayacaq el çırağı
Qurduğumuz ağ evlərdə
Yad çırağı sönməyincə

***Mirvarid Dilbazi*.**

## 20 YANVAR

Bura şum yeri deyil,
Saxla, kotanı saxla!
Çək dəmir cilovunu,
Qızmış atını saxla!

Hərəsi bir buğdadı
Bir sünbülün içində,
Hərəsi bir ləçəkdi
Qızılgülün içində.

***

Başı kim, ayağı kim,
Daha seçə bilməzsən.
Dəmir bıçaq olsan da,
Kəçib keçə bilməzsən.

Şəhər göz dənizidi,
Qara tufandı şəhər.
Balaca dalğasında,
Dünyalar silkələyər.

***

Qaldırın bu çiçəyi,
Təpiklərin altından.
Çıxarın ürəyimi,
Təkərlərin altından.

***Sabir Rüstəmxanlı***

## SÜBHANALLAH

Əzəl söylə Bismillah,
Sidq ilə çağır Allah!

Dada yetən bir Allahdır,
Məkkə bizə qibləgahdır.

Odur bəndələrə pənah,
Sübhanallah deyə-deyə.

***

Adəm yarandı torpaqdan,
Libası oldu yarpaqdan.
Həvva bir cüt qabırğadan,
Sübhanallah deyə-deyə.

***

Saleh peyğəmbər dəvəsi,
Daşdan yarandı əzası.
Yanında vardı balası,
Sübhanallah deyə-deyə.

***

Üzünü tut qibləgaha,
Səcdə eylə bir Allaha.
Namazı qoyma sabaha,
Sübhanallah deyə-deyə.

***

Dəryalarda gəzər gəmi,
Xıdır İlyas, Xıdır Nəbi.
Var 124 min peyğəmbəri,
Sübhanallah deyə-deyə.

***

Məhəmmədir peygəmbərim,
İslamiyyət oldu dinim.
Əhli-Beyt çəkdi zülm,
Sübhanallah deyə-deyə.

***

Öyrən Muhəmməd dinini,
Söylə Fatimə zikrini.
Get Əhli-Beytin yolunu,
Sübhanallah deyə-deyə.

***

Əlini qaldır Allaha,

Kəbə evi səcdəgahdır,
Sübhanallah deyə-deyə.

***

Əyyub peyğəmbər çubuğu,
Yaratdı neçə bulağı.
Nurdan yaratdı çırağı,
Sübhanallah deyə-deyə.

***

Tut orucu, qıl namazı,
İbadət et qışı, yazı.
Zikr eylə, de bu avazı,
Sübhanallah deyə-deyə.

***

Nə qədər ki, sağdır canım,
Çoxdur dostum, pasibanım.
Bir gələr son zamanım,
Sübhanallah deyə-deyə.

***

İbrahimxəlil duası,
Qurban kəsilər balası.
Bizik onun nişanəsi,
Sübhanallah deyə-deyə.

***

Zərbətləndi Həzrət Əli,
İki cahanın yavəri.
Çağırdı o, peyğəmbəri,
Sübhanallah deyə-deyə.

***

Oxu Yasını, Quranı,
Ucadan de "Həl Ətanı".
Çıxart qəlbindən şeytanı,
Sübhanallah deyə-deyə.

***

Zikr eylə sən dönə-dönə,

Üzünü tut gibləgaha.
Bir gün çəkər imtahana,
Sübhanallah deyə-deyə.

Gəl imana, gəl sən dinə.
İblisi qoyma qəlbinə,
Sübhanallah deyə-deyə.

## ZİKRİ ALLAH

Peyğəmbəri uca elə,
Nə tapşırıb onu söylə.
Çalış ki, pisliklər etmə,
Allah, allah deyə-deyə.

***

Peyğəmbərimiz durub zamin,
O, diləyir haqq, imdadın.
Haqqa itirmə inamın,
Allah, allah deyə-deyə.

***

Allah qıyan payın alıb,
Gecə gündüz yada salıb.
Peyğəmbər qayğınıza qalıb,
Allah, allah deyə-deyə.

***

Ərərsətə gələr hamı,
Əlindədir Kövsər camı.
Qismət olar Cənnət tamı,
Allah, allah deyə-deyə.

***

Ümidini bağla haqqa,
Mail olma gəl nahaqqa.
Sorğu-sual olan vaxtda,
Allah, allah deyə-deyə.

***

Cəhənnəmdə yoxdur kömək,
Fikirləş gör nədir demək.
Gərək biz Sınaqdan keçək,

Peyğəmbərin yoluyla get,
Dediyinə gəl əməl et.
Aydın çağır, illəllah et,
Allah, allah deyə-deyə.

***

Ordan keçən iki yoldur,
Biri geniş biri dardır.
Peyğəmbər çox intizardı,
Allah, allah deyə-deyə.

***

Haqqa ümid bağlayanlar,
Kimdir orda ağlayanlar.
Sorğu-sual olunanlar,
Allah, allah deyə-deyə.

***

Hamı dünya qonağıdır,
Behişt mələk oylağıdır.
Peyğəmbərin qəlb çırağıdır,
Allah, allah deyə-deyə.

***

Öyünmə gəl sən özünə,
Torpaq tökülər gözünə.
Əməl dirənər üzünə,
Allah, allah deyə-deyə.

***

Əlində imkan yeridir,
Bu dünya axirət sirridir.
İbadət Cənnət gülüdür,

Allah, allah deyə-deyə.

***

Haram işi görmək olmaz,
Çiynindəki yalan saymaz.
Bir-birindən ara qoymaz,
Allah, allah deyə-deyə.

***

Nə iş gördün Bismillahla,
Haqqı çağır sidqi canla.
Şeytana uyma imanla,
Allah, allah deyə-deyə.

***

Allah, allah deyə-deyə.

***

Yeri göyü xəlq eylədi,
Muhəmməd adın söylədi.
Mələkləri cəm eylədi,
Allah, allah deyə-deyə.

***

Gəl uyma şeytan sözünə,
İnanma şirin dilinə.
Səni salar çox pis günə,
Allah, allah deyə-deyə.

***

Alarsan dəftər əlinə,
İləllah gəlsin dilinə.
Mələk yapışar əlinə,
Allah, allah deyə-deyə.



## MƏHƏMMƏDƏLİ ÇƏLƏBİYƏ

Bu fani dünyadan vəfa görmədin,
Dərdini kimsəyə deyə bilmədin.
Arzunun dərdinə dözə bilmədin,
Bütün arzuların puç oldu sənin

***

Qəm, kədərdən qismətinə pay düşüb,
Tufan gəlib, yolun əzaba düşüb.
Dərd çəkməkdən ürəyinə xal düşüb,
Bütün arzuların puç oldu sənin.

***

Dərd ağır olanda dözmək olmayır,
Övlad itkisi sinəni dağlayır.
Yaraların sızıldayıb ağrıyır,
Ellərin dərdini görüb ağlayır,
Bütün arzuların puç oldu sənin.

***

Taleyin hökmünə, qismətinə bax,
Dərmanı tapılmayan dərdlərdə çox.
Məhəmmədəli çələbi, Arzu yox,
Çələbi Suqra yox, Şahlıq nənə yox.
Simuzəri üzür bu itkilər çox,
Bütün arzuların puç oldu sənin.

***7.08.2011***
***Vəfatı günü***

## EL ANASI

***Şahlıq çələbiyə***

Bir dağ idin sığınmışdıq sənə biz,
Qəfil gedişindən olduq xəbərsiz.
Bilsəydik beləcə uçub gedərsən,
Üz tutub Allaha yalvarardıq biz.
***
Davudunun gözü yolda,
Səni sorur orda-burda.
Deyir nənəm qayıdacaq,
Niyə qoyduz onu orda.
***
Evin düşüb yaraşıqdan,
Əsər yoxdu o, işıqdan.
Hər ləzzəti sənlə gedib,
Baş açılmır qarışıqdan.
***
Səsin qulağımdan getmir,
Allahım bizə səbr ver.
Bu sənsizlik niyə bitmir,
Niyə dönmürsən evinə,
Davudun da bir sevinə.

Heç yaraşmır ölmək sənə,
Düşünürəm dönə-dönə.
Şahlıq xala gəzməkdədir,
Gec-tez qayıdar evinə.
***
Niyə qırdın elin belin,
Hamıya sən təsəlliydin.
Dayaqsıza dayaq durub,
Köməksizə kömək idin.
***
Son nəfəsində belə sən,
Gözün qaldı Vüsaləndə.
Düşünürdün yolum uzaq,
Bir də baxmaram mən sənə.
***
İndi də sən saldın sarayda məskən,
Dedin ki, ay Arzu sən burda təksən.
Qoy səni mən alım isti qoynuma,
Özünü kimsəsiz, əlacsız sanma,
Nə biləydik atan gəlir yanına.

***Hafizə çələbi Zamanova***
***20.10.2009***

## CAN ƏLİ, DEYİM

*Hacı Qaraman ocağında məzarı olan*
*Əli Çələbiyə*

***

Bir gül idim Mələklərin qəsrində,
Oturmuşdum kəhər atın üstündə.
Fələk girdi mən cavanın qəsdinə,
Sağalmaz yaralı getdim dünyadan.

***

Ay həzərat qara zimi göröndə,
Dolanım başına can Əli, deyim.
O, güllü məzara üz çevirəndə,
Dolanım başına can Əli, deyim.

***

Fələk qara gətdi mənim yazımı,
Qırdı simli tarlı, xoş avazımı.
Müsibətli gördüm əmim qızını,
Üzü qanlı ağlar, can Əli, deyim.

***

Yeriyirəm, yüyürürəm tapmıram,
Gəzirəm dünyanı axı çatmıram.
Axtarıram qara zimin sahibin,
Bəs hanı Şərifə, can Əli, deyim.

***

Canım qurban olsun Hacı Qasıma,
Qərib Həvəzəyə, qərib Yasinə.
Qurbanam Alıya, oğlu Teyfura,
Bunlara qurbanam can Əli, deyim.

***

Murmanskı hara, Həvəzə hara,
Fələk necə qıydı cavan Teyfura?
Güzarım düşərsə həmin diyara,
Can nurlu Həvəzə, can Əli, deyim.

***

Bir cüt övlüyadır, yatır yanaşı,
Biri Həvəzədir, biri Dadaşım.
Dolanım məzarın, olum baş daşın,
Çağırın Qasımı, can Əli, deyim.

***

Mən gəzirəm hər mahalı, hər eli,
Yasin gedib, məskən edib Daşkəndi.
Gəzirəm Osmanı, həmi Firəngi,
Hər addım başına can Əli, deyim.

***

Canım qurban sənə Qaraman piri,
Dolanım başına Qasım çələbi.
Gəzirəm Misiri, Şamı, Hələbi,
Hər addım başına can Əli, deyim.

***

Qurbanam Saraya, həm Sələməyə,
Məhyəddin çələbi, Həcər nənəyə,
Suqraya, Yəhyaya, Ardığlı pirə,
Qurbanam kökünə can Əli, deyim

***

Hələ tam olmayıb 34 yaşı,
Ona qurban olsun dostu, sirdaşı.
Ellərin axıtdığı gözünün yaşı,
Bəs hanı Fatimə, can Əli, deyim.

***

Cəfa çəkdi ata, bəhrin görmədi,
Cavan getdi, uzun ömür sürmədi.
Niyə Əli getdi, Yağub ölmədi,
İndi soraqlıyım, can Əli, deyim,
Dolanım başına, can Əli, deyim.

## BULUDLAR

*(bayatı)*

Göydə qara buludlar,
Böyrü para buludlar.
Mənim ərzi-halımı,
Apar yara buludlar.

***

Göydəki bulud mənəm,
Əylənərəm getmərəm.
Dilindən yad eyləsəm,
Kor ollam unutmaram.

***

Əzizim dağ döşündə,
Gül bitər dağ döşündə.
Ünüm sənə yetməyir,
Məzarım dağ döşündə.

***

Əzizim oda həsrət,
Ocağa oda həsrət.
Allah bir övlad verdi,
O da övlada həsrət.

***

Əzizinəm yaddansan,
Qohum, qardaş yaddansan.
Nə ahım candan gedər,
Nə çıxarsan yaddan sən.

***

Bizdə bir qışlaq idik,
Qışlağa müştaq idik.
Fələk yurdu dağıtdı,
Qədimi qışlaq idik.

***

Mən aşiq dolan gözüm,
Doy gözüm, dolan gözüm.
Gedərsən qayıtmazsan,
Vətəni dolan gözüm.

## SİZİ GÖZLƏYİR



Yığılıb gəlibdir ağır ellərin,
Şahlıq nənə deyib, sizi gözləyir.
Qapıda ellərin boy-boya durub,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Adını eşidib həsrət qalanlar,
Əlacı olmayıb, əlac umanlar.
Ehtiyac ucundan yolda duranlar,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Şəcərənin kökü, qoluda sənsən,
Çoxuna xeyriyyə payı vermisən.
Çoxuna vəd verib, gəlləm demisən,

Şahlıq nənə deyib, sizi gözləyir.
***
Atasız, anasız körpə uşaqlar,
Qocalar evində qalan qocalar.
Küçədə imkansız, müstər olanlar,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Uşaq xəstə olsa yol gözləyənlər,
Toya hazırlaşan toya gedənlər.
Səni görmək üçün qızlar, gəlinlər,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Ev tikib, yük qurub, gəlin bəzəyən,
Bunlar üçün sizdən imdad gözləyən.
Gəlişinə əmlik quzu bəsləyən,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Kiminin düyünü bağlı qalıbdı,
Kimi qızı üçün cehiz alıbdı.
Kimi yas gözləyib, yola salıbdı,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Səndən müsahibə alan diktorlar,
Yolunu gözləyən sadə insanlar.
Beşikdə ağlayan körpə uşaqlar,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Uçdu bir məleykə, çıxıbdı əldən,
Sizi bəs soruşaq, biz yazıq kimdən?
Əlləri qoynunda ağlayan bəndən,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Ulu babaların uyuyan yer də,
Yad əllərdə qalan doğma vətən də.

Cəbrayılatada bitən güllər də,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Gəzdiyin torpaqlar, gördüyün yerlər,
Xeyirə-şərə qonaq getdiyin ellər.
Ürəyinə yatan qaldığın evlər,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Əldən çıxdı Allah bir təşəbbüskar,
Mövlud işığına, şad yığışanlar.
İndi məlil-məlil, boyun buranlar,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Sən çox istədiyin yoldaşlarında,
Mehriban qonşular, oymaqların da.
Qurub, yaratdığın Niftalılar da,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Məclisdə dediyin şəkərli sözlər,
Oynadığın toyda, qoyduğun izlər.
Dalınca boylanan o qara gözlər,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Maşını gətirən qapıda durub,
Sükanda əyləşib, boynunu burub.
Hər keçən məxluqdan sizi soruşub,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Şahlıq nənə, istədiyin alınıb,
Gələn oğlan muşduluğa dayanıb.
Gördü burda çoxlu millət yığılıb,
Şahlıq nənə deyib, sizi gözləyir.

***

Telefonda danışdığın sözlər də,

Gözünə görünüb, şəkillərin də.
Sənin saxladığın körpə nəvən də,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Xədicənin ahı ürəyi dağlar,
Belə halı görən, qəlbi qan ağlar.
Yığılıb qapıya gələn qonaqlar,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Rəfiqənin halın hər kəs ki, görüb,
Bilin ki, qəlbindən, gör nələr keçib.
Uşağın naləsi otağa düşüb,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Qəbuldursa burda bir iz qoymağım,
Bu qapıya qəlbdən mən dost olmağım.
Yığılıb, gəlibdi, elim, oymağım,
Şahlıq nənə deyib, sizi gözləyir.
***
Əziz, nə yazmısan, şahlar şahından,
Fələk heç doymadı, tərsa oyundan.
Çoxumuz keçərdi özcə canından,
Şahlıq nənə deyib, sizi gözləyir.

## ADI GÖZƏL,
## ÖZÜ GÖZƏL MUHƏMMƏD

Canım qurban olsun sənin yoluna,
Adı gözəl, özü gözəl Muhəmməd.
Gəl şəfaət eylə kəntər quluna,
Adı gözəl, özü gözəl Muhəmməd.
***
Mömin olanların çoxdur cəfası,

Axirətdə olur zövqi səfası.
On səkkiz min aləmin Mustafası,
Adı gözəl, özü gözəl Muhəmməd.

***

Yeddi qat göylərin seyran eyləyən,
Kürsünün üstündə cövlan eyləyən.
Meracından ümmətini diləyən,
Adı gözəl, özü gözəl Muhəmməd.

***

Dörd çaryar onun göyçək yarıdır,
Onu sevən günühlardan bəridir.
On səkkiz min aləmin sultanıdır,
Adı gözəl, özü gözəl Muhəmməd.

***

Sən həqq peyğəmbərsən şəksiz, gümansız,
Sənə uymayanlar gedər imansız.
Aşıq Yunus neylər dünyanı sənsiz,
Adı gözəl, özü gözəl Muhəmməd.

***Yunus Əmrə***

## PEYĞƏMBƏRƏ XİTABƏN

Allahın dostu Muhəmməd,
Dinin carçısı Muhəmməd.
Dünyamız doldu nur ilə,
Qədəm basanda Muhəmməd.

***

Yeri göyü xəlq eylədin,
Muhəmməd adın söylədin.
Mələkləri cəm eylədin,
Quranı nazil eylədin.

***

Peyğəmbər olan gecəsi,
İmana gəldi neçəsi.
Yüz min kafir dinə gəldi,
Muhəmməd olan gecəsi.

***

Muhəmməd yoluyla get,
Dediyinə sən əməl et.
Ümidini bağla haqqa,
Allah səni salar yada.

***

Simuzər Allah sevəndi,
Muhəmməd yolun gedəndi.
İbadətini eyləyib,

Allaha dua edəndi.
İbadət cənnət gülüdü,
Peyğəmbər qəlbin nurudu.

## ALLAHA DUA

Allahımsan, Allahım,
Sənsən mənim pənahım.
Qiyamətin günündə,
Bağışla sən günahım.
***
Allahım əziz allah,
Bizi et təmiz, Allah.
Əl açaq dərgahına,
Bəndəni sal yadına.

Allahın gözəl adı,
Ağzımdan getməz dadı.
Hər kəs bir Allah desə,
Görməz cəhənnəm odu.
***
Allahım qoru bizi,
Açıq et yolumuzu.
Zikr etsək gecə gündüz
Çatarıq arzumuza.

## MƏDƏD SƏNDƏN,
## YA BİR ALLAH

Qiyamət günü gələndə,
Günahkarlar çəkər aman.
Qıl körpü qılıncdan yaman,
Mədəd səndən, ya bir Allah!
***
Halal-haramı yeyənlər,
Şəri-böhtanı deyənlər.
Bir gün dərgahına gələr,
Mədəd səndən, ya bir Allah!
***

İki mələk gələcəkdi,
Sual-cavab edəcəkdi.
Gözün yaşla dolacaqdı,
Mədəd səndən, ya bir Allah!
***
Tut orucu, qıl namazı.
İbadət et qışı, yazı.
Zikr eylə, de bu avazı,
Mədəd səndən, ya bir Allah!
***

Ey dağların laləzarı,
Ey bağçaların gülüzarı,
Mir Həmzənin şux Nigarı
Mədəd səndən, ya bir Allah!

## LƏ İLAHƏ İLLƏLLAH

Allahın bir adı hu,
Didar gördü, yeridi su.
Zikrlərin gözəli bu,
Lə ilahə illəllah!

***

İki mələk gələr sənə,
Ona münkər, nəkr derlər.
Desələr rəbbin kimdir,
Unutmaginən Allahı!

***

Nə yatmısan qafil insan,
Dur eylə zikr Allaha.
Günahın həddən aşıbdı,
Deynən əstəğfirullah!

***

Deynən Allah rəbbimdir,
Muhəmməd mənim nəbimdir.
Dinim islam dinidir,
Qibləmdir Kəbətullah,
Lə ilahə illəllah!

***

Cün suvalın asan olsa,
Sənə cənnət məkan olsa.
Mələklər şadiman olsa,
Gedərlər ondan qəh-qəhlə,
Lə ilahə illəllah!

## ZİKR, SƏBR EYLƏRƏM MƏN

Bismillah söyləyəndə,
İşin avand olar bəndə.
Allah adı çəkiləndə,
Zikr, səbr eylərəm mən.

***

Ruzunu verən Allahdı,
Kəbə evi qibləgahdır.
"Hacı Qaraman" pirimiz,
Zikr, səbr eylərəm mən.

***

Qəlbimizdən silinməzdi,
Allah gözə görünməzdi.
Səbr Allahın adıdır,
Zikr, səbr eylərəm mən.

Sudan duru, aydan arı,
Neynirəm dövləti, varı.
Yaddan çıxmaz yurda sarı,
Zikr, səbr eylərəm mən.

***

Bizə bəxş edib dünyanı,
Naz-nemət, əziz Quranı.
Yerin, göyün yaradanı,
Zikr, səbr eylərəm mən.

***

Simuzərəm çəkərəm qəm,
Torpağımız getdi əldən.
Dağtumasın həsrətindən,
Zikr, səbr eylərəm mən.

## QORU, ALLAHIM!

Xəkdən xəlq edən Adəmi,
Canı çismə yar eyləyən.
Odu İbrahimxəlilə,
Əcəb gülüzar eyləyən.

***

Dünyanın su almağını,
Nuha xəbərdar eyləyən.
Ayı Muhəmməd sərində,
Şəkk ilə izah eyləyən.

***

Bu dünya fanidir, fani,
Verən Allah alar canı.
Xəlq eyləyib müsəlmanı,
Verəndə sən, alanda sən,
Bizləri qoru, Allahım!

İsanı ana bətnində,
Lisanı ricar eyləyən.
Musanın quru əsasın,
Əjdahanı şahmar eyləyən.

***

Ya muxu mismar eyləyən,
Sərkizi sultan eyləyən.
Sayili borcdan qurtaran,
Yusifi quyudan çıxaran.
Bizləri qoru, Allahım!

***

Yusifi saxlayan quyu,
Yunisi saxlayan balıq.
Nuhu qurtaran gəmi,
Yaqubu örtən gecə.
İbrahimi oddan qoruyan,
Bizi qoru, Allahım!

## ZİKRİ PEYĞƏMBƏR

Dünya xarab olmusan,
Sənə gələn canlar hanı.
Ənbiyalar, övliyalar,
Cümlə peyğəmbərlər hanı.

***

O, quyuya atılan,
Qul yerinə satılan.
Misirdə sultan olan,
Yusif peyğəmbər hanı.

***

Gəmisi suda batan,
Özünü suya atan.
Balıqların qarnında yatan,
Yunis peyğəmbər hanı.

***

Cənnət buğdasın yeyən,
Atəş mucrəsin geyən.
Dünya mənimdi deyən,
Adəm peyğəmbər hanı.

***

Heyvanların şahın-şahı,
Pərilərin qibləgahı.
Bilqeyisin varigahı,
Süleyman peyğəmbər hanı.

***

Minib budağa uçan,
Özünə guşə seçən.
Balasın qurban deyən,
İbrahim peyğəmbər hanı.

***

O, qələmi aparan,
Kafirləri oda vuran.
Aslanın gözüylə baxan,
Əliyyi Heydər hanı?
***
Göydən mələklər endilər,
O, Həzrəti dindirdilər.
Peyğəmbər dünyaya gəldi,
Quran Kərim nazil oldu.

Budur Allahın aslanı,
Susuz kərbəla qurbanı.
Ümmətlərçün verən canı,
O İmamı Hüseyn hanı.
***
Yüz min kafir dinə gəldi,
Oda bu zikiri dedi.
Lə İlləllah, la illəllah
Muhəmmədən rəsulallah.

## BAYATILAR

Əzizim keçmə məndən,
Çay məndən çeşmə məndən.
Vəfalı yarım olsa,
Heç vaxt ayrılmaz məndən.
***
Əzizinəm həzinəm,
Qəmlə dolu xəzinəm.
Torpağımız alına,
Yurdumda gəzinəm.
***
Əzizim kümbəzə gəl,
Düzə gəl Kümbəzə gəl.
Əgər anan ölübsə,
Götür dərdin bizə gəl.
***
Əzizim elim hanı,
Çəməndə gülüm hanı?
İtirmişəm yurdumu,
O, gözəl günüm hanı?
***
Əizinəm sağ alma,
Sağ əlimdə sağ alma.
Yaram nə sızlayırsan,

Vətəndə, vətənsizəm,
Yurdsuzam yuvasızam.
Qəfəsdəki quşam mən,
Buraxılsam qaçaram.
***
Əzizinəm Dağtumasa,
Qar yağıb Dağtumasa.
Vətən yadına düşsə,
Dolan gəl Dağtumasa.
***
Əzizinəm gün keçdi,
Ömür keçdi gün keçdi
Elimdən ayrı düşdüm,
Elə bil min il keçdi
***
Əzizim qara düşdük,
Borana, qara düşdük.
Eldən ayrı düşəndən,
Tufana, qara düşdük.
***
Göynən uçan quş mənəm,
Hər quşdan sayquş mənəm.
Elimdən ayrı düşdüm,

Sağalmırsan sağalma.

***

Bağlar əkili qaldı,
Barı tökülü qaldı.
Zəhmət çəkib ev tikdin,
Evin tökülü qaldı.

***

Əzizinəm bu şana,
Arı qonmaz bu şana.
Gedib qayıtmaz oldun,
Qoymadın bir nişanə.

Qanadı sınmış quşam.

***

Əzizim binə gəlləm,
Gedərəm yenə gəlləm.
Birdə bizlərə gəlsən,
İmana, dinə gəlləm.

***

Əzizinəm durma gəl,
Halımı sorma gəl.
Düşmən qoşun yeridib,
Səbəbini sorma gəl.

## HACI SİMUZƏR XANIMIN ŞEİRLƏRİ

### AY MİRİM

Yaman əsdi ayrılığın yelləri,
Bir-birinə calandı yas illəri,
Ölümünlə ağlatdın sən elləri,
Təbiblər təbibi, ay Mirim mənim.

***

Göz yaşlarım haraydımı, haydımı?
Taleyinə fələk yazan paydımı?
Zalım fələk ömürünə qıydımı?
Dərdlilər dərmanı, ay Mirim mənim.

***

Torpağın hər qarışında izin var,
Hər obada, hər bir eldə sözün var.
İnanmıram səni udub daş məzar
Yaralar məlhəmi, ay Mirim mənim.

***

Kağız yanar, qələm yanar, söz yanar,
Qəhər boğar, yaş süzülər, göz yanar,
Məzar üstə elə bil ki, köz yanar,
Bir elin dayağı, ay Mirim mənim.

***

Viran qalıb o gözəl obam, elim,
Solub gül-çiçəyim, yanıb çölüm.
Min dərdə dərmandı, hər sözün sənin,
Xəstələr şəfası, ay Mirim mənim.

***

Yollar uzun olarmışmı, bu qədər?
Üzdü bizi bu ayrılıq, bu kədər.
Yol açılıb veriləydi, şad xəbər.
Simuzər də sevinəydi bir qədər
Alimlər alimi, ay Mirim mənim.



## ARZUM KÖÇDÜ

Arzuladım Arzum oldu,
İllər keçdi, yaşa doldu.
Fələk tale yazan oldu,
Arzum köçdü bu dünyadan.

***

Üzümü qoy gül üzünə,
Baxma yadların sözünə.
Tale gülmədi üzünə,
Arzum köçdü bu dünyadan.

***

Gözəl balan zəlil oldu,
Dərdə düşüb, qəmgin oldu.
Gül rəngi saralıb soldu,
Arzum köçdü bu dünyadan.

***

Qasım Çələbi nəvəsi,
Asimanda Suqra səsi.
Çağırır Həcər nənəsi,
Arzum köçdü bu dünyadan.

Fələk səni bizdən aldı,
Bizi dərdə-qəmə saldı.
Arzum ürəyimdə qaldı,
Arzum köçdü bu dünyadan.

***

Məzlum balan bina qurdu,
Kimə qaldı, gözəl yurdu?
Ata-ana həsrət qaldı,
Arzum köçdü bu dünyadan.

***

Simuzər, qəlbin virandı,
Ağır dərddən ürəyin yandı.
Dərd üstünə dərd qalandı,
Arzum köçdü bu dünyadan.



## YƏHYA ÇƏLƏBİYƏ

İtirdim Bakıda ata, anamı,
Çələbi Arzumu, Yəhya babanı.
Ocağım – o Hacı Qaraman hanı?
Hesaba gəlmir ölənlərin sanı
Yəhyam, Teyfurum, Suqram,
Arzum hanı?

***

Dünya bağçasında gül kollarım var,
Bu kollar içində nur yollarım var.
Tapşırılmamış nurlu bir Şahlığım var.
El-obasız ölən Teyfur Çələbim,
Yəhyam, Teyfurum, Suqram, Arzum hanı?

***

Qubadlı, Cəbrayılı el bilmisən,
Beyləqanda özünə yer seçmisən.
Cənnət quşu olub, göyə uçmusan.
Qürbətdə dözməyib sən tez köçmüsən,
Yəhyam, Teyfurum, Suqram, Arzum hanı?

***

Qəlbində çox kövrək sözün qalıbdı,
Ürəkdə min dilək, arzun qalıbdı.
Hər bir evdə sənin əksin qalıbdı,
Rəfiqən, Xədicən ağlar qalıbdı,
Yəhyam, Teyfurum, Suqram, Arzum hanı?

## SUQRA ÇƏLƏBİYƏ



Gözəllikdə gözəllərin xanısan,
Tanıyanlar bilir, qəm libasısan.
Yasinlə, Sadanın nişanəsisən,
Dünyanın çox qəm-kədərin dadmısan.

***

Bala anasından düşüb aralı,
Fələk hər ikisini edib yaralı.
Ürək dözməyir, daha bu hicrana
Sənsiz balan qalıbdır yana-yana.

***

Tanrı necə yazı yazıb sizlərə,
Çərxi-fələk zülm eylədi sizlərə.
Zalım fələk rəhm etmədi bizlərə,
Bu dünyadan qəm-kədərlə getdin sən.

***

Taleyin bənzəyir bir gülüstana,
Kitaba yazılsa, neçə dastana.
Simuzər dözə bilmir həsrətinə,
Kaş gələ biləydi, qəbrin üstünə.

### CANIM ANA

Sənsiz qara olar günüm,
Heç zaman açılmaz qəlbim.
Gecə, gündüz mən ağlaram,
Sənsiz üzüm gülməz ana.

***

Sızlayır bağrımın başı,
Hey axır gözümün yaşı.
Gecə, gündüz ağlar balan.
Adın dildən düşmür anam.

***

Yazım gedib, qışım gəlib,
Dərdin məni dəli edib.
Qəmli çalır könül sazım,
Sənə qurban canım ana.

***

Xoş günlərim əldən gedib,
Dərdin məni şair edib.
Sənli günüm yada düşür,
Dərdin məni üzür ana.

***

Çərkəz qızı dərdə dözmür,
Həsrət onu üzür ana.
Sən dərdimin çarəsisən,
Gözlərimin qarasısan.

# Əjdər Yunisovun şeirləri

### AY ANA

Gəldim, qabağıma çıxa bilmədin,
Boynumu qolunla sıxa bilmədin,
Ağladın, gözümə baxa bilmədin,
Qəlbimi dağladın, oydun, ay ana!

Yurdundan-yuvandan güman düşmüsən,
Aranda alışıb, yanıb, bişmisən.
Yaman dəyişmisən, yaman düşmüsən,
Köksümü göynətdin, soydun, ay ana!

O ötən günləri gətirib yada,
Yandırıb yaxırsan, salırsan oda.
O qədər özünə dilərdin qada,
Axır yaman günə qoydun, ay ana!

Əjdər yoxdur sənsiz, vallah, yalandı,
Sənə baxa-baxa qəlb talandı,
Hardan ötdü ömür, hardan dolandı,
Yoxsa bu dünyadan doydun, ay ana!
Qəlbimi dağladın, oydun, ay ana!

## KÖÇDÜ ANAM

Dağlar, səni deyə-deyə,
Dərd ürəyin yeyə-yeyə.
Haray saldı yerə, göyə,
Aranlarda bişdi anam,
Bax, beləcə köçdü anam.

***

Gözləri hey yolda qaldı,
Özün haldan-hala saldı.
Xəyalında çox dolandı,
Güzeylərdən keçdi anam,
Bax, beləcə köçdü anam.

***

Yaşayardı ismətiylə,
Barışardı qismətiylə,
Bulaqların həsrətiylə,
Araz suyu içdi anam,
Bax, beləcə köçdü anam.

***

Yurd-yuvasız bir quş oldu,
Bir qismətə o tuş oldu.
Ömür yolu yoxuş oldu,
Yorğun düşdü, çökdü anam.
Bax, beləcə köçdü anam.

***

Yurd söyləyib gəlmədiyi,
Qəlbən deyib-gülmədiyi,
Bir gün dözə bilmədiyi,

Yeri məzar seçdi anam,
Bax, beləcə köçdü anam.

**DÖZMƏLİYƏM**

Mən elə bilirdim ki,
Ayrılıq bir nağıldı,
Öz başıma gələndən,
Nağıl dünyam dağıldı.

Deyirdim dözəmmərəm,
Bir günlük ayrılığa,
Dözməliyəm indi demə,
Ömürlük ayrılığa.

***

Sevinc dolu ömrümə,
Qəm doldu, kədər doldu.
Gözlərimin önündə,
Anam bir xəyal oldu.

***

İndi o xəyallar da,
Dolanır, ötür gendən.
Elə bil inciyibdi,
Küsübdü o da məndən.

**QAYIT GƏL**

Sənsizlik oxa dönüb,
Sancılıb kürəyimə.
Əlacı tapılmayan,
Qəm dolub ürəyimə.

Danışıb, dərdləşirəm,
Mən sənsiz hər axşamla.
Əriyib sübhə kimi,
Yanıram yanan şamla.

***

Yol çəkən gözlərimi,
Yolundan yığammıram.
Bu boyda dünyamıza,
Elə bil sığammıram.

***

Qayıt gəl, əziz anam,
Yüyürüm qabağına,
Döşənim xalı kimi,
Sərilim ayağına.

***

Qayıt gəl, qurban olum,
Qayıt gəl yurdumuza.
Sənsiz mən necə dönüm,
Dönsə el yurdumuza?

***

**AYRILIQ**

Ayrılıq bəladır, xəbərsiz gəlmiş,
Vüsalı dərd çəkib, hicranı gülmüş.
Gör neçə taleyi ikiyə bölmüş,

Sınmış şüşə kimi çalana çətin.

***

Dərd var ki, təbibi, dərmanə varmış,
Dərd var ki, dərdinə əlac olarmış.
Ayrılıq elə bir dərdi-qubarmış,
Arayıb tapan yox onun xislətin.

***

Ayrılıq çox ağır bir imtahanmış,
Tək-tək hünərlilər dözmüş, dayanmış.
Qeyslər Məcnun olmuş, Kərəmlər yanmış,
Çəkmiş əzabını bu müsibətin.

***

Gəldi bu ayrılıq bir bəla kimi,
Görünməz dənizdə bir ada kimi.
Fələk səni əlimizdən aldı,
Qəfləti bir xəta kimi,
Nə ağır dərd imiş Ayrılıq Allah.

## QARABAĞ BAYATILARI

Əzizinəm, Şuşam ağlar,
Cıdır düzüm, Şuşam ağlar.
Yurd-yuvası uçurulmuş,
Bir yuvasız quşam ağlar.

***

Əzizinəm, dağ Laçında,
Meşə, çəmən, dağ Laçında.
Ölməyəydik qərib eldə,
Görüşərdik sağ Laçında.

***

Əzizinəm, Zəngilanım,
Qoy başına mən dolanım.
Gözləyəssən o vaxtacan,
Doğulacaq qan alanım.

Əzizinəm, Dəlidağdan,
Əl üzülüb Dəlidağdan.
Əs ay külək, gətir bizə,
Ətir saçan güllü dağdan.

***

Əzizinəm, Qubadlıya,
El həsrətdi Qubadlıya.
Qaçaq Nəbi yandan çıxa,
Yağının bağrı çatlaya.

***

Əzizinəm, Cəbrayılda,
Zəhər baldı Cəbrayılda.
Bəxtəvər o kəslərdi ki,
Öldü qaldı Cəbrayılda.

***

Əzizinəm, bağlı yollar,
Füzuliyə bağlı yollar.
Qayıdacaq haçan ellər,
Açılacaq bağlı yollar?

***

Əzizinəm, Xan ağlayar,
Cabbar ağlar, Xan ağlayar.
Ağdam elə viran olmuş,
"Qanlı baxsa qan ağlayar".

***

***

Əzizinəm, Xocalım vay,
Malıbəylim, Xocalım vay.
Qisas günü çox gecikir,
Qorxuram ki, qocalım vay.

**ŞƏHİD ANASINA**

Ey məni illərlə bəsləyən ana,
Dostlarım soruşsa öldü deyərsən,
Haraya yığışsa, qohum qardaşım,
Oğlumun həyatı söndü deyərsən.

***

Mənim cavan ömrüm olsa da qısa,
Siz allah bu yerdə batmayın yasa,
Ağlaya-ağlaya bacım soruşsa,
Qönçəykən açıldı, soldu deyərsən.

***

Məzarım soyuqdur, yata bilmirəm,
Üstümdən daşları ata bilmirəm.
Onsuzda arzuma çata bilmirəm,
Daşlara sarınıb, hopdu deyərsən.

***

Mən evdən çıxanda bir sən ağladın,
Mən isə özümü güclə saxladım,
Deyirsən daş imiş oğul ürəyi,
Mən səndən ayrılıb, sonra ağladım

***

Gedirəm, gedirəm uzaq səfərə,
Gəl bir də görüşək, sən allah ana.

Bəlkə əcəl yetdi, gələ bilmədim,
Tapşırım Xudaya, Allaha ana.

***

Deyirlər əsgəri buraxacaqlar,
Kədər bozartmasın üzün anamın.
Qısalır günbə-gün həsrət həlqəsi,
Bir təhər başını yozun anamın.

***

Taleyi yarımçıq, fikri sağ oldum,
Həm duyğu xəstəsi, həm əsgər oldum.
Sevinci bir zərrə, dərdə dağ oldum,
Siz allah, siz çəkin nazın anamın.

***

Talanan ömürdü, gündü neyləyim,
Bəxtimin çırağı söndü neyləyim.
Gülüşü fəqanə döndü neyləyim,
Söhbəti nəğmədən, həzin anamın.

## ANAM GEDİR

Ay haray anam gedir,
Min dərdli sonam gedir.
Ömrümüzün yolunda,
Can qoyan anam gedir.

***

Göy üzü əlçim-əlçim,
Yanıram için-için
Anam gəzən yerlərdə,
Gül bitib necə biçim.

***

Ana dağı, göz dağı,
Bu dağ əridər dağı.
Onunla başa çatıb,
Ömrümüzün növrağı.

Ana qurbanın olum,
Laylanla artıb boyum,
Əllərimlə mən səni,
Torpağa necə qoyum.

***

Sızlaram aram-aram,
Yarana yoxdur çarəm.
Övlad tapa bilərəm,
Anamı hardan tapım.

***

Dərd götürdüm dərdləndim,
Dərd əlindən əridim.
Ana özünü yetir,
Yetim qaldım, təkləndim.

***

Anam yoxdur ağlaram,
Onun yasın saxlaram.
İtirmişəm anamı,
Gecə-gündüz ağlaram.

***

Ay haray anam gedir,
Min dərdli anam gedir.
Ömrümüzün yolunda,
Can qoyan anam gedir.

## AĞLAMA ANAM, AĞLAMA

***Əliağa Aslan***

Haq sevdiyin dərdə salar,
Kədər verər, sevinc alar.
Sarı simə köklənən saz,
Dinər elə qəmdə çalar.
Ağlama anam, ağlama.

Dərd arayar, gəzər, seçər,
Ömür gün ahından keçər.
Ağlamasan, sızlamasan,
Allah günahından keçər,
Ağlama anam, ağlama.

***

Dərd ilandı, sancar gedər,
Qəm gölünə salar gedər,
Gözün yaşı oğul verməz,
Oğul verən alar gedər,
Ağlama anam, ağlama.

***

Tanrı sevməz yol azanı,
Çox deyil ömrün yaz anı,
Pozar bir zalım balası,
Alnımıza haqq yazanı,
Ağlama anam, ağlama.

***

***

Dağ əriyər hər ahına,
Dözə bilməz yer ahına.
Şəhid tanrı sevgisidir,
Varıb gedər Allahına,
Ağlama anam, ağlama.

## ANAM MƏNƏ BİR AĞI DE

***Vahid Mehdi***

Bu nə kədər,bu nə qəmdi,
Gözlərimdən şeh ələndi.
Arzularım güllələndi,
Anam, mənə bir ağı de.

Saçlarını yola-yola,
Qolunu boynuma dola.
Baldanşirin olar bala,
Anam, mənə bi ağı de.

***

Şaxta ağla, ayaz ağla,

***

Üzünü qoy üzüm üstə,

Bu yaz ağla.o yaz ağla.
Oğul deyib payız ağla,
Anam, mənə bir ağı de.

***

Şəhidlərdi sağım, solum,
Geri dönməz daha yolum,
Göz yaşına qurban olum,
Anam, mənə bir ağı de.

Başımı qoy dizin üstə
Qovrulmuşam közün üstə,
Anam, mənə bir ağı de.

***

Köçən köçdü, qalan qaldı,
Ömür çiçək, bəxt yalandı.
Daha üstüm taxtalandı,
Anam, mənə bir ağı de.

## AĞLAMA, ANAM AĞLAMA

Burda ömrün bəyaz qışı,
Yağan qərənfil yağışı.
Quruyub gözümün yaşı,
Ağlama, anam ağlama.

***

Babək şəhid, Həzi şəhid,
Oğlu şəhid, qızı şəhid.
Bu vətənin özü şəhid,
Ağlama, anam ağlama.

***

Şəhid qanı al bayrağın,
Sinən üstə çarpaz dağın.
Yaralıdır Qarabağın,
Ağlama, anam ağlama.

***

Qurtarmaz, ha mənim dərdim,
Dərin dərdim, dayaz dərdim.
Təbriz dərdim, Araz dərdim,
Ağlama, anam ağlama.

Yağı gəldi yağmaladı,
Vətəni oda qaladı.
Hər məzarı bir qaladı,
Ağlama, anam ağlama.

***

Dünya özü yalan deyil,
Tökülənlər dolan deyil.
Bu qan yerdə qalan deyil,
Ağlama, anam ağlama.

***

Ürək dözmür bu dağına,
Yaş axıtma yanağına.
Qurban olum torpağına,
Ağlama, anam ağlama.

***

Fələk bizi çəkib dara,
Taleyimiz başdan qara.
Tanrıya yalvara-yalvara,
Ağlama, anam ağlama.

## ANA FƏRYADI

Əllərin qapımı döymür nə vaxtdı,
Nəfəsin üzümə dəymir nə vaxtdı,

İntizar qalmışam gör nə vaxtdı,
Yaman darıxmışam səninçün ana.

***

Səni bu həftələr, aylar istəyir,
Saçın tək ağaran çaylar istəyir,
Dünyanın özü də lay-lay istəyir,
Yaman darıxmışam səninçün ana.

***

Düşmərəm bir özgə arzuya sənsiz,
Getmərəm gecələr yuxuya sənsiz,
Yiyəsiz bir evdir bu dünya sənsiz,
Yaman darıxmışam səninçün ana.

**BAYATI**

Əzizim yanan ağlar,
Halıma yanan ağlar.
Yüz candan yanan olsa,
Yenə də anam ağlar

***

Dağ başı qala yeri,
Gəz dolan qala yeri.
Min bir candan yanan olsa,
Verməz bir qoca ana yeri.

***

Əzizim qara düşdü,
Qar yağdı, qara düşdü.
Qara günlər əlindən,
Qəlbimə qara düşdü.

**ANA**

Ana nəvazişin, ana laylasın,
Əvəz eyləyəcək varlıq olarmı?
Ana hərarətin, ana nəfəsin,
Söndürə biləcək qüvvə olarmı?

***

Nigaran qalanda ana baladan,
Ona qurban deyir dünya malından.
Mən qurban demirəm dünya malından,
Kaş özüm qurbanın olaydım ana.

***

Xəyallar aləmi aparıb məni,
Anam rahatlıqdan qoparıb məni,
Gecələr yuxuda axtarıb səni,
Sənin əllərindən öpərdim ana.

## AY ANA

Gözəldir mənalı şirin sözlərin,
Həmişə yol çəkir qara gözlərin.
Alnındakı qırış həyat izlərin,
Şəkərim, şərbətim, balımsan, ana.

***

Solmasın üzünün gül təravəti,
Çıxarmı heç yaddan ana zəhməti?
Unudanlar çəkər dərdi-zilləti,
Şəkərim, şərbətim, balımsan, ana.

***

Ana sinəmdəki vuran ürəkdir,
Ömrümə məlhəmdir, arxa dirəkdir,
Susuz səhra kimə, nəyə gərəkdir?
Şəkərim, şərbətim, balımsan, ana.

***

Necə gözəl olur bahar çiçəyi,
Xəzandır, qüssədir payız küləyi,
Səndən uzaq olsun şeytan kələyi,
Şəkərim, şərbətim, balımsan, ana.
Solmayan çiçəyim, gülümsən, ana,

***Sahib Kərimoğlu.***

## CAN VERİR ANAM

Ay ellər yazdırın qəmimi mənim,
Gözümün önündə can verir anam.

Kəsildi nəfəsi, gəlmədi səsi,
Gözümün önündə can verir anam.

***

Əlləri qabarlı, üzü qırışdı,
Baxışı, duruşu qarlı yağışdı.
Vallah yaşamadı əməlli başdı,
Gözümün önündə can verir anam.

***

Nə qədər əzab çəkdi yolumuzda,
Gecələr yatmayıb, yorğun olardı.
Min-bir əziyyəti salaram yada,
Gözümün önündə can verir anam.

***

Laylamızı çalıb şirin dil ilə,
Hər bir övladına dua edibdir.
Heç insaf yox imiş demə ölümdə,
Gözümün önündə can verir anam.

## CAN VERMƏ ANAM

Əziz anam, canım anam,
Anam can vermə, can vermə.

***

Qoy laylanı özüm çalım,
Anam can vermə, can vermə.
Yalvarıram anam ölmə,
Anam can vermə, can vermə.

***

Əl-ayağın buz olsa da,
Bədənin göz-göz olsa da,
Dərdin əlacsız olsa da,
Anam can vermə, can vermə.

***

Yarəbbim eşit bu sözü,
Anasız qoyma, heç qızı.

Quruca nəfəsi sözüm,
Havam, suyum, əziz günüm.
Sən dünyasan mənim üçün,
Anam can vermə, can vermə.

***

Odlayır göyləri ahım,
Ümidim, arxam, pənahım.
Mənə can verən Allahım,
Anam can vermə, can vermə.

***

Dərdinə tapılmadı dərman,
Sağalmağa yoxdur güman,

Nə şirindi ana sözü,
Anam can vermə, can vermə.
Ana dərdi olur yaman,
Anam can vermə, can vermə.

***

Anasız qız yada düşməz,
Könülü açılıb, gülməz.
Göz yaşını kimsə silməz,
Anam can vermə, can vermə.

***

Ana dərdin mənə əyan,
Olmaz məni yada salan.
Yazı yazan etdi bəyan,
Anam can vermə, can vermə.

## ANA HARADA GÖRÜM SƏNİ

Qaytara bilmərəm ana səni,
Heç bir zaman haqqı-sayını.
Ömrümüzün yolunda qoyduğun
O müqəddəs əziz canını,
Bəs səni harada görüm ana.

Ağlayıb, yalvarıb, durmuşam,
Gecə-gündüz sızlayıb yorulmuşam,
İndi sənə minnətə gəlmişəm,
Bəs səni harada görüm ana.

***

Bu dünya fanidir, həm oyuncaq,
Kim yaşayıb dünyada doyuncaq?
Ana deyib ağlaram ölüncə,
Yasını saxlaram ölüncə,
Bəs səni harada görüm ana.

***

Mən gəlmişəm görəm səni,
Çiçək kimi üzəm səni.
Nə qapın var, nə bacan,
Bəs səni harada görüm ana.

## ANAM ƏLVİDA

Alnımın yazısı belə yazıldı,
Mənim gündüzümə gecə yazıldı.
Tale yazılarım qara məzardı,
Əlvida-əlvida, anam əlvida.

***

Cavanam dünyadan almamışam kam,
Layla de, laylasız ağlama, ana.
Yaşadım niskilli, gedirəm cavan,
Dillə de, içində ağlama, ana.

***

Zalım fələk məni sizdən ayırdı,

Atadan, qardaşdan kənar saldı.
Söylədi otağın qara məzardı,
Əlvida-əlvida, anam əlvida.

***

Bağrımın başını yarıb gedirsən,
Ana-bacını gözü yaşlı qoyub gedirsən.
Allahın yazısı pozulmaz bilirsən,
Əlvida-əlvida, bacım əlvida.

***

Axtardım dərdimə dərman tapmadım,
Dərmansız dərdimi de ağla, ana.
Məni tapan dərdə, təbib tapmadım,
Peşiman günümü de ağla, ana,
Əlvida-əlvida, anam əlvida.

***

İndi rahatlanıb rahat yatmışam,
Deyəsən arzuma burda çatmışam.
Otağımda sanki rahat yatmışam,
Mənim sözlərimə sən inan, ana,
Əlvida-əlvida, anam əlvida.

## ANA

Ölüm yatağında can verən zaman,
Dursa başım üstə bir təbib, loğman.
Təbiblə göz-gözə baxdığım zaman,
Bil ki, sən loğmanı gəzirəm ana.

***

Qartal vüqarlısan, dağ əzəmətli,
Söhbətin ləzzətli, sözün ləzzətli.
Ata qeyrətlisən, bacı şəfqətli,
Həkimim, təbibim, loğmanım ana.

***

Ağ saçların ağ örpəkdi başında,
Ömrü basıb gözlərinin yaşı da.

Diz çökərəm ana sənin qarşında,
Sən bizə həmişə gərəksən ana.
***
Alnında qırışlar, zəhmətin izi,
Həyata bağladı, o əllər bizi
Anadı həyatda yaşadan bizi
Solğun əllərinə qurbanam ana
***
Uşaqkən sözünü ağ eyləmişəm,
Qara saçlarını ağ eyləmişəm,
Qəlbimdə dərdini dağ eyləmişəm,
Ağaran saçına qurbanam ana.

## ANAMIN

Ay ellər vətəndən ayrı düşəndən,
Mən görmədim gülə üzü anamın
Gəlimsiz-gedimsiz bağlı yollardan,
Bir an çəkilmədi, gözü anamın.
***
Ölüncə axtardı, gəzdi elini,
Qürbət kəsəmmədi şirin dilini.
Yel əsdi soldurdu, ömür gününü,
Bir daha açılmaz yazı anamın.
***
Könülə toxunmadı, qəlbi qırmadı,
Nəvə buyurmadı, gəlin yormadı.
Bilsə, bilməsə də sorğu sormadı
Bal oldu söhbəti, sözü anamın.
***
Gəzib dolanmağa o dağ istədi,
İçməyə bir sərin bulaq istədi.
Gözünə tökməyə torpaq istədi,
Döndü torpaqlara özü anamın.

***

Baxmır selə dönən bu göz yaşıma,
Pirimdi dolannam məzar daşına
Durub dolanaram hər an başına,
Unutmaz oğulu, qızı anamın.

***

Necə gözəl olur, ana sədası,
Getmir qulağımdan həzin laylası
Getdi yetim qaldı, neçə balası,
Otlandı, çığırı, izi anamın.

***

Yaşaram qəlbimdə qəm dəstə-dəstə
Baş qoyub, can verdi qollarım üstə
Yurdunu istədi o, son nəfəsdə
Yandırdı bağrımı sözü anamın.

## FATİMƏM LAY-LAY

Peyğəmbərin nişanəsi Fatiməm lay-lay
Həsən, Hüseynin anası Fatiməm lay-lay

***

Bu gecə Mövləm Əli
Səsləyər Peyğəmbəri
Gecə gizlin dəfn eyləyib,
Bu gecə Fatiməni
Həsən, Hüseynin anası
Fatiməm lay-lay.

***

Örtmə ana gözlərini,
Sənsiz mən neyləyəcəm?
Sənsiz ana dərdimi mən,
Kimə bəs söyləyəcəm?
Ey vüsalım Zaban ana
Fatiməm lay-lay.

Sanki bir məzlum qərib,
Səsləyir Peyğəmbəri
Zeynəbin qəmli anası
Fatiməm lay-lay
Həsən, Hüseynin anası
Fatiməm lay-lay.

***

Gecələr ağlayaram,
Yolunu gözləyərəm.
Zeynəbin ağlar ana,
Dəfnini görməmişəm.
Həsən, Hüseynin anası,
Fatiməm lay-lay.

***

Körpələrin yazıq ana,
Sənsiz bəs neyləyəcək?
Oldun yetimlər anası,
Fatiməm lay-lay.
Peyğəmbərin nişanəsi,
Fatiməm lay-lay.

***

Bilmirəm babam səni,
Aparıb bəs hayana.
Gizlin məzarı qazılan,
Fatiməm lay-lay.
Həsən, Hüseynin anası,
Fatiməm lay-lay.

***

Çağırırıq biz səni,
Dadımıza gələsən.
Müsəlmanın pənahı,
Əlini də gətirəsən.
Zakirin də səsinə,
Sən bir səs verəsən.

***

Gecə gizlin sənin,
Tabutun gedər ana.
Dörd balanı qoyma yalqız,
Bizi tərk etmə ana.
Peyğəmbərin nişanəsi,
Fatiməm lay-lay.

***

Gülsüm qucaqlar dizlərin,
Ağlayar hər zaman ağlar.
Həsənin hər gün sənin,
Qəbrini soraqlayar.
Hüseynin sanki bir,
Qərib ahu tək ağlar.

***

Anaların qəmli anası,
Peyğəmbərin nişanəsi.
Həsən, Hüseynin anası,
Peyğəmbərin xanım qızı.
Kərbəlanın anası,
Fatiməm lay-lay.

## ANAM AĞLAMA

Baxanda pozulur fikrim, xəyalım,
Əziz mehribanım, anam ağlama.
Bəs necə dincəlim durum-dayanım,
Alışım oduna yanım ağlama.

***

Bir nəzər salanda xəstə halına,
Xəzan tək solan gül camalına.
İstərsən qanımdan qatım qanına,
Sən mənim ürəyim, canım ağlama.

***

Deyirsən ağrıyır bədənim, canım,
Pozulub düz vurmur ürəkdə qanım.
Olmaya incidir səni yorğanın,
Sənsiz keçməz xoş dövranım ağlama.

***

Nə bir həkim qaldı, nə də bir cərrah,
Heç biri tapmadı dərdinə çarə.
Xudadan gəlibdi sağalmaz yara,
Candan əziz a sultanım ağlama.

***

Sən hələ cavansan saçın qaradı,
Qardaşsız, bacısız qəlbin yaradı.
Novruzda dərdlidir, bil biçarədir,
Çatmır daha ixtiyarım ağlama.

## ANA

Əzizim ana, pənahım ana,
Ümidim ana, sirr sözüm ana.
Dözərəm ana hər bir qəmlərə,
Deyərdim mənim anam olsaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

***

Ana kəlməsi şirindən şirin,
Ana tikəsi ağzımda şirin.
Ana sözündən inciməz dilim,
Deyərdim mənim anam olaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

***

Ana başına mən dolanaram,
Sənsiz meylimi kimə salaram.
İyini ana kimdən alaram,
Deyərdim anam, anam olaydı.

Ana sən mənim bil bəzəyimsən,
Ağzımda ana, sən ləzzətimsən.
Gəl bu gün ana,sən gərəyimsən,
Yanımda bu gün anam olaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

***

İndi ey ana söylə neyləyim,
Yox anam, bacım, dərdim söyləyim,
Dedin gəl ana, vəsiyyət edim,
O günün ana, bu gün olaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

***

Qızın anası olmasa ana,
Açılmaz qəlbi inan heç yana.
Sınar qanadı, düşər yanına,
Deyər ki, mənim anam olaydı.

Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.
***
Dur zəlil anam bir halallaşaq,
Gəl ana-bala biz qucaqlaşaq.
Oturub üz-üzə birgə ağlaşaq,
O günün ana, bu gün olaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.
***
Seyid anadan əlim üzüldü,
Üzümə gözdən yaşlar süzüldü.
Anasız qalmaq necə zülümdü,
Deyərdim mənim anam olaydı.
Kaş bu gün mənim anam olaydı,
Gözümdən axan yaşı siləydi.

## OYAN ATA

***Elbrus Qayalı***

Nə yaman ağır yatmısan,
Oyan ata, oyan ata.
Hara belə tələsirsən,
Yalvarıram dayan ata.
***
Dözəmmirəm oyan ata,
Məni yetim qoyan ata.
Mənim qəmli talehimə,
Həyan idin, həyan ata.

Qoyma gedə karvanını,
Qəm alıbdı hər yanını.
Dost yolunda öz canını,
Hər məqamda qıyan ata.
***
Bir hökmü var hər vədənin,
Bu möcüzə sirr vədənin.
Hamıdan çox öz balanın,
Kövrək qəlbin duyan ata,
Oyan ata, oyan ata.

## AĞLAMA

***Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş Şərif Şükürovun atasına***

Dost-düşmən var, ağlama gül, ağlama,
Gözlərinin yaşını sil, ağlama
Bu ölümü şan-şöhrət bil, ağlama
Ağlamağın nə faydası, ağlama,
Ağlama şəhid atası, ağlama.
***
Sən ağlasan qeyrətimiz tapdanar,

Milli mənlik sərvətimiz tapdanar.
Ayaq altda millətimiz tapdanar,
Keçər dövrün qan-qadası ağlama,
Ağlama şəhid atası, ağlama.

***

Viran qalan bağça sənin, bağ mənim,
Şəhid gedən bala sənin, dağ mənim
Dərdlərini ürəyimə yığ mənim,
Olum gözlərin fədası,ağlama
Ağlama şəhid atası, ağlama.

***

Damarda qanımız coşur qəm yemə,
Xalqın səbri dolub-daşır, qəm yemə,
Qisas günü yaxınlaşır qəm yemə,
Gələr qələbə sədası ağlama,
Ağlama şəhid atası, ağlama.

***

Vaqif Mehdi haqdı, yalan ha deyil,
Bu dünya kimsəyə qalan ha deyil,
Ölən təkcə sənin balan ha deyil,
Balan hamının balası, ağlama,
Ağlama şəhid atası, ağlama.

## AY ATA, MƏNİ

Qadir Mövlan budur səndən diləyim,
Salmasın nəzərdən ay ata, məni.
Şahimərdan özü verə payımı,
Nə qəm dəryasına ay ata, məni.

***

Qədri-Mövlan özü verib alandı,
Tarix özü qələmi çalandı.
Bu dünya da Süleymandan qalandı,
Bir gün qoyacaqlar ay ata, məni.

***

Ay ariflər heç bilmirəm neylədim,
Gizlin sirrim deyin kimə söyləyim.
Xəncər alıb bağrım-başım teyləyin,
Dindirmir anam da ay ata məni.

***

Mən nə deyim dil bilməz nadana,
Nanəciblər əsil-zatın nə dana.
Mənim dərdim qohum çəksin yada nə,
Qoyubsan sapandına ay ata, məni.

***

Yaxşı igid verməz elin namını,
Fələk az eyləsin dərdi-qəmini.
Yolçu Novruz içib eşqin camını,
Gün məni istəyər ay ata, məni.

***Yolçu Novruz***

## MALİK ƏHMƏDOĞLUNUN ŞEİRLƏRİ

### BAYATILAR

Mən aşiq dərd içində,
Qalmışam dərd içində,
Sevinc necə göyərsin,
Bu qədər dərd içində?

***

Mən aşiq baxım gedim,
Su olub axım gedim,
Çıx yolumun üstünə,
Üzünə baxım, gedim.

***

Mən aşiq, elə niyə?
Sən etdin elə, niyə?
Mənə vəfasız deyib,
De, saldın dilə, niyə?

***

Mən aşiq dərdim bitər,
Göyərər, dərdim bitər,
Dərdini mənə demə,
Dərdindən dərdim bitər.

***

Mən aşiq səndə gözəl,
Gözüm var, səndə, gözəl,
Gözlərinə baxmaqdan,
Doyarmı bəndə, gözəl?

***

Mən aşiq yarı niyə?
Yar üzür yarı, niyə?
Ayrı saldı yad sözü,
Yarından yarı, niyə?

***

Mən aşiq, gülüm, qayıt,
Çiçəyim, gülüm, qayıt,

Yarın gözü yoldadır,
Eyləmə zülüm, qayıt.

## ANAM NECƏ AĞLAMASIN?

Ürəyində bala dağı,
Anam necə ağlamasın?
Görə bilmir o torpağı,
Anam necə ağlamasın?

***

O məzarda tək qalırsa,
Bir an təsəlli almırsa,
O yerlərdə qocalmırsa,
Anam necə ağlamasın?

İtiribdir qardaşını,
Öpə bilmir başdaşını,
Tökmür üstə göz yaşını,
Anam necə ağlamasın?

***

Malik, dözmək olmur dərdə,
Tükənibdir səbirlər də,
Yetim qalıb qəbirlər də,
Anam necə ağlamasın?

## QARDAŞ

Solub gözlərimdə sənsiz hər nə var,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.
Nə gəlsə ömrümə, bu dərd aparar,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Bu dərdin ağrısı qəlbimi dəldi,
Bilmirəm, bu kədər haradan gəldi,
Qopub budağından daha xəzəldi,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Ah çəkib qəlbimi hey dağlasam da,
Dəli çaylar kimi hey çalğlasam da,
Hay salıb hər yana mən ağlasam da,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Ölümün ağırdır, hər dərddən ağır,
Gözümdən hər yana qanlı yaş axır,
İstəyir Allahı min dəfə çağır,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Görənlər Halıma acıyır mənim,
Bu tale sənə tez kəsildi qənim,
Min dəfə desəm də mənimsən, mənim,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Ağlaram bu dərdə mən yana-yana,
Harayım yayılar indi hər yana,
İstəyir yolunda min budaq sına,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

***

Malikin gözləri qan ağlar yenə,
Həsrətdir gör neçə ildir o sənə.
Dözməyib qıysa da sənsiz ömrünə,
Göyərməz bu yarpaq, göyərməz, qardaş.

## UNUDULMAZ ŞƏHİD OLANLAR

Yenə də ilidir qanlı gecənin,
Yenə şəhidlərə baş əyirik biz.
Bizlərə tuşlanan topun, güllənin,
Əsil qiymətini gözləyirik biz.

***

İnsanlar bu yerdən keçir aramla,
Analar ağlaşır, "bala, vay" deyir,
Axır o gözlərdən yaş damla-damla,
Ey dünya, bu zülmə ver haray, deyir.

***

Ana var – məzarın daşını öpür,
Ana var – diz çöküb yalayır daşı,
Ana var – bu yerdən harayla ötür,
Ana var – odlara qalayır daşı.

***

Keçir sakit-sakit insanlar bir-bir,

Hər kəs bir dərd ilə olur bu yerdə,
Yan-yana döşənib nə qədər qəbir,
İlahi, nə deyək biz belə dərdə?

***

Zülümdür bu dərdə dözüb yaşamaq,
Bu qədər dərd qəlbə çətin ki, sığa,
Bu qədər zülmə qarşı çıxmamaq,
Dönüklük etməkdir bu insanlığa.

***

Qalxaraq yerindən, oyan, ey Vətən,
Oyanıb oyat sən nər oğulları,
Qisas libasını indi gey, Vətən,
Gəl, yerdə qoymayaq axan qanları.

***

Verək qiymətini yaxşının, pisin,
Günahkar cəzasız qalmasın gərək,
Qanı axmalıdır qana hərisin,
Onlar bu dünyada olmasın gərək.

***

Günahı nə idi bu şəhidlərin,
Qanına boyadı qansızlar onu?
Danmaq istədilər bu igidlərin
Yoxsa, bu dünyada var olduğunu?

***

Yox! Yox! Unudulmaz şəhid olanlar,
Onlar bu torpağın qan yaddaşıdır.
Şəhid adı ilə yadda qalanlar,
Vətənin əvəzsiz vətəndaşıdır.

## PƏNAH SOFULUNUN BAYATILARI

Gözümdə yaş ağlaram,
Yaralı baş ağlaram.
Yorğanın qara torpaq,

Əzizinəm daş qala,
Hər qaladan baş qala.
Namərdlər qoyub qaçdı,

Balıncın daş ağlaram.

***

Qəm doldu otaq qaçır,
Dil qaçır, dodaq qaçır.
Mən dərdin aşiqiyəm,
Dərd məndən uzaq qaçır.

***

Dərdim həddən ziyada,
Yol üstəyəm piyada,
Namərd gülləsi dəyib,
İmdada çat, ay ata.

Yazın üzü ,
Necədi yazın üzü.
Qan oldu torpağımız,
Qızardı yazın üzü.

***

Alışım, yanım oğul,
Tökülsün qanım oğul,
Baş qoyum qəbrin üstünə,
Qoy çıxsın canım oğul.

***

Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar,
Səngərdə can verənin,
Qəbrin qazan ağlar.

***

Əzizinəm üstündə,
Yoxsul nədi, ustün nə?
Torpağını satanın,
Torpaq qalmaz üstündə.

***

Oda yansın,

Nəyə lazım boş qala.

***

Nə şirin əməl oldu,
Şəhiddi gözəl oldu.
Ana oğul böyütdü,
Əlində heykəl oldu.

***

Zalımın sözü qandı,
Qan tutub gözü qandı.
Daha baxa bilmirəm,
Anladım özü qandı.

Kotanı əkənə ver,
Toxumu səpənə ver.
Bəlkə hamıya deyil,
Sən dərdi çəkənə ver.

***

Od qoydun mənə dağlar,
Hər daşın sinə dağlar,
Bir cüt qardaşım ölüb,
Gəlmərəm sənə dağlar.

***

Qara bağla,
Ağ saça qara bağla,
Sübhəcən ağlaşırıq,
Yuxumda Qarabağla.

***

Yaralarım qan verib,
Bu dərdi hardan verib?
Bəxtimə düşən paydı,
Mənə Yaradan verib.

***

Bu yerin ələm daşı,

Od tutub o da yansın.
Balamı yandıranın,
Balası odda yansın.

***

Yaman gün düşdü, qardaş,
Alovda bişdi, qardaş.
Bə mən niyə ölmürəm,
Ürəyim daşdı, qardaş?

***

Dağlarda canım getdi,
Həm adım-sanım getdi.
Beş yerdən güllə dəydi,
On yerdən qanım getdi.

***

Sözüm var deyim, qaldı,
Yaralı neyim qaldı.
Çürüdüm torpaq oldum,
Dünyada nəyim qaldı?

***

Bəxtimiz qışa döndü,
Gözümdə yaşa döndü,
Neçə igid balamız,
Daş oldu, daşa döndü.

***

Nişangahlar başdadı,
Şəkilləri daşdadı,
Qəbirlərə yaxşı bax,
Ölənlər hər yaşdadı.

***

Qara tutsun göyünü,
Allah yıxsın öyünü.
Erməni cəlladları,
Hardan saldı düyünü.

***

Qırılıb qələm daşı.
Sinəmdə yuva qurub,
Gül bitirib qəm daşı.

***

Güllə dəymiş yaram var,
Param ölüb, param var.
Bədənimə yaxşı bax,
Gör salamat haram var.

***

Daşı mənəm,
Çınqılı, daşı mənəm.
Bu yaralı torpağın,
Gözünün yaşı mənəm.

***

Yoxdu daha güman oy,
Yollar bağlı duman oy,
Yığdılar bizi dama,
Yandırdılar aman oy.

***

Qeydimizə qalmırsan,
Bizi yada salmırsan,
Gavurlar qırıb tökür,
Fələk, qisas almırsan.

***

Qəbir üstə gəzmərəm,
Güllərini əzmərəm.
Fələk evimi yıxdın,
Mən bu dərdə dözmərəm.

***

Gəldi yağı,
Sinəmə çəkdi dağı,
Bu şəhid məzarları,
Qaldı bizə göz dağı.

***

Orda hər halım yatır,
Dövlətim, malım yatır.
Bu məzar çiçək açmaz,
İçində zalım yatır.

***

Yarama baxmagınan,
Nizəni taxmagınan,
Öldürürsən mərd öldür,
Yandırıb yaxmagınan.

***

Daşnakla doldu yurdum,
Xaraba qaldı yurdum,
Gördüm ki, əsir düşür,
Qızımı özüm vurdum.

***

Zülüm ilə ev qurdum,
Xaraba qaldı yurdum,
Əsir düşməmək üçün,
Özüm-özümü vurdum.

***

Bir elin dürü mənəm,
Üstümdən yeri, mənəm.
Dərd ağır, ömür gödək,
Cavanam, çürümənəm.

***

Qəm kotanı çək ağla,
Ay ana, kövrək ağla,
Qardaşım yox,bacım yox,
Tək balanam, tək ağla.

***

Yedəkləyib çəkdilər,
Cütə qoşub əkdilər.
Yeriyə bilməyəndə,

Köksündə nağıl yatır,
Qolları bağlı yatır,
Bu məzarın içində
Bir elin oğlu yatır.

***

Qoşa qardaşlara bax,
O qanlı daşlara bax.
Daşnaklar qırıb töküb,
Kəsilmiş başlara bax.

***

Əzizinəm yox çara,
Bu dağlar geyib qara.
Xocalıda əsirik,
Çəkirlər bizi dara.

***

Dərdi kimlə bölərəm,
Göz yaşımı ələrəm,
Oğlu ölmüş anayam,
Gecə-gündüz mələrəm.

***

Qan tökənə ağlama,
Ürəyini dağlama,
Üzdən üzünə gülən,
Şaha ümid bağlama.

***

Əzizinəm qan axdı,
Yaram qanax-qanaxdı.
Gördüm güllər üstünə,
Şəhidlər qanı axdı.

***

Əzizinəm azadam,
Demə dərddən azadam.
Ağlar bayatıları,

Dırnağımı çəkdilər.

***

Beyni dolu qan mənəm,
Dastan bağladan mənəm.
Ağlar bayatıları,
Yazıb, ağladan mənəm.

***

Duman keçdi dağları,
Gəzdi bağça-bağları.
Fələk necə zülm etdi,
Ağlar qoydu ağları.

***

Ay keçir, il ağlayır,
Əlində gül ağlayır,
Şəhid anasına bax,
Gözündə sel, ağlayır.

***

Əzizinəm, yana gəl,
Di gəl, yan-yana gəl,
Gir düşmənin içinə,
Eylə qana qan, a gəl.

***

Əzizinəm səsə gəl,
Yolları keç, kəsə gəl,
Ölüm, dirim vaxtıdı,
Düşmüşəm qəfəsə, gəl.

Yaralıdı dizlərin,
Yada düşür sözlərin,
Çox hayıf, nakam getdin,
Soldu ala gözlərin.

***

Ay bala, başdan ağla,
Gözlərim yaşdan ağla.

Yazan olar, az adam.

***

Pənah yazdı ağılar,
Bəlkə bir sözü qalar.
Gələcək nəsillərə
Kimsə özündə saxlar.

***

Dərdlilər dərddən ağlar,
Candan, ürəkdən ağlar,
Bil, zülmə dözə bilməz,
Onunçün bərkdən ağlar.

***

Çaylar axar, daş qalar,
Sürmə gedər, qaş qalar,
Vuruş meydanlarında,
Mərd vuruşar, baş qalar.

***

Bir ağlayan udam mən,
Alovam mən, odam mən,
Min il tarix dolansa,
Düşmənimə yadam mən.

***

Şəhid qəbrin el ağlar,
Üstü dolu gül ağlar.
Atanı görməyəndə,
Körpəsi dil-dil ağlar.

Ürəkdə dərd görünməz,
Görünsə də silinməz.
Dərdin karvanı məndə,
Daha geriyə dönməz.

***

Məktubum yardan gəldi,
Yağışdan,qardan gəldi.

Yastığım qara torpaq,
Oyan o başdan ağla.

***

Anama deyin ağlar,
Sinəmdə düyün-ağlar,
Balası şəhid ana,
Şam olar, hər gün ağlar.

***

Zalım gəldi amandı,
Evlər alışdı, yandı.
Atılan güllələrdən,
Küçələr qızıl qandı.

***

Allah bu nə küçədi,
Düşmən tankı neçədi?
Fələyin işinə bax,
Gündüzümüz gücədi.

***

İgidlər cavan öldü,
Göz yaşım selə döndü.
Mərmilərin odundan,
Torpağım külə döndü.

***

Ata, dərdim yamandı,
Sən ağlama amandı.
Mənim tək çoxları var,
Fələk bir-bir alandı.

***

Verdim sellərə səni,
Əsən yellərə səni,
Ağı deyən nə dedi,
Saldı dillərə səni.

***

Şəhid, itkin, yaralı...
Bu bəla hardan gəldi.

***

Ürəyimdə dərd ağlar,
Ağır dərd mərdi dağlar.
Dözülməz ağır dərdə,
Yenə mərdi mərd ağlar.

***

Analar deyər ağı,
Sönsün namərd çırağı,
Yüz il gəlib dolana,
Sağalmaz şəhid dağı.

***

Əzizim yetim ağlar,
Sözüm sənətim ağlar.
Çox gözü yaşlı gördüm,
Ürəyim yara bağlar.

***

Əzizinəm, ağlama,
Başa qara bağlama.
Sənin tək ana çoxdu,
Mənə çox yas saxlama.

***

Torpaq ağla, daş ağla,
A gözümdə yaş, ağla.
Fələyin qəhri tutub,
Yay sızılda, qış ağla.

***

Əzizim Qarabağı,
Dağ üstən vurdu dağı.
Mən hansını ağlayım,
Öləni, yoxsa sağı?

***

Dağım, a dağım, ağla,
Çiçəkli bağım ağla.
Sən də şəhidlərimi,
Qanlı torpağım, ağla.

***

Ağlaram,ağıma bax,
Sinəmdə dağıma bax.
Gör nələri dəfn etdik,
Şəhidlər bağına bax.

***

Bacı, bulaq daşdı gəl,
Suyu başdan aşdı gəl.
Qardaşı ölmüş bacı,
Ağla, gözü yaşdı gəl.

***

Şirin sözlərim qardaş,
Sındı dizlərim qardaş.
Sənsiz dözə bilmirəm,
Çıxsın gözlərim, qadaş.

***

Gözlərimdə yaş ağlar,
Qaya ağlar,daş ağlar.
Dərmansız dərdim çoxdu,
Dərd çəkən qardaş ağlar.

***

Əlimdə qələm ağlar,
Dəftərim qara bağlar.
Yazaram, ağlayaram,
Ürəyim yara bağlar.

***

Qalalar, daşlar ağlar,
Kipriklər, qaşlar ağlar.
Silahsız kəndlərimdə
Kəsilmiş başlar ağlar.

***

Ordu şəhərə axır,
Silahsız insan baxır.
Bu qanlı yanvar günü,
Hər tərəfdən od çaxır.

***

Əzizim, dərdə düşsün,
Gözünə pərdə düşsün.
Hər kim dava istəyir,
Sağalmaz dərdə düşsün.

***

Atəş oldu daş qopdu,
Gözlər çıxdı, qaş qopdu.
Ağla, ana, oğlunun,
Bədənindən baş qopdu.

***

Düşmənin sözü qandı,
Qudurub, gözü qandı.
Yurduma hücum etdi,
Od aldı, özü yandı.

***

Əzizim, yandım qardaş,
Dərdini qandım, qardaş.
Üstümə od tökdülər,
Od tutub yandım, qardaş.

***

Əzizim, daş altında,
Göz oynar qaş altında.
Xəyanət qurbanıdır,
İgidlər daş altında.

***

Əzizim gördü günü,
Gəl sən də gör düyünü,
Əsir düşən qardaşım,
Danışır gördüyünü.

***

Kipriklər, qaşlar ağlar,
Dəmirlər, daşlar ağlar.
Gavurlar doğrayırlar,
Kəsilmiş başlar ağlar.

***

Əzizim dərdim çoxdu,
Barını dərdim çoxdu.
Dərdimi kimə deyim,
Dərmansız dərdim çoxdu.

***

Dırnaqlarım çəkilir,
Axır, qanı tökülür.
Qollarım, ayaqlarım
Sındırılıb, bükülür.

***

Qara kənddə qardaşı,
Gəl buz apar, qar daşı.
Qardaşı yandıranın
Görüm yansın qardaşı.

***

Zalımları daş gördüm,
Cənazəsiz baş gördüm,
Aman, fəryad eylərəm,
Yaralı qardaş gördüm.

***

Əzizinəm daş qopdu,
Göz töküldü, qaş qopdu.
Analar necə dözsün,
Bədən qaldı, baş qopdu.

***

Qanlı telim qarama,
Söz axtarıb arama.

***

Əzizinəm,qan ağlar,
Ürək yanar, qan ağlar.
Şəhid anası, fələk,
Ömrü boyu qan ağlar.

***

Yarım yara bağlasın,
Bacım qara bağlasın.
Bədənim parça-parça,
Məni anam ağlasın.

***

Qarabağ bağım ağlar,
Elsizdi dağım ağlar.
Şəhid qanı tökülən,
Daşım, torpağım ağlar.

***

Vətənim anam Bakı,
Od tutub yanan Bakı.
Gəlir düşmən tankları,
Yatmısan oyan, Bakı.

***

Güllədən tacım yandı,
Od düşdü saçım yandı.
Namərdlər güllələdi,
Qardaşım, bacım yandı.

***

Yaralandım, ay qardaş,
Gəl yaramı say qardaş.
Ürəyimdən qan gedir,
Bacım desin vay qardaş.

***

Daşnak əli qanlıdı,
Onlar İrəvanlıdı.

Daha dözə bilmərəm,
Əlini qoy yarama.

***

Qaçqınlar saxlamaqdan,
Yaralı bağlamaqdan,
Canımdan bezar oldum,
Ölürəm ağlamaqdan.

***

Çay olmur çay deməkdən,
Verməzlər pay deməkdən.
Yaramdan qan süzülür,
Yoruldum vay deməkdən.

***

Kəndim yox, şəhərim yox,
Axşamım, səhərim yox.
Qaranlıq zindandayam,
Vətəndən xəbərim yox.

***

Su daşar, sellər gələr,
Köç edib ellər gələr.
Düşmənə fürsət versən,
Başına nələr gələr...

***

Əzizinəm can ana,
Bədənim al qan, ana.
Məndən ötrü ağlama,
Vətən üçün yan, ana.

***

Baxdım, evlər sökülür,
Qəmdən qəddim bükülür.
Vətən üstə uçaram,
Gözümdən yaş tökülür.

***

Eləmi ağ şamlar,
Pulla çox qoşun alıb,
Qaniçəndi, qanlıdı.

***

Bu dağın daşı yandı,
Kim dərdi daşıyandı.
Oğullar şəhid oldu,
Bağrımın başı yandı.

***

Yaz gedər, qış bitirər,
Gözlərim yaş bitirər.
Torpağını satanın,
Məzarı daş bitirər.

***

Əzizim elim hanı,
Çəməndə gülüm hanı.
Uçub əlimdən getdi,
Yaralı könlüm hanı.

***

Əzizinəm, vur gəldim,
Səngərində dur, gəldim.
Düşmən kəllələrindən
Bir minarə qur, gəldim.

***

Qaçdım gəldim arana,
Evim qaldı virana.
Məni qaçaq salanı,
Tapşırıram Qurana.

***

Əzizinəm yurd ağlar,
Yuva ağlar, yurd ağlar.
Bəs bu qaçqın ellərim,
Hara durub yurd bağlar?

***

Evdən qaçdım eşiyə,

Yol gözlərik axşamlar.
Qaranlıq çadırlarda
Gecə yanar ağ şamlar.

***

Elim, obam talandı,
Keçmiş dostluq yalandı.
Düşmənlərin qısası
Qiyamətə qalandı.

***

Dumanlı dağlara bax,
Sahibsiz bağlara bax.
Vətəndən qaçqın düşən,
Köçkünə, ağlara bax.

***

Desən də edəmməzsən,
Dövran pis, güləmməzsən.
Yüz il çalış, həyatı
Mənim tək biləmməzsən.

***

Əzizim, arxa gəlsin,
Su vurun arxa gəlsin.
Düşmənlə uzbəüzük,
Çağırın, arxa gəlsin.

***

Qarabağ vətənimdi,
Hər gülü kətənimdi.
Kaş bu yerdə can verim,
Torpağı kəfənimdi.

***

Gözümdə yaş qurumaz,
Bu dərdimi belə yaz.
Vətən yolunda ölən,
Şəhid yerdə çürüməz.

Uşaq atdım beşiyə.
Ayaqyalın, başaçıq,
Çıxıb getdim meşəyə.

***

Vətənimi atmaram,
Yaralıyam, yatmaram.
Quru canımdan ötrü,
Dostu-yarı satmaram.

***

Eləmi eldən oldum,
Bülbüldən, güldən oldum.
O qədər vətən dedim,
Ağızdan, dildən oldum.

***

Mərd oğullar itməsin,
Dağlar, qarın getmısin.
Düşmənə qalan torpaq,
Bir otun da bitməsin.

***

Köçkün evinə gəlməz,
Fələk üzünə gülməz.
Vətən düşmənə qalsa,
Pənah bu dərdə dözməz.

***

Kəndimdən gələn yoxdu,
Bir xəbər bilən yoxdu.
Dağılmışıq çöllərə,
Gözləri gülən yoxdu.

***

Dərdi dərdə qataydım,
Bir arxayın yataydım.
Heç olmasa yuxuda,
Vətən, sənə çataydım.

***

Yolunu azmamış gəl,
Dərmanı yazmamış gəl.
Yaralndım, gəlmədin,
Qəbrimi qazmamış gəl.

***

Dərdim var, təbib bilər,
Sevgim var, həbib bilər.
Qürbət eldə düşməni
Vətənsiz qərib bilər.

***

Mən olum, vətən olsun,
Bülbülüm ötən olsun.
Dərddən bir bağ salmışam,
Gül olsun, çəmən olsun.

***

Vurun türkün zəngini,
Çalın zəfər cəngini.
Azərbaycan bayrağı,
Dəyişməsin rəngini.

***

Sevdamın əzəlidi,
Payızın xəzəlidi.
Vətəndə ayırdılar,
Vətənim gözəl idi...

***

Dağım dağdan uludu,
Sinəm dərdlə doludu.
O qədər ağladım ki,
Gözümdə yaş qurudu.

***

Anırdı ağır dağlar,
Bu nə qəm, yağır, dağlar?
Vətənimiz sən idin,

***

Gecə rahat yatammaz,
Dərdi-qəmi satammaz.
Torpağı bölənlərin,
Özləri ev tapammaz.

***

Dərd verib yatan kimdi,
Başımı qatan kimdi.
Bir soruşub deyən yox –
Bu yurdu satan kimdi?

***

Düşmən işlətdi fəndi,
Kəsdi bərəni-bəndi.
Güllələrə tuş etdi
Min illik doğma kəndi.

***

Zədəni yazıq aldı,
Qış keçdi, yazı qaldı.
Şairlər köçüb getdi,
Tarixdə yazı qaldı.

***

Əzizim Ağrı dağı,
Görünür Ağrı dağı.
Nə göynərsən, a yarım,
Verirsən ağrı dağı?

***

Qəlbim nala içində,
Dərdim lala içində.
Yurdumdan ayrı düşdüm,
Qaldım qala içində.

***

Dərdliyəm, dərdli gördüm,
Əhvalı sərtdi gördüm.
Biz fələyə neylədik,

Bir bizi çağır dağlar.

***

Qala məni,
Sanmadın qala məni.
İndi ki, ayrılıqdı,
Oda tut, qala məni.

***

Əzizim qoşa dağlar,
Durub baş-başa dağlar.
Ürəyim səni istər,
El gəlsin yaşa dağlar.

***

Əzizim yaxşı suvar,
Köhləni yaxşı suvar.
Qaçqın səhrada susuz,
Vətəndə yaxşı su var.

***

Əzizinəm budağa,
Qonaq gəlməz bu dağa.
Elsiz qalıb dağlarım,
Dözə bilməz bu dağa.

***

Əzizinəm, Qarabağ,
Qara salxım, qara bağ.
Çeşmələri qan sızır,
Qan ağlayır Qarabağ.

***

Kənddə nə var?
O yanmış kənddə nə var?
Getdim elləri görəm,
El köçüb, kənddə nə var?

***

Daşa bağlar,

Ürəyi bərkdi gördüm.

***

Əzizinəm, yol azdı,
Dünya geniş, yol azdı.
Ellərim köç eylədi,
Yol itirdi, yol azdı.

***

Əzizim yüz ilməni,
Vurmadıq düz ilməni.
Qürbətdə qalmaram mən,
Saxlasan yüz il məni.

***

Əzizim qara bağda,
Ağ bağda, qara bağda.
Yer sahibi gəlincə,
Satıldı Qarabağ da.

***

Əzizim, qaşı qandı,
İgidin başı qandı.
Qarabağa od yağır,
Torpağı, daşı qandı.

***

Əzizinəm Qarabağ,
Qara yağan qara bax.
Yaralı qara batıb,
Onu örtən qara bax.

***

Gözdə məni,
Gizlət o gözdə məni.
Yarım, qurbanın olum,
Düşmən çox, gözdə məni.

***

Dağlara bax, -sel açıb,

Gözümdə yaşa bağlar.
Sonuncu ümidini,
Qardaş qardaşa bağlar.
***
Daş ağlar,
Gözlərimda yaş ağlar.
Qardaşdan ayrı düşsə,
Qürbətdə qardaş ağlar.
***
Şairəm, qələm məndə,
Dərd məndə, ələm məndə.
Qorxuram, Vətən deyə -
Qürbətdə öləm mən də.
***
Dağa bax, dumanı yox,
Kəsməyə qurbanı yox.
İmkanı çox olanın,
Dini yox, imanı yox.
***
Əyər məni,
Qaş-gözün əyər məni.
Etibarlı dostunam –
Tanısan əgər məni.
***
Ya dəli,
Ya ağıllı, ya dəli.
Yar, məni özün öldür,
Qoyma dəysin yad əli.
***
Əzizinəm, az qaldı,
Nə qovğadı, nə qaldı?
Qocaldım, günüm keçdi,
Bundan sonra az qaldı?
***

Quşlara bax, -dil açıb.
Fələk,verdiyin dərddi,
Sinəm üstə gül açıb.
***
Don qara,
Ayaq basma don qara.
Yaxşı- yaxşıya düşə,
Nola, donqar-donqara.
***
Hamı bilir ər məni,
Öldürür kədər məni.
Rus arxa olmasa,
Nə bacarar erməni?
***
Gedərəm, ölkə səndən,
Qorxuram yolkəsəndən.
Halal-hümbət eyləyək,
Ayrlıdım bəlkə səndən.
***
Dağ ayrı, duman yarı,
Yay ayrı, kaman ayrı.
Vətəndə ayrı düşdük,
Gəzək bir zaman ayrı.
***
Yaz ağla,
Payız ağla, yaz ağla.
Şairsənsə, dərdimi
Sətir-sətir yaz, ağla.
***
Əzizinəm, görməsin,
Hörümcək tor hörməsin.
Qaçqınları çadırda,
Gözlər onu görməsin.
***

Əzizim, Odlar yurdu,
Zalımlar odlar yurdu.
Qorxuram, dönüb ola,
Vətənim yadlar yudu.

***

Doğma elin meşəsi,
Cənnətdir hər guşəsi.
Yada əsir düşənin,
Fəryad olur peşəsi.

***

Ürəyim yurdda qaldı,
Ayağım qarda qaldı.
Yollar qəfil kəsildi,
Kəndimiz harda qaldı?

***

Əzizim Vətən şirin,
Ana yurd, Vətən şirin.
Bala baldan şirindi,
Ondan da Vətən şirin.

***

Düşmən tor qurdu, gördüm,
Odladı, vurdu, gördüm.
Nəvələrim görməsin,
Dağılmış yurdu gördüm.

***

Gecə-gündüz yatma sən,
Səngərini atma sən.
Düşməndən qisası al,
Vətənini satma sən.

***

Əzizinəm yaz ağla,
Səngərini qaz ağla.
Şəhid analarının,

Vətənsiz gülən olmaz,
Dərdini bilən olmaz.
Qürbətdə yurd salanın,
Gözünü silən olmaz.

***

Duman dağı bürüdü,
Düşmən sürü-sürüdü.
Şahım qoşun saxlamır,
Lap əyyaşın biridi.

***

Başçılar kef-damağda,
Hey çalıb-oynamaqda.
Eyşi-işrət içində,
Mal-sərvət toplamaqda.

***

Ağlıyandı,
Od düşdü, ağlı yandı.
Yarama duz bağlama,
Onsuz da ağlıyandı.

***

Namərd aranı qatdı,
Xain Vətəni satdı.
Daşnak güllələrindən,
Qarabağ qana batdı.

***

Əziziznəm bu dağda,
Qaçqın oldum bu dağdan.
Vətənə həsrət qaldım,
Sinəm göynər bu dağdan.

***

Xaraba dağım, ağla,
Yanan bağlarım, ağla.
Minlərlə şəhidim var,

Dərdini gör,yaz ağla.

***

Digərgin düşən ağlar,
Başına qara bağlar.
Vətəndən ayrı düşən,
Ürəyi yara bağlar.

***

Əsir düşən fağırdı,
Onun halı ağırdı.
Vətən, Vətən deyərək,
Haray çəkib çağırdı.

***

Pənaham, dərd çəkərəm,
Qəmi bezə bükərəm.
Əl boyda kağız üstə
Qələmlə dərd əkərəm.

***

Əzizim barlı dağlar,
Zirvəzi qarlı dağlar.
Diyarbədiyar gəzdim,
Görmədim varlı, dağlar.

***

Bostanda tağım yandı,
Çiçəkli bağım yandı.
Düşmən mərmilərindən,
Daşım-torpağım yandı.

***

Əzizinəm Laçından,
Qaçhaqaçdı Laçından.
Ermənilər bacımı,
Gördüm asdı saçından.

***

Kəlbəcərin şiş dağı,
Daşnak ermıni yağı.

Qanlı torpağım ağla.

***

Didərginsən, gəz ağla,
Kasıb düşdün, döz ağla.
Vətəndən xəbər yoxdu,
Həsrət çəkən göz ağla.

***

Vətənim, canım ana,
Düşmənlər oda yana.
Vətənimdə can versəm,
Ağrımaz canım, ana.

***

Dağlarımı qar aldı,
Bağ-baxçalar saraldı.
Doğma ellər-obalar
Kimsəsiz, yetim qaldı.

***

Əzizinəm yar-yara,
Həsrət qaldı yar-yara.
Ürəyimdən qəlpəni,
Doğra, çıxart ver yara.

***

Elim dağdan o yandı,
Səsə obam oyandı.
Balam oda atıldı,
Od tutdu, od da yandı.

***

Eləmi laçın oğlan,
Səngərdi Laçın, oğlan.
Sən onu qoyub getsən,
Yolaram saçım, oğlan.

***

Kəlbəcərin tayı yox,
Gülüşündən payı yox.

Elləri qaçaq saldı,
Dağlara çəkib dağı.
***

Sərin bulaq göstərir,
Bir güllü bağ göstərir.
Sinəmdə dağı qoyub,
Yar mənə dağ göstərir...
***

Göz görəni,
İstəmə göz görəni.
Axtarma, heç nə görməz,
Dünyada göz görəni.
***

Ağın dadı,
Xalları ağındadı.
Qara qız da yaxşıdı,
Başqadı ağın dadı.
***

Sarı yeri,
Gəl yara sarı yeri.
Xəstəyəm, bircə dəfə,
Yaramı sarı, yeri.
***

Aşıq deyər baladan,
Açılıbdı bala dan.
Görürsən ki, ölürsən,
Doğru sözü bala, dan.
***

Əzizim yarasına,
Demərəm yara sına.
Qan sızar ürəyimin,
Toxunsan yarasına.
***

Yurdsuz-yuvasız qalan,
Qaçqınların sayı yox.
***

Yazım demə,
Baharım, yazım demə.
Dərdim o qədərdi ki,
Dərdini yazım demə.
***

Gözündədi,
Qaş nədi, gözün nədi,
Gözlərimin işığı,
Yar, sənin gözündədi.
***

Əzizim, yara dəymə,
Sızlayan yara dəymə.
Dəyirsənsə mənə dəy,
Amandı, yara dəymə.
***

Eləmi yaxşı yara,
Təbib də yaxşı yara.
Getməyəsən nakəsə,
Gedəsən yaxşı yara.
***

Gözə danış,
Ocağa, közə danış.
Sözün-söhbətin varsa,
Açıq de, üzə danış.
***

Duraram o başdan mən,
Ağlaram bu başdan mən.
Ay gözəl, nigaranam,
O gözdən, o qaşdan mən.
***

Yar, incimə sözümdən,
Kanar gəzmə gözümdən.
Şeytan araya girib,
Üzüm dönməz üzündən.

***

Eləmi bada vermə,
Deyənə badə vermə.
Çox cavansan,ay gözəl,
Namusu bada vermə.

***

Yarım gəlib dindirə,
Bir danışa, güldürə.
Aşkarca busa verə,
Əğyarımı öldürə.

***

Sinənə nar düzülüb,
Dodaqdan bal süzülüb.
İnsafsız, insafa gəl,
Baxmaqdan can üzülüb.

***

Əzizinəm dilə gəl,
Bir sonasan, gölə gəl.
Həsrətindən ölürəm,
Aylar keçdi, ilə gəl.

***

Əzizim oda yanma,
Yeri, yolda dayanma.
Namərdə bel bağlayıb,
Bu dünyaya inanma.

***

Mən aşiq maralımı,
Axtarın yaralımı.
Ovum əlimdən qaçıb,
Kəsibdi qərarımı.

Söz-söhbəti bal dadı,
Naz-qəmzəsi aldadı.
Kim sənə vurğun olsa,
Başı qeylü qaldadı.

***

Əzizim qarı nənə,
Gəl bizə barı, nənə.
Sevgilim məndən küsüb,
Bir işə yarı, nənə.

***

Gəldim çatdım dağına,
Güllü bağça-bağına.
Ay qız, vəfasız olma,
Qonağam oylağına.

***

Bilirəm ki, dağlısan,
Qaralısan, ağlısan.
Nə qədər qoçaq olsan,
Yenə mənə bağlısan.

***

Evlərim gəbrə qaldı,
Sir-sözüm qəbrə qaldı.
Sevgilim cavan öldü,
Ümidim səbrə qaldı.

***

Xına qoydu əlinə,
Sığal verdi telinə.
Məni odlara saldı,
Sonam girdi gölünə.

***

Eləmi yar alı,
Yar qəlbini yar alı.
Ox atdım, daşa dəydi,
Ovum getdi yaralı.

***

Almalanıb yanağın,
Yaxşı gəlir sorağın.
Qonaqpərvər ol bir az,
Evdən qovma qonağın.

***

Eləmi yaraşır,
O gədikdən yar aşır.
Gümüş kəmər, incə bel,
Yara necə yaraşır.

***

Eləmi nə dərdi,
Nə qəmi var, nə dərdi.
Bir barlı bağa girdi,
Özü bilir nə dərdi.

***

Əzizinəm sən də yaz,
Məndə qışdı, səndə yaz.
Sənə yüz məktub yazdım,
Bircəsini sən də yaz.

***

Yazdı gəl,
Məndə bahar-yazdı gəl.
O qıza məktub yzdım,
Cavabında yazdı: gəl!

***

Çıxma eldən qırağa,
Əridirlər qır, ağa.
Əğyar girib bostana,
Vur boynunu qır ağa.

***

Əzizinəm o dilbər,
Gözü göy, dili zəhər.

***

Əzizinəm əğyara,
İlqar vermə əğyara.
Qurbanam ala gözlü
Ağ buxaqlı ağ yara.

***

Qoftası sarı gözəl,
Dağların qarı gözəl.
O səni yaxşı tutur,
Sən də tut yarı gözəl.

***

Əzizinəm nə dərdi,
Nə dərmanı, nə dərdi.
Gözəllərdən gözəlsən,
Sən sevənin nə dərdi?

***

Eləmi baxırdı,
Məni oda yaxırdı.
Şirin dil-dodağından,
Zülal balı axırdı.

***

Ac arı,
Yar əlində açarı.
Gülü çox olan bağdan,
Şirə çəkər ac arı.

***

Əzizim yara məni,
Bir axtar, ara məni.
Ay dostum qürbətdəyəm,
Gəl çatdır yara məni.

***

Nə çəkirsən azarı,
Nə sızılda, nə zarı.

Qapı-qapı dolaşır,
İstəyir gündə bir ər.

***

Bağça-barı görmədim,
Heyva-narı görmədim.
Qorxuram onsuz öləm,
Nazlı yarı görmədim.

***

Əzizinəm yaz olar,
Oxuyalar yazalar.
Dərdim həddini aşıb,
Yarı görsəm, azalar.

***

Ay qız, söyləmə sözlə,
Toya gedək gəl bizlə.
Ürək sözlərin varsa,
Anlat orda qaş-gözlə.

***

Bülbül olub ötəm mən,
Gül içində itəm mən.
Nola bir çiçək olub,
Yar köksündə bitəm mən.

***

Eləmi dilim-dilim,
Kəs qovun dilim-dilim.
Kəsəm zəhər dilini,
Deyəsən: dilim, dilim...

***

Əzizim harası  var,
Qəlbimin yarası var.
Yar otursun yanımda,
Bilsin ki, carası var.

***

Hər sözüm dada çatsın,

Gözəlliyə göz dəydi,
Qoy olsun bədnazarı.

***

Demə mənə naz arı,
Nə sızılda, nə zarı.
Yardan əlim üzülsə,
Tapar canım azarı.

***

Yön çevirim hara mən,
Oldum para-para mən.
Məni görəndə qaçır,
Neyləmişəm yara mən?

***`

Çəkilsə dara canım,
Əyilməz vara canım.
Təki bir hə söyləsin,
Qurbandı yara canım.

***

Bu qıza bax, hey ötər,
Nə tapılar, nə itər.
Ağlı olan adamın,
Məzarında gül bitər.

***

Allah versin azarı,
Deyim ağla, ha zarı.
Yarı yoldan çıxarıb,
Küpəgirən bir qarı.

***

Əzizinəm həzz alar,
Ağrıyır hər əzalar.
Səndən bir busə alsam,
Qız, dərdlərim azalar.

***

Keçirin qışdan məni,

Qohuma, yada çatsın.
Mən çatdım muradıma,
Hamı murada çatsın.

***

Bir vaxt bu dünya vardı,
Sellər, sular apardı.
Mən özüm çox şirinəm,
Mənnən də şirin yardı.

***

Üzündü,
Al canımı üz indi.
Məni ağrıya salan,
Sənin məxmər üzündü.

***

Atma bulaq eşqimi,
Kövrək budaq eşqimi.
Fələyin odu sönsün,
Söndürdü dağ eşqimi.

***

Ala gözlər süzüldü,
Təzə yaram düzüldü.
Fələk neylədi, əlim
Yar əlindən üzüldü.

***

Yanar çıraq ağlaram,
Üzdən iraq ağlaram.
Özgəyə qismət olsa,
O gül yanaq ağlaram.

***

Qala nə vaxt alına,
Qurbanam hər xalına.
O qiyamət gündə də,
Yerimiz bir salına.

Eylədi başdan məni.
Yarı gördüm, lal oldum,
Töküblər daşdan məni.

***

Ağız yana,
Gəl getmə ağız yana.
Yalan dedin, səndəki
Dil yana, ağız yana.

***

Qalmışam fəryad kimi,
Qırılmış qanad kimi.
Yar gəzən torpaq üstə
Mən göyərim ot kimi.

***

Dərdimi kimsə bilməz,
Eynim açılıb, gülməz.
Adam var, bildiyini,
Tanrı da bilə bilməz.

***

Güneydə kəklik otu,
Yığmışam qutu-qutu.
Əl uzatma əlimə,
Oğlan farağat otu.

***

Baxışın göz olanda,
Sinəmdə iz olanda.
Yolunda can verərəm,
Sözümüz düz olanda.

***

Ömrü bitəni ağla,
Gözdən itəni ağla.
Gec açılıb, tez solan,
Nakam gedəni ağla.

***

Əzizinəm ay batdı,
İl dolandı ay batdı.
Hardan gəldi bu bulud,
Görünmədi ay, batdı.

***

Oda tut, dağla məni,
Yadında saxla məni.
Sən ölsən, baş daşınam,
Mən ölsəm ağla, məni.

***

Nə haldı bu,
Nə gözəl camaldı bu.
Bizim qovuşmağımız-
Dünyada xəyaldı bu...

***

Gözlər məni,
Öldürdü gözlər məni.
Etibarı var isə,
Ölüncə gözlər məni.

***

Əzizinəm üzünə,
Astarı nə, üzü nə.
Qan tökülər, bu qızın
Gül toxunsa üzünə.

***

Ay qız, mənə bar gəti,
O qoynundan nar gəti.
Səni yaradan Tanrı,
Əsirgəmə, var gəti.

***

Əzizinəm gün düşüb...
Kölgə gedib, gün düşüb,
Dönüb baxanda gördüm,

***

Göllərdə qazım ağla,
Sözüm, avazım ağla.
Saz çalan əlim yoxdu,
Yazdığım yazım ağla.

***

Gözdə qara,
Kiprikdə, gözdə qara.
Ürəyinə girməsin
Bir zərrə gözdə qara.

***

Daşı məndən,
Torpağı, daşı məndən.
Yüz il çəksən, qurtarmaz,
Bu dərdi daşı məndən.

***

Hər aya gəl,
Hər günə, hər aya gəl.
Əyil Allaha tərəf,
Oxuyub hər aya gəl.

***

Gülə bağla,
Bülbülə, gülə bağla.
Mən ağlayım, yarımı
Sən gülə-gülə bağla.

***

Günləri sayan oğlan,
Yarı tək qoyan oğlan.
Sevgilin yad əldədi,
Yatmısan, oyan, oğlan!

***

Səndən yaralıyam mən,
Bəxti qaralıyam mən.
Sözüm çoxdu yar, sənə,

Yar yoluna gün düşüb.

***

Yar sevən yaşa baxmaz,
Kipriyə, qaşa baxmaz.
Ağılı, kamalı qoyub,
Ağ saça, başa baxmaz.

***

Şannan bal töküləndə,
Dan yeri söküləndə.
Açılmış gülə bənzər
Yanağı öpüləndə.

***

Əzizim gözəl dara,
Gözəl dağ, gözəl dərə.
Bu bağa girən adam
Gülləri gözəl dərə.

***

Əzizim yasəməni,
Kim qırıb yasəməni.
Yar məndən üz döndərib,
Batırıb yasa məni.

***

Sinəndə yaxşı,
Ovçu sinəndə yaxşı,
Başım dizlərin üstə,
Əlim sinəndə yaxşı.

***

Tük yasdıq baş altdadı,
Ala göz qaş altdadı.
O qıznan mənim sirrim
Fələkdən daş altdadı.

***

Yara sarı,

Hayıf aralıyam mən.

***

Aşiqəm dağa gəl,
Lilparlı bulağa gəl.
Ala gözlü, gül yanaq,
Çiçəkli yaylağa gəl.

***

Əzizinəm o gəlin,
Naz, qəmzəli o gəlin,
Qəlbimi oğurladı,
Oda yansın o gəlin.

***

Bu gələn Bəxtiyardı,
Yarına baxtı yardı.
Belə yarı olanın
Taleyi bəxtiyardı.

***

Od eylədin,
Gör kimi yad eylədin.
Dağ idim, sən canımı
Nəzildib ot eylədin.

***

Tanışdı yollar mənə,
Biləklər, qollar mənə,
Mən yarımdan susuzam,
Neyləsin çaylar mənə.

***

Ağlaram gülə-gülə,
Yaş axar gilə-gilə.
Fələk, yolumu kəsmə,
Gedirəm yarımgilə.

***

Yara bağlar,

Tənzif al, yara sarı.
Qorxuram qan eyləyə,
Gedərəm yara sarı.

***

Yox qoyun-quzu səsi,
At, qulun kişnərtisi.
Xaraba qalıb dağlar,
Hanı tütək nəğməsi?

***

Pənah ağlar binədən,
Sözü yazar sinədən.
Əgər məni axtarsan,
Sorağım al Binədən.

***

Daş doğranar,
Göz çıxar, qaş doğranar.
Kötük həmin kötükdü,
Üstündə baş doğranar.

***

Əzizinəm yazı qəm,
Qışı zəhər, yazı qəm.
Fələk, körpələrim var,
Gəl öldürmə, yazığam.

***

Əzizinəm gözəlsən,
Hər çiçəkdən gözəlsən.
Ağlımı başdan aldın,
Nə karəsən gözəl sən.

***

Danış bir de, gəl dilə,
Sən niyə düşdün felə.
Ağılsıza qoşuldun,
Gözlə sonunu hələ.

***

Sızıldar, yarəb ağlar,
Təbibdən yar yaxşıdı,
Yar yaxşı yara bağlar.

***

Əzizim qana dağlar,
Qan düşüb qanad ağlar,
Daha kimə gərəkdi,
Olsun viranə dağlar.

***

Analar gəzən dağlar,
Hər dərdə dözən dağlar,
Qartalların hardadı,
Qara gey, bəzən dağlar.

***

Əzizinəm ayazdı,
Fələk bəxtimi yazdı.
Mənim ürəyimdə qəm,
Ancaq torpaqda yazdı.

***

Qarasındadı,
Xallar qarasındadı.
Ağ gəlin də yaxşıdı,
Ləzzət qarasındadı.

***

Zəhər ver mərd əlindən,
Bezərəm dərd əlindən,
Qəm məndən uzaq getmir,
Qaçıram dərd əlindən.

***

Keçdim düşmən əlinə,
Yük yüklədi belimə.
Qollarım qandallıdı,
Yol yox gedəm elimə.

***

Əzizim duman bağlar,
Dağları duman bağlar.
Yurd-yuvanın qəmindən,
Yaş tökər, duman ağlar.

***

Əzizinəm yana baxdın,
Sən yana-yana baxdın.
Xain çıxdın vətənə,
Od söndürüb, ev yıxdın.

***

Əzizim qalan budu,
Yaralı balam budu,
A dərd görməyən canım,
Çək indi, bəlan budu.

***

Ürəkdən, başdan ağla,
Torpaqdan, daşdan ağla,
Atamın yeri boşdu,
Oyan, obaşdan ağla.

***

Əhvalımı arama,
Tellərimi darama,
Dərdim çox, sağalan yox,
Əl uzatma yarama.

***

Tanrı, mənə aman ver,
Yaşamağa güman ver,
Balama həsrətəm mən,
Alma canım, aman ver.

***

Yaradandı,
Sirrini yara dandı,
Şəkk eləmə Tanrıya,

Əzizim yaz ağla,
Qış sızılda, yaz ağla.
Bu gün kimsəsizlərin
Taleyini yaz, ağla.

***

Nəsimi var,
Bu qarın nə simi var,
Şairəm demə çox da,
Füzuli, Nəsimi var.

***

Bülbüləm, qəfəsdəyəm,
Çoxdandı ki, xəstəyəm,
Gəl aç bağlı qapımı,
Ölürəm, can üstəyəm.

***

Söyüdün barı olmaz,
Arsızın arı olmaz.
Ana necə şirindi,
Anasız arı olmaz.

***

Didərgin bala ağlar,
Ürəyi yara bağlar,
Övladsız qalan anam
Başına qara bağlar.

***

Eləmi qana oğul,
Düşməyə qana oğul,
Pislərə qoşulmaya,
Nə ola qana oğul.

***

Əzizim, oğul dərdi,
Sağalmaz oğul dərdi,
Zəhmət çəkib bağ saldım,

Yox yerdən yaradandı.

***

Əzizim, ata yeri,
Oxunu at, a yeri,
Atalıq min can desin,
Verəmməz ata yeri.

***

Ana, məni ağlama,
Sinələri dağlama.
Şahlara qılınc çəkən
Fələyə bel bağlama.

***

Ox atdı,
Kaman tutdu, ox atdı,
Keçdi sinəmin üstən,
Anan ölsün, ox atdı.

***

Atan kimdi,
Bu topu atan kimdi,
Anana qurban olum,
Bir soruş atan kimdi?

***

Bu gələn yaman atdı,
Ox atdı kaman atdı,
Ata intizar getdi,
Balası amanatdı.

***

Yaş üzünnən,
Süzülər yaş üzünnən.
Xəstə qoca utanır
Bu qədər yaş üzündən.

***

Əzizinəm alçalar,
Armud olmaz alçalar,

Barını oğul dərdi.

***

Açıq görən gözünə,
O vur deyən sözünə.
Qorxmaz ər oğulların,
Qurban olum özünə.

***

Əzizinəm qalana,
Leş üstə leş qalana,
Biz gedirik döyüşə,
Sən salamat qal, ana.

***

Qardaşı,
Yağış daşı, qar daşı,
Heç qoyarmı dar gündə
Qala qardaş-qardaşı.

***

Aşıq el atasıyam,
Çək oxun, atasıyam,
Mən təmiz ürəklərin,
Yoxlasan atasıyam.

***

Əzizim sal daşdan,
Gəl yerimi sal daşdan,
Bacı doysa qardaşdan,
Qardaş doymaz qardaşdan.

***

Ah çəkdim yana-yana,
Ahımı eşit, ana.
Qaldım düşmən əlində,
Səsim çatmır heç yana.

***

Eşqi könlündən aldı,
Sözü dilindən aldı,

Namərd mərdi görəndə,
Yaltaq olar, alçalar.
***

Baxma inad adama,
Şöhrətdi ad adama,
Sonra düşmən kəsilər,
Sirr vermə yad adama.
***

Ölməyib yalan gəzir,
Canımı alan gəzir,
Namərddən arxa olmaz,
Qanında ilan gəzir.
***

Mən gəldim,  o dayandı,
Gözləri dolu qandı,
Namərd elə söz dedi,
Qəlbimdə od da yandı.
***

Gəzək bu dağı dostum
Bağçanı, bağı dostum,
Xoş deyək, xoş danışaq,
Qoy ölsün yağı, dostum.
***

Qanındadı,
Necədi qanın dadı.
Yaxşılıq da, pislik də
İnsanın qanındadı.
***

Qaçdı girdi daşlığa,
Daş atdı qardaşlığa,
Yüz il duz-çörək yedik,
Nankordu yoldaşlığa.
***

Hansı zalımın taxtı,
Fələk əlindən aldı.
***

Sən əldə ölənə bax,
Gözündən gülənə bax.
Şeytan paltarı geyib,
Qarşıdan gələnə bax.
***

Əzizinəm nə qandı,
Nə düşündü, nə qandı,
Bu fələyə nə deyim,
Bu tökdüyü nə qandı?
***

Doluyub çarxa məni,
Aparır arxa məni,
Mən özüm arxasızam,
Dost bilir arxa məni.
***

Oxu məni,
Tutub yad, oxu məni,
Vallah, dərddən tökülmüş
Kitabam, oxu məni.
***

Üzdən qarı,
İçdən yan, üzdən qarı,
Nə gülürsən beləcə,
Üzümə, üzdən qarı.
***

Unutmaram dünyada,
Məni saldın fəryada,
Gəl oturaq dərdləşək,
O günləri sal yada.
***

Gözlərə bax, qan verir,
Özünü qurban verir,
Mərd qazanıb xərcləyir,
Namərd baxıb can verir.

***

Əzizim dərd əlindən,
Aman namərd əlindən,
Biyabana düşmüşəm
Sağalmaz dərd əlindən.

***

Ağlar gözüm gülərmi,
Ölən bir də ölərmi?
Fələk uçuran evi
Bəndə qura bilərmi?

***

Bu hay-haray deyənim,
Getdi saray deyənim.
Diri vaxtı ağlamır
Ölənə vay deyənim.

***

Onun da gələr vaxtı,
Açılmaz qara baxtı.
Zülümkar olan şahın
Tabutudu öz taxtı.

***

Əzizinəm, yarə, an
Sözüm gəlib yara dan.
Loğman sağaltmayanı
Özün sağalt, yaradan.

***

Dərd çəkirəm iki ildir,
Duman gəldi, çəkildi.
Ruhlar gəzir aləmi,
Möcüzəli şəkildi.

Duman nədən küsübdü,
Yoxsa məndən küsübdü.
İlan evimdə qalır,
Dostlar məndən küsübdü.

***

Daş atandı,
Gizlindən daş atandı,
Mənə daş demə namərd,
Görmüşəm daş atandı.

***

Dostum mənə gül göndər,
Nə üçündü bil göndər,
Dilim ağzimda yanıb,
Danışmağa dil göndər.

***

Əzizim insana bax,
Od qoyub bu cana bax.
Canımdan bezar oldum,
Düşmüşəm böhtana bax.

***

Əzizim bəxtim azdı,
Taleyim, bəxtim azdı,
Ömür qısa, dərdim çox,
Yazmağa vaxtım azdı.

***

Bu necə xəyanatdır,
Bal versə zəhər dadır.
Namərdə əl uzatma,
Əlində şeytan yatır.

***

Arpanı yeyən yoxdu,
Oğrunu söyən yoxdu.
Yalan söz meydan açıb,
Düz sözü deyən yoxdu.

***

Yaya bax,
Kamana bax, yaya bax.
Bu da fələkdəndimi,
Od tökülüb yaya bax.

***

Torpaq oda qalandı,
Yurd-yuvasız talandı.
Azərbaycan səsinə
Gələn yoxdu, yamandı.

***

Əzizinəm gülən yox,
Ağlayan yox, gülən yox.
Əsir düşənlərimi
Axtaran yox, bilən yox.

***

Hasar çəkili qaldı,
Evim tikili qaldı.
Düşmənlər qaçaq saldı,
Mülküm tökülü qaldı.

***

Duman elə, çən elə,
Boylanıram mən elə.
Başçımız kəsən başı
Kəsəmməz düşmən belə.

***

Əzizinəm bayatı,
Yaxın-uzaq boy atı.
Təskinlik tapmaq üçün
Dilim deyər bayatı.

***

Qucağı köz ay dağlar,
Dözənsən döz, ay dağlar,

***

Nə yaxşı duydun məni,
İçimdən oydun məni.
Tanrı qisasmı aldın?
Vətənsiz qoydun məni.

***

Əzizim odlar yurdu,
Zalımlar odlar yurdu.
Qorxuram dönüb ola
Vətənim yadlar yurdu.

***

Ağ bağdı, qara bağdı,
Hər yanım bağça-bağdı.
Başçının nə vecinə,
Dağılan Qarabağdı.

***

Yayım var qışdan soyuq,
Torpaqdan, daşdan soyuq.
Ürəyim qan ağlayır,
Başçılar başdan soyuq.

***

Eləmi dolu düşdü,
Dağlara yolu düşdü.
Vətənə sipər oldu,
Oğlumun qolu düşdü.

***

Əzizim qoşa dağlar,
Verib baş-başa dağlar.
Qalıb düşmən əlində,
Qoy dönsün daşa dağlar.

***

Mərd olan xanı neylər,
Mənasız canı neylər,

Niyə aralı düşdük,
Qoynundan biz, ay dağlar.

***

Eləmi qaşı qandı,
Əl, ayaq, başı qandı.
Yandırıldı Xocalı,
Torpağı, daşı qandı.

***

Odladılar çəməni,
Laləni yasəməni,
Yandırıb, dağladılar
Həm məni, həm də səni

***

Eləmi ötmür sazım,
Açılmaz bəxtim, yazım,
Dost məndən gileylidir,
Mən dosta nədən yazım.

***

Bu gələn arabadı,
Sökülən darabadı,
Sahibsiz qalıb torpaq,
Düz-dünyam xarabadı.

***

Ağadı, xandı dağlar,
Ürəyim yandı dağlar,
Səndən ayrı düşəndən,
Hər günüm qandı dağlar.

***

Düzünə, yalana bax,
Talanmış malına bax.
Qışı buz, yayı isti,
Qaçqının halına bax.

***

Eləmi qara yazı,

Ağlı, kamalı olan,
Bürcü, qalanı neylər.

***

Hörmət elə bilənə,
Yalan zəhmət yeyənə.
Yaxşılıq eləmə sən
Haqqa, nahaq deyənə.

***

Eləmi dağındadı...
Dərdim var dağındadı,
Arana gələn bilər,
Necədi dağın dadı?

***

Yazım ağlar,
Qış keçər, yazım ağlar,
Taleyimə yazılan,
Bu qara yazım ağlar.

***

Dağım qaldı,
Aranım dağım qaldı,
Sağalmadı neyləyim,
Sinəmdə dağım qaldı.

***

Hər günüm sirdi, dağlar,
Dərdimiz birdi, dağlar.
Qan damır torpağından,
Bu necə yerdi dağlar.

***

Qaçqın diləyinə gəl,
Sızlayan neyinə gəl,
Çadırda zülüm çəkir,
Fələk köməyinə gəl.

***

Qəlbinə dağ eləmə,

Ağ yazı, qara yazı.
Allah, sən özün saxla
Bu gələn qara yazı.

***

Yox sənə güman, dağlar,
Od alıb yanan dağlar.
Düşmən mərmi yağdırar,
Yatıbsan, oyan dağlar.

***

Əzizim qara yazdan,
Donmuşam qar, ayazdan,
Daha bezmişəm, Allah,
Hər gələn qara yazdan.

***

Qışdı o, borandı o,
Arxadan vurandı o,
Bir ağac əkməyibdi,
Yüz ağac qırandı o.

***

Daşın qala,
Torpağın, daşın qala,
Yana hər şeyin, dağlar,
Bir quru daşın qala.

***

Gəzirəm bu dağları,
Ağlar tapar ağları.
Elə bir ah çəkərəm,
Yandırar bu dağları.

***

Göynəyir sinə, dağlar,
Düşmüşəm çənə, dağlar.
Daha yolum bağlandı,
Gəlmərəm sana, dağlar.

Əridib yağ eləmə.
Hər balaca bir sözü
Böyüdüb dağ eləmə.

***

Bir kövrək tütək olum,
Min arzu, dilək olum,
Mərdin ayaq basdığı
Torpağa çiçək olum.

***

Köç nədi,
Halal olsa seç nədi.
Torpaq üstə lap şah da,
Torpaq altda heç nədi.

***

Qan olsun yolun, dağlar,
Qırılsın qolun, dağlar,
Zülmünü tək çəkirəm,
Tək mənəm qulun, dağlar.

***

El, obalı oylaqlar,
Göy çəmənli yaylaqlar,
Həsrətini çəkdiyim,
Ağla, soyuq bulaqlar.

***

Torpağı əkdim gəldim,
Toxumu səpdim gəldim,
Yurdumdan qaçaq düşdüm,
Biçmədim, qaçdım gəldim.

***

Yazımdadı,
Gözlərim yazımdadı,
Qış da gözəldi, amma
Başqadı yazın dadı.

***

Yazı mənəm,
Qışı mən, yazı mənəm.
Dərddən yazılmış kitab,
Ən yaxşı yazı mənəm.

***

Sərkərdələr naşıdı,
Rəhbər gədə başıdı.
Nahaq qanlar tökülüb,
Torpağım göz yaşıdı

***

Əzizim sənə dağlar,
Qar yağar sənə, dağlar.
Düşmən yolları kəsdi,
El gəlməz sənə, dağlar.

***

Əzizimən ayazdı,
Fələk bəxtimi yazdı,
Mənim ürəyimdə qış,
Ancaq torpaqda yazdı.

***

Vətən düşmənə qaldı,
Bizi didərgin saldı.
Ürəklərdə sözlərim,
Dağlarda gözüm qaldı.

***

Əzizinəm qara yaz,
Ağ kağıza qara yaz.
Dağılıbdır ellərim,
Bu yazı da qara yaz.

***

Gözləri qara balam,
Əlləri yara balam.
Onları soyuq vurub,

***

Dağlar duman bitirib,
Göylər ümman bitirib.
Qan axan torpağımda
Çiçək yox, qan bitirib.

***

Yuxusuz gecələrdə,
Ac-susuz küçələrdə,
Xocalının elləri
Qalıbdı meşələrdə.

***

Analar gəzən dağlar,
Hər dərdə dözən dağlar,
Qartallar qaçqın düşüb,
Qara gey, bəzən dağlar.

***

Əzizim yaz ağla,
Qış sızılda, yaz ağla.
Bu gün kimsəsizlərin
Taleyini yaz, ağla.

***

Bala dağı dağ olar,
Göz bəbəyim ağ olar,
Sənin yaran sağalmaz,
Ürəyimdə dağ olar.

***

Körpəm də qan ağlayıb,
Bələyi buz bağlayıb.
Allah, çətin sağalar,
Qəlbimi dərd dağlayıb.

***

Bu tarix keçdi gəlməz,
Azəri köçdü, gəlməz.
Düşmən zülmünü gördük,

A bəxti qara balam.

***

Sahibsiz qaldın, bala,
Dağa ün saldın, bala.
Daşnak güllələrindən
Min yara aldın, bala.

***

Əzizim yazan ağlar,
Yolunu azan ağlar.
Bu cavan şəhidlərin
Qəbrini qazan ağlar.

***

Həsrətəm sənə, dağlar,
Dağlanıb sinə, dağlar.
Vətəndən ayrılmışam,
Gələrəm yenə, dağlar.

Qaçqının üzü gülməz.

***

Əzizim haya gəlin,
Keçin, bu taya gəlin.
Erməni bizi qırdı,
Şivənə, vaya gəlin.

***

Düşmən yolu bağladı,
Çovğun bizi haqladı.
Anam borana düşdü,
Dərdi bizi dağladı.

## LƏ İLAHƏ İLƏLLAH

Ey yaradan bu dünyanı,
Həm torpğı, həm ümmanı
Xəlq eylədin müsəlmanı
Lə ilahə iləllahu,
Mühəmmədən Rəsulullah.

***

Səcdə edib əyərəm baş,
Şahidimdir gözümdə yaş,
Son nəfəsdə deyəydim kaş,
Lə ilahə iləllahu,
Mühəmmədən Rəsulullah.

***

Allah deyib haram yemə,
İnsanlara yalan demə,
Bir gün səni salar qəmə,

Təkdir qadir Allahımız,
On ikidir imanımız
Budur məşhur kəlamımız
Lə ilahə iləllahu,
Mühəmmədən Rəsulullah.

***

Qurani şərif kitabım,
Həzrət Əli cənabımdı,
Bu dünyada imamımdır,
Lə ilahə iləllahu,
Mühəmmədən Rəsulullah.

***

Allah deyib dayanmışıq,
Sənə görə sayılmışıq,
Əliyən Nağı deyir Allah,

Lə ilahə iləllahu,
Mühəmmədən Rəsulullah.

Lə ilahə iləllah,
Mühəmmədən Rəsulullah.

## İMAMLARA XİTABƏN

Açıb ruzi qapıların,
Muhəmməd Mustafa gəlir
Suvar olubdu düldülə,
Əliyi-Murtəza gəlir.

***

Ömrü-günü qara olan,
Əlacsıza çarə qılan,
Ciyərləri parə olan,
Həsəni Müctəba gəlir.

***

Başı yüz min bəla çəkən,
Rəqibinə baş əyməyən,
Kərbəlada şəhid olan,
Hüseyni Kərbəla gəlir.

***

Atasıdı seyidlərin,
Künci xərabədir yeri,
Adıdır Zeynal-Abidin,
Bimari Kərbəla gəlir.

***

Düşəndə müşkülə ağır
Mühəmməd Bağırı çağır,
Harayımıza yetər axır,
Dərdimizə dəva gəlir.

***

Bağdada bir namə yazdım,
Ziyarəti hamıya lazım,
İmami Museyi Kazım,
Qəribi Kərbəla gəlir.

***

Xorasanda qərib olan,
Gözləri intizar qalan,
Zəhri-cigəri doğranan,
Qərib İmam Rza gəlir.

***

Kəşt eyləyin siz bu bağı,
Hurilər dolandı sağı,
İmami Muhəmməd Tağı,
Çəkib ahu nəva gəlir.

***

Atası Muhəmməd Tağı,
Zindandadır yox sorağı
İmami Əliyyən Nağı
Giriftari bəla gəlir.

***

Açıbdır behiştin gülləri,
Ötür bağda bülbülləri.
İmami Həsən Əsgəri,
Ömrü, bəxti qarə gəlir.

***

Yeddi yaşlı uşaq zindan,
Üzündə natiqi-Quran
Mehdidir axırı zaman,
Bu gün sağı imam gəlir.

***

Hüseynin Ələmdarı olan,
Qolların etdilər qələm.
Xəcalətdən rəngi solan,
Əbülfəz Abbasım gəlir.

***

Əl dəyirmanını çəkən,
Əllərinin qanın tökən,
Dünyasından cavan gedən,
Fatimeyi Zəhra gəlir.

Söz xəzinəsidir ürəyi,
Budur arzusu, diləyi.
İmamlar olsun köməyi,
Məşədi Kərbəla gəlir.

## HARA GEDİRSƏN AY BABA

Hara gedirsən ay baba,
Dalınca ağlayan gəlir.
Başında yarə var dayan,
Yaranı bağlayan gəlir.

***

Evim yıxıldı vay ana,
Batıbdır əllərin qana,
Gəlib dalınca gör necə,
Bir əldə qarə məcərin.

***

Ata gedib bala qalıb,
Gəlibdi öz xiyaminə,
Nə parə məşgə baxmadı,
Nə batmadı su qəminə.

Dedim qızım niyə məni,
Belə qaçıb qabaqladın,
Müsafirəm gözəl balam,
Məni yol üstə saxladın.

***

Vəfasız aşiqəm əgər,
Sənin qəmindən yanmasam,
Gəlincə Qətligahidən
Yol üstə mən dayanmasam.

***

## HANI ATAM AY BİBİ?

Bu karvan hara gedir,
Hanı atam ay bibi?
Hansı diyara gedir,
Hanı atam ay bibi?

***

Halımı kimsə bilməz,
Kimsə üzümə gülməz,
Hamı gələr o gəlməz,
Hanı atam ay bibi?

***

Əkbər qardaşım harda,

Üzür məni qəm kədər,
Sən mənə ver bir xəbər.
Gözlərəm axşam, səhər,
Hanı atam ay bibi?

***

Anam qara duvaqdır,
Gözləyirəm nə vaxtdır.
Məgər yolu uzaqdır,
Hanı atam ay bibi?

***

Abbas əmim hanı bəs,

Əsgər qardaşım harda,
Gözüm qalıbdı yolda,
Hanı atam ay bibi?

***

Kipriyimdə oxum var,
Qızılgültək qoxum var,
Axı mənim yuxum var,
Hanı atam ay bibi?

***

Üzüm həsrətlə solar,
Gözlərim yaşla dolar.
Necə gözləmək olar,
Hanı atam ay bibi?

***

Qasım verməz mənə səs.
Bir quşam yerin qəfəs,
Hanı atam ay bibi?

***

Üzünü görəcəkdim,
Telini hörəcəkdim,
Mənə su verəcəkdi,
Hanı atam ay bibi?

***

Bir an məndən ötməz o,
Xəyalımdan getməz o,
Səsimi eşitməz o,
Gözlərəm axşam, səhər,
Hanı atam ay bibi?

***

Hər kim məzlumu əzər,
Ahı göyləri gəzər.
Hər kim Allahı sevər,
Başı üstə Əli gəzər

# DUA

***YA RƏBBİM MƏNİ GÖZƏL İNSANLARLA QARŞILAŞDIR. AMİN.***

## ƏLİ ƏKBƏR

Şücaətdə atam Heydər,
Cəmalın cəddimə bənzər.
Anam Leyla yolun gözlər,
Əli Əkbər, Əli Əkbər.

***

Yaran çoxdur, saya gəlməz,
Anam Leyla səni görməz.
Atam sənsiz dözə bilməz,

Düşüb murği dilim bəndə,
Bu əhvalı görüb məndə,
Ayaq saxla gəlim mən də,
Əli Əkbər, Əli Əkbər.

***

Gəlir qəlbim oğul dərdə,
Düşüb cismin quru yerdə.
Çəkib qan zəxmunə pərdə,

Əli Əkbər, Əli Əkbər.

***

Belə dərdə dözmək olmaz,
Bu gül cismə kəfən olmaz
Məni dəfn eyliyən olmaz,
Əli Əkbər, Əli Əkbər.

***

Vücudunda yaran çoxdur,
Sərasər nizavi oxdur,
Baxıram sağ yerin yoxdur,
Əli Əkbər, Əli Əkbər.

***

Əli Əkbər, Əli Əkbər.

***

Elimdən ayrı düşdüm mən,
Üzüldüm yarı yavərdən,
Məni hicran salıb dildən,
Əli Əkbər, Əli Əkbər.

***

O xəncər ki, sənə dəydi,
Bu sərvi qəddimi əydi.
Peyğəmbər (s) Şibi
səndədi,
Əli Əkbər, Əli Əkbər.

Sənin başın qılınclandı,
Əmmamən başda doğrandı,
Oğul qəlbim yaralandı.
Anam Leyla yolun gözlər,
Əli Əkbər, Əli Əkbər.

## AĞLARAM

Qəm qapımı yenə döydü,
Könlümü yıxıb ağlaram.
Gözüm bulud, sinəm göydü,
Şimşək tək çaxıb ağlaram.

***

Tale məni dərdə saldı,
Könlüm qəmli daim qaldı,
Hərədən bir məzar qaldı,
Ölüncə baxıb, ağlaram

Ta məndə olmuşam qərib,
Qəm üstünə qanad gərib,
Həsrəti gül kimi dərib,
Könlümə taxıb, ağlaram.

***

Əzizim yada dağlar,
Yol verməz yada dağlar.
Gözlərim qan ağlayır,
Düşübdü yada dağlar.

***Vaqif Mehdi***

Bir gün baş götürüb gedəcəyəm mən,
Bu yalan dünyadan, yalan dünyadan.
Kim nə aparıb ki, mən nə aparım,
Nuhdan, Süleymandan qalan dünyadan,

Bu yalan dünyadan, yalan dünyadan

.

## OXŞAMA

Dağ döşündə laləyəm,
Min fəryadam, naləyəm.
Əl vurma, dağıdarsan,
Qəm dolu piyaləyəm.

***

Əzizim yazım ağlar,
Qış keçər yazım ağlar.
Taleyimə yazılan,
Bu qara yazım ağlar.

Halıma qalan olar,
Könlümü alan olar,
Toplasan göz yaşımı
Kür, Araz yalan olar.

***

Əzizim bu dərd məni,
Ağrıdır bənd-bənd məni.
Son nəfəs çıxanadək,
Gəzdirin kənd-kənd məni.

## BAYRAMIMI NEYLƏDİN

***Baba Loğman***

Dayan, fələk, səndən sual eyləyim,
Fələk, mənim Bayramımı neylədin.?
Oydu mənim qəlbim, canım, ürəyim,
Fələk, mənim Bayramımı neylədin?

***

Dağ-daşa düşüb mənim harayım,
Məcnun kimi viran olub sarayım.
Bayram deyib nə vaxtacan ağlayım?
Fələk, mənim Bayramımı neylədin?

***

Bacısı ağlayır, hey Bayram deyə,
Yaqub tək iyləyir Yusif köynəyin.
Ağlamayım fələk, bəs mən neyləyim,
Fələk, mənim Bayramımı neylədin?

***

Dağ deyirsən dağ dələrəm Fərhad tək,
Hey gəzərəm səhraları Məcnun tək.
Yalvarıram rəhm eylə ey fələk,
Fələk, mənim Bayramımı neylədin?

***

Simada məleykə, qəlbdə övliya,
Səni and verirəm İmam Əliyə.
Həsrətinlə ürəyimi teyliyə,
Fələk, mənim Bayramımı neylədin?

***

Ata yoxdu, gələ oğul hayına,
Qoşulmayır tay-tuşların sayına,
Dərd gələydi qoca Baba dayına,
Həsrətinlə ürəyimi teylədin,
Fələk, mənim Bayramımı neylədin?

## BAYATI

Əzizim Ərzuruma,
Yol gedir Ərzuruma,
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zülümə.

***

Ürəyimdə dağım var,
Talan olmuş bağım var.
Allah, görən qabaqda,
Daha hansı dağım var.

***

Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yüküdü,
Yordu bu taylar məni.

***

Ocaqda köz qalmadı,
Cığırda iz qalmadı.
Sizə ağı deməkdən,
Dilimdə söz qalmadı.

***

Bu qurğuda uyanmıram,
Sözü sözümdən yekədi.
Günümü ağlayan gərək,
Dərdim özümdən yekədi.

## HƏSRƏTDƏYƏM

Sinəmdə bir kədər daşı,
Duymaz halımı hər naşı.
Hanı könlümün sirdaşı,
Niyə belə həsrətdəyəm?

Ağlama, gülüm ağlama!
Vüsala ümid bağlama!
Sel olub belə çağlama!
Mən əbədi möhnətdəyəm!

***

Qəfil çəkib kamanını,
Ayrılıq tökdü qanımı,
İtirmişəm sultanımı,
Elə bil ki, qürbətdəyəm.

***

Məni heç kəs dindirməsin,
Buludlardan yendirməsin.
Alışanda söndürməsin,
Öz könlümlə söhbətdəyəm.

***A.Mustafayev***

## OXŞAMA

Tayada bəlim yandı,
Əl atdım əlim yandı.
Oğul, oğul deməkdən,
Ağzımda dilim yandı.

Üç bacının qardaşı,
Qurumur gözümün yaşı,
Gücüm çatmır qaldırım,
Fələk atdığı daşı.

***

Düşmənə uyan fələk,
Bir azca dayan fələk.
Ürəyimə dağ çəkib,
Oğluma qıyan fələk.

***

Əzizim balabanı,
Asta çal balabanı,
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

***

Məcnun elə sönüb getdi,
Kərəm külə dönüb getdi,
Abbas elə dinib getdi,
Bəs mənim yerim hardadı.

***

Bu necə dünyadı atam,
Dərdli yox, gülən ağlayır.
Ağlayanın göz yaşını,
Gözü ilə silən ağlayır.

***

***

Səhrasında təntimişəm,
Suyum cövhərim hardadır?
Gözümü nəzir demişəm,
Ocağım, pirim hardadır?

***R.Faxralı***

## SORUŞUN

Bu dünyanın ağasından qulu az,
Gedənlərdən, gələnlərdən soruşun.
Dərvişi çox, səyyahı çox, yolu az,
Yolçu kimdi? – bilənlərdən soruşun.

***

Tor  tapılmır yollar yoran səyyada,
Qəsd eyləyir şaxta, boran səyyada...
Sevinc- qara, kədər- bəyaz dünyada,
Qəhər nədi? – gülənlərdən soruşun.

***

Bu yol ağrı, bu yol həsrət yoludu,
Dağılmır ha dolu yükdü, buludu.
Canmı verir çiliklənmiş ümidi?
Göz yaşını silənlərdən soruşun.

***

Ürəyə bax! – bir ocaqdı, təşnədi,
Başı üstə boz buludları kişnədi.
Ömür nədi, həsrət nədi, eşq nədi,
Gündə yüz yol ölənlərdən soruşun.

***R.Faxralı***

## MƏZAR DAŞLARI

Sizi qərib gördüm, qüssəli gördüm,
Sinəmi oxlayın məzar daşları.
İnsanam deyənin son payısınız,
Əbədi çağlayın, məzar daşları.

***

Ömrün son ünvanı bağlıdı sizə,
Saxlayın bu adı köhnə, ya təzə.
Nənə itirmişdik, qoşulun bizə,
Dil deyin, ağlayın, məzar daşları.

***

Qəlbi yüz yerindən oyub gəlmişəm,
Həyatı dərindən duyub gəlmişəm,
Babamı qürbətdə qoyub gəlmişəm,
Yaramı bağlayın, məzar daşları.

***

Ayrılıq yandırdı, yaxdı sinəmi,
Bir əcəl küləkdi əsdi yenəmi.
Tək-tənha qoymayın yazıq nənəmi,
Qəribdir yoxlayın, məzar daşları.
***
Yüz il yaşasan da, duy həqiqəti,
Ömür müvəqqəti, gün müvəqqəti.
Alqayıt yazdığı şeiri, sənəti,
Yadigar saxlayın məzar daşları.

*Alqayıt Xəlilov*

## QƏRİBSƏMİŞƏM

Vətənin həsrəti üzür qəlbimi,
Dumanlı dağları qəribsəmişəm.
Unuda bilmirəm doğma kəndimi,
O boz bulaqları qəribsəmişəm.
***
Söndü ellərimin odu-ocağı,
Qaldı yağılara vətən torpağı.
Doğma Cəbrayılı, o Xan çinarı,
Ziyarət dağını qəribsəmişəm.
***
Gör nələr dolanır xəyallarımda,
Anamı hər gecə görsəm yuxuda,
Atamın-babamın qəbirsanlıqda,
Məzar daşlarını qəribsəmişəm.
***
Unuda bilmirəm doğma yerləri,
Yaşıl meşələri, göy çəmənləri,
O xarı bülbülü, tər bənövşəli,
Doğma Qarabağı qəribsəmişəm.

***Telli Ağayeva***

## DÜNYA

Vaxtsız köçüb getdi,
Son mənzilinə yetdi.
Cavan bir ömür bitdi,
Nə deyim sənə dünya?

Hər nə verdin bəndənə,
Ayırdın dənə-dənə.
Çox qarışıqsan yenə,
Nə deyim sənə dünya?

***Sahib Kərimoğlu***

## GƏLMƏDİ

Qırx gününü tamam sandım,
Gedən gəlmədi, gəlmədi.
Gözlərim yollarda qaldı,
Gedən gəlmədi, gəlmədi.

Hər nə oldu mənə oldu,
Bir gül əkdim, o da soldu,
Fələk verib dərdim boldu,
Gedən gəlmədi, gəlmədi.

***

Hər tərəfə haray saldım,
Fikirləşdim məətdəl qaldım.
Yol gözləməkdən qocaldım,
Gedən gəlmədi, gəlmədi.

***

Zalım fələk qurdu tələ,
Düzələ bilmirəm hələ.
Sərgərdanam elə-belə,
Gedən gəlmədi, gəlmədi.

***

Əbülfətəm aşkar yazım,
Qara gəlib bahar yazım,
Kimim varki çəkə nazım,
Gedən gəlmədi, gəlmədi.

## MƏNİM DƏRDİM

Dəryalardan dərin oldu,
Mənim dərdim, mənim dərdim.
Bütün aləmi yandırdı,
Mənim dərdim, mənim dərdim.

***

Mənim dərdim bilinməzdi,
Öz qəlbimdən silinməzdi.
Loğmanlara görünməzdi,
Mənim dərdim, mənim dərdim.

***

Bu dərdimə yoxdu çarə,
Məni salıb günü qarə.
Sinəm üstə düzüb yarə,
Mənim dərdim, mənim dərdim.

Əbülfətəm qaldım ağlar,
Viran qaldı, güllü bağlar.
Bu matəmi yadda saxlar,
Mənim dərdim, mənim dərdim.

## SOLAN OLDU

Gün-gündən çiçəklənən,
Ömrüm birdən solan oldu
Dünya hərləndi başıma,
Gördüklərim yalan oldu.
***

Fələk məni saldı tora,
Ağ günümü yazdı qara.
Qaldım yalvara-yalvara,
Artdı dərdim kalan oldu.
***

Əbülfətəm, yaralandım,
Öz bəxtimdən qaralandım,
Xoş bahardan aralandım,
Yerim çovğun, boran oldu,
Cavan ömrüm solan oldu.

## FƏLƏK

Çərxi fələk çox yazılar yazıbdı,
Bülbül butasını xar yazdı, fələk,
Mənim taleyimə, mənim bəxtimə,
Çovğunu, boranı, qar yazdı fələk.
***
Çoxunun dərdinə tapılmadı əlac,
Taleyi kəmlər də qaldılar möhtac.
Kiminin bəxtinə bir quru ağac,
Kiminin bəxtinə gül yazdı fələk.
***
Ağladım, yalvardım çərxi fələyə,
Dedim rəhm eyləyə, gələ köməyə.
Çıxdım təbiəti seyr eyləməyə,
Gördüm taleyimi kor yazdı fələk.

***Ə.Namazov***

## CAVAN BALAM

Başına döndüyüm  cavan balam,
De mənə necə yaralanmısan?
Yaralarına öz anan qurban,
Ayrılma məndən ey cavan balam.

***

Gəl ana-bala bir qucaqlaşaq,
Gözdən gedirsən bir vidalaşaq,
Getdin səfərə gəl soraqlaşaq,
Ayrılma məndən ey cavan balam.

***

Qəribəm balam, bir kəsim yoxdur,
Qərib ölkədə möhnətim çoxdur.
Sənsiz bir kəsim, köməyim yoxdur,
Ayrılma məndən ey cavan balam.

***

Mən sənə zinət heç vurmamışam,
Toy otağını bəzəməmişəm,
Boynuna xalat mən salmamışam,
Ayrılma məndən ey cavan balam.

***

Mən səni boya-başa çatdırdım,
Rahat olmadım, yaşa çatdırdım.
Pərvaz eyləyən quşa çatdırdım,
Ayrılma məndən ey cavan balam.

***

On səkkiz ildə çəkmişəm zəhmət,
Gecələr heç vaxt olmadım rahat.
Boynuna saldım bir kəfən xələt,
Kəfən xələti qan olan balam,
Ayrılma məndən ey cavan balam.

***

Qönçə gülünü niyə soldurdun,
Kam almadın, sən nakam öldün
Susuz cigəri qan olan balam,
Gəl qücağıma yaralı balam,
Ayrılma məndən ey cavan balam.

***

Bala mən səni boya çatdırdım,
Ayrılma məndən ey cavan balam.
Dərdinə dözə bilmirəm balam,
Ayrılma məndən vəfalı balam,
Ayrılma məndən ey cavan balam.

## AYRILMA MƏNDƏN

Gedirəm bacı yola sal məni,
Bəlkə gəlmədim görmədim səni.
Bu yola gedən gəlməz bilirəm,
Ayrılma qardaş, ayrılma məndən.
***
Ey bacı Zeynəb görməzsən məni,
Sənə tapşırıram bu yetimləri.
Gedər gəlməzin yoludur bu yol,
Ayrılma qardaş, ayrılma məndən.
***
Nə çoxdur bacı sənin zillətin,
Nə tez ağardı, qara zülflərin.
Oxlandı bacı Əli Əkbərin,
Ayrılma qardaş, ayrılma məndən.
***
Qardaşım Hüseyn sözüm sənə,
Doyunca baxım ala gözünə.
Yazığın gəlsin bacın Zeynəbə,
Ayrılma qardaş, ayrılma məndən.

Qardaş Hüseyni görəydim bir də,
Ala gözündən öpəydim bir də.
Dərdinə şərik olaydım mən də,
Ayrılma qardaş, ayrılma məndən.
***
Dur sal boynuma o ağ kəfəni,
Gedirəm bacı halal et məni.
Gedirəm bacı yola sal məni,
Ayrılma qardaş, ayrılma məndən.
***
Kərbəladan taşama kimi ey,
Qardaş yetimlər gözləyir səni.
Qızın Səkinə babasın istər,
Ayrılma qardaş, ayrılma məndən.
***
Bir nohə yazdı kənizin sənə,
Gizlin dərdini söylədi sənə.
Məhşər günündə çatar köməyə,
Ayrılma qardaş, ayrılma məndən.
Doymadım qardaş, doymadım səndən.

## AY QARDAŞI ÖLƏNLƏR
## QARDAŞ İTİRMİŞƏM MƏN

Kərbəla meydanında,
Kəsildi imam başı.
Qan ağladı aranın,

Qardaş belim əyildi,
Dilim yoxdur ağlayım.
Yaran ürəyimdədi,

İsti qumu, həm daşı.
Abu leysana döndü,
Zeynəb gözünün yaşı.
***
Oğul toyu görmədin,
Xeymələrin boş qaldı.
Qardaşın kəsik qolun,
Bacı qoynuna saldı.
Qanlı libasın qardaş,
Zeynəb əlinə aldı.
***
Cənazəni qaldırıb,
Əli Əkbər aparsın.
Ələmdar Əbülfəzim,
Gəlsin namaza dursun.
Səkinə qızım zülfün,
Yolub yellərə versin.
***
Kərbəla müsibətin,
Siz yadigar saxlayın.
Hər il məhərrəm ayı,
Qara bayraq bağlayın.

Bəs mən necə ağlayım.
Başın qoy dizim üstə,
Yüz il onu saxlayın.
***
Qırx gün nalə çəkərəm,
Susuz bu səhralarda.
Mən də ölə bilsəydim,
Qardaş səninlə burda,
Bimar Zeynal Abidin,
Qalıbdı qardaş darda.
***
Ayaqyalın körpələr,
Əsir düşüb namərdə.
Bu ayrılıq, bu yerdə,
Salıbdı bizi dərdə.
Xeymələrdə matəmdi,
Çəkilib qara pərdə.
***
Həlal ümməti səslə,
Hüseyn deyib ağlayın.
Ay qardaşı ölənlər,
Qardaş itirmişəm mən.

## YA ƏLİ

Yatma Nəcəfdə naz ilə,
Gəl bu diyara ya Əli.
İşim düşübdü müşkülə,
Gəl eylə çarə ya Əli.
***
Nə qədər yarə məndə var,
Nə sağ yerim bədəndə var.
Bircə gözüm kəfəndə var,
Gəl bu diyarə ya Əli.

Ölüb vəfalı qardaşım,
Qana dönübdü göz yaşım.
Susuz kəsilmişdi başım,
Gəl al qucağa ya Əli.
***
Gör sinəmin yarəsini,
Gözüm çox axtarır səni.
Öz əllərinlə qoy məni,
Bircə məzarə ya Əli.

***

Könlüm səni çox istəyir,
Tez özünü mənə yetir.
Qardaşıma kəfən gətir,
Yoxumdu çarə ya Əli.

***

Qardaş mən səni ağlaram,
Yaranı görsəm bağlaram.
Əsir balanı saxlaram,
Susuz ölərsən ağlaram.

***

Əldən gedib yavərlərim,
Qalıbdı bircə bimarım.
Əsir gedir balaların,
Gəl eylə çarə ya Əli.

***

Burada bəlalar çəkmişəm,
Qardaşlarımdan keçmişəm.
Onlara kəfən biçmişəm,
Gəl bu diyara ya Əli.

***

Çəkmişəm əl dəyirmanın,
Axıbdı əllərim qanı.
Bəslədim ümmət qurbanı,
Günümdür qarə ya Əli.

***

Qardaş gözüm kor olubdu,
Düşmənlərim çox olubdu.
Bu xərabə Kərbəlada,
Qardaşlarım yox olubdu.

***

Tənha qoyma məni burada,
Gözümü gəl qoyma yolda.
Düşmənlərim sağda, solda,
Gəl eylə çarə ya Əli.

***

Yatma Nəcəfdə naz ilə,
Gəl bu diyara ya Əli.
İşim düşübdü müşkülə,
Gəl eylə çarə ya Əli.

## BİR UCA BOYLU QARDAŞIM ÖLÜB
## RƏŞİD ƏLƏMDAR ABBASIM ÖLÜB

Bacı qardaşın çox istər Allah,
Bağlıdır qolum, neyləyim Allah.
Qalıb Zeynəbin qardaş avarə,
Yoxdur taqətim rəhmdar Allah

***

Bu bacın ölsün dözə bilmirəm,
Düşən qoluna baxa bilmirəm.
Koram qardaşım görə bilmirəm,
Şamidə sənin Səkinən ölüb.

***

Çox çətin olur qardaş ölümü,

Qolunu qardaş düşmən salıbdı,
Cismin yaralı yerdə qalıbdı.
Düşmən başının üstün alıbdı,
Meydanda Əli Əkbər ölübdü.

***

Babam Əlinin sərvi Rəşid oğlu,
Düşübdü yerə hər iki qolu.
Bağlandı üzümə fəratın yolu,
Susuzdu qardaş Hüseynim ölüb.

***

Öləndə qardaş bacısı ağlar,

Əydi qəddimi düşmən zülümü.
Eşit Nəcəfdən baba sözümü,
Gör necə mənim Abbasım ölüb.

Başı üstündə anası ağlar.
Bacı əliylə gözlərin bağlar,
Həsrətdə qalan bacısı ağlar.
Bir uca bolu qardaşım ölüb,
Rəşid Ələmdar Abbasım ölüb.

## OYAN QARDAŞ

Ruhi-rəvan oyan qardaş,
Qana qəltan olan qardaş.
Su istədin vermədilər,
Suyu qana dönən qardaş.

***

Qardaş səni kim oxladı,
Yaraların kim bağladı.
Nəşin üstə kim ağladı,
Oyan qardaş, oyan qardaş

***

Qardaş məndən nə tez döndün,
Əlimi qoynumda qoydun.
Gözümü yollarda qoydun,
Oyan qardaş, oyan qardaş.

***

Boğazına dəyibdi ox,
Su deməyə taqətin yox,
Susuzluqdan bir tabın yox,
Oyan qardaş, oyan qardaş

***

Başını qoy dizim üstə,
Gəl bir alım sinəm üstə.
Yatma isti qumlar üstə,
Oyan qardaş, oyan qardaş.

***

Ey əsğəri şiri zəban,
Bacın olsun sənə qurban.
Aç gözlərin bircə oyan,
Oyan qardaş, oyan qardaş.

***

Mədinədən gətirmişəm,
Su yerinə qan içirmişəm
Kərbəlada itirmişəm,
Oyan qardaş, oyan qardaş.

## QƏRİB ÖLƏN QARDAŞ VAY

Sinəmi dağlayan çox,
Yaramı bağlayan yox,
Üstümdə ağlayan yox,
Qərib ölən qardaş vay.

***

Boyandın al qanına,
Qurban canım, canına.
Bacın gəlib yanına,
Qərib ölən qardaş vay.

***

Neyçün belə dolmusan?
Güllər kimi solmusan.
Məgər yetim qalmısan?
Qərib ölən qardaş vay.
***
Başın qalıb əllərdə,
Nəşin qalıb çöllərdə,
Adın qalıb dillərdə
Qərib ölən qardaş vay
***
Bu günə Xurşud ağlar,
Bu günə yerlər ağlar,
Bu günə göylər ağlar,
Buna ellər qan ağlar,
Qərib ölən qardaş vay
***

Gözdən tökərəm yaşı,
Yox yanında yoldaşı.
Əli-Əkbər qardaşı,
Qərib ölən qardaş vay.
***
Matəm gəldi oraya,
Zeynəb batıb qaraya
Qoymadılar ağlaya,
Qərib ölən qardaş vay
***
Bu zülmə kafər ağlar,
Zeynəb ağlar, qan ağlar.
Əsəndə yellər ağlar,
Köçəndə ellər ağlar,
Qərib ölən qardaş vay
***

Zeynəbə kimlər ağlar,
Bacıya qardaş ağlar,
Gözdən tökər yaş ağlar.
Qardaşsız bacı ölsə,
Çöllərdə dağ, daş ağlar,
Qərib ölən qardaş vay.

## HÜSEYN VAY

Zeynəb giribdir bağa,
Kəmərin bağlamağa
İmam Hüseyn ölüb,
Zeynəb gəl ağlamağa.
***
Vur başa şivəın eylə,
Ümmət xəcalət olsun.
Al başa qara məcar,
Həzm eylə Kərbəlaya.

Dur Fatimə ayağa,
Şivən qiyamət olsun.
Oğlun Hüseyn ölüb,
Başın salamat olsun.
***
Dalınca danışarlar,
Susuz gedər meydana.
Meydan içində qalmış,
Dörd yanın kədər almış.

***

Susuzdan bağrı yanmış,
Vay na Murad Hüseyn.
Qanlı kəfən Hüseyn,
Məzlüm ölən Hüseyn.

***

Göydə göyərçin ağlar,
Qoymada Laçın ağlar.
Anam Fatimə, Zeynəb,
Açıb saçların ağlar.

***

Səni cəddim veribdir,
Ümmən yolunda qurban.
Hanı qurban verən bəs,
Gəlməz bu gün Hüseynim.

***

Kimlər qoyar məzarə,
Kimlər görər tədarük.
Qaldın əcəb bu çöldə,
Başsız bədən Hüseynim.

***

Şümrü şərir kafəri,
Tifillərə rəhm etsin.
Vuranda Səkinəni,
Eylər fəqan Hüseynim.

***

Səndən sonra Hüseynim,
Rəna qəddim büküldü.
Hökm etdi şümri leşkər,
Xeyməm üstə töküldü.

***

Hansı bacı yanıbdı,
Mən tək zülmi cəfada.

***

Zeynəb giribdi bağa,
Kəmərin bağlamağa.
Görübdü kafər gəlir,
Dönüb daşla, torpağa.

***

Hansı bacı mənim tək,
Qardaşı ölüb ət-şan.
Dörd min yarə bədəndə,
Torpaqlar üstə üryan.

***

Sən ey şahi süvarim,
Bu başsız peykərinə.
Qurban mən bəxti qarə,
Məzlum ölən Hüseynim.

***

Abbası göndər qardaş,
Qanlı ələm götürsün.
Yol qorxuludur barı,
Bacıların ötürsün.

***

Qaldım əcəb bu çöldə,
Başsız bədən Hüseynim.
Gül-gül kəfən Hüseynim,
Məzlum ölən Hüseynim.

***

Talandı rəxdi zivəm,
Qardaş evim yıxıldı.
Şam əhli qollarıma,
Saldı rəsəm Hüseynim.

***

Yox ixtiyarım əldə,
Allah yetişsin dada.

Bacın düşmən əsiri,
Qardaş başı cidada.
***
Bu idi məndə mətləb,
Ey şahid-şikəstə.
Məni sən dəfn edərsən,
Verəndə can bu xəstə.
***
Ey cismi parə-parə,
Qəmləki qəlbi yarə.
O başsız peykərinə,
Qurban bu bəxti qarə.
***
İncitmə çox sən Allah,
Cismində var cəsarət.
Odur məşhər günündə,
Edən xalqa şəfaqət
Şahi zaman Hüseynim.

Başı cida başında,
Şama gedən Hüseynim.
***
Sən Quran oxuyarsan,
Qardaş məzarım üstə.
Əcəb murada yetdim,
Məzlum ölən Hüseynim.
***
Harda qalıbdı gəlmir,
Qurban verən Hüseynim.
Saxla ey xaki möhlət,
Hüseynimi əmanət.
***
Vur başa söylə Fayiq,
Gül-gül kəfən Hüseynim,
Başsız bədən Hüseynim.
Ey bivətən Hüseynim,
Başı cida başında,
Məzlüm ölən Hüseynim.

## YƏHYA BABA

Yəhya baba ölüm hara, sən hara,
Vurdun ürəklərə niskildən yara.
***
Vaxtsız ölüm niyə sənə tuş oldu,
Şahlıq nənə qəfil dərddən daş oldu,
Hənifənin qanı axıb yaş oldu.
Yəhya baba ölüm hara, sən hara,
Vurdun ürəklərə niskildən yara.
***
Əliyə, Fatiməyə yetmədi əlin,
Demədim qəribdə vətənin, elin,
Qırdın ölümünlə ellərin belin.

Yəhya baba ölüm hara, sən hara,
Vurdun ürəklərə niskildən yara.

***

Suqra nənə çox çəkmədi intizar,
Yaralım gəl belə etmə ahu-zar,
Qərib eldə, qərib oldu bu məzar.
Yəhya baba ölüm hara, sən hara,
Vurdun ürəklərə niskildən yara.

***

Əzəl gündən qəm ağartdı başımı,
Bitirmədən altmış iki yaşını,
Kimə tapşırırsan yar yoldaşını.
Yəhya baba ölüm hara, sən hara,
Vurdun ürəklərə niskildən yara.

***

Son nəfəsdə Cəbrayılı görmədin,
Əl uzadıb bircə gülün dərmədin
El obanın sınıq könlün hörmədin.
Vurdun ürəklərə niskildən yara,
Yəhya baba ölüm hara, sən hara.

***

Həcər nənə korun-korun ağlayar,
Xədicə bacı ahın ürək dağlayar,
Rəfiqə də sənə matəm saxlayar.
Vurdun ürəklərə niskildən yara,
Yəhya baba ölüm hara, sən hara

***

Anan olsa yaraların bağlayar,
Bacın olsa qardaş deyib ağlayar,
Qəmli könül çaylar kimi çağlayar.
Vurdun ürəklərə niskildən yara,
Yəhya baba ölüm hara, sən hara

***

Sübh şəfəqi nur səpəndə gözünə,
Həsrət qaldıq nur bəxş edən üzünə,
Zakir deyər birdə gəlməm özümə.
Vurdun ürəklərə niskildən yara,
Yəhya baba ölüm hara, sən hara.

## A LAYLA

Ağla gözüm qoy nəm olsun sifətin,
Nakam gedən körpələrim a Layla.
İndən belə xoş, gələrmi həyatım,
Nakam gedən körpələrim a Layla.

***

Ömür dərdli sinəm qəmin bostanı,
Niyə qırdın sən günahsız insanı.
Ərşi-divan, çərxi-fələk bəs hanı,
Nakam gedən körpələrim a Layla.

***

Heç ana görməsin oğul dağını,
Nəxəzan vurmasın güllü bağını.
Fələk qırsın o vicdansız yağını,
Nakam gedən körpələrin a Layla.

***

Odlar yurdu niyə səndən od oldu,
O günahsız körpələrin zay oldu.
Yağı düşmən  dörd yanında şad oldu,
Nakam gedən körpələrim a Layla.

***

De azadlıq hara, bu divan hara,
Azərə vurdunuz sağalmaz yara.
Yolçu Novruz hanı bu dərdə çara,
Nakam gedən körpələrim a Layla.

## AY FƏLƏK

Oğul deyə-deyə ağlayan ana,

Könlünü çar-çarpaz dağlayan ana.
Ağ üstündən qara bağlayan ana,
Deyir itirmişəm tacım ay fələk.

***

Əlim qələm tutmut yaza bilmirəm,
Dözülməz bir dəryadı dözə bilmirəm.
Ürəyim ağrıyır gəzə bilmirəm,
Bilmirəm necə oldu bacım ay fələk.
Yolçu Novruz dözə bilmir ay fələk

***Yolçu Novruz***

## BİSMİLLAHİR RƏHMANİR RƏHİM

Həzrəti Muhəmməd (s.ə.s ) Peyğəmbərimiz merac gecəsində "Lövhi məhfuza" baxarkən üç ayrı yerdə, üç nur gördüyünü bəyan edir:

-Ya Rəbbi, bu üç nur nədir?

Cənabi həqq buyurur:

-Onlar Ayətəl-Kürsi, Yasin və İxlas (qulhivəllah) surəsinin yerləridir.

Həzrət buyurdu:

-Ya Rəbbi, Ayətəl-Kürsinin savabı nədir?

Allah buyurur:

-O mənm sifətimdir. Onu bir dəfə oxuyan qiyamət günü mənə baxacaqdır, yəni, məni görəcəkdir.

Həzrət Əli (ə.s) buyurdu ki, Rəsulu-Xuda mənə buyurub ki, Bəşərin seyyidi Adəmdir, Ərəbin seyyidi Muhəmməddir, Farsın seyyidi Səlmandır, Rumun Seyyidi Süheyyibdir, Həbəşin seyyidi Bilaldır, Dağların seyyidi Turi-Sinadır, Günlərin seyyidi – Cümədir, Kəlamların seyyidi – Qurandır, Quranın seyyidi – Bəqərə surəsidir, Bəqərənin seyyidi - Ayətəl-Kürsidir. Bu ayə 50 kəlmədir, hər kəlmədə 50 xeyir, 50 bərəkət, 50 şəfa var.

## AYƏTƏL-KÜRSÜ HİKMƏTLƏRİ

Allah surəti önündə,
20 min var nur pərdə.

Bu, Allahın nurudur,
Asiman sütunudur.

Pərdələrdən nur yağır,
Bəşər ondan zövq alır.

***

"Qurani-Kərim" özü də,
"Bəqərə" surəsi də.
Nur Ayətəl-Kürsüdə
Seyyiddir hər üçü də.

***

Yaraqdır Ayətəl-Kürsü,
Çıraqdır Ayətəl-Kürsü.
Hər dillərdə, hər ellərdə,
Soraqdır Ayətəl-Kürsü.

***

Asimanlar ucasında,
Ərşlərin əlasında
Allahın qarşısında,
Asiman məxluqunda,
Mələklər dodağında.

***

Səni məndən ayırsalar,
Söylə necə qopararlar.
Çünki macal vermərəm,
Dilimi zikirsiz etmərəm.

***

Elə billəm zikr edəndə,
Olursan təkcə məndə.
Düşünürəm ki, hava tək,
Hamıya gərəksən qida tək.

***

Hərdən şeytan fürsət tapır,
Səni dilimdən qaçırır.
Məni günaha batırır,
Yuxuya verib yatırır.

***

Adı Ayətəl-Kürsüdür,
"Qurani-Kərim"in gözüdür.

***

Kəlamların içində
Seyyidlər rütbəsində
Böyükdür Ayətəl-Kürsü,
Seyyiddir Ayətəl-Kürsü.

***

Dillərdə əzbərlənən,
Pak qəlblərdə bəslənən.
Hər evdə əzizlənən,
Qonaqdır Ayətəl-Kürsü.

***

Zikr olunan çağında,
Dilimlə qoparram səni,
Özüm zikr edərəm səni
Həkk edərəm əqlimə,
Qəlbimə, dilimə səni.

***

Ayətəl-Kürsüm köməyim,
Hər aləmdə gərəyim,
Elə billəm tək mənimsən,
Çün həmişə dilimdəsən.

***

Xəstələrə dərmansan,
Bəd-nəzərə amansan.
Tilsimlərə yamansan,
Qorxanlara həyansan.

***

Dərhal səni axtarıram,
Dillərdən qoparıram.
Öz dilimə salıram,
Günahımı paklayıram.

***

Sən Allahın nurusan,
Rəhmət nur yağışısan
Cümlə-cahana yağırsan,
Bədənlərə hopursan,
Günahları yuyursan
Seyyiddir Ayətəl-Kürsü.

***Hacı Xavər xanım***

**İNCİTMƏYİN İNSANLARI**

Ey dünyanın insanları,
Müvəqqəti qonaqları,
Zülmə tabe olanları,
Sizə cəza deyil hələ,
Bu dünyanın əzabları,
Qarşıdadı əsasları,
Üç əzab istirabları.

Ruhun candan çıxmağı,
Torpaq altında qalmağı,
Məhşərin haqq-hesabları,
Orda çəkər əzabları

***

İncitməyin insanları,
İnsanların sahibi var.
Hər anından-əhvalından,
Yaradanın xəbəri var.

***

Ərş-Əladan Allah baxır,
Baxışından rəhmət yağar,
Hakimdir, şahiddir özü, ,
Hər əyrini, hər düzü.

***

Yuxarıdan görür özü,
Hər bəndəyə nəzarəti.
Xeyir, şəfa, rəhməti var,
Xəlq edib insanları
Yaratmaqda məqsədi var.

***

Hər bəndənin qəlbində,
Allahın nur zərrəsi var.
İncidəndə bəndəni,
İncidərlər zərrəni.

***

İncitməyin insanları,
İnsanların əzabı çox
Özgə zülmə ehtiyac yox,
Cinahında yazılanın,
Sağından yox, solundan qorx.

***

Sağdadır cənnət bağı,
Solda cəhənnəm dağı.
Çoxdur insan günahları,
Allahdır gümanları.

***

Allah bizi islah eylə,
İşarələr hikmətinlə.
Əfv eylə rəhmətinlə,
Mərhəmət qüdrətinlə.
Allah sənə yalvarırıq,
Rəhmətinə sığınarıq.

***Hacı Xavər xanım***

**BAĞIŞLANMA**

Nuru gözü, kainatı yaradan,
And verirəm kainata bağışla.
Əfv qıl günahım, azad eylə sən,
Muhəmmədən yol ərkana bağışla.

***

Heydəri Kərrarə, qolsuz Abbasa,
Cənabi Qasimə tutulan yasə.
Toy otağında qarə libasa,
Əli-Əkbər növ cavana bağışla.

***

Hüseyni şəhidin Kərbəlasına,
Məhərrəm ayında keçilən yasa.
Cənabi Zeynəbin ah-naləsinə,
Əsir düşən o cavana bağışla.

***

Kərbəlada axan nahaq qanlara,
Kərbəla şəhidi növ cavanlara.
Fəratda vurulan qələm qollara,
Sel kimi tökülən qana bağışla.

***

Sahibi Əz-Zamana, Şahi Mərdana,
Həmişə qəmxardır, məzlum insana.
Kərbəla dəşdində, şəhid imamə,
Bu büsatda, bu meydanə bağışla.

***

Məhəmməd Tağıya, İmam Cəfərə,
Əliyyən Nağıya, Peyğəmbərlərə.
Əliyyən Mürtəza, Qulu Qəmbərə,
Əli İbni İmrana bağışla.

***

Minada kəsilən qoca qurbana,
Açılan süfrəyə, nemətə, nana
Sureyi "Yasinə" oxunan Qurana,
Səltənəti Süleymana bağışla.

***

Ey xaliq, qərib İmam Rzaya,
Yerlərə, göylərə, ulduza, aya,
Muhəmməd yol açan Turi-Sinaya,
Xəstələri sağaldan Xorasana bağışla.

***

Yetmiş ildir mən gəlmişəm dünyaya,
Dərdimin dərmanın heç soran olmaz.
Azad eylə məni barı Xudaya,
Ver dərmanı o Sübhana bağışla

***

Elə ki, yendirdin məzara məni,
Qoyun torpaq üstə qəmli sinəmi.
Əzablı qəbirdə saxla sən məni,
Həsəni şəfqətçi, Şahı Mərdana,
Çək məni imtahanına bağışla.

## QƏZƏL

Hər dərdsizdən umma, Füzuli, dəvayi-dərd,
Səbr eylə, kim ki, Dərd veribdir dəva verər

***

Nə yanar kimsə mənə, Atəşi dildən özgə,
Nə açar kimsə qapım, Babi səbadan qeyri.

***Məhəmməd Füzuli***

## BİSMİLLAHİR RƏHMANİR RƏHİM
**(Qəsidə)**

Barmağına tikan batır,
Ahu zarın ərşə çıxır.
Xəbərin varmıdır sənin,
Cəhənnəmin əzabından.

***

Adınız ki, müsəlmandır,
Əməl etsən müsəlmansan.
Namaz qılın, oruc tutun,
Məzlum canım sizə qurban.

Bu dünyaya vurulmayın,
Bu dünya fanidir bilin.
Qalmamışdır bu dünyada,
Nə İsgəndər, nə Süleyman.

***

Siz pak olub, namaz qılın,
Dua edin tək Allaha.
İnşallah nicat verər,
Sizə o vahid yaradan.

## HİKMƏTLİ SÖZ

Hər gələn dünyada bir bina saldı,
O getdi mənzili özgəyə qaldı.
Çoxları dünyaya göstərdi həvəs,
Tikdiyi binada qalmadı bir kəs.

*Sədi Şirzadi*

## HƏR BİR ŞEYİM VARDIR MƏNİM, BİRCƏ ATAM YOXDUR MƏNİM.

Bilməmişəm dadı nədir,
İndi bildim adı nədir.
Böyüdükcə yavaş-yavaş,
Həm dost tapdım, həm də sirdaş.

***

Deyirəm ki, kaş duraydı,
Məni işə buyuraydı.
Fəqət bunlar hədər imiş,
Bu nə böyük kədər imiş.

***

Sən rəhmətə gedən zaman,
Çevirdin üzün qibleyə,

Oğlum da var,qızım da var,
Qışım da var, yazım da var.
Yaxınımda, uzağımda,
İsti evim, ocağımda.

***

Dünya sirli, soraqlıdır,
Fəqət güllər, növraqlıdır.
Evim hər gün, qonaqlıdır,
Yenə dərdim çoxdur mənim.

***

Əziz və mehriban ata,
Niyə tez getdin rəhmətə.

Dedin Kəlmeyi-Şəhadətin,
Zəmanət aldın cənnətə.
***

Bizim sənlə görüşümüz,
Bir də qaldı qiyamətə.
***

Hər bir şeyim vardır mənim,
Bircə atam yoxdur mənim
Bu dünyada hər bir şeydən,
Könlüm, gözüm toxdur mənim.
***

Yenə dərdim çoxdur mənim,
Çünki atam yoxdur mənim.
Hər bir şeyim vardır mənim,
Bircə atam yoxdur mənim

## ƏLVİDA

Gəlib yetişdi vədə,
Əhli Beytim əlvida.
Görmərəm sizi bir də,
Balalarım əlvida.
***

Qürbət ellər vətənim,
Yoxdur gəlib-gedənim.
Haqdan gəldi fərmanım,
Balalarım əlvida.
***

Həqq özü olub razı,
Yazıbdır belə yazı.
Yazıya yoxdur pozu,
Balalarım əlvida.
***

Qorxu düşüb canıma,
Gələn yoxdur yanıma.
Anam gəlsin yanıma,
Balalarım əlvida.
***

Qardaş kəsdir yanımı,
Başla oxu Quranımı,
Əzrayıl alır canımı,
Balalarım əlvida.
***

Bacım qara bağlasın,
Can-ciyərin dağlasın,
Qardaş deyib ağlasın,
Qohumlarım əlvida.
***

Məzarımı yoxlarsız,
Ata deyib ağlarsız.
Matəmimi saxlarsız,
Balalarım əlvida,

Qardaş-bacım əlvida.

***BƏXTİYAR VAHABZADƏ***

Ömür dastanımı bilmədin açdın,
Vərəqlər qəm dolu hekayət imiş.
Hər sətri dərd olub üzümə durdu,
Nə qəmli, qədalı, səyahət imiş.

# ŞAİR ƏŞİR BƏŞİROĞLU HAQQINDA YAZILANLAR

## ƏŞİR BƏŞİR OĞLU FƏTƏLİYEV

***1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. Təqaüdçüdür.***

Dostluq üçün həyatda ən mühüm şərtlərdən biri qarşı tərəflərin bir-birini dərindən tanıması və səmimiyət göstərməsidir. Sən qarşıdakı insanda istədiyin, arzu etdiyin yüksək insani keyfiyyətləri görürsənsə, demək səninlə onun arasında tanışlıq və dostluq yarana bilər.

Əşir ali məktəbdə mənim tələbəm olub. Doğrudur, aramızda yaş fərqi də o qədər deyil. Lakin bizi biri-birimizə yaxınlaşdıran bu olmayıb. İlk gündən məni ona cəlb edən, sonra isə aramızda dostluq tellərinin yaranmasına səbəb olan onda, yəni Əşirdə özünü büruzə verən kişilik xüsusiyyətləri olub. Sözün əsl mənasında bu adamda ata-babalarımıza məxsul mərdlik ilk gündən mənim diqqətimi özünə cəlb edib. Mən hələ uşaqlıqdan insana, kişiyə məxsus bu xüsusiyyətin vurğunu olmuşam və bu gündə hər hansı bir sahədə bir insanda belə bir cəhəti görəndə çalışıram ki, o insana yaxınlıq göstərim, ünsiyyət yaradım.

Bax, Əşirin təbiətinə məxsus bu xüsusiyyət məni tədricən ona yaxınlaşdırdı, aramızda səmimi bir ünsiyyət yarandı və bu ünsiyyəti indi də davam etdirdiyimiz dostluğa və qohumluq münasibətinə çevirdi.

Sonralar isə onda müşahidə etdiyim başqa bir xüsusiyyət mənim ona məhəbbətimi daha da artırdı. Bu onun əyilməz bir insan olmasıdır. Əyilməzlik, bir kəsə boyun əyməmək Əşiri mənim gözümdə daha da ucaltdı. Əlbəttə, onu da mənə yaxınlaşdıran səbəblər olub. Lakin mən bu barədə heç bir şey deməyəcəyəm. Bircə onu qeyd etmək istəyirəm ki, bizim dostluğumuz asılılıq çərçivəsindən çox-çox uzaqdır və yalnız səmimiyyətə arxalanır.

Bu gün gəlib çatdı Əşir bizim aramızda olan dostluğu müqəddəs bir dostluğa çevirdi. Məni qardaşı Nüsrətin uşaqlarına kirvə tutdu. İndi mənim kirvəsi olduğum körpələrin hər biri həyatda hünəri və ağılı ilə fərqlənən bir igiddir. Nüsrətin özü isə qardaşı Əşir kimi mərd və yenilməz bir insandır.

Əşir gözəl ailə başçısıdır. Onun tərbiyə edib yetişdirdiyi övladları öz adına layiq insanlardır və yüksək mədəniyyətə malikdirlər. Çox təəsüflər olsun ki, onun son beşiyi, canından artıq sevdiyi Qabil yaramaz qatillərin Əli

ilə qətlə yetirildi və bu həm Əşirə və həm də onun dostlarına böyük bir zərbə oldu. Əşirlə dostluğumuz indi də böyük səmimiyyətlə davam edir və bu dostluq bizim ailələrdə özünə yeni-yeni tərəfdarlar tapır.

Hər ikimiz bir arzu ilə yaşayırıq. Bu dostluğun yaranma tarixini Əşirin vətəni Qubadlı rayonunun Aşağı mollu kəndində qeyd edək. *Amin!*

*Fəlsəfə doktoru Bəhram Avılovun*
*"Borc" adlı kitabından.*

## *DUYĞU YARPAQLARI*
## *MƏN DƏ BELƏ ÖVLADAM*

Mən yurd-yuvamı atıb qaçmışam,
Yad eldə çadır saray tapmışam.
Karlıyam, hamı deyir "malades".
Çox qoçağam, minirəm "Mersedes".

***

Pulum olsa da yardım alıram,
Gözəl yerlərdə villa salıram.
Yetimləri ilan kimi çalıram,
Nəyi varsa əlindən alıram.

***

Namus, ar nədi, onlara yadam,
Məndə qəm olmaz həmişə şadam.
Vətənçün ölümə gedər adam?
Vicdanı atmışam, mən bədzadam.

***

Kimə nə, mən də belə övladam,
Dərd çəkmirəm, qüssədən azadam.
Vəzifəm xamları aldatmaqdı,
Çəkidə, həm də qiymətdə atmaqdı.

***

Əsir, namərd mərdi yıxıb əzir,
Qocanın, zəifin haqqını kəsir.
Millətinə bəsləyir nifrəti,
Allah kəssin ondakı qeyrəti,
Məzlumu ilan kimi çalırlar,

Şərləyib nəyi varsa, alırlar.

### *ELAN*

Mən gözəl bir oğlanam,
Sağdır atam, anam.
Təcili evlənmək istəyirəm,
Pullu qaynata axtarıram.
Elə bir qaynata ki,
Cibimi doldursun,
Qarnımı doyursun,
Mənə maşın alsın,
Bütün qayğılarıma
O özü qalsın.
Geniş, yaraşıqlı
Bir evim olsun,
İçi xarici mebellərlə dolsun.
Köhnələrdən istəmirəm ha,
Təzə evlərdən olsun.
Əsas qaynatadır,
O durur girişdə,
Qızın o qədər də əhəmiyyəti
Yoxdur bu işdə.
Qız qocadır, ya cavan
Heç bir rol oynamır.
Çirkindi, ya gözəl,
Onun da fərqi yoxdur.
Qaynatanın mənim üçün
Əhəmiyyəti çoxdur.
Ünvanım, məkanım,
Restoranlar, barlar.
Məni axtaran olsa,
Polis idarəsində tapar.

## *MƏNİM ANA DİLİM*

İşləndikcə büllurlaşan,
Çeşmə kimi aşıb-daşan,
Körpələrə layla olan,
Mənim doğma ana dilim,
Qurban olum sana, dilim.

***

Nizamilər, Füzulilər
İnci yaradıb səninlə.
Yazıldıqca cilalaşan
Mənim doğma ana dilim,
Qurban olum sana dilim.

***

Öz dilində danışmayan,
Xeyrə-şərə qarışmayan,
Kökün-soyun dananları,
Görüm tutsun duz-çörəyim,
Qurban olum sana, dilim.

Cavanşirin qeyrətinə,
Qoç Nəbinin hünərinə.
Koroğlunun nərəsinə
Qüvvət verən ana dilim,
Qurban olum sana, dilim.

***

Bu müstəqil dövlətimin,
Şah dilisən, mənim dilim.
Kim səni atsa, unutsa,
Onu olsun dilim-dilim,
Qurban olum sana, dilim.

***

Əşir sevir öz elini,
Qoruyur doğma dilini.
Canımdır Vətənim, elim,
Qanımdır torpağım, dilim,
Qurban olum sana, dilim.

## *QORXURAM*

İncimərəm haqlı yerə döyülsəm,
Haqsız yerə döyülməkdən qorxuram.
İstəyirəm Vətənə çatıb ölüm,
Qürbət eldə ölməyimdən qorxuram.

***

Dostlar xəbər almır mənim halımı,
Qarı düşmən bağlayıbdı yolumu.
Kaş öləndə mərd bağlaya gözümü,
Namərdin bağlamağından qorxuram.

***

Dostlar da uzaqlaşıbdı yolumdan,
Daha heç kim tutmur mənim qolumdan.
Mən həmişə düz getmişəm yolumu,
Qürbət eldə yol azmaqdan qorxuram.

***

Taleyim düz yazılmayıb əzəldən,
Uzaq düşmüşəm həmdəmdən, gözəldən.
Həmzələrin, satqınların, pislərin,
Millətimi satmağından qorxuram.

***

İllər tez fırlanır gedir ömürdən,
Neçə ildi asılmışıq səbirdən.
Əşir deyir qürbət eldə qocalıb,
Yurd-yuvasız ölməyimdən qorxuram.
Tüfeylinin, biqeyrətin, satqının.
Araları qatmağından qorxuram.

***ƏŞİR BƏŞİROĞLU***
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*«Qızıl qələm» mükafatı laureatı. «Açıq söz» qəzeti.*
*26.12.2011*

## ƏŞİR BƏŞİROĞLUNUN SÖZ KARVANI

Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Mollu kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki alüminium zavodunda fəhlə, növbə rəisi və sex partiya komitəsinin katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir.

İşləyə-işləyə təhsilini davam etdirmişdir. O, əvvəlcə Mexanizasiya texnikumunu, sonra isə Bakı Statistika Texnikumunu bitirmişdir. Ali təhsilə isə 1969-cu ildə V.İ. Lenin adına APİ-də yiyələnmişdi. Elə həmin ildən də Qubadlı rayonunun Mollu kənd orta məktəbində müəllim işləmişdir. İndi o məktəb Sumqayıt şəhərində fəaliyyətdədir.

3 noyabr 1970-ci ildə Mollu kəndindəki Qaçaq Nəbi adına kolxozun idarə heyyətinin sədri seçilmişdir. İşlədiyi müddətdə kolxoz keçici Qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhhəti ilə əlaqədar olaraq vəzifədən çıxmışdır. Sonra yenidən Mollu kənd orta

məktəbində müəllimlik etmişdir. Əşir Bəşiroğlu Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

O, "Xatirəyə dönən günlər", "İşıqlı şəxsiyyətlər unudulmur", "Dağlar ağladı", "Mətanət", "Mənim ana dilim", "Yarımçıq ömür" və "Nəbi yurdu" kitablarının müəllifidir. "Qəm karvanı" kitabı isə şairin oxucularla 8-ci görüşüdür.

**"Qızıl qələm"** mükafatına layiq görülən müəllifi təbrik edirik.

***Fəlsəfə doktoru Davud Dəmirli.***
*«Açıq söz» qəzeti.*
*26.12.2011.*

## İSTEDADLI ŞAİR

Şair Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşiroğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Qızıl qələm" mükafatı laureatıdır. İri həcmli 13 kitabı nəşr edilib oxuculara təqdim olunmuşdur.

Şeirə maraq onda hələ uşaq yaşlarından başlamışdır. O, şeirlərindən birində poeziyaya bağlılığını belə izah edir:

*Şeirlə açanda gözümü,*
*Gümrah hiss edirəm özümü.*
*Şeir yazmasam ölərəm inan,*
*Odur məni qəmdən qoruyan.*

Müəllifin Vətən həsrətli, Vətən nisgilli şeirlərini həyəcansız oxumaq olmur. Şairin böyüyüb boya-başa çatdığı Aşağı Mollu kəndinin vəsfinə həsr etdiyi **"Gözəl Mollu"m** şeiri kifayət edər ki, Vətəninə, elinə, torpağına, necə qırılmaz tellərlə bağlı olduğunu hiss edəsən:

*Qoşa qəhrəmanlar kəndidi Mollu,*
*Bağları bəhrəli, sünbülü dolu.*
*Üç qardaşım inanc yerim, Pirimdi,*
*Həkəri çayım qanadımdı, qolumdu.*
*Mənim qəhrəman kəndim, əzəl yurdum,*
*Nəbi, Həcər diyarım gözəl Mollum.*

Əşir Bəşir oğlunun Vətəninə, elinə, dilinə necə dərin məhəbbət bəslədiyini **"Mənim ana dilim "** şeirində duymaq olar:

*Bu müstəqil dövlətimin,*

*Şah dilisən mənim dilim.*
*Kim səni atsa, unutsa*
*Onun olsun dilim-dilim.*
*Qurban olum sənə dilim!*

Müəllif şeirlərində insanları hallığa, zəhmətə bağlılığa, torpağı və Vətəni sevməyə çağırır. Ürəyində Vətən, el-oba, din-iman nüvəsi daşıyan Əşir Bəşiroğlunun görkəmində dəmir iradə yaşayır. Haqsızlığa, ədalətsizliyə qarşı çox sərtdi, amansızdı. Ancaq sevgiyə, inama, ruha sərinlik gətirən hər şeyə qarşı isə mülayimdir, həlimdir. Şairin **"İndi niyə"** qəzəlinə fikir verin:

*Gəlmisən yar görüşünə afət, indi niyə?*
*Yarın çox qocalıb, əldən düşüb, indi niyə?*
*və ya*
*Sənin şirin sözünə möhtac olmuşam hər vaxt,*
*Sərt cavab vermisən, meyil edirsən, indi niyə?*

***"Sən də düşürsən yadıma" şeirindən bir bənd:***

*Bağda bülbül ötüşəndə,*
*Sevgililər görüşəndə,*
*Qucaqlaşıb öpüşəndə,*
*Sən də düşürsən yadıma.*

Obrazlı deyimlər, obrazlı ifadələr də Əşir Bəşiroğlu şeirində kifayət qədərdi.

Ancaq o obrazlı ifadələr dalınca qaçmır, özünü yormur. Çünki, onun yaradıcılığının buna ehtiyyacı yoxdur. Onun yaradıcılığında belə obrazlı ifadələr kifayət qədərdir. **"Şam yanmasa yaşamır"** şeirindən bir bəndə fikir verin:

*Yarım Günəş, mən onun peyki Yerəm,*
*Gecə-gündüz başına fırlanıram.*
*Fırlandıqca yarımdan nur alıram,*
*Pərvanə tək eşq odunda yanıram.*

Əşir Bəşiroğlunun şeirlərində fikirlərin bir-birinə keçməsi qəfil və sıçrayışlardır. Məzmunu isə dəyişilmir, ona xələl gəlmir. Onun işğal olunmuş torpaqlarımızdan bəhs edən şeirlərində kədərlə yanaşı bir inam da var.

Şair inanır ki, bizim qəhrəman Milli Ordumuz torpaqlarımızı düşmən tapdağından azad edəcəkdir. Əşir Bəşiroğlu təbiətən şair doğulsa da mətbuada çıxışa, nəşrə özündən asılı olmayan səbəbdən xeyli keçikmişdir. Yalnız bədnam qonşumuz olan ermənilərin doğma torpaqlarımızın 20%-dən çoxunu işğal etdikdən

sonra "dərd yükü" onu bürüyən zaman başlamışdır və bir-birinin dalınca Vətən həsrətli, iri həcmli 13 kitab yazmışdır.

Şair torpaqlarımızın zaman-zaman parçalanmasının əsil günahını dönük qəlblərdə, səriştəsiz rəhbərlərdə görür. Elə götürək Qarabağ müharibəsini, bu müharibədə qəhrəman oğul və qızlarımız qırıldı, yüzlərlə igidlərimiz şəhid oldu, tarixdə analoqu olmayan Xocalı soyqırımı törədildi. Ancaq var-dövlət, vəzifə sahiblərinin gözləri də yaşarmadı. Onlar övladlarını ya xaricə qaçırtdılar, ya da rahat villalarda gizlətdilər. Şair hələ də topaqlarımızın düşmən tapdağında qalmasına hiddətlənir, fəryad edir, Azərbaycanı cihada çağırır. Şairin fəryadı "Tapdalanır ana torpaq" şeirində özünü daha qabarıq şəkildə göstərir.

*Allah, sənə nə etmişik?*
*Bizə yazdın belə qismət.*
*Tapdalanır ana torpaq,*
*Əldən gedir, abır ismət.*

**Başqa bir bəndində:**

*Qarabağım, qızıl tacım,*
*Səninlədir ağrım, acım.*
*Ağlar qalıb anam, bacım,*
*Dərd əlindən hara qaçım?*

Şair Əşir Bəşiroğlu həm də geniş həcmli poemalar, hekayələr müəllifidir. Onun "mətanət" adlanan hekayəsində əri Aslan Qarabağ müharibəsində qəhrəmancasına həlak olmuş Mətanət xanım onun döyüş paltarını geyərək müharibəyə gedir. Əri Aslanın adını daşıyan bölükdə döyüşərək qəhrəmalıq göstərir. Onlarla erməni qaniçənlərini qanına qəltan edir. Mühasirəyə düşərkən düşmən əlinə keçməsin deyə, axırıncı güləni öz alnına sıxır və qəhrəmancasına həlak olur.

Şair oğlanlı, qızlı bütün gəncləri məkirli düşmənimiz olan ermənilərə qarşı mübarizəyə səsləyir. O, inanır ki, bu müharibədə biz qalib gələcəyik. Çünki, bizim yolumuz haqq yoludur, haqq isə həmişə qalib gəlir. Atalar sözüdür: "Haqq nazilər, ancaq üzülməz".

11 noyabr 2011-ci ildə "Qızıl qələm" mükafatı almış şairi indi də "Xalqın nüfuzlu ziyalısı" fəxri diplomu alması münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı və yaradıcılıq uğurları arzulayırıq. Onun aşağıdakı şeirləri ilə tanış olun.

***Fəlsəfə doktoru Davud Dəmirli.***

*"Açıq söz" qəzeti.*
*11.05.2012*

***Poeziya dəftərindən nümunələr.***

**ƏZİLƏCƏK İLANIN BAŞI**

Qoy mənə gülsünlər o qəlbi daşlar,
Əyyaş, qeyrətsizlər, o yekəbaşlar.
Dərdimdən, qəmimdən yazıram ancaq,
Bilmirəm xoş günüm nə vaxt olacaq...

***

Günlər ötdükcə artır dərdi-qəmim,
Çadırda yaşayır doğma ellərim.
İtibdir ad-sanım, şanım-şöhrətim,
Dərd-sərdən yazıram bəs nədən yazım?

***

Günü-gündən artır kədərim qəmim
O boyda torpağım əsirdi mənim.
Tərlanın oylağında sarılar gəzir,
Hirsim, qəm-kədərim ömrümü kəsir.

***

Qürbətdə işlərim tərsinə gedir,
Gül əkirəm, yerinə qanqal bitir.
Solubdu yurdumun Xarı bülbülü,
Göyə sovrulub ocağımın külü.

***

Əşir, yaz əsir qalan ev-eşikdən,
Yurd dərdindən, tez ağaran saçından.
El şəninə yaz şeirdən, qəzəldən,
Mütləq əziləcək ilanın başı,
Alınacaq elin torpağı, daşı.

**DEYƏSƏN**

İnilti var mərdin dərdli səsində,

Namərdin zövqünə yatır deyəsən.
Yurdumuzun dağılan vədəsində,
Çoxları var-dövlət yığır deyəsən.

***

Pusquda durub Vətəni satanlar,
Comərd insanlara hiylə quranlar,
Kölgədə gizlənib mürgü vuranlar,
Aqillərə quyu qazır deyəsən.

***

Hələ  yazılmamış kitabdı dünya,
Çətin keçiləsi məktəbdi dünya.
Mayakı sönmüş bir gəmidi dünya,
Yolunu azıbdı batır deyəsən.

***

Əşirdən dünyanın sevinci qaçır,
Kədər sağ olsun, o, qapısın açır.
Dünyanın sərvətin namərd aparıb,
Dartıb mərd əlindən zorla qoparıb,
Alçaqlar Vətənin varın aparıb,
Dərdi-səri bizə qalıb deyəsən.

## ZÜLMKARDI ERMƏNİ

Çağırmayın kişi məni, ər məni,
Vətənimdə at oynadır erməni.
Həmişə danlayır vətən, el məni,
Həkəri, bərgüşad, Araz, Kür məni.

***

Göyə qalxıb Xocalının fəryadı,
Düşmənə əsirdi onun övladı.
İsmətli, həyalı qızlar əsirdir.
Bu vəziyyət şanımıza kəsirdi.

***

Millət oyan! İntiqamın vaxtıdı,
Düşmənlərdən qan almağın  vaxtıdı.

Körpəni nizəyə taxtdı erməni,
Qan içəndi, zülümkardı erməni.

***

Dığa rusun güngörməzin yalayır,
Rus vasitəsilə yurdu talayır.
Unudulmaz o qanlı faciə,
Dost gərəkdi bu dərdimə acıya.

***

Pislik yazılıb ermənin adına,
O, məhəl qoymur uşağa, qadına.
Çox qınayır Vətən məni, el məni.
Silah verin, mən öldürüm erməni.

***

Silahlanmasaq elimiz gedəcək,
Əşir Bəşiroğlu fəryad edəcək.
Ermənilər rusa quyruq bulayır,
Rus vasitəsilə yurdu talayır.
Qoy çeçenlər örnək olsun bizlərə,
Onlar rusları salıblar lərzəyə.

## KÖVRƏK ÜRƏYİNƏ QURBANAM, ANA

Məni işıqlı dünyaya gətirən,
Qayğımı çəkib, ərsəyə yetirən,
Gecələr beşik başında oturan,
Gündə on dəfə bələyib yedirən,
Kövrək ürəyinə qurbanam ana!

***

Vətənində kimsəsiz qalıb ağlayan,
Gecə-gündüz ürəyimi dağlayan,
Körpə nəvələrə könül bağlayan,
Dəniz kimi çalxalanıb, çağlayan,
Kövrək ürəyinə qurbanam ana!

***

Fələk niyə mənə belə qarğıyıb?
Məni qürbə eldə anasız qoyub?
Həkəri, Bərgüşad kimi çağlaram,
Gecə-gündüz qan-yaş töküb ağlaram.
Məzarını azad edərəm ana!

***

Əşir gedib çıxa yazı düzünə,
Üz qoya ananın ayaq izinə.
Orda öləm, qalam anamla qoşa,
Çürüyüb qarışam torpağa, daşa,
Kövrək ürəyinə qurbanam ana!

**SAT MƏNİ QUL YERİNƏ**

Sevgilim qulunam mən,
Sat məni, qul yerinə.
Bitərəm harad desən,
Səp məni tum yerinə.

***

Ələ, keçir ələkdən,
Palçıq et qum yerinə.
İstəsən şuma göndər.
Əkim kotan yerinə

***

Haqq aşiqi Kərəməm,
Yar yolunda ölənəm.
Od vur, sən yandır məni,
Ölüm Kərəm yerinə.

***

Yol boyu ağac olum,
Yoluna kölgə salım.
Xalçana arğac olum,
Toxu sən ip yerinə.

***

Leyli-Məcnun yalandı,
Əşir qəmdən öləndi.
Sevgilim atma məni.
Saxla sən qul yerinə.

**ŞAM YANMASA YAŞAMIR**

Yarım Günəş, mən onun peyki Yerəm,
Gecə-gündüz başına fırlanıram.
Fırlandıqca yarımdan nur alıram,
Pərvənadək eşq odunda yanıram.

Eşq atəşi məni yandırıb yaxır,
Mən yandıqca aləm nura boyanır.
Günəş Yer eşqindən alışıb yanır,
O, yandıqca Yerdə həyat yaranır.

Dolansam da mən yarımın başına,
Əlim yetmir, yanıram atəşinə.
Hər ikimiz eşq odunda yanırıq,
Biz də belə arzu-kama çatırıq.

Əşir, yara yaxınlaşma, yanarsan.
Eşq odunda yanıb külə dönərsən.
Sənin yaşamağın yanmağındadır,
Əgər şam yanmırsa, yaşamır demək.

***ƏŞİR BƏŞİROĞLU***
*Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan KİVİHİ-nın üzvü, «Qızıl qələm» və «Xalqın nüfuzlu ziyalısı» mükafatları laureatı. «Açıq söz» qəzeti.*
*11.05.2012*

**BİR DƏ GÖRÜM ELMİ**

Yaradıcı insanların sənət dünyasına gəlişi müxtəlif olur. Bəzən lap kiçik yaşlarından istedad cücərtiləri özünü büruzə verir. Yaxud da gənc, orta yaşlarında bir cazibə qüvvəsi insanı bu dünyaya çəkib aparır. Ömrün ahıl çağında yaradıcılıq həvəsinə düşüb bu sirli aləmin əsil bilicisi olanlar da var. Əşir Bəşiroğlu da yazı-pozuya gec başlayıb, şairin təbi onu elə ömrünün bu bəyaz çağında haqlayıb.

İxtisasca müəllim olan Əşir Bəşiroğlu uzun illər pedaqoji sahədə fəaliyyət göstərib, rəhbər vəzifələrdə çalışıb. İstər Sumqayıt şəhərindəki Alüminium zavodunda fəhlə, növbə rəisi, sex partiya təşkilatının katibi işlədiyi, istərsə də Qubadlı rayonunun aşağı Mollu kəndindəki Qaçaq Nəbi adına kolxoz idarə heyətinin sədri işlədiyi vaxt olsun, həmişə ona göstərilən etimadı layiqincə yerinə yetirməyə çalışıb, başqalarına nümunə olub.

Əşir müəllimin doğulub boya-başa çatdığı torpaq, el-oba bu gün düşmən tapdağındadır. Qubadlı rayonunun Mollu kəndi də digər əsir torpaqlarımız kimi o

elin adamlarının yalnız yuxusuna gələ bilir. Elə Əşir müəllimin taleyinə yazılmış itkilərin ən ağırı, ən acısı, ən dəhşətlisidir torpaq itkisidir: "Kimin ağlına gələrdi ki, ağır elatın, sanballı insanların məskunlaşdığı, çörəyilə, suyuyla, daşıyla, torpağıyla ilik kimi sümüyümüzə calanmış Qubadlı haçansa yuxularımızın, xəyallrımızın Qubadlısına çevriləcək." Bu sözləri vətənlə ayrılığın 18-ci ilində düşüncələrinin Kəbəsi adlandırdığı el-obası üçün söyləmişdi Əşir müəllim. Qubadlı haqqında yazı yazmaq fikrinə düşəndə tarixən igidlər, qəhrəmanlar məskəni olan bu diyarı xəyalən qarış-qarış gəzib, onun səfalı dağları, buz bulaqları, bərəkətli torpağı, barlı-bəhrəli bağları,geniş düzləri, dağ vüqarlı, mərd, səxavətli, sədaqətli düşmənə kinli, dosta səmimi insanlarını bir daha göz önünə gətirmiş və o anda keçirdiyi hissələri də isti-isti kağıza köçürmüşdü.

"Bir də gördüm Qubadlımı, elimi" adlı şeirində duyğularını belə dilə gətirir:

*Allah! İlham ver, vəsf edim elimi,*
*Qoşa çaylarımı, geniş çölümü.*
*Allah! Yerdə qoyma belə zülümü,*
*Bir də görüm Qubadlımı, elimi.*

Sadə bir ömür yaşayan Əşir müəllim həyat yolunu hər dəfə yada salanda onu için-için göynədən Qubadlıdan başlayır. O, 1935-ci il noyabrın 3-də Qubadlı rayonunun Mollu kəndində kolxozçu ailəsində dünyaya gəlib. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib, 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki Alüminium zavodunda fəhlə, növbə rəisi, sex partiya təşkilatının katibi işləmiş, dəfələrlə Sumqayıt şəhər sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir. İşləyə-işləyə təhsilini davam etdirmiş, əvvəlcə Mexanizasiya Texnikumunu, sonra Bakı Statistika Texnikumunu, 1969-cu ildə isə Azərbaycan Pedaoji İnstitutunu bitirərək ali təhsilə yiyələnmişdir.

Bir müddət Qubadlı rayonunun Mollu kənd orta məktəbində müəllim işləmişdir. Hazırda həmin məktəb Sumqayıt şəhərində fəaliyyət göstərir.

Əşir müəllim 1970-ci il noyabrın 3-də Mollu kəndindəki Qaçaq Nəbi adına kolxozun idarə heyətinin sədri seçilir. İşlədiyi müddətdə kolxoz keçici Qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunur. Lakin o, bu işdə çox da uzun müddət qalmır. 1975-ci ildə səhhətində yaranan problemə görə həmin vəzifədən çıxır, yenidən Mollu kənd orta məktəbinə qayıdır və müəllimliyin davam etdirir. Hazırda təqaüddə olan Əşir müəllim bədii yaradıcılıqla müntəzəm məşğul

olur. On iki kitabın müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Qızıl qələm" və "Xalqın nüfuzlu ziyalısı" mükafatları laureatıdır.

Əşir Bəşiroğlu yaradıcılığının bir əsas qayəsi var. O, insanları, xüsusilə də gəncləri vətənpərvərliyə, vətəni sevməyə səsləyir. Minlərlə şəhid qanının yerdə qalmasına dözə bilmir, fəryad qoparır:

*Vətən yolları sal qaya olsa da,*
*Dişim, dırnağımla çaparam onu.*
*Azadlığın açarını tapacam.*
*Bütün güc-qüvvəmlə açacam onu.*

-deyən şair: "Vətənin yolunda qılınc çal, gürz vur" söyləyərkən hər kəsi cihada çağırır.

Şair nikbindir, o inanır ki, bizim Milli Ordumuz tezliklə müqəddəs torpaqlarımızı düşmən tapdağından azad edəcək və biz öz doğma torpaqlarımıza qayıdacağıq: "Bizim işimiz haqq işidir. Haqq isə həmişə qalib gəlir. Atalar sözüdür: "Haqq nazilər, üzülməz".

İnanırıq ki, "Qəm karvanı", "Xatirəyə dönən günlər", "İşıqlı şəxsiyyətlər unudulmur", "Dağlar ağladı", "Mətanət", "Mənim ana dilim", "Yarımçıq ömür", "Nəbi yurdu", "Dünya düzəlməz", "Pələng, Şir və Ayı", "Ağır faciə" və "Hamının sevimlisi" kitabları kimi, müəllifin digər kitabları da oxucular tərəfindən maraqla qarşılanacaqdır. Bu barədə isə şair belə deyir: "Əgər bircə sözlə, bəndlə, misra ilə, şeirlə oxucularımın qəlbinə yol tapa bilsəm, özümü dünyanın ən xoşbəxt inasanı hesab edərəm..."

***Zümrüd Qurbanqızı, "Respublika"***
*qəzetinin xüsusi müxbiri, "Respublika" qəzeti*
*05.08.2012*

## SƏNİ SEVƏN ÜRƏKDƏ

***Dostum Əşir müəllimin ad gününə həsr edirəm.***

Mənim əziz qardaşım,
Bu ad günün mübarək!
Arzum budur, ay dostum,
Yüz yaşında da səni
Bax beləcə şən görək!

Dostluqda, sədaqətdə
Həmişə saf olmusan.
Yaman gündə dostunu,
Hey yadına salmısan.
Ürək təmiz, söz təmiz
Ona görə də mənə

Olmusan hər an əziz.

***

Bir arzumda budur ki,
Vətəninə, ellinə
Bir də qonaq gələydim
Dost tanışla birlikdə
Hey gülüb şənlənəydim.

***

Yüz yaşını vətəndə,
Keçirəydik birlikdə.
Onda mən də deyərdim,
Nisgil qalmadı, ay dost
Səni sevən ürəkdə.

***Bəhrəm müəllim***

***Fəlsəfə doktoru.***

## ÖMRÜNÜ ŞƏRƏFLƏ YAŞA

***Ad günün mübarək***

Şair yazır əldə qələm,
Bunu bilir külli-aləm.
Onu sevir balaları,
Oğlu, qızı, nəvələri.

Həyatda şərəflə yaşa,
Yüz yaşda ömrü vur başa.
Dayaq ol dosta, tanışa,
Ömrünü şərəflə yaşa.

***

On dörd kitab nədir sənə,
Sayını vursana səksənə.
Səni üzü gülər görək,
Yüzünü vətəndə edək.

***

Biz olmuşuq qəlbi kövrək,
Qürbət eldə dözmür ürək.
Yurdumuzu azad edək,
Doğma elimizə gedək.

***

Simuzər görsün o günü,
Vətəndəki toy-düyünü .
Edək biz nəvə toyunu,
Oxşayıb sevək boyunu.
Vətəndə yaşayaq qoşa,
Ömrü birgə vuraq başa.

***Hacı Simuzər xanım***

## SƏNİ YÜZ YAŞA DƏDƏ

***Dədəmin 77 yaşına həsr edirəm.***

Qohumlar yığışıb bu ad günündə,

Əşir dədəmin gözəl, şad gününə.
Mənim dədəm çox çətin yollar aşıb,
Piranı yaşa çətinliklə çatıb.

***

İllərini o, çox ağır keçirib,
Çətin günlər, ağır dərdlər yaşayıb.
Övladları çox istəyir dədəmi,
Uğurludur onun hər bir qədəmi.

***

Yetmiş yeddisin gümrah vurur başa,
O hər gün şeir yazır, gəlir cuşa.
Dədəmi sevənlər gəlib alğışa,
Çal-çağırla vurulur məclis başa.

***

Samirəm, çox istəyirəm dədəmi,
Gözəldir onun sözü kəlamı.
Biz nəvələr çox istəyirik onu,
Əzizləyib, gözləyirik yolunu.
Dədəm istəyir torpaqlar alına,
Gedə doğma vətəninə elinə.

***Nəvəm Samir***
***03.11.2012***

## AD GÜNÜN MÜBARƏK

*77 yaşına həsr edirəm*

Qəfil qonaq oldum bu ad gününə,
Ad günün mübarək yüz yaşa səni.
Xeyir gəlsin qismətinə, önünə
Ad günün mübarək, yüz yaşa səni.

***

O qarlı dağların qartal oğlusan,
Koroğlu soylusan, Nəbi soylusan.
Düşmən üçün haraylısan, hoylusan,

Ad günün mübarək, yüz yaşa səni.

***

Neçə qız köçürüb, gəlin gətirdin,
Neçə nəvə əlin tama yetirdin.
Cavanlığı yetmiş ilə bitirdin,
Ad günün mübarək, yüz yaşa səni.

***

Ağardı saqqalın, ağardı saçın,
Adına yazıldı didərgin, qaçdın.
Alınsın vətənin, qayıtsın haqqın,
Ad günün mübarək, yüz yaşa səni.

***

Mən rəhmət dilərəm ölən oğluna,
Allah kömək etsin qalan oğluna.
Qəlbinə həmahəng olan oğluna
Ad günün mübarək, yüz yaşa səni.

***Eldar müəllim***
***Nəşriyyatın müdiri***

## QƏM KARVANI
## ŞAİR ÖMRÜ

**Şair Əşir Bəşiroğlu ilə aramızda ünsiyyət yaradan qardaşı Nüsrət müəllim oldu. Nüsrət müəllim məsafə cəhətdən bizə yaxın olan Masazır kəndində məskunlaşdığından tez-tez Xırdalan şəhərində görüşüb söhbətləşirik. Budəfəki söhətimiz poeziya ilə bağlı olduğundan, Nüsrət müəllim, qardaşım da şairdi, 14 kitab müəllifidir dedi:**

**Kimliyindən asılı olmayaraq, hər bir qələm sahibi, poeziya vurğunu mənim üçün doğmadır. Mənim xahişimlə Nüsrət müəllim, qardaşı Əşir Bəşiroğlunun "Qəm karvanı" adlı kitabını da gətirib mənə hədiyyə etdi. Şairin kitabı ilə tanış olduqdan sonra onun özü ilə görüşüb, yaxından tanış olmaq arzusunda olduğumu bildirdim. Nüsrət müəllim bu arzumun da yerinə yetməsi üçün imkan yaratdı və biz 04.01.2013-cü ildə şairin məskunlaşdığı Sumqayıt şəhərindəki mənzilinə təşrif buyurduq.**

**Mənzilin giriş qapısı ilə yanaşı zəngin düyməsini sıxdıq. Elə bu məqamda qapı açıldı. Şair gülərüzlə qarşılayıb,"Buyurun, buyurun, xoş gəlmisiniz" deyərək, əlini bizə tərəf uzatdı. Biz isə öz növbəmizdə şairin əlini sıxaraq, "Yeni iliniz mübarək olsun" dedik və Yeni il ilə bağlı ən xoş arzularımızı dilədik.**

**Beləliklə, səliqə-səhmanlı otağa daxil olub, masa arxasında əyləşərək şairin həyat və yaradıcılığı ilə tanış olduq və ötüb keçənlərdən söhbət açdıq.**

Əşir Bəşiroğlu 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində kolxozçu ailəsində dünyaya göz açıb. 5 yaşında Böyük Vətən müharibəsinin ağır anlarında atasını itirib. Həyatın çətin anları ilə qarşılaşan ana, məcburiyyət qarşısında qalaraq ikinci həyatını yaşamalı olur və İsmayıl Nəzərovla ailə həyatı qurur. Bu izdivacdan Xurşud xanımın daha 3 övladı- 2 qızı və 1 oğlu dünyaya gəlir.

Əşir müəllim söhbət edir ki, İsmayıl kişi heç də məni öz doğma övladlarından seçmirdi, mənə də doğmalıq münasibəti bəsləyirdi.

1954-cü lidə məktəbi bitirən şair, 1954 -1957-ci illərdə isə hərbi xidmətdə qulluq edib. Hərbi xidmətini başa vurduqdan sonra isə Sumqayıt şəhərindəki Aliminium Zavodunda fəhlə kimi fəaliyyətə başlayıb. Zavodda işləyə - işləyə təhsilini davam etdirib. Əvvəlcə Mexanizasiya, sonra isə Sitatistika Texnikumunu bitirib. Ali təhsilini isə Lelin adına (APİ) Pedaqoji İnstitutda alıb. Ali təhsil aldıqdan sonra öz doğma kəndindəki və kənd orta məktəbdə müəllim vəzifəsində çalışıb. 1970-ci ilin 3 noyabrda isə Aşağı Mollu kəndində Kolxoz İdarə Heyətinin sədri seçilib. İşlədiyi müddətdə kolxoz keçici qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunub. Bir qədər çalışdıqdan sonra səhətinə görə işdən çıxıb və yenidən pedoqoji kollektivə qayıdıb. Əşir müəllim hansı işdə və harada olmağından asılı olmayaraq, həmişə uğurlu addımlar atıb. Qeyd edək ki, zavodda işlədiyi dövrdə fəhləlikdən növbə rəisi və sex Partiya Komitəsinin katibi vəzifəsinədək yüksəlib.

Dəfələrlə Sumqayıt Şəhər Sovetinin deputatı və komfrans nümayəndəsi seçilmişdir. Söhbət ərəfəsində şair dünyaya göz açdığı, təmiz havası, saf suları ilə qidalandığı doğma yurdunun nüfuzlu və qoçaq insanlarından da söhbət açmağı, onların şəninə xoş xatirələr söyləməyi də unutmadı.

"Aşağı Mollu kəndində Cəbrayıl uzbaşı olub", deyərək söhbətinə davam etdi. Deyilənlərə görə çox xeyirxah və səxavətli olubdur. Hətta, öz nüfuzundan istifadə

edərək, məhbusluqda olan adamları azadlığa buraxdırıb. Bir dəfə Gorus şəhərində yeməkxanada üç nəfər qərib adama rast gəlir. Onların kimliyi, haradan gəlib, hara getdikləri ilə maraqlanır. Qonaqlar deyirlər ki, Cəbrayıldanıq, bir yaxın adamımızı ölümlə bağlı tutublar. Bir neçə günə Sibirə sürgün edəcəklər, gəlmişik ki, görək azad edə biləcəyikmi?

Cəbrayıl uzbaşı deyir: - Gedin, axşam çağı Görüş körpüsünün yanında gözləyərsiniz. Təyin edildiyi vaxt qonaqlar gəlib deyilən yerdə gözləyirlər. Dediyi vaxt Cəbrayıl uzbaşı məhbusu gətirir. Qonaqlar özləri ilə gətirdiyi pulu təklif edəndə, Cəbrayıl uzbaşı deyir ki, gedək zərərçəkənlə sizi barışdırım, pulu da onlara verərsiniz. Dediyi kimi də edir. Qətlə yetirilənin adamlarıyla, gələn qonaqları barışdırır, pulu da alıb onlara verir və qonaqları yola salır.

Qubadlı torpağının ziyalılarından və görkəmli şəxslərindən söhbət açan şair söhbətinə belə başladı:

- Qubadlı torpağının yetişdirdiyi bir sıra insanlar təkcə Azərbaycanda deyil, bütün dünyada məşhurdurlar. Dahi sənətkar Süleyman Rəhimovun əsərləri dünyanın əksər xalqlarının dilinə tərcümə olunub və sevilə-sevilə oxunur. Dünyanın tanınmış sənətkarları onun əsərlərinə yüksək qiymət veriblər.

Qubadlı özünün hərbçiləri, yazıçıları, şairləri, partiya, dövlət xadimləri və başqa sənət sahibləri ilə məşhur olmuşdur. Onlardan Valeh Bərgüşadlının, Arif Heydərovun, Möhbalı Əmraslanovun, Həbib Şirinovun, Bahadur Həziyevin və başqalarının adını fəxr ilə çəkə bilərəm.

**- Xalq qəhrəmanı Qaçaq Nəbi sizin dünyaya göz açdığınız kəndin yetişdirməsi olub. Onunla bağlı nə deyə bilərsiniz?**

- Milliyətindən asılı olmayaraq, Nəbi kasıbların xilaskarı olub.

**- Əgər səlahiyyətiniz çatsaydı, ona milli qəhrəman adı verərdiniz?**

- Əlbəttə...!

- Mənə elə gəlir ki, o, məhz kasıbların tərəfdarı olduğundan ona bu vaxta qədər Milli Qəhrəman adı verilməyib. Əgər varlıların, yəni yuxarı təbəqənin tərəfdarı olsaydı, bu adı ona çoxdan vermişdilər. Xalq Qaçaq Nəbiyə Milli qəhrəman adını çoxdan verib, qalıb dövlətin onu təsdiqləməsi.

**Çətin anlarınızda ən çox kimə ümid bəsləmisiniz, xilaskarınız kim olub?**

- Ən çətin anlarımda anama, qardaşıma və övladlarıma ümid bəsləmişəm.

**- Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev pula güvənib yolunu azmamaq üçün bənnalıq etdiyi baltanı, imarətindəki otaqlardan**

**birinin divarından qapı ilə üzbəüz asmışdı ki, hər qapını açanda ötən ağır və yoxsul günlərdən xəbər verən bu aləti görsün.**

**Deyə bilərsinizmi imkanlı vaxtlarınızda çətin günlərinizi necə xatırlamısınız?**

- Mən vəzifədə olanda da nədənsə istifadə etməmişəm, amma heç zaman o acı xatirələri də unuda bilmərəm. Ona görə də çörəyi hara gəldi atmamışam. Elə o nöqteyi nəzərdən də hər şeyi qənaətlə işlətmişəm.

**-Bir zamanlar yaşlı nəslin nümayəndələri bizə deyirdilər ki, arzu etmirik ki, bizim gördüyümüz ağrılı-acılı günləri siz də görəsiniz. Əşir müəllim bu günki gündən razıdırmı?**

- Müstəqilliyimizə görə razıyam, ancaq dəqdim çox olub. Vətən dərdini isə heç unuda bilmirəm.

**- Həyatda bir cəsarətli addım atanda özünüzə güvənmisiniz yoxsa kiməysə ümüd bəsləmisiniz?**

- Əlbəttə, haqlıyamsa, özümə, əgər köməyə ehtiyac duyulubsa, qardaşıma və övladlarıma.

- Belə bir xalq məsəli var. Deyirlər: "Əgər varlanmaq istəyirsənsə, qənaətcil ol, şöhrətlənmək istəyirsənsə, səxavətli ol".

**- Əşir müəllim həyatda qənaətcil olub, ya səxavətli?**

- Qənaətcil olmuşam. İmkanım olsaydı səxavətli də olardım.

**- Sizin üçün qardaş anlamı nə deməkdir?**

- Qardaş arxa-dayaq deməkdir.

**- Türklər bacıya qiz qardaşım deyirlər. Bacınızı da qardaş kimi sanmısınızmı?**

- Qardaşım olduğundan bacımı elə bacı kimi sanmışam.

**- Məktəbdə başqa müəllimlərdən fərqli olaraq, hansı tərbiyə üsulundan istifadə etmisiniz?**

- Hər bir uşağı özünəməxsus dili ilə başa salmışam. Şagirdi döymək tərbiyə üsulu deyil.

**- Dərs dediyiniz şagirdlərdən xüsusilə fərqləni varmı, hansi ki, onunla fəxr edirsiniz?**

- Üzeyir adlı bir şagirdim olub, hal-hazırda iqtisadçıdır. Mən ona Üzeyir bəy deyirdim. Onunla həmişə fəxr etmişəm.

**- Həyatda özünüzə layiq neçə dost seçmisiniz?**

- Seçdiyim dostların sayı az olub, barmaqla sayılası qədər. Səmimi dostumsa bir olub Bəhram Avilov.

**- Sizi özünə layiq dost seçən olubmu?**

- Memarlıq və İnşaat Mühəndisləri İnstitutunun professoru fəlsəfə elmləri doktoru Bəhram Salmanoğlu Avılov məni özünə layiq dost seçib.

**- Torpaqlarımız zaman-zaman rusların köməkliyi ilə ermənilər tərəfindən işğal olunub. Ulu öndər Heydər Əliyevin belə bir hikmətli kəlamı var: "Ya ayağa qalxıb işğal olunmuş torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da bir millət olmadığımızı etiraf etməliyik".**

- Əlbəttə, hamı bir nəfər kimi ayağa qalxıb, silaha sarılmalı və torpaqlarımızı azad etməliyik.

**- 2013-cü ildə xalqımıza nə arzu edərdiniz?**

- Sülh, əmin-amanlıq, işğal olunmuş torpaqlarımızı işğaldan azad etmək və qaçqınların öz doğma yurd-yuvalarına qaytarılmasını.

**- Yeni ildə doğmalarınıza nə kimi tövsiyələriniz və arzularınız var?**

- Düzlük, səmimiyyət, imkanları daxilində imkansızlara əl tutub dayaq olmalarını tövsiyə edirəm.

**- Kitablarınızdan birinə "İşıqlı şəxslər unudulmur" adını vermisiniz. Yəqin ki, həsrətini çəkdiyiniz vətənin dağlarını nəzərdə tutmusunuz. Yaxşı olmazdı ki, dağlar bizi ağlar qoydu desəydiniz?**

- O kitabı həm vətənimə həm də 32 yaşında faciəvi qətlə yetirilmiş oğluma həsr etmişəm. Həm də dağlar bizi ağlar qoymayıb, biz dağları ağlar qoymuşuq.

**- "Yarımçıq ömür" kitabını kimə həsr etmisiniz?**

- O kitabı oğluma və bütün şəhidlərimizə həsr etmişəm.

**- Kitablarınızdan birinə isə "Qəm karvanı" adını vermisiniz. Bu nə ilə bağlıdır?**

- Bu kitabda yazılanlar həsrətini çəkdiyimiz vətən ilə bağlıdır.

**- Qeyd edim ki, şairin həyat yoldaşı Hacıxanım Simuzər də şairədir. 3 kitab müəllifidir.**

- Yalnız söhbətimizin sonunda anladım ki, nə üçün şair kitabını "Qəm karvanı" adlandırıb. "Qəm karvanı" təkcə şairin kitabına verilən ad deyil, ümumiyyətlə, şairin başdan-başa qəmə bələnmiş həyatına verilən addır.

Körpə yaşlarından atasını, onun ardınca anasını, uzun illər qurub-yaratdığı yurdunu itirib. Bütün bunlar az imiş kimi, 2002-ci ildə 32 yaşlı oğlu İrkutsk

şəhərində faciəvi qətlə yetirilmiş və son illər isə ömür-gün yoldaşı dünyasını dəyişmişdir. Bu dərdlərin hamısı şairin həyatına ağır zərbə vurmuşdur. Amma nə etmək olar, həyat davam edir və mübarizə etmək lazımdır.

Sözün doğrusu, bu qədər ağır kədərdən sonra deməyə adam heç söz də tapa bilmir. Təkcə onu deyə bilərəm ki, bütün bu söylənənləri yalnız "Qəm karvanı" adlandırmaq olar. Şairə isə bir arzum var ki, qələmi əlindən düşməsin, qarşısına bir daha belə kədərli günlər çıxmasın. Ömrünün qalanını xoş günlərlə başa vursun.

**Söhbəti qələmə aldı: Xanlar Zəngəzurlu, şair-publisist. İnsan haqları qəzetinin redaktoru, 17 yanvar 2013.**

# SON SÖZ

Hörmətli oxucularım, "Şəhidlər unudulmur" adlanan bu kitab mənim sizinlə 14-cü görüşümdür. Əvvəlki kitablarımda ötən günlər haqqında xatirələrimi, ata yurdum və ana vətənim haqqında düşüncələrimi vermişəm. 14-cü görüşüm olan "Şəhidlər unudulmur" adlı kitabımda oğlumun faciəli ölümü ilə bərabər bütün şəhidlərimizdən bəhs etmişəm. Kitabda vətən uğrunda ölən şəhidlərimizlə yanaşı Kərbəla şəhidlərimizdən də bəhs etməyə çalışmışam. Bunun üçün kitabda şəhidlərə aid olan şeirlər, mərsiyələr, hədislər və bayatılar toplusunu vermişəm. Bunları müxtəlif mənbələrdən toplamışam. Ümüd varam ki, oxucular razı qalacaqlar.

Əvvəlki kitablarımda olduğu kimi bu kitabımda da xalqımızı birliyə səsləyirəm. Əgər biz birləşib torpaqlarımızı azad etməsək şəhidlərimizin ruhu heç vaxt bizi bağışlamaz.

Şair Əşir Bəşiroğlu "Qızıl Qələm", "Xalqımızın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "H.B.Zərdabi" və "Şərəf" media mükafatların diplomları ilə təltif olunmuşdur. Azərbaycan KİVİHİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

## ƏŞİR BƏŞİROĞLUNUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI

| *Sıra N-si* | *Kitabın adı* | *Nəşriyyatın adı* | *Nəşr tarixi* | *Səhifə* | *Nüsxə* |
|---|---|---|---|---|---|
| 1. | Xatirəyə dönən günlər | Memar nəşriyyatı | 2005 | 225 | 300 |
| 2. | İşıqlı şəxsiyyətlər unudulmur | Memar nəşriyyatı | 2006 | 300 | 500 |
| 3. | Dağlar ağladı | Min bir mahnı nəşriyyatı | 2007 | 340 | 300 |
| 4. | Mətanət | Hərbi nəşriyyatı | 2008 | 184 | 250 |
| 5. | Mənim ana dilim | Hərbi nəşriyyatı | 2008 | 196 | 300 |
| 6. | Yarımçıq ömür | Hərbi nəşriyyatı | 2008 | 176 | 400 |
| 7. | Nəbi yurdu | Hərbi nəşriyyatı | 2009 | 420 | 300 |
| 8. | Qəm karvanı | Hərbi nəşriyyatı | 2011 | 424 | 300 |
| 9. | Dünya düzəlməz | Təknur nəşriyyatı | 2011 | 304 | 250 |
| 10. | Pələng, şir və ayı | Təknur nəşriyyatı | 2012 | 350 | 200 |
| 11. | Hamının sevimlisi | Təknur nəşriyyatı | 2012 | 200 | 300 |
| 12. | Ağır faciə | Təknur nəşriyyatı | 2012 | 304 | 300 |
| 13. | Cəsur qardaşlar | Təknur nəşriyyatı | 2013 | 520 | 350 |
| 14. | Şəhidlər unudulmur | Təknur nəşriyyatı | 2013 | 350 | 400 |

*İnternet ünvanı: www.anl.az*